# AZƏRBAYCAN

**6'2024**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**

**Baş redaktor:** **İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini:** **Südabə AĞABALAYEVA**

**Məsul katib:** **Vüsal NURU**

**Şöbə müdirləri:** **Məmməd ORUC,**
**Qəşəm NƏCƏFZADƏ,**
**Mübariz CƏFƏRLİ**

**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya –*
498-78-10
493-75-81

*Mühasibat –*
493-29-41

**Çapa imzalanıb:**
11.06.2024
**Sifariş 1356**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
12 çap vərəqi
16 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru
**www.azyb.az**

**Qiyməti**
**2 manat**

**Bakı şəhəri, "Azərbaycan" nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur**

**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:

### VAQİF SƏMƏDOĞLU – 85

İNTİQAM QASIMZADƏ – O burdadı, İlahi... .......................................................... 4
SÜDABƏ AĞABALAYEVA – Ayrılığı salamlamaq ... ...........................................11

### POEZİYA

ƏKBƏR QOŞALI – Şeirlər ......................................................................................16
SÜLEYMAN ABDULLA – Şeirlər ............................................................................48
GÜNEL AĞAZADƏ – Şeirlər ...................................................................................58
AYNUR QAFARLI – Şeirlər .....................................................................................76
MİNA RƏŞİD – Şeirlər.............................................................................................85
XATİRƏ NURGÜL – Şeirlər.....................................................................................97
TURAL CƏFƏRLİ – Şeirlər....................................................................................103
ƏLİ RZA XƏLƏFLİ – Bir acı xatirə (Poema).......................................................131

***MİR CƏLAL ADINA IV BEYNƏLXALQ HEKAYƏ MÜSABİQƏSİNİN QALİBLƏRİ***

LEYLA ƏLİYEVA – İşıq // YAŞAR BÜNYAD – Heyvagülü // NURANƏ ABBASOVA – Yanğınların dili olsa... // ALİQ MƏMMƏDOV – Naqəfil alver // ASİM ARAZLI – Kələntər dayı // AYSEL ŞIXLI – Sonsuzadək gülümsəyən uşaq ............................... 23-43

### NƏSR

TƏRANƏ VAHİD – Çökəklikdəki uçurum; Divar; Çoxlu ürək...; Gümüş durnalar (Hekayələr) .................................................. 62
VÜSAL NURU – Xəyal məhkumu; Diş qatili (Hekayələr) ..................................108
MÜBARİZ CƏFƏRLİ – Torpağa baş əy; Atlılar, qanadlılar; Gözləmə; Qurbanlıqlar (Hekayələr) .............................154
HƏCƏR – Şeş qoşa (Hekayə) ............................................................................. 162
BAYRAM İSGƏNDƏRLİ – Torpağa əkilən duyğular (Hekayə).......................... 169
TƏRANƏ MUSAYEVA – Alman maşını (Hekayə)................................................171

### HÜSEYN ARİF – 100

BARAT VÜSAL – Bizi saz tanış etdi .......................................................................89

### NATİQ RƏSULZADƏNİN 75 YAŞI

LALƏ HƏSƏNOVA – Klassik ənənələr və modernist axtarışlar ..........................116

### XATİRƏLƏR, DUYĞULAR

AYDIN TAĞIYEV – "Necə əl çəkim..." ................................................................124
ETİBAR ƏBİLOV – Həmişə müasir .....................................................................174

### YENİ TƏRCÜMƏLƏR

BULAT OKUCAVA – Arzuladığım qız (Rus dilindən tərcümə etdi: Azad Yaşar).....143

### KİTABLAR, RƏYLƏR

VAQİF YUSİFLİ – "Poeziyamız XX yüzillikdə" ..................................................187

### KİTAB RƏFİ ..............................191

# Vaqif Səmədoğlu - 85



## BƏLKƏ DƏ...

*Aparır məni vaxt, aparır,*
*Könlümdən, əlimdən qoparır.*
*Ay ana, gözlərim qapanır,*
*Gələrəm buludlar keçəndə,*
*Bəlkə, bəlkə, bəlkə də...*

*Gələrəm, bu yaya gələrəm,*
*Yay ötsə, payızda gələrəm.*
*Nigaran qalmısan, bilirəm,*
*Gələrəm qaranquş gələndə,*
*Bəlkə, bəlkə, bəlkə də...*

*Çıxırlar dünyaya qatarlar,*
*Qatarlar min yerə çatarlar.*
*Hələ ki, dünyada qatar var,*
*Gələrəm vaqonlar ötəndə,*
*Bəlkə, bəlkə, bəlkə də...*

# O burdadır, İlahi...

...Yaşasaydı, bu il iyunun 5-də 85 yaşı tamam olacaqdı onun. Amma təəssüf ki, yaşamadı, tez getdi aramızdan, tez dəyişdi dünyasını, 76 il yaşadı cəmi...

Hə, cəmi 76 il yaşadı Vaqif Səmədoğlu, görkəmli Azərbaycan şairi. Rəsul Rza demişkən, "yaxşı nə qədər çox yaşasa, nə tez öldü deyirlər".



***Biz, dostları, 76 yaşlı Vaqifi görmüşdük; başqalarını bilmirəm, amma mən illər keçdikcə Vaqifi xatırlayanda 76 yaşlı Vaqif yox, ən çoxu, ən çoxu, eynəyinin şüşələri arxasından gözləri parıldayan ciddi görkəmli, 35-40 yaşlı Vaqifin çox əziz, doğma siması gözlərim qarşısında canlanır. Rəssam olsaydım, onun portretini gələcək nəsillər üçün o yaşda, o görkəmdə çəkərdim.***

O, müasir şairlər sırasında mənim çox sevdiyim böyük şair və sözü, söhbəti ilə əvəzsiz bir insan idi. Biz uzun illərin dostu olmuşuq. Özü də dostluğumuzun başlanğıcında şeir olub. Mən bilirdim ki, Vaqif Səməd Vurğunun oğludur, şairdir. Onu da bilirdim ki, atam Böyükağa Qasımzadə Səməd Vurğunla dost olub. Hətta bir neçə dəfə birlikdə ova da gediblər. Atam özü ovçu olmasa da, dostlarıyla ova çıxmağa marağı vardı; onda da ola Səməd Vurğunla... Lap kiçik yaşlarımdan onun Səməd Vurğun barədə söhbətlərini eşitmişəm. Ailəmizdə Səməd Vurğun ailəsinə isti bir münasibət vardı... Mətləbdən uzaq düşməyim; hə, 1963-cü ildə Vaqifin "Azərbaycan" jurnalında ilk şeirləri çıxmışdı. Bu şeirləri Vaqifin yaxın dostu Anar oxumaqçün ondan götürüb, özü makinada yazaraq redaksiyaya təqdim etmişdi. O vaxt jurnalın redaktoru Qılman İlkin idi. Çox cəsarətli bir insandı; təqdim olunmuş şeirlərin hamısını tərəddüd etmədən çap elədi. Bunlar Vaqifin ilk mətbu şeirləri idi. Və bu şeirlər o zaman çox böyük əks-səda doğurdu. Yəni onların əks-sədası o qədər güclü oldu ki, az bir vaxtda Vaqifin adı o dövrün ən populyar şairləri sırasında çəkilməyə başladı. Adətən, elə belə olur; böyük istedadlar birdən parlayırlar. Vaqifin şeirləri bütün mahiyyətilə, mətləbi, deyim tərziylə, nüvəsindəki özünəməxsus yumoruyla və bir çox başqa incəlikləriylə, yaşlı-cavan digər şairlərin şeirlərindən çox fərqlənirdi.

Bir şeyi xüsusi qeyd etmək istəyirəm: elə başa düşülməsin ki, onun belə sürətlə populyarlaşmasında Səməd Vurğunun oğlu olması əsas rol oynamışdı. Yox,

əksinə, Vurğun şeirinin fanatlarını atasından tamamilə fərqli yazan Vaqif möhkəm qıcıqlandırmışdı. Onun haqqında elə qərəzlə, hikkə ilə danışır, yazırdılar ki, nə deyim, 37-ci il olsaydı, Vaqifi tutub, ən azı, sürgün edərdilər... Nə var, nə var, o, sərbəst şeir yazırdı, hətta elə nadanlar da vardı, deyirdilər ki, niyə atası kimi yazmır, onun yazdıqları yaddı bizim şeirə, Azərbaycan poeziyasına. O vaxt sərbəst şeirə, sərbəst düşüncəyə dəvə nalbəndə baxan kimi baxırdılar. Onu, ümumiyyətlə, şeir hesab etmirdilər. Amma məsələ burasındaydı ki, Vaqifin şeirləri tamam başqaydı, daxili qafiyə sistemi, ritmi, öz ahəngi vardı. Bu gün artıq çoxları sərbəst şeir yazır və o söz-söhbətlər də aradan qalxıb. O vaxt Rəsul Rzanın, Nazim Hikmətin, Əli Kərimin, Fikrət Qocanın və başqalarının – İsa İsmayılzadənin, Ələkbər Salahzadənin də sərbəst şeirləri vardı. Vaqifin sərbəsti bütün ruhu, üslubu, düşüncələri ilə birlikdə fərqli idi onlarınkından da; fərqli idi onun nəfəsi.

Həmişə belə olub; yeni olan, təzə olan müqavimətə rast gəlir. Amma istedad varsa, gec-tez o, özünə yol açır. Sadəcə, dərhal qəbul olunmur. Təkcə Vaqifə yox, elə başqa sərbəstçilərə də münasibət elə idi. Amma sonra qəbul olundular; çox keçmədi ki, gənclər arasında, bəzi yaşlı ziyalılar arasında da, Vaqifin şeirləri əl-əl gəzməyə başladı. Onun şeirlərini əzbər deyənlər vardı. Gəncliyə gəlincə, onların əksəriyyəti Vaqifi də, sərbəst şeiri də daha tez qəbul etdilər. Ümumiyyətlə, gənclik yeniliyi, yeni ab-havanı, yeni nəfəsi orta və yaşlı nəsildən daha tez qəbul edir. Yaşlı nəsil əksər hallarda qısqanclıq edir, uzun müddət qəbul eləmir, amma sonra görürsən yavaş-yavaş artıq alışdı. ...Bir az uzağa getdim deyəsən. Amma bunun özü də bir tarixdir.

Həəə, mən 1963-cü ildə ilk dəfə Vaqifin şeirlərini "Azərbaycan" jurnalında oxuyanda onunla öz aramda bir doğmalıq gördüm. Özünü hələ şəxsən tanımırdım onda. Sadəcə, uzaqdan-uzağa görmüşdüm, bilirdim ki, Səməd Vurğunun iki oğlu var, onlardan kiçiyidir. O vaxt Vaqif Səmədoğlu imzasıyla yox, Vaqif Vəkilov imzasıyla yazırdı. Belə oldu ki, onun poeziyasına olan doğmalıq, vurğunluq məni Vaqifə bağladı. Və bir ildən sonra təsadüf nəticəsində biz tanış olduq. Onun bacısı Aybəniz xanımla bizim ailəmiz bir yerdə Krımda istirahət eləyirdik. Bakıya qayıtdıqdan sonra Aybəniz bizi evlərinə dəvət elədi. Anam, bacım və mən onlara getdik. Beləliklə, ailələrimiz arasında get-gəl yarandı. Sonra bu tanışlıq dostluğa çevrildi. Doğma hisslər, doğma tellər insanları bir-birinə dərhal bağlayır, onların dalğaları yaxın olanda çox tez tapışırlar. Vaqifin şeirləri məni ovsunlamışdı, bütün hüceyrələrimlə duyurdum onu, fanatı olmuşdum az qala.

Vaqifgillə bizim evimiz bir-birinə çox yaxın idi; iki yüz, üç yüz metr arası olardı. Mən artıq Vaqiflə tez-tez zəngləşir, görüşürdük; gedib-gəlirdim onlara. Vaqif də mən getməyəndə darıxırdı, zəng vurub deyirdi, nə oturmusan evdə, dur gəl bura, bir yerdə darıxaq.

Əslində, mən ora daha çox onun şeirlərini dinləməyə gedirdim. Xahiş edirdim şeirlərini oxusun. Arada təzə yazdıqlarını da oxuyurdu. Və beləliklə, bizim dostluğumuz günü-gündən möhkəmlənirdi.

1965-ci ildə birlikdə istirahətə getmək qərarına gəldik; Krıma – Koktebelə, Yazıçıların Yaradıcılıq Evinə. Ondan sonra yay ayları, hərdən qışda da, səfərə

çıxırdıq; Riqaya, Tiflisə, Moskvaya. Ümumiyyətlə, bizimki tuturdu. Bu yol yoldaşlığından həm o məmnun qalırdı, həm də mən. Bu dostluq həqiqətən də gözəl bir dostluq idi; hər adama qismət olmur belə dostluq.

Düzünü deyim ki, o vaxtlar mənim də yazmağa böyük həvəsim vardı və arabir cızmaqaralar edirdim. Amma heç yerdə göstərmirdim, çünki özümə qarşı həddindən artıq tələbkardım, razı qalmırdım yazdıqlarımdan. Elə indi də elədir; hər dəfə mənə elə gəlir ki, istədiyim kimi deyə bilmədim.

Tarixi yadımda deyil, bir dəfə Səməd Vurğunun Ev-muzeyində Nazim Hikmətin xatirəsinə həsr olunmuş tədbir keçirilirdi. Mən də çox-çox əvvəl Nazim Hikmətə bir şeir yazmışdım. Bu şeirin yaranma tarixçəsi beləydi: Moskvada şaxtalı-qarlı bir qış günü Nazim Hikmətin məzarını ziyarət etmişdim. Və çox sevdiyim şairin məzarını ziyarətdən duyğulanıb bir şeir də yazmışdım. Amma bunu heç yerdə oxumurdum, çapa da vermirdim. Vaqifsə bilirdi belə bir şeir yazdığımı, neçə dəfə təkid etmişdi, göstərməmişdim. Dünyada ən çox sevdiyim iki şair varsa, biri Füzulidi, biri də Nazim Hikmət. Mən o şeiri həmin tədbirdə oxuyanda Xavər xanım mənə qayıtdı ki, sən əməlli-başlı şeir yazırsanmış ki... Düzü, çox təsirləndim; Səməd Vurğunun həyat yoldaşı deyirdi bu sözləri. Dedim, Xavər xala, mən şeir yazırdım, amma sənin oğlun qoymadı yazam. Soruşdu niyə? Dedim, mən Vaqiflə dostluq eləyəndən sonra gördüm ki, mənim yazmaq istədiyim, duyduğum, ürəyimdən keçən hissləri mən necə yazmaq istərdimsə, onları Vaqif yazır və özü də məndən yaxşı yazır. Bir halda ki, o, bunu məndən yaxşı edir, daha mənim şeir yazmağıma ehtiyac qalmır.

Vaqifin 1968-ci ildə ilk kitabı çıxdı – "Yoldan teleqram" adlı şeirlər kitabı. Balaca kitabça idi. 15 qəpiyə. Orda 36 şeir, bir də bir poema vardı. Mən elə o vaxt dərhal kitab haqqında "Yoldan teleqram" adlı bir məqalə yazdım. Bu, mənim ilk yazılarımdan idi və "Azərbaycan gəncləri" qəzetində dərc olundu. Yeri gəlmişkən deyim ki, Azərbaycan ədəbiyyatının, poeziyasının o dövrdə gənc sayılan, sonranın görkəmli yazıçılarının bir çoxunun əsərləri haqqında da ilk yazıları mən yazmışam. O cümlədən, Elçin Əfəndiyev haqqında. Povestləri çıxmışdı o vaxt. Yazılarım "Ədəbiyyat qəzeti"ndə dərc olunurdu. Üç-dörd yazım çıxandan sonra məni tənqidçi kimi qəbul etməyə başladılar. Qəribədir, qələm adamını ilk yazılarından sonra yaxşı qəbul edirlərsə, istər-istəməz, onu o sahəyə yönəldirlər. Vaqifin "Yoldan teleqram" kitabına dərhal hücumlar başladı. Kitab çap olunandan sonra hətta onları yandırmaq istədilər.

O vaxt Qlavlit deyilən bir senzura idarəsi vardı; əsas onlar idi qadağaları qoyanlar, nəşrləri saxlayanlar. Həmin o idarə, yəni senzor Vaqifin kitabında elə misralar axtarıb tapmışdı ki, hətta, dediyim kimi, kitabı ləğv etmək istəyirdilər. Kitab, təsəvvür edirsiz, "Nə olacaq?" şeiriylə açılırdı. Orda belə misralar var: Şair "Nə olacaq?" deyə sual verir: "Ətin qiyməti düşəcəkmi? Yoxsa meşə cəngəlliyinin qoyduğu qiymətdə qalacaq?" Və ya: "İnsan bir ömrü boyu öləcək neçə kərə?" Yaxud da ki: "Hansı rənglə çəkəcəklər xəritələrdə ölkəmi?" O illərdə belə suallar, belə fikirlər söyləmək olmazdı... Amma sonra necə oldusa, kitab senzuradan keçdi.

Məndən bəzən indi də soruşurlar: Vaqif Səmədoğlunu dissident şair adlandırmaq olarmı? Deyirəm: “Bəs necə?” Əlbəttə, Vaqif təpədən-dırnağa dissident şair idi. O vaxtkı sovetlər ölkəsində dissident yazıçılar vardı ki, onlar qəti şap olunmurdular. Onların fanatları əlyazmalarının üzünü köçürdüb yayırdılar: romanları, hekayələri, şeirləri. Bunları ayrıca dəftər kimi tikir, fotosurətini çıxarırdılar. Və bunlar Moskvada, başqa şəhərlərdə əl-əl gəzirdi. Azərbaycanda isə dissident ruhlu şairlər, yazıçılar, çətinliklə də olsa, çap olunurdular. Soruşa bilərlər: bu, necə olurdu? Qısaca izah edə bilərəm.

Vaxtilə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində vəzifədə olanların çoxu milliyyətcə erməni, rus idi. Heydər Əliyev DTK-ya sədr müavini, sonra da sədr təyin olunandan sonra, görünür ki, və şübhəsiz, onun yazıçılara köməyi olurdu. Özü də təkcə yazıçılara yox, kino və teatr xadimlərinə də. Bu da faktdır ki, H.Əliyev o vaxt nə qədər şair və yazıçımızı həbsdən, sürgün olunmaqdan xilas etmişdi. Görünür ki, Vaqifi də qoruyan məhz onun əli idi. Bir də, yəqin ki, Səməd Vurğunun oğlu olması da kara gəlib. Ümumiyyətlə, Vaqifin də, Yusifin də üstündə Səməd Vurğun adı həmişə xilaskar olub; qoruyub onları. Səməd Vurğunun sanki çox geniş qanadları vardı. O qanadların altındaydı hər ikisi. Bunu danmaq olmaz. Səməd Vurğunun ruhu qoruyurdu onları. Necə ki, bizim valideynlərimizin ruhu bizi qoruyur. Mənim 81 yaşım var, bu günə kimi hesab edirəm ki, atamın-anamın ruhu daim mənimlədir, məni himayə edir.

Vaqif Səmədoğluda məni cəlb edən onun qeyri-adi təşbehləri, gözlənilməz müqayisələri, qeyri-adi məcazlarıdır. O vaxt, elə ilk şeirlərindən məni məftun etdi özünə. Məsələn, onun kiçicik bir şeiri var, deyir:

***Doğuldum 39-da,***
***37-də tutuldum.***
***48-də nənəm öldü.***
***Ömrümdə ilk dəfə ölüyə ağladım.***

İlk baxışda qəribə gəlir adama. Mənim “Yoldan teleqram” kitabı haqqında yazdığım eyniadlı məqaləmi çap edən redaktor da çiyinlərini çəkib soruşdu: “Yaxşı, bunu necə başa düşək? Doğulmamışdan da əvvəl insan tutula bilərmi?”. “Əlbəttə, sözün müstəqim mənasında – yox, – dedim... – amma şairin sözün alt qatlarından məharətlə istifadə etməsi oxucunun assosiativ düşüncəsini oyadır. 39-da doğulub, 37-də tutulmaq insanın, sadəcə, doğulmamışdan repressiya mühitinə məhkum olunması deməkdir. İkicə misra ilə nə boyda acı bir həqiqətin bədii ifadəsi...”.

Vaqifin 60 illiyində bir məqalə yazmışdım: “37 il sonra”. Orda da bu 37 rəqəmi vardı. Bilirsiz, o illəri xatırlayanda, görürəm ki, bizim yaşadığımız o illər, həyat tərzimiz onu göstərirdi ki, biz gözəl, azad, buxovsuz, qandalsız yaşamağa can atmışıq. Bu da Vaqifin seçdiyi bir yol idi. Onda həyat eşqi çox güclü idi. Dünyanı, ölkələri gəzmək ən böyük arzularından idi. İmkan düşdükcə gəzirdi də. Sevirdi, sevilirdi də. Vaqif nə həyatda, nə də şeirlərində bədbin insan deyildi. Tərkidünyalıq ona yad idi. Amma bəziləri ona irad tuturdular ki, daim ölümdən yazır. Mənsə deyirəm: “Hə də, elə həyatı çox, lap çox sevdiyi üçün ölümdən yazırdı!”.

Bilirsiz, ölüm daim bizi, bütün normal insanları təqib eləyən bir fikirdir. Hətta uşaq vaxtı ölüm sözünü yaxına buraxmaq istəmirik. Necə yəni ölüm? Vaqif də o fikri daha çox yaxına buraxmamaq üçün ölümdən yazıb. Sonra bu yolla onu özündən uzaqlaşdırmaq istəyib. Doğrudanmı elə düşünənlər var ki, ölümdən yazmaqla o, – Vaqif ölümünə qovuşmaq istəyirdi?! Yo...ox!

– Bəzən soruşurlar: görəsən, Vaqif Səmədoğlu demək istədiklərinin hamısını deyə bildi? Qələmə ala bildi? Heç şübhəsiz ki, o, demək və yazmaq istədiklərini yaşadığı zaman kəsiyində, o illər ərzində yazıb.

Vaqif çox ağıllı və həm də savadlı adam idi. Yaxşı bilirdi ki, insan həyatının sonu ölümlə tamamlanır; ölüm – qaçılmazdır. Bunu təkcə biz dostları yox, ətrafındakı insanların hamısı o, ağır xəstələnəndə ölüm sözüylə necə çiling-ağac oynadığını görmüşdük; qapısının ağzını kəsmiş ölümüylə zarafatlaşırdı o. Həyatda işlərinin çoxunu görüb tamamlamış, istəklərinə əsasən nail olmuş, elə bir nigarançılığı qalmayan, üstəlik də bir şair kimi şöhrətinin zirvəsində duran adamlar özlərini belə apara bilərlər.



*Yusif Səmədoğlu və Vaqif Səmədoğlu əmiləri Mehdixan Vəkilovla*

Əlbəttə, bu o demək deyil ki, Vaqif Səmədoğlu, demək istədiklərinin, yazmaq istədiklərinin hamısını deyib, yazıb qurtarmışdı. Yox. Vaqif o sənətkarlardan idi ki, 100 il yaşasaydı da hələ deməyə sözü olacaqdı. Sadəcə, o, yaşadığı zaman kəsiyində, o illər ərzində nəyi düşünübsə, nə demək istəyibsə, onu da yazıb. Vaqif o şairlərdəndi ki, heç vaxt özünə senzura qoymayıb. Bizim yazıçılarımızın böyük əlsəriyyətinin içində daxili bir senzura var idi; elə indi də var! Mən ad çəkmək istəmirəm, Vaqifin mənsub olduğu ədəbi nəsildən əvvəlki nəsil ki vardı; şair-yazıçılar – onlar sanki senzurayla birgə doğulmuşdular. Vaqifdə bu, qətiyyən yox idi. Bunun da bir səbəbi o idi ki, Vaqif şeir yazmağa elə-belə baxmırdı; mən yazım, şair olum, şöhrət qazanım, yox. Vaqif şeiri yaşayaraq yazırdı. Əqidəsi olan adam idi. "Belə yazsam, senzuradan keçməz" – şeir yazdığı anlarda o, əsla bu barədə düşünmürdü. Fikirlərini ört-basdır eləmək onluq deyildi. Suyu üfürə-üfürə içənlərdən deyildi Vaqif. Bayaqkı sözümə bir də qayıdıram ki, əlbəttə, Vaqif bütün demək istədiklərini dedi. Yazdı da. Təsadüfi deyil ki, Vaqif sonradan keçdi dramaturgiyaya. Ciddi pyeslər yazdı. Şeirlə deyə bilmədiklərini pyesləri ilə dedi. Onun ciddi nəsr əsərləri də var. Vaqif nə istəyib, onu da yazıb. Şeir, poema, hekayə, esse, pyes...

Vaqif həm də gözəl ssenarist idi. Mən kinostudiyada işlədiyim dövrdə çox gözəl bir ssenarisi vardı. Biz onu apardıq Moskvaya. Mən idim (redkollegiyanın

üzvü qismində, kinostudiyanın rəsmi nümayəndəsi), Oktay Mirqasımov idi (gələcək filmin nəzərdə tutulan rejissoru); Bir də – Vaqif özü. Əsərin adı “Köhnə yəhudi mahnısı” idi – “Staraya yevreyskaya pesnya”. Çox təəssüf ki, Moskva təsdiq eləmədi. Keçmədi. Dedilər ki (onların dedikləri kimi, rusca deyəcəm), – “vaşi qeroyi kakiye-to nekomunekabelnıye”, – yəni talesizdirlər qəhrəmanlarınız.

Biz bir-birimizə mənəvi dayaq idik. Mənim o zaman kinostudiyaya işə düzəlməyim də Vaqifdən olmuşdu, aspiranturanı 15-20 gün idi qurtarmışdım, işsiz idim. Vaqif dedi ki, gəl Yusif qağamla danışaq (o vaxt Yusif Səmədoğlu orada baş redaktor idi), səni yanına işə götürsün. Vaqif Yusifə zəng vurdu, Yusif dedi ki, bir-iki saata sizə cavab deyərəm. Biz Vaqiflə, o vaxt “Cənub” mehmanxanası vardı, onun zirzəmisindəki kiçik bara düşdük. Xudmani yeyib-içdik. İki saatdan sonra hər ikimiz yaxşı vəziyyətdə (həqiqətən yaxşı vəziyyətdə) çıxdıq yuxarı, avtomat-telefonla Yusifə zəng elədik. Yusif dedi ki, danışdım, Adil İsgəndərovun razılığını aldım. Beləliklə, mən ora işə düzəldim. Nə isə... Bu başqa bir söhbətin mövzusudur.

Vaqif Səmədoğlunun kino sahəsindəki fəaliyyətinə gəlincə isə... Sonralar onun ssenariləri əsasında filmlər də çəkildi; bir müddət kinostudiyada işlədi də, amma mən bu günə qədər də çox təəssüf edirəm ki, Vaqifin “Köhnə yəhudi mahnısı” ssenarisi əsasında Oktay Mirqasımov film çəkmədi. Qoymadılar. Tək Moskva məsələsi deyildi, içəridə də paxıllar vardı. O ssenari çəkilsəydi, gözəl bir film alınacaqdı – mən buna yüz faiz əmin idim.

Bəzən mənə belə bir qəribə sual verirlər: “Vaqif, Vaqif deyirsiz, nə edib o, yaradıcılığı ilə nəyisə dəyişibmi, cəmiyyətə təsir edə bilibmi?

Bilirsiz, belə demək düz olmaz. Təkbaşına heç bir yazıçı bütünlüklə cəmiyyətə təsir edə bilməz; tək-tək adamlara – ola bilər. O dövrdə – 60-cı illərdə ədəbi mühitə bir çox gənc şair və yazıçılar gəlmişdi. Və onların birlikdə, əlbəttə, insanlara, cəmiyyətə təsirləri olurdu. Xüsusən də o dövrün gənclərinə böyük təsir edirdilər. Gənclər həmişə yeniliyə, yeni nəfəsə meyilli olurlar. Vaqifin şeirləri, elə başqa istedadlı yazıçıların əsərləri də o cümlədən, çox böyük maraqla oxunurdu. Və təbii ki, bütün bunlar şüurlara təsirsiz ötüşmürdü. Həmçinin, çoxlarını bədii yaradıcılığa həvəsləndirirdi. Bəzilərinin hətta şəxsi həyatına təsir edirdi. Ədəbiyyatın gücü bundadır.

Vaqif Səmədoğlu təpədən-dırnağa şair idi. Əsl şairlər də – ümumiyyətlə, yazıçılar – üsyankar olurlar. Səməd Vurğun kimi böyük şairin, üstəlik də tribun şairin şair oğlu bu mənada istisna ola bilməzdi. Vaqif də, ondan bir qədər əvvəl Yusif də – Azərbaycan xalqı öz azadlığı, müstəqilliyi uğrunda ayağa qalxdığı bir vaxtda kənarda qalmadılar, sinələrini qabağa verib hərəkatın ön cərgəsinə keçdilər. Bir müddət Meydandakı mitinqləri Yusif Səmədoğlu apardı (o, Xalq cəbhəsi Ali şurasının üzvü idi). Görünür, burda Səməd Vurğun faktoru özünü göstərirdi. Səməd Vurğun obrazı, həmişə xalqın yanında olmaq ehtirası hər iki qardaşa da xas idi. Yusif Səmədoğlu, elə Vaqif də – meydanda çox böyük şövqlə xalqı azadlıq uğrunda, müstəqillik uğrunda mübarizəyə səsləyirdilər. Yusifin çox gözəl natiqlik istedadı vardı. Meydan hərəkatına qədər biz bunu hiss etməmiş-

dik. Çünki Yusif Vaqifə nisbətən bir qədər sakit təbiətli, bir qədər qapalı adam idi. Doğru deyirlər ki, insanın daxilində elə potensiallar olur ki, onlar ekstremal vəziyyətlərdə üzə çıxır. Yusifin ardınca Meydan hərəkatına Vaqif qoşuldu və bir müddət meydanda mitinqləri, demək olar ki, o idarə etdi. Şair kimi populyarlığının, xalq arasında ona olan hörmətin meydan hərəkatının mütəşəkkilliyinə, heç şübhəsiz, böyük təsiri olurdu. Azadlıq uğrunda mübarizədən danışanda bəzi yarımçıq siyasətçilər üç-dörd nəfər ortabab səviyyəsi olan şəxslərin adlarını qabardırdılar. Amma xalqın Yusif Səmədoğlu, İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə, Ziya Bünyadov, Vaqif Səmədoğlu, Sabir Rüstəmxanlı kimi ziyalıları olmasaydı, hərəkat o gücdə, o möhtəşəmlikdə olmazdı.

Vaqif Səmədoğlunun xalq hərəkatında yaxından iştirakı yaradıcılığını kölgədə qoymadı. O illərdə də, sonrakı dövrdə Milli Məclisin deputatı olduğu vaxtlarda da – ta ömrünün axırına kimi – Vaqif elə şair Səmədoğlu olaraq qaldı. Bütün məziyyətləri yerində idi: şairliyi də, dramaturqluğu da, dostluğu və deputatlığı da. Demək olar ki, dəyişməmişdi; yumoru, Vaqulyalığı da yerində idi.

Vəfatından bir xeyli əvvəl Vaqif qəfil gəlmişdi "Azərbaycan" jurnalı redaksiyasına. Görüşdük, hal-əhvaldan sonra, dedi neynirsən? Dedim, heç, oturub xırda-xırda işləyirəm də. Dedi ki, getmişdim Anarın yanına, onun da başı qarışıqdı. Nəysə, oturdum. Mən ona baxdım, o mənə baxdı. Dedim: "Anar, deyəsən, biz biri-birimizə deyəcək sözlərimizi deyib qurtarmışıq". Durdum gəldim sənin yanına... Mən başa düşdüm Vaqif niyə elə deyir. Getdik, oturduq ikilikdə, iki dost, iki qardaş. Yedik-içdik, dərdləşdik; keçmişləri xatırladıq. Deyərdim yenidən o gözəl günləri yaşadıq. Ən ağır günlərində belə, mən cürət edib xəstəliyi barədə ondan heç nə soruşa bilmirdim. Özü mənə dedi, ay İntiliş, mən də gedirəm də. Gülümsəyib söhbəti başqa mövzuya keçirdim.

Mən axır vaxtlar, demək olar ki, Vaqifdən qaçırdım. Zahirən çox dəyişmişdi; düşmüşdü. Uzun illərin dostu kimi onu bu cür görmək mənə ağır idi. Çox ağır idi...

Son dəfə mən onu yubileyində, 75 illik yubileyində, Dövlət Dram Teatrında gördüm. Mən ona yaxın gedə bilmirdim. Sıxılıb, elə oturduğum yerdən dinməzcə vidalaşırdım onunla. Səhnəyə qalxdı; aktyor Fəxrəddin Manafovun köməyi ilə. Prezident Aparatının rəsmi nümayəndəsi Prezidentin Sərəncamını oxudu və "İstiqlal" ordenini ona təqdim etdi.

Və bu zaman birdən-birə neçə il əvvələ qaytardılar məni: həmin Vaqif, həmin dost, həmin yumor: hər şey yerində idi. Vaqif məzələnirdi.

**Bu gün Vaqif Səmədoğlunun 85 yaşı tamam olur.**
**Və mənə görə Vaqif burdadır, bizimlədir.**
**İlahi, qüdrətinə şükür!**



***İntiqam QASIMZADƏ***

***5 iyun 2024-cü il***

# AYRILIĞI SALAMLAMAQ


Rəssam: Arif İsa

*Ürəyimdə bir ayrılıq qəribsəyib...*
*Və bu ayrılıqdan bir şeir.*
*V.SƏMƏDOĞLU*

Həqiqətin hiss olunan hadisəsi – Vaqif Səmədoğlunun küll halında yaradıcılığının açar sözü budur, məncə. Küll halında yaradıcılıq deyərkən, onun hansı ədəbi növdə - janrda yazmasını nəzərdə tutmuram. Bu yaradıcılığın mahiyyəti - missiyasından danışıram. Oxucunun tutqun təsəvvürlərinin hissi idrak səviyyəsinə qalxmasına kömək edən yaradıcılıq nümunələrinin bir işi də budur, əslində: istedadlı oxucu, dinləyici, tamaşaçı formalaşdırmaq. Buna necə nail olub" –sualına gəlincə, "... hisslərin, hadisələrin dəqiq, yığcam, eyni zamanda tarixi – fəlsəfi mahiyyətə, ümumiləşdirmə gücünə malik görümlü təsvir Vaqif Səmədoğlu poeziyasının fərqləndirici xüsusiyyətlərindən biridir. Bu da, ilk növbədə, müşahidə qabiliyyətinin genişlik və dərinliyindənnecə deyərlər, damlada ümmanı görə bilmək bacarığından gəlir"(Vilayət Quliyev)

Azərbaycan ədəbiyatının klassiki adını hələ sağlığında qazanmış Vaqif Səmədoğlunun küll halında bütün yaradıcılığı həm də ayrı – ayrı fraqmentlər kimi dərk olunur. Bu fraqmentlər ilk təəssütarların, təxəyyülün diqtəsi deyil, nə zamansa yaşanmış, iz qoymuş, "ölüb - ölümdən qayıtmış"təcrübənin nəticəsidir,"quru çay üstə duran qədim körpü" misalı təfəkkürün bəlirtisidir. Hərdən adama elə gəlir ki, ruhun zamansız, cismin məkansız vaxtında üzü göylərə pıçıldadığı bir iltiması küləklərin yaxasına bayraq edb:

*Kağızın üstünə düşüb,*
*İki əlimin kölgəsi.*
*Yenə də lap zilə qalxıb*
*Təkliyin yalquzaq səsi.*
*Vaxtdan yaxa qurtarmışam,*
*Bilmirəm saat neçədir.*
*Ay yarımçıq, ulduzlar yox,*
*Yaman ölməli gecədir...*
*Nə varım var, nə barxana.*
*Ömür yükü bağlamağa.*
*Allah, məni yarı öldür,*
*Yarı saxla ağlamağa.*

Göylər də sanki "tənhalıq muxtariyyəti" statusunu elə onun üçün, ona xatir "təsis edib".

*Ayrılığın*
*ən sıx meşəsində belə,*
*aza bilmərəm.*
*Boynuma daş bağlayıb*
*Atın məni Ayrılıq dənizinə,*
*üzüb çıxacağam, batmayacağam.*
*Ayrılıq yollarında*
*Məndən yaxşı bələdçi*
*yoxdur*
*Azərbaycanda.*

Vaqif Səmədoğlu bütün ayrılıqların, əslində, salamlaşmaqdan başladığını bilirdi.

* * *

"Mən bu dünyaya 1939 – cu ildə gəlmişəm. Mən doğulandan cəmi bir neçə saat sonra atam doğum evinə anama qısaca bir məktub, şeir çatdırıb.

*Demək, oğlumuzun Vaqifdir adı,*
*O da olacaqdır şeirin ustadı.*

Göründüyü kimi, məni ilk dəfə bu dünyada şair kimi elan edib, adımı qoyan və tanıdan adam Azərbaycanın Xalq şairi Səməd Vurğun olub.

* * *

26 il sonra Vaqif Səmədoğlu tərcümeyi – halının ilk səhifələrini şeirin yaddaşına bir başqa ovqatla yazdı:

*Doğuldum 1939-da,*
*1937-də tutuldum.*
*48-də nənəm öldü.*
*Ömrümdə ilk dəfə*
*Ölüyə ağladım.*
*Balıqlar saxladım*
*Akvariumda.*
*Açıq qaldı pəncərəm*
*Bir qış gecəsi.*
*Dondu balıqlar...*
*İndi 1965-in*
*Yanvar gecəsidir.*
*Deyəsən yaşamaq istəyirəm.*

* * *

Vaqif Səmədoğlu ixtisasca musiqiçi idi. Konservatoriya təhsilinin son akkordları da uğur vəd edirdi:Niyazinin dirijorluğu ilə Raxmaninovun məşhur əsərini ifa etmişdi. Moskvada stajirovka keçmişdi, Bakıya qayıdıb Konservatoriyada dərs deyirdi. Amma ... "bütün rənglərin kölgələri eyni rəngdəsə":

*Bəlkə, gedib damla – damla yığım,*
*Qayaya dəyib, çilik – çilik olmuş dalğanı?*
*Bəlkə, o buludu qoymayım dağılmağa?*
*Amma necə?*
*Bəlkə, unudum tək olduğumu?*
*Özümlə durub – oturmayım indən belə?*
*Bəlkə, şeir yazmayım daha?*
*Yox, gülüm, qayaların və buludların*
*Dadına yetmək olmaz mənə.*
*Mənə yaşamaq da olmaz, mən şeir yazmalıyam.*

Deyirlər, Vaqif Səmədoğlunun poeziyaya keçməsi ilə ifaçılıq sənəti istedadlı bir pianoçunu itirdi. Əslində, bu keçid bir qədər sonra musiqi mədəniyyətində, xüsusilə Azərbaycan kinosunun uğurlarında xüsusi bir naxış kimi hiss olundu; Vaqif Səmədoğlunun sözlərinə bəstələnmiş mahnılarda.

> ***Vaqif Səmədoğlu polifonik şəxsiyyətdir. Mən hətta deyərdim o, orkestr adamdır.***
> ***Siyavuş Məmmədzadə***

*Bilirəm, yarpaq-yarpaq saralır*
*Ömrümün atamla keçmiş çağları.*
*bilirəm,*
*O düşən yerdə qurtarıb*
*Ömrümün ən əziz dayanacaqları...*

“Hər bir ailəyə atadan, anadan əziz bir insan kimi sevilən xoşbəxt sənətkar”(Mir Cəlal) olan Səməd Vurğunun “şair, nə tez qocaldın sən?!” misralarındakı yaxıcı kədərin izinə düşüb, atasının mövzularını – həqiqətini yaşatmaq istəyi ilə bu “sonuncu dayanacaq” ağrısını ovudurdu.

Ortada “mövzu” adlı bir obyekt qoyulmuşdu və fərqli proyeksiyalar ...yox, yarışmırdı, davam edirdi. Oğul “Göylərə baş çəkir Göyəzən dağı” misralarının üstündə ləngiyir, göyü əzən o ucalığın tənhalıqda əzilən halını düşünürdü:

*Çiyin – çiyinə vermiş*
*Sıra dağlara baxanda*
*Bir dağ çiyni görməmiş*
*Bizim Göyəzən düşür yadıma.*
*Gördüyüm dağların ən yetimi,*
*ən kimsəsizi*
*...Dayanıb yer üzündə*
*Tənhalıq heykəli kimi,*
*Durub dünyayla Əskipara arasında.*

Gənc şair Səməd Vurğunun “Bakının dərdi var, Bakı xəstədir” misralarının izi ilə “ döngələrin yeri darısqal” şəhəri dolaşırdı:

*İçərişəhərim,*
*əyrin-üyrün, dar küçələrin,*
*gündüzlər*

*otaqlarındakı bəyaz gecələrin.*
*Damlarının yastısı*
*İçinin astası,*
*Küçələrini*
*Dolanan adamların*
*Həmişə tənha səsi,*
*Gecələrinin*
*Dünyada itən tarix tikəsi.*
*İçindən*
*Kommunist küçəsinə çıxan təəssübüm,*
*Oğrularından qorxan cibim,*
*Ölüm ayağındadır indi.*
*Biçarə şəhər,*
*İçəri şəhər...(1965)*

Yaxud, atasının "Ovçu, insaf elə, keçmə bu düzdən..." nigaranlığına əqidəsi ilə təsəlli olmaq istəyirdi: *"Ovçu əlinə tüfəng götürüb ova çıxanda, ilk növbədə, öz mənəviyyatı, insafı qarşısında hesabat verməlidir".*

* * *

Ədəbi tənqidin ümumiləşdirməsi onu "insan – cəmiyyət ünasibətlərinin dərinliklərinə nüfuz etməyi bacaran mütəfəkkir bir sənətkar" kimi təqdim edir; xüsusən 2 cidlik "Dramaturgiya"kitabı ilə bağlı qənaətlərində Müəllif öz isə daha geniş düşünür :

"...İnsan" pyesini bizim bir zamanlar Böyük Vətən müharibəsi adlandırdığımız müharibənin poetik və fəlsəfi dil ilə izah etməyə çalışan bir sənətkarın yaradıcılıq uğuru hesab edirəm. Orada qoyulan "qalib gələcəkmi cahanda kamal?!" ədəbi sualı Səməd Vurğunun çox böyük tapıntısıdır.Mən də bu saat o sualı dünyaya verirəm və cavab tapmıram".

***Vaqif Səmədoğlunun pyeslərində bütün gülüşlərin arxasında insanı düşündürən, sillələyib ayıldan bir kədər dayanır.***
***Hüseynağa Atakişiyev***

Atanın yarımçıq ömrünə məktub, arzularına cavabdı, əslində, Vaqif Səmədoğlu yaradıcılığı. O düşünürdü ki, *"İnsan daima borcludur. Həyata gəldiyi üçün Allaha, valideynlərinə, ona əldə qələm tutmağı öyrətmiş ilk müəllliminə... Ömründə birinci kərə Dəniz gördüyü günə, eşitdiyi ilk mahnının səsləndiyi dəqiqələrə borcludur insan. Bütün dünyaya, Kainata, Zaman, Məkana borcludur insan oğlu. Öz Vətəninə borcludur.Bu Vətən uğrunda canlarından keçmiş insanlara borcludur. Və bu borcu qaytarmağa çalışmalıdır bütün ömrü boyu.Hətta bu sonsuz borcun tam qaytarılmasının mümkün olmadığını bilə - bilə. Ancaq Zəhmət və Yaddaş bu səmtə yönəlməlidir hökmən..."*




Qaytarılması mümkün olmayan borcların əvəzini ağ kağızın, qara qələmin umuduna qoyurdu. Bilə - bilə ki, hərdən yaddaş da adamın üzünə durur...

*Olmayan yerdə*
*Eyvana qonmuş bir sərçə də*
*Sevincdir.*
*Yada düşən*
*Bir xoş yay günü də,*
*ən dəli sərxoşluq da...*
*Olmayan yerdə*
*quru çiçək də bahardır.*
*Olmayan yerdə*
*Göydə Ay da azadlıqdır.*

* * *

*"Ölümüm də çap olunmamış şeirə bənzəyəcək. İlk oxunuşdan yadda əzbər qalacaq bu şeirin bütün misraları. Əcəl vəznində yazılmış ilk və son şeirim".* Ölümün gözünə baxa – baxa həyatdan yazmaq, minorda ömür sürüb, majorda ölmək qəsdli Vaqif Səmədoğlu bu əminliklə bu dünyandan yaxşılıqlardan söz etməyə o dünyaya yol aldı.

*İlahi, yatağın nə sağında,*
*Nə solunda,*
*Nə bir gözəlin qolunda*
*Yatmaq istəyirəm.*
*İlahi, nə söyüd kölgəsində,*
*nə dünyanın*
*ən azad ölkəsində*
*yatmaq istəyirəm.*
*İlahi,*
*Dar quyu dibində,*
*Qaranlıq nəm içində,*
*Ağrısız yatmaq istəyirəm. (2014)*

* * *

Ayrılığın çeşid – çeşid yolları var.
Salamlamaq da bir yolu.
Bu yollar haqq olsa belə, adam hərdən inanır ki:

***"Doğru yolun hər döngəsi yalandır!"***
**(Vaqif Səmədoğlu)**



***Südabə AĞABALAYEVA***



*Əkbər QOŞALI*

## YENİ ŞEİRLƏR

### TƏBRİZLİ ANDI

Qaralan göy üzünə,
Daralan üfüqlərə,
Qarışıq zamanlara,
Ürəyə damanlara
And olsun!

And olsun
Şər vaxtına,
Şahın əsir taxtına;
Güllərin solmasına,
Gözlərin dolmasına…

Sökülmüş saatlara,
Xəstənin aynasına,
Ən incik baxışlara,
Çatılan sıx qaşlara
And olsun!

And olsun günahsıza,
Dörd divar arasına,
And olsun
allahsıza
əsir düşən insana!..

And olsun
susqunlara,
And olsun
başdaşına,
Ona qonan quşlara,
Son yarpaq duruşuna…

Qırılan qanadlara
Umudun uçuşuna,
Nə ölü, nə sağlara –
İtkinlərin canına
And olsun!

Sənə, mənə,
Yersiz Yerə,
Göysüz göyə,
Yenə, yenə
And olsun!..

* * *

Tikanlar dil açsaydı,
"Nöbətdəyik!" deyərdi.
Gül sevgiylə dərilsə,
"Cənnətdəyik" deyərdi.

Bəlkə güllər gec anlar,
Sirr saxlayar tikanlar...
Amma nadan güldanlar
Əlbəttə ki,
deyərdi...

Nə tikanlar, nə güllər,
Nə də əkib-dərənlər, –

Dərdi dərin çəkənlər
“Bir qismətdi” deyərdi...

Tikanlar dil açsaydı...

* * *

“Qaraciyər iki dəfə,
Dalaq bir dəfə böyüyüb,
Şişkinlik var üz-gözündə,
Məncə,
əl-ayağın da
öncə belə deyildi”. –
Əsli həkim belə dedi…
Bu şişkin üz-gözümlə
az təbəssüm elədim:
İl təzəcə başlayıb,
Mən isə gör nə qədər
“inkişaf” eləmişəm,
Düz bir illik planı
Bir aya bitirmişəm…

* * *

Niyə sənə bu qədər
Küsənirəm, bilmirəm.
Sənsiz niyə belə tez,
Tükənirəm, bilmirəm.

Dil taparıq yollarla,
yox olmarıq yoxlarla;
Sənsiz qalan qollarla
Üşənirəm…
Bilmirəm…

Həsrət qalxsın ayağa,
Qar enibdi dağlara...
Ən isti xəyallara
Bürənirəm,
bilmirəm…

Sənə niyə bir belə
Küsənirəm, bilmirəm…

## PAYTAXTIN GECƏ OVQATI

Yollar necə gözəldi…
Əzəldənmi beləydi?
Yoxsa, mən bu yolları
ilk dəfəmi görürəm?..
Yollar necə gözəldi…

Yudu işıq selləri,
Bu gecə bu yolları.
Daha gözəl elədi
Üzüsulu yolları…

Bu yolların gecəsi
öncələr də bu qədər
İşıqdımı, İlahi?
Heç sevməmək olarmı
İşıq yuyan yolları…
Yollar necə gözəldi…

Qırmızıdı gedənlər,
Gələnlərsə sarıdı.
Yenə qəlbin yolları
İşıqlara sarıdı…
Gecə gözəl, yol gözəl…
Yoxsa, mən bu yolları
İlk dəfəmi görürəm?..
Yollar gecə gözəldi!..

Yollar… yollar Bakının
Qollarıdır bəlkə də…
Niyə mən bu qolları
İndiyədək bu qədər,
Belə geniş görmədim?

İlk dəfəmi görürəm
Qollar belə genişdi?
Nə deyir yollar mənə?

Qollar… qollar nə deyir?
İnciməsin qoy onlar,
Qolum olsun bu yollar…

Necə gözəl olur yol? –
Gözəllərmi keçincə?
Yaxşı ki yol heç zaman
Adam kimi düşünmür,
Yolluğunda durub o…
Nə yaxşı ki adamlar
Yolçu olar, yol olmaz…
Hər çiyindən asılan
Qol görünər, qol olmaz…
Yollar necə gözəldi,
Yolunuz açıq olsun!
Bu şəhəri qucacaq
Qolunuz açıq olsun!..

* * *

Ömür nədir? – Deyin, bilək,
Dan üzündən öynəyədək,
Bir yaxasız köynəyədək
Keçən gündü, can əfəndim…

Mənəmmi ömür yiyəsi?
Həm ömür, həm gor yiyəsi…
Bu dünyanın hərləməsi,
Can özüdü, can əfəndim…

Nə sürmüşəm-sürməmişəm,
Umutsuz gün görməmişəm,
Dərddən divar hörməmişəm,
Düz sözümdü, can əfəndim…

Can çıxırsa, can yaşayır,
Bədən ölür, qan yaşayır;
İllər ötür, an yaşayır,
Nə dözümdü, can əfəndim?..

* * *

Yenə əldə qələməm,
Şeir yazıram yenə,
Şeirə sən yazıram;
Sənə gözüm deyirəm,
Gözümə nəm yazıram.

Gəl, nə gəlsin xəyala,
Gün ələnsin xəyala;
O bir əlçim xəyala
Gah sən, gah mən yazıram.

Dəniz kimi qalxan mən,
Gəmiləri yaxan mən;
İndi baxıb sahildən,
"Geri dönməm!" yazıram.

Sahil deyil hər sahil,
Qağayılar da daxil…
Xatirələr lillənir,
Suya həmdəm yazıram…

Gəl, nə gəlsin xəyala,
Nur çilənsin xəyala;
Dalıb gülçin xəyala,
Necə sərsəm yazıram…

Yenə əldə qələməm,
Gah nəşə, gah ələməm,
Sənə dözüm deyirəm,
Söz verirəm…
və buraya
Yazıram…

# *Mir Cəlal adına Beynəlxalq hekayə müsabiqəsinin qalibləri*



*XX əsr Azərbaycan ədəbiyyatının korifeylərindən görkəmli yazıçı, ədəbiyyatşünas-alim və pedaqoq Mir Cəlalın adını daşıyan "Ədibin Evi" Yaradıcılıq Mərkəzinin keçirdiyi IV Beynəlxalq hekayə müsabiqəsi aprel ayının sonunda başa çatmışdır. Qaliblərin adları da hamıya məlumdur. O da hamıya məlumdur ki, mükafata layiq görülmüş hekayələr, müsabiqənin şərtlərinə görə, "Azərbaycan" jurnalında dərc olunur. Biz də ənənəni pozmayaraq, qalib hekayələri oxuculara təqdim edirik.*

*Beş ildən bəri keçirilən bu müsabiqədə məqsəd bütün dövrlərdə oxucuların böyük maraq göstərdikləri kiçik hekayə janrının inkişafına təkan verməkdir. Artıq arxada qalmış 4 müsabiqənin nəticələri ürəkaçandır. Təkcə elə bu faktı xatırlatmaq kifayətdir ki, bu müddət ərzində müsabiqəyə 1000-dən çox hekayə daxil olmuşdur; müəlliflər arasında tanınmış yazıçılarımızla yanaşı, xeyli sayda yeni, maraqlı imzalar da var. Bu imzaların müraciət etdikləri mövzuların ağırlığından bəzən isə xüsusi həssaslıq tələb etməsindən çəkinməmələri, obrazların daxili aləminə, onların psixoloji durumuna peşəkarcasına nüfuz etmək məharətləri sevindirməyə bilmir.*

*Bununla belə, münsiflər heyətinin qərarına görə, əksər müəlliflər əsərlərinin dilinə səhlənkar yanaşır, yazılarını müsabiqəyə çiy təqdim edirlər. Münsiflər müsabiqə iştirakçılarına onu da xatırlatmaq istəyirlər ki, müsabiqə kiçik hekayə müsabiqəsidir və tələb olunan həcmə ciddi əməl olunmalıdır.*

*Hörmətli müəlliflər, Sizə yaradıcılığınızda uğurlar arzulayır və yeni əsərlərinizi gözləyirik.*

*I YER*

*Leyla ƏLİYEVA*



# İŞIQ

Kişi tez-tez qurumuş dodaqlarını yalayır, sonra batıq olan ovurdları yenidən bir-birinə yapışırdı. Şirin bir şey yeyirmiş kimi, qəlyanın çubuğunu əlində tutmuşdu. Barmaqlarının arasında sürüşən qəlyan çubuğu, sanki naməlumluğun qaranlığında qarşısına çıxır, ona dünya ləzzətlərini xatırladırdı. Tüstünü buraxan kimi yenə çubuğu ağzına salır və sorurdu. O biri əliylə kibrit qutusunu döşəyin üstü ilə o tərəfə-bu tərəfə sürüyürdü ki, qəlyan sönəndə axtarmasın.

Yanaq sümükləri tüstü buludunun qoxusunu içinə çəkərkən, sanki balın dadını alırmış kimi, uçmaq mümkün olmayan dərinliklərə batırdı. O, hər nəfəsdə sanki yoxa çıxdığını duyur və bir daxili aləmə qərq olurdu. O, qaranlıqla işığı ayıra bilməyib, sonsuzluq okeanında gecə ilə gündüzün qarışdığı bu kainata təslim oldu. Ancaq bu dünyada o, sığınacaq tapdı, həmişəlik narahatlıq və növbəti anda görünə biləcək sonsuz intizarın əsiri oldu.

İşıqlı, aydın bir səhər idi. Kişi bütün gecəni yatmamışdı. Səhər olduğunu içəri dolan təmiz havadan, bir də obanı bürüyən yaş gərmə qoxusundan bilirdi.

Qaranlıqdan, işıqdan az-çox başı çıxırdı. Bilir ki, qaranlıqda kor olmayan da görmür. Amma görmək nədir, nə olan şeydir, bu haqda təkcə gecə-gündüz səbrini tökən nigaranlıqdan başqa özgə bir şey tanımırdı. Altmış ildən artıqdı yaxası bu nigarançılığın əlində idi.

Bilir ki, indi yaylaqdadırlar. Arandan bura gələnəcən bir aydan artıq vaxt lazımdır. Bu hundürlüyə hər maşın da qalxa bilmirdi. Çoxunun gücü çatmırdı. Maşın nədir – yenə qaranlıq qalır. Şofer əli ilə deyir ki, maşının presi neçə at gücündədir. Yəqin maşın da yük daşıyan heyvan kimi bir şeydir. Ancaq bir fərqi odur ki, o, dəmirdir. Kişi hələ indiyə kimi maşına minməyib. Qorxur.

Saç-saqqalı çallasıb. Üzu əvvəlki kimi hamar deyil; büzüşüb, qırışıb. Amma bunun onun üçün heç bir fərqi yoxdur. Çunki nə cavan vaxtında, nə də ki, elə indisində özünü görməyib. Adamları bir-birindən səslə ayırır. Onun dünyası səslərlə, qorxularla doludur. Adamların yaşını da səsinə görə təyin edirdi. Gəlinin səsi həzin, yatımlıdır. Kişi onun səsini hamınınkından çox istəyirdi. O, adamların münasibətini də səslə ayırd edir. Kişi kor olsa da, gəlini ondan həyalanır, yaşmanır!

İçəri kimsə girdi. Kişi başını qaldırıb soruşdu:

– Ay uşaq, kimsən?

– Mənəm, dayı. – Gəlin gətirdiyi südü qaymaq sərdikləri sərnicə boşaltdı. Bişmiş südün qoxusu içəriyə yayıldı. Kişi dərindən nəfəs alıb, udqundu. Gəlin süfrəni kişinin qarşısına saldı. Kasanı südlə doldurub soruşdu:

– Dayı, doğrama edim, yoxsa süd içirsən?

– Lazım deyil, a bala, süd elə hamısından yaxşıdı. Yeməyə həvəsim yoxdur.

– Onda yuxanı götürüm, süfrədə qalıb qurumasın. Budu ey, kasa da qabağındadı.

– Görürəm, a, bala, görürəm. Sən işində ol.

Gəlin qulaqlarına inanmadı, necə yəni görürəm. Kişi kor deyilmi?! Gəlin alaçığın qapısını açıb çıxdı. Kişi səsləndi:

– A bala, qapılığı qaldır, qoy içəri işıq düşsün. Qaranlıqda darıxıram.

Gəlin qapılığı qaldırıb uzaqlaşdı, hələ çatmamışdan qayınanası soruşdu:

– Kişi nə deyirdi, a qızım?

– Deyir qapılığı qaldır, içəri işıq düşsün, – sonra səsini yavaşıdıb əlavə etdi: – Xala, işıq onun nəyinə gərəkdir?

– Neynirsən, a qızım, hər nədi, ürəyi istəyir.

– Mən elə bir söz demirəm, xala. Dedi qapılığı qaldır, mən də qaldırdım.

– Allah ömrünü uzun eləsin. Kişinin qulluğunda hamıdan çox sən durursan. Kişinin sözünün başını qovma. Adam yaşlandıqca uşağa dönür, nə istədiyini özü də bilmir.

Daha danışmadılar. Gəlin əyilib ocağın közünü üfürməyə başladı.

– Qızım, qalıb qıcqıracaq. Apar sudün qalanına maya qat.

...Qapıdan içəri işıq düşürdu. Gəlin alaçıqda gəzindikcə tez-tez işığın qabağını kəsirdi. Onda kişinin üstünə soyuq kölgə düşürdü. Sümükləri yenicə qızmağa başladıqca kölgə yenidən düşürdü. Kişi bu işıqdan xoşallanırdı.

Kişiyə elə gəlirdi ki, üstünə, işıqsız gözlərinə düşən gözünün qabağını kəsən qaranlığı yandırır. Qaranlıq yanıb-yanıb qurtaracaq, onun yerini aydınlıq, işıq alacaq...

Bayaqdan süfrəyə qoyulan südün yarısını birnəfəsə içdi. Süd də işıq kimi ılıq idi. Dikəldi. Elə bil içində işıq yandı. Qaranlıq yanıb qurtarmışdı. İşıq onun batıq gözlərini qamaşdırırdı.

Ayağa durdu. Ayağı yer tutandan birinci dəfəydi ki, belə ürəklə qalxdı. Cəsarətlə addım atdı. Əlini qabağa uzatmışdı. Əlinin dərisi əzilmiş sarımtıl kağıza oxşayırdı.

Əllərini yanına salıb, dərindən nəfəs aldı. Hava qızmışdı. Kişiyə elə gəldi ki, ılıq hava yox, işıq kimi bir şey uddu. Köksu qabardı. Köksünü ötürdü. Gözünə qaranlıq çökdü. Yenidən nəfəs almaq istədi. Əhvalı dəyişdi. Oturmaq üçün əyildisə də, bacarmadı. Gözünü çəkən qaranlığın içində nazik bir işıq zolağı vardı. İşıq zolağı içindən keçib bütün bədəninə yayılırdı. Kişini ayaq üstə saxlayan da o idi. Bu zolaq getdikcə genişlənirdi. Kişi hiss edirdi ki, gözünün qabağındakı pərdə lap nazilib. Bu pərdənin arxasında bütöv bir dünya vardı.

Yerli, göylü bir dünya. Kişi bu altmış neçə ildə (bir dünyanı görməmişdi, ondan xəbərsiziydi. Adamları səsinə görə tanıyır, meyvələri dadına görə ayırırdı. Hər şeyi bir əlamətinə görə tanımaq nə qədər çətiniydi?! Kişinin ömründə ilk dəfə ağlına gəldi ki, indi gözü açılsa, o, heç kimi tanımaz. Heç doğma oğlunu da, arvadını da; o, hələ adam sifəti görməyib. Yuxusuna həmişə səslər girirdi. Adamlar onunçün səslərdi, səslər adamlardı...

Dunyada hər şeydən çox işıq var. Hər şey, elə həyat da işığın başındadı, əlindədi. Həmin işıqdan bircə qırıq onun içinə düşmüşdü. İşıq içində fırlanır, onu yerindən oynadırdı. İşıq çıxmaq istəyirdi. Özünə bir yol axtarırdı. Nəyin üstünə düşsə, onu da görürsən. Hamı belə deyir, işıq nəyin üstünə düşsə, onu da görürsən.

...Gözlərinin təzə sakini işıq gözlərinə yad idi. Bu yadlıq onu göynədirdi. İstəyirdi ki, heç olmasa bir xoşbəxt anlığa işıq gözlərindəki qaranlığı deşsin. Heç olmasa iynə ucu boyda özünə bir yol açsın, tapsın.

Gicgahının şişmiş damarları bərk-bərk vururdu. Elə bil indicə partlayacaqdılar. Hər iki əli ilə başını qamarladı. Başını əlləriylə bərk-bərk sıxdı.

...O, görürdü. Göy yamacları, yaşıl çəmənlikləri, boz çınqıllıqları görürdü. Sıx buludlar qırmızıya çalan bir rənglə göyün üzüylə sürünürdü. Kişi yüngülləşirdi. Yüngülləşib lap kəpənək kimi olmuşdu. Hər dəfə nəfəs aldıqca kişidən nəfəs yox, oda, alova bənzər isti bir şey çıxırdı. Kişi bu qəribə şeyin nə olduğunu dərk edə bilmədi.

Bir andaca içinə dolan bütün işıq, hava çıxıb geniş aləmə yayıldı. O, yüngül bir varlığa döndü. Sarı kağıza oxşar əllərinin buxarlanmaqda olan səhər şehində islandığını, indi-indi isinməkdə olan yaşıl otların varlığını duydu. Kişinin gözlərindən işıqda hər şey yoxa çıxırdı...

– Az, kişi necə oldu? – arvad gəlindən soruşdu. Onun səsində mehriban bir hökm vardı.

– Xala, xala… – gəlin birdən yuxudan ayılmış kimi alaçığın arxasını göstərdi.

– Az, day deynən evimiz yıxıldı ki, – hər ikisi kişiyə tərəf qaçdılar.

…Arvad əyilib kişinin təmiz səmaya dikilən gözlərini sığadı və başından qara şalını açıb, onun üzünə sərdi.

– Əcəl hərənin gözünə bir cür görünür. Yəqin kişinin də gözünə işıq donunda girib, – dedi. – Rəmətliyin arzusu görmək idi, o da gözündə qalmadı…

*II YER*

*Yaşar BÜNYAD*



# HEYVAGÜLÜ

...Liftin düyməsini basıb, gözlədim. Qabaqlar səbrim çatmaz, pilləkənləri iki-iki, üç-üç adlayıb qalxardım. Qıvraq ayaqlarıma güvənər, nədənsə nə sovetin ləng, uğultulu, nə də Koreyadan gətirilən səssiz, sürətli liftlərə etibar etməzdim. Tələskən, lakin ehtiyatlı idim. "Hə, Məcid, getdi o günlər" - deyib qımışdım, narahat olsam da, elektron displeydə "1" rəqəmi yazılanacan elə də çox gözləmədim. Qapı açıldı, düşən düşdü, məndən başqa bir cavan oğlan da liftə mindi. İlk dəfəymiş kimi, güzgülü geniş kabində duruxdum. Nə edəcəyimi bilmədim. Cavan oğlan qalxacağı mərtəbənin düyməsini basıb mənə baxdı:

- Neçənciyə gedirsiniz, əmican? - soruşdu.

- Üçə, - özümü ələ alıb minnətdarlıqla cavab verdim.

Üçüncü mərtəbəyə liftlə qalxacağım mənə gülməli gəlsə də, belə lazım idi. Təbiətən çılğın olduğumu bilən həkimim bərk-bərk tapşırmışdı ki, tam öyrəşənə qədər qəfil hərəkətlər etməyim. Səbrimi basıb deyilənləri sözsüz yerinə yetirməyə çalışırdım. Buna da şükür. Gör nə qədər əziyyətlərə qatlaşıb indiki hala gəlmişəm. Amputasiya edilən ayaqlarımın yarası sağalana kimi çətinliklə uyğunlaşdığım xəstəxana həyatı, reabilitasiya, ətraf mühitə adaptasiya olmaq bir il çəkmişdi. Bu müddətdə Gəncə, Bakı, İstanbul, sonra yenə Bakı hərbi hospitallarında müalicə alırdım.

Hə, köhnə olsa da, əlil arabası karıma çatırdı. Tibbi personalın köməyi ilə ara-sıra hospitalın həyətinə çıxır, hava alır, insanlarla ünsiyyətdə olurdum. Pandemya ilə əlaqəli bir xeyli qadağalar olduğundan, arvadım həftədə üç gün mənə baş çəkə bilirdi. Məktəblər bağlananda oğlum gəlməyə başladı. Bəzən arabayla hospitalın həndəvərinə də çıxırdıq. Müəyyən vaxtlarda məhdudiyyət olmasa da, araba köhnə idi deyə, çox uzağa getməyə ürək eləmirdik. Təsəlli verənlər çox olsa da, dərdini öz-özünə ovutmaq elə də asan olmurdu. Ağrılarınla baş-başa qalanda əlacsızlığını dərk edir, kömək olmadan yerindən qalxıb, ayaqyoluna getmək cəhənnəm, hətta, dərmanını götürüb içməyə belə aciz olduğunu anlayırsan. Bax, o anda

bütün dünya başıma fırlanırdı. Lakin aciz, əlacsız görünmək istəmirdim. Qəlbimi üzən anları yaşadıqca gözlərimə dolan kədəri gizlətməyi bacarmalıydım.

Evə buraxılanda protezlərin iki-üç aya gələcəyini desələr də, düz doqquz ay gözləmişdim. Bu, dəhşətli bir şey idi. Günəgün doqquz ay qulağım səsdə, gözlərim qapıda... Bəzən güclü ağrıkəsicilərin də keyidə bilmədiyi şiddətli ağrıyla qovrulduğum xəstəxanada belə darıxıb həyəcanlanmırdım... İki yüz yetmiş iki gün! Bunu yaşamayan anlamaz (Aradan xeyli vaxt keçsə də, yadıma düşəndə salamat qalan bütün əzalarım titrəyir).

Arvadım işdə olanda mənə oğlum qulluq edir, hər şıltaqlığıma dözürdü. Bəzən ağrılarımın şiddətindən əsəbiləşib özümdən çıxanda, bağıra-bağıra onu söyəndə belə, küsüb-incimirdi. Qabaqlar, vəziyyətim gərginləşəndə uşaq özünü itirir, nə edəcəyini bilmir, əl-ayağı əsim-əsim əsirdi. Mən sakitləşənə kimi nələr yaşadığını gördükcə özümü günahkar sanırdım. Axı, o da yaşıdları kimi çöldə-bayırda atılıb-düşməli, qayğısız uşaqlığın dadını çıxarmalıydı!

Sutkada ən azından üç, bəzən beş dəfə təbii ehtiyacımı ödəmək üçün altıma tibb bacılarının "ördək" dediyi ləyən qoyan oğlum nə hallar keçirirdi, ilahi! O, hər dəfə təmizlik işlərini bitirəndən sonra məni geyindirə-geyindirə ondan gizlətmək istədiyim dolmuş gözlərimə baxıb: "Ata, qurbanın olum, özünü sıxma... Utanırsan məndən? Özgəsiyəm? Niyə belə edirsən axı?" - desə də, dəfələrlə ögüdüyünü, üzə vurmasa da, burnunu tutub bir bəhanəylə həyətə qaçdığını görmüşdüm. Adam nə qədər ölüb-dirilərmiş?! Hər dəfə içimdə qırıla-qırıla onu köməyə çağıranda gülümsəyərək başımın üstünü alan oğlumun üzünə baxmağa utanırdım. Bəzən bilərəkdən, ürəyim istəsə də, yeməkdən imtina edir, ya da " iştaham yoxdu" deyib xörəyi kənara qoyurdum ki, təki o lənətə gəlmiş ləyənə ehtyacım olmasın. İlk dəfə heç nə deməmişdi. Sonralar bu təkrarlandıqca, duyuq düşən oğlum boynumu qucaqlayıb yalvardı: "Elə bilirsən niyə yemədiyini başa düşmürəm, ata? Özünə rəhmin gəlsin, nolar... Yeməsən, zəifləyərsən, camaat nə deyər?!" Oğlumun, axşamlar evə gələndə növbəti gün üçün yemək hazırlayan arvadımın fədakarlığı məni duyğulandırırdı. Camaatın nə deyəcəyi maraqlı deyildi. Camaat onsuz da hər şeydə bir əmma tapır. Bunu oğluma deyə bilmirdim. Nəhayət, uşağın qəlbini qırmamaq üçün çox da uzun çəkməyən "aclıq aksiyasına" son qoydum...

Bir orden, yeddi medalı nazir müavini təqdim etmişdi. Evimizdə. Köhnə əlil arabam sınmışdı deyə, nazirlikdəki rəsmi tədbirə qatıla bilməmişdim. Televiziya kanallarından da gəlmişdilər. Həmən gün arvadım işə getmədi, təmirsiz evimizi abıra saldı; yaxşı deyildi, mötəbər adamlar gələcəkdi. Oğlum, müharibədən qabaq qalın kartonla bağladığım şüşəsiz pəncərəmizin

birinə Türkiyə, o birinə Azərbaycan bayrağı asmışdı ki, otaq görkəmini dəyişsin. Əyər-əskiyimiz gözdən qaçmasa da, həqiqətən, otaq çox gözəl görsənirdi. Rejissor, yarısına divar kağızı çəkdiyim suvaqsız divardan döyüş şəkillərimi, hərbi formamı asdırmışdı. "Belə daha yaxşıdı" demişdi. Həmin gün Ali Baş Komandanın adından üçotaqlı mənzilin açarını alanda, üstündən ikicə saat keçməmiş, bütün kanalların xəbərlər proqramında evimizdən geniş reportaj göstəriləndə, bunu televizorda görən qonşularımız təbrikə gələndə isə, arvadım, oğlum sevinc göz yaşlarını saxlaya bilməmişdilər...

* * *

Xəstəxana həyatı bitəndən sonra məni yoluxmağa gələn bəzi qohumlar arvadımı kənara çəkib başını doldururdu: "Ay qız, bilirsən də nə qədər əl-qolunu, qıçını itirən var? Sayı-hesabı yox. Allah bilir protezlər nə vaxta gələcək. Çox arxayın olma, get, hökumətdən tələb elə. Onlar gərək sizin üstünüzdə yarpaq kimi əsələr. Bilirsən də, yatağan öküzün başına nə gəlir? Yazıqsan..."

Ara qarışdıran təkcə düşmənlərimiz deyildi ki... Belə söhbətləri eşitməkdən təngə gəlmişdim. Guya ağıllı çıxıblar. Müharibədə olduğum müddətdə bircə dəfə qapımı açmayan, ailəmdən "bəlkə nəyəsə ehtiyacınız olar?" sormayanların, indi, həssas durumumuzda saxta canıyananlıq etmələri ürəyimdən deyildi. Arvadıma dedim ki, nəbadə fikir verəsən, baş qoşma, vaxt gələr, belə düşündüklərinə peşman olarlar. Təmkinli ol. Dövlətin dərdi-səri tək biz deyilik ki?! Döyüşüb yaralanmışıq, şəhid vermişik, əvəzində torpağımızı azad etmişik. Bizdən başqa kim etməliydi bunu?! Erməninin xarabaya çevirdiyi şəhərləri, kəndləri yenidən qurmaq, qaçqınları dədə-baba torpağına qaytarmaq dövlətin boynunda ağır yük olsa da, bizi də unutmazlar. Yəqin yaddan çıxmarıq. Səbrin faydası böyükdü.

Əvvəllər bəzi çatışmazlıqlar olsa da, unudulmadıq. Çox keçmədi, Ali Baş Komandan ard-arda sərəncamlar imzaladı, tapşırıqlar verdi, hökumət hər işi yoluna qoydu; yardımlar artırıldı, aylıq təqaüdlər verildi, müharibədən qabaq evimizin təmiri üçün bankdan götürdüyüm krediti dövlət sıfırladı. "Gördün? - dedim, - inşallah tezliklə "ayaqlarım" da gələr. Səbrin olsun".

Hamı deyirdi ki, almanlar protezin ən keyfiyyətlisini düzəldir, demək olar ki, özününkü kimi olacaq ayaqların... Düz deyirlərmiş!..

Liftdən çıxdım. Bürkü məni haldan salmışdı. Geniş dəhlizdə dayanıb nəfəsimi dərdim. Elə bil ürəyim budumla təzə protezin öpüşdüyü yerdə döyünürdü. Həkim demişdi: "Tam yerinə oturunca belə olacaq, narahat olma, öyrəşəcəksən".

Təzə mənzilimizdən musiqi sədasını, arvadımın, oğlumun şaqraq gülüşünü eşidəndə həm kövrəldim, həm sevindim. İnana bilmirdim ki, nəhayət, bütün ağrı-acılı saatlar, günlər, aylar geridə qaldı. Ailəmin üzünün güləcəyi bu anı nə qədər gözləmişdim! Özümü ilk dəfə xoşbəxt hiss etdim! Efirə getməyən müsahibəm yadıma düşdü. Üç ay əvvəl hansısa telekanaldan gəlmişdilər. Hə, deyəsən, aparıcı qız məndən soruşmuşdu: "Əmi, inşallah ayaq üstə sərbəst dayananda ən birinci nə etmək istərdiniz? Yəqin ürəyinizdən çox şeylər keçir, elə deyilmi? Xahiş edirəm, televiziya tamaşaçılarına danışın, bu, çox maraqlıdı". Yadımdadı, mən "rəqs edəcəm!" demişdim. Hə, eləcə də demişdim. Televiziya işçilərinin məni heyrətlə süzmələrindən anlamışdım ki, nəsə başqa söz deməyimi istəyiblərmiş. Qəribədi, həyatında bir dəfə də əl-qolunu qaldırıb oynamayan adamın rəqs eləmək istəyi hardan ağlıma gəlmişdi, bilmirəm. Amma bunu çox istəyirdim. Elə bil protezdə yox, öz ayaqlarımın üstündə olduğumu sübut etmək üçün istəyirdim bunu. Ətrafdakılara deyil, özümü, tək özümü inandırmaq istəyrdim ki, ən zəif düşmüş insan da hər şeyə qadirdi. Əsas istəməkdi...

* * *

Qapını açanda boş otaqda əks-səda verən qara zurnanın səsi iliyimə işlədi. Özümdən ixtiyarsız, sanki yıxılaram deyə müvazinətimi saxlamaq üçün ayaqlarımı yerə bərk dayayıb qollarımı açdım. Əsgiylə pəncərənin tozunu alan arvadım əvvəlcə mənə baxdı, yəqin, nə etdiyimi dərk etmədiyindən, çaşsa da, təəccübünü gizlədə bilmədi. Oğlum qollarımın oyun havasının ritminə düşməyən hərəkətini görəndə kövrəldi. Sonra, deyəsən, o müsahibədə verdiyim sözü xatırlayıb gülümsədi, məni həvəsləndirmək üçün qənşərimə keçib oynamağa başladı. Mən ritmi tutmaqda əziyyət çəkdikcə, oğlumun gözləri nəmlənir, qollarını, ayaqlarını daha da qıvraq hərəkətə gətirib, dövrə vurur, sanki mənim də əvəzimə rəqs edirdi. Ona baxdıqca ürəyim sevincdən çırpındı. Musiqi duyumum olmadığından nə ayaqlarımı, nə də qollarımı ritmə uyğunlaşdıra bilirdim.

Melodiya bitəndə oğlum anasına qoşulub "afərin!" dedi, əl çalıb alqışladılar da. Xoşbəxt idim. Elə bil ayaqlarımda bayaqkı sızıltı da yox olmuşdu. Mən onda dərk etdim: rəqs etmək heç də tank sürməkdən asan deyilmiş. Qərara gəldim ki, günü sabahdan rəqs dərnəyinə yazılsam, pis olmaz. Vətənim azad, ailəm xoşbəxt, mənzilim var, ayaqlarım yerində... Deməli, oğlumun toyunda, ən azından, "Heyvagülü" oynamaq üçün rəqs etməyi mükəmməl öyrənməliyəm. Zaman gözləmir...

*II YER*

*Nuranə ABBASOVA*



# YANĞINLARIN DİLİ OLSA...

– Və onlar öz balaca qızları ilə ömürlərinin sonunadək xoşbəxt yaşadılar...

Anam bütün nağıllarını bu sonluqla bitirirdi.

Nənəm isə mənə yalvarıb-yaxarır, deyirdi:

– Başına dönüm, ürəyi nisgillidir. Heç nə demə. Bir nağılı çox görmə ona. Səndən başqa kimi var ki, övlad adına? O biri balasına danışa bilmədiklərini də sənə danışır. Kaş, bacın sağ olaydı, mənim də qızımın gözü nəm çəkməzdi.

– Nənə, axı demirsiniz o lənətə gəlmiş hadisə necə, niyə olub? Bilmək mənim də haqqım deyilmi? 19 il keçib üstündən. Anam bir qızı da olduğunu niyə unudub?

– Sus, qurbanın olum, sus! Eşitməsin. Niyə unutsun ki, o, səni də sevir. Övlad acısı elə-belə dərd deyil. Dünya durduqca gözündə, sinəsində dağı qalacaq.

– Sevir... Sözdü də deyirsən...

Nənəmə də yazığım gəlirdi. Atam da anama dəyib-dolaşmırdı. Çox az danışırdılar. Atamın sevimli, əziz, gözünün ağı-qarası bircə qızı idim. Çox varlı, nüfuzlu ailəm olub. Babalarımdan biri Bakının tanınmış prokuroru, o biri isə məşhur akademiki idi. Dost olublar. Atamla anamın nikahı da elə bu dostluğun nəticəsidir. Anamın uzun müddət övladı olmayıb. Ancaq nə atam, nə də ailəsi heç vaxt bunu dərd etməyib. Uzun nəzir-niyazdan, ziyarətgah səfərlərindən, dua-qurbanlardan sonra bir qızları olub. Adını Ləman qoyublar. Anam Ləmana o qədər bağlanır ki, ətrafındakı hər kəsi unudur. Ləmandan üç il sonra isə mən doğulmuşam. Yeri gəlmişkən, mənim adım Ləmandır...

Bacım Ləman dörd yaşında faciəvi hadisədən sonra dünyasını dəyişir. Qohumlarımdan eşitdiyimə görə, pəncərədən yıxılıb. Amma buna nəsə, ya da kimsə səbəb olub.

Daha bir faciəvi hadisə atamı və anamı məndən əbədiyyən aldı...

Bacımın ölümündən sonra valideynlərim şəhərin mərkəzindəki mənzilimizdən köçüb şəhərdən də, xatirələrindən də bir qədər uzaqlaşıblar. Yeni mənzilin anama yaxşı gələcəyini düşünüblər.

Nənəm deyirdi: "Cəmilə (anam) hər dəfə o pəncərəyə baxanda dəli kimi qışqırırdı"...

Adım Ləmandır demişdim. Bacımın ölümündən sonra anama təsəlli üçün adımı Türkandan Ləmana dəyişiblər. Nənəmin dediyinə görə, bu, anamı bir az rahatladıb. Amma zalım fələk amansız yol qəzası ilə anamı, atamı məndən ayırdı. Avtomobilləri qəfil alışıb külə dönmüşdü. Sən demə, bacımın pəncərədən yıxıldığı günün ildönümlərində onun məzarını ziyarət edirmişlər. Bunu isə hamıdan gizlədiblər. Qəza da belə ziyarətlərin birindən qayıdarkən olmuşdu. Xəbəri eşidəndə ağlaya bilmədim... Bir gün nənəm ömür boyu arzusunda olduğum yaxşılığı təklif elədi mənə:

– Daha yazıq balam da yoxdur bu həyatda. O evə getmək istəyirsənsə, açarlar kamodun alt gözündədir. Amma gərək bu gün, ya sabah adam göndərib otaqları təmizlədim.

Sevincimdən nə deyəcəyimi bilmirdim. Bəlkə illərlə verdiyim sualın cavabını o evdə tapacaqdım. Nənəmin boynuna bərk-bərk sarılıb:

– Ehtiyac yoxdur, nənə. Özüm yığışdıraram. Mənə nə gəlib ki? Görmürsən, böyümüşəm. Mənə də dəyişiklik olar. Bir neçə gün qalaram orda, – dedim.

Əslində, bundan sonra o evdə yaşamağı planlaşdırırdım. Amma qabaqcadan bunu ona deyə bilməzdim.

– Yox, Ləman. Qalmaq söhbətini yığışdır, – nənəm gözlədiyim etirazı etdi.

– Nənə, qurbanın olum, bunu mənə çox görmə. Daha uşaq deyiləm. Həm şəhərin içidir. Universitetə gedib-gəlmək də asan olar. Mən dərsə daha sürücü ilə yox, özüm gedib-gəlmək istəyirəm.

Çox yalvarışdan sonra həftə sonları yanlarına gəlmək şərti ilə nənəmlə babamı yola gətirdim.

Açarları əlimə alıb üzümü göyə tutdum:

– Bağışla, ana.

Səhər açılmırdı ki, açılmırdı. Səbirsizlikdən səhərədək yatmadım. Hava işıqlaşanda ilk işim yır-yığış eləmək oldu. Bir-iki dəst paltarımı götürüb sürücümüzün gəlməsini gözlədim. Babamla nənəmin bərk-bərk tapşırığından sonra şəhərdəki evimizin yolunu tutduq. Sürücümüz də evi yaxşı tanıyırmış. Susmaq göstərişi aldığından, o da ev barədə indiyədək danışmayıb. Binanın qarşısına çatanda sürücümüz doluxsunmuş gözlərini qaldırıb beşinci mərtəbədəki evimizi göstərdi:

– Mən qalxmayacağam, qızım.

– Eybi yox, Mehman əmi. Burdan sonrası mənlikdi.

Otağın pəncərəsi blokun pəncərəsi ilə yanaşı idi. Lifti gözləmədən qalxdım. Qapını açıb içəri girmək istəyəndə qəribə xof basdı məni. Geri qayıtmaq istədim, amma bununla da bu evə bir daha gəlmək şansımı itirəcəyimi bilib ayaq saxladım. İçəri keçdim. Hər tərəf toz içində idi. Dərhal işə girişdim. Mebelləri təmizləyib evdə səliqə-sahman yaratdım. Yuyulmalıları yudum, qapı-pəncərəyə əl gəzdirdim. Bacımın yıxıldığı pəncərəyə yaxınlaşdım. Oradan hər yerə nəzər yetirdim. Qarşımda çoxlu pəncərələri olan bir bina var idi. Binalar bir-biri ilə yaxın məsafədə idi. Hər pəncərədən fərqli rəngli pərdələr asılmışdı. Pərdələr elə bil hansı evdə kimin yaşadığını göstərirdi. Məsələn, qırmızı pərdəli evdə rəssam yaşaya bilərdi, ağ-qara pərdəlidə bəstəkar, teatral pərdəlidə aktyor...

Səhər ilk işim buraları gəzib-öyrənmək olacaqdı...

Qapıdan çıxıb liftə yaxınlaşanda qonşulardan biri ilə rastlaşdım. Ağ saçlı, qoca qadın binanın əzəli sakinlərindən olduğunu dedi:

– Babaşovlar qayıdıb?

Qəfil yalan söyləmək fikrinə düşdüm:

– Mən bura kirayəçi gəlmişəm.

Qadın təəccübünü gizlədə bilmədi:

– Babaşovlar bu evi kirayə veriblər?

– Aha. Nəsə olub?

– Heç, heç nə, – qadın təlaşla arxasını çevirib getdi.

Bura gəlişimin dördüncü günü idi, artıq sıxılmağa başlamışdım. Nə danışmağa adam vardı, nə də pəncərədən seyr etməyə mənzərə. Gördüyüm ancaq pəncərələr və pərdələr idi...

Günorta saat 15:00. Başımı qoluma dayayıb bacımın yıxıldığı pəncərədən qarşı binaya baxırdım. Qəfildən teatral pərdə asılmış pəncərədə tərpəniş sezdim. Mənim üçün əyləncə yaranmışdı. Nə olacağını gözləməyə başladım. Pərdələr aralandı və kuklalar görünməyə başladı. İnana bilmirdim. Gülümsəyərək tamaşaya baxmağa başladım. Pəncərədəki üzü görünməyən hər kim idisə, maraqlı bir kukla tamaşası göstərirdi.

O gündən bu tamaşalar hər gün davam edirdi. Günorta saat üç olan kimi pəncərənin qarşısındakı yerimi tuturdum. Qarşı binadakı pəncərənin pərdələri açılır, kuklalar hərəkətə gəlir və mənim üçün əsl əyləncə başlayırdı. Kuklaları hərəkətə gətirən isə heç vaxt görünmürdü. "Kim bilir, bəlkə də gizli aşiqimdir", – deyə gənc qız ədası ilə düşünürdüm.

Bu işin sehrini pozmadan bir ay hər gün eyni qayda üzrə davam edirdik. Həftəsonları nənəmlə babamı görməyə gedəndə ürəyim o pəncərədə, ağlım kuklalarda qalırdı. Görəsən, mən olmayanda o yenə öz

tamaşasını göstərir? Bazar ertəsinin gəlməsini dörd gözlə gözləyirdim. Dərsdən evə necə gəldiyimi bilmirdim.

Hər gün eyni vaxtda kukla tamaşalarıma baxırdım. Bir gün maraq mənə güc gəldi. Həmin binaya gedib o evdə kimin yaşadığını öyrənmək qərarına gəldim. İlk cəhdim uğursuz oldu. Cəsarət edib həmin mənzilə qalxa bilmədim və geri qayıtdım. Bir həftə sonra yenidən həmin binaya getdim. Əlimi uzadıb qapının zəngini basmaq istəyirdim ki, yan qapıdan çıxan qonşunun səsi məni diksindirdi:

– Çalma, qızım, orda heç kəs qalmır.

Duruxdum, nə deyəcəyimi bilmədim:

– Necə yəni heç kəs qalmır? Axı...

– 19 ildir, o qapı açılmır, – qadın sözümü kəsdi.

Səndələdim. Bu nə deməkdir? Evdə heç kəs qalmırsa:

– Kukla, – sözlər ağzımda qırıldı.

19 il iki üzbəüz mənzilin qapısı niyə açılmasın ki?

– İstəsəniz, ev sahibinin qızının telefon nömrəsini verə bilərəm, – qadın məni fikrimdən ayırdı.

– Verin, – qəhər məni boğurdu.

– Adı Gülərdi.

Evə necə qayıtdığımı bilmədim. Tez pəncərəyə qaçdım. Qarşı mənzilin pəncərəsində hər şey olduğu kimi idi.

Mənə verilən nömrəyə zəng vurdum.

– Alo, Gülər xanımdır?

– Bəli, eşidirəm.

– Sizinlə görüşməliyəm.

– Nə ilə bağlı?

– Evinizlə bağlı.

– Bağışlayın, satılmır.

– Bir dəqiqə, bir dəqiqə, dəstəyi asmayın. Mən sizi mütləq görməliyəm. Mən...

– Başa düşün, mənim üçün çox ağırdır.

Güləri yola gətirə bilməyəcəyimi görüb tələsik dedim:

– Danışan Ləman Babaşovadır.

Xəttin o biri başında səs kəsildi. Vaxt sanki donub qaldı.

Növbəti gün saat 15:00...

– Ləman Babaşova... Bu evlə niyə maraqlanırsınız?

– Nə deyəcəyimi bilmirəm. Ağlımda o qədər suallar var ki. Mən qarşı binadakı üzbəüz mənzildə... Biz də 19 il idi ki... – sözləri qırıq-qırıq tələffüz edirdim.

– Bilirəm.

– Nəyi bilirsiz? – gözlərim dörd olmuş halda soruşdum.

– Siz nəyi öyrənmək istəyirsiniz? – Gülər laqeyd halda soruşdu.

– Mən... Mən... Heç nə öyrənməyə gəlməmişəm. Sadəcə, hər gün mənə pəncərədə göstərilən kukla tamaşasını kimin hazırladığını bilmək istəyirdim.

– Kukla tamaşası? – Gülər məəttəl-məəttəl soruşdu. – Yuxu görmüsünüz yəqin. Bu ola bilməz. Bu evin pəncərəsində sonuncu kukla tamaşası 19 il əvvəl göstərilib.

– Nə? Bu nə deməkdir?

Gülər cəld çantasından çıxardığı açarı qapının kilidinə saldı və qapı açıldı.

– Aman Allahım! – istəmədən qışqırdım, – ola bilməz...

Bütün divarlar yanıb külə dönmüşdü. Əşyalardan əsər-əlamət yox idi. Təkcə pərdələr yerində qalmışdı. Pəncərənin önünə içəri tərəfdən yanmış kuklalar düzülmüşdü.

Gülərin yanaqlarından göz yaşları süzülürdü:

– Ləman, bax, bu tamaşanı da sənin ananla atan hazırlayıb. Onlar ölmüş qızlarının intiqamını atamdan belə aldılar. Onu bu evdə diri-diri yandırdılar. Ancaq bu 19 ildə bunu sübut edə bilmədik. Kukla teatrının kasıb aktyorunun fəryadını prokuror oğlu ilə gəlininə qurban verdilər.

– Mən heç nə başa düşmürəm, – hönkürdüm.

– Atam Kukla teatrının aktyoru idi. Niyazi Məmmədov. Atamın qarşıda bir daimi tamaşaçısı var idi – Ləman. Hər gün günorta, bax, o pəncərədə dayanar, atamın buradan göstərdiyi tamaşalara baxardı. Uzaqdan-uzağa bir-birlərinə çox bağlanmışdılar. Atam hər dəfə "mənim bir əsl tamaşaçım var, o da qarşı pəncərədəki o qızdır" deyirdi. Bir gün atam pərdələri yox, pəncərəni açıb kukla tamaşasını havada göstərmək qərarına gəlir. Bədbəxtlik də elə bu vaxt olur. Ləman da pəncərəyə dırmaşır. Atamın qışqırıqları fayda vermir. Əlini dəstəkdən çəkib əl çalmaq istəyəndə yıxılır...

Atam aylarla xəstəxanada yatdı. Bir daha özünə gələ bilmədi. Bütün bu olanlar isə Babaşovların atam üçün ölüm hökmü çıxarmalarına bəs etdi.

Atam əl-qolu bağlı halda evlə birlikdə yandırılır.

Bu evin qapısı 19 il əvvəl bağlanır. İndi bu qapını açmağımın səbəbi də sənin soyadın oldu.Yoxsa, bu qapı hamımız üçün əbədi bağlanıb.

– Gizlətdikləri bu imiş, – bütün bədənim boşalmış halda dedim.

– Yəqin, ananla atan vicdanları rahat, heç nə olmamış kimi soyadlarına sığınıb yaşayırlar! – Gülər ironiya ilə dedi.

– Yanğınların dili olsa, nələr danışarlar. Taleyin bumeranq oyununda soyad nədir ki? – buz kəsmiş halda pıçıldayaraq dedim. Pillələri necə düşdüyümdən xəbərim belə olmadı – anamla atam yanaraq öldülər...

*III YER*

*Aliq MƏMMƏDOV*



# NAQƏFİL ALVER

Canpoladın cöngəsi iki gündü xəstələnmişdi. İki gündə yetmiş manatlıq iynə vurulub, sistem köçürülsə də, heyvanda bir irəliləyiş yox idi. Düzdü, uzanılı halda olsa da, dünən axşama kimi həyətin sarmaşığından, ayrıqotundan, tut ağacının yarpağından az-az yeyirdi, amma bu həyət belə vəziyyətdən ayağa duran ikinci bir heyvan görməmişdi. Odur ki, Canpoladın qanı bərk qara idi. Xasiyyətini bildiyindən arvadı sözünün başına ip salmırdı, gördüyü işlərə fikir vermirdi. İndi də deyinə-deyinə su şlanqını qapının ağzına çəkirdi: növbəti dəfə dəmir darvazanın ağzını o baş-bu başa isladacaqdı. Belə baxanda, toz-torpaq yatsın deyə, sulamaq başa düşüləndi, ancaq nasos işləyirdi; indiki imkansız vaxtda bu da pul deməkdi. Avqustun istisinə neyləyəcəkdi, burdan isladırsan, ordan quruyur, di gəl, bir söz demək-danışmaq olmurdu.

Canpolad qorabişirən ayın anormal qızmar istisi altında heç nəyi vecinə almadan qapının kandarını sulayırdı. Bu dəm yoldan ötən hündür banlı ağ maşın qəfildən dayandı, içindən dörd nəfər canıhövlü düşdü. İçərilərində ən yaşlısı, ağ saçlı, ağ köynəkli, qalstuklu birisi salam verib əlini irəli uzatdı:

– Sənə qurban, o şlanqı bəri ver görüm, quyu suyudur yəqin, bir sərinlənək, – deməyi ilə şlanqı Canpoladın əlindən alıb aşağı əyildi, soyuq sudan ağ tüklü əllərinə axıtdı, üzünə vurdu. O, tanımadığı adamların dördünün də komanda şəklində cəld maşından düşüb iş başına keçmələrindən hiss elədi ki, onlar elə-belə, adi adamlar deyillər. Nisbətən cavanı, şişman qarınlısı:

– Haradasa oxumuşam ki, nemeslər vaxtı ilə küçələri dayı kimi yuyurmuşlar, – deyə irişdi.

– O küçələr abırlı-başlı bir şey idi, oğul, daşlarla hörülmüşdü, bizimki tozlu-torpaqlı yoldur; üç ildir asfalt örtüyü dağılıb. Evimizin bütün avadanlığı toz içindədir. İynəni yorğan-döşəyin arasında gizlətsən, bala, toza bulaşacaq, inan haa, – Canpolad nəsə fəhmlə duymuşdu ki, bu tipli adamlar yol üstə olduqlarından, çox ayaq saxlamazlar, ona görə hər dəfə sulama işini görəndə beynində öyürüb-çevirdiklərini istər-istəməz dilinə gətirdi.

– Mən hər yerdə deyirəm də, bizimkilər çox fərasətlidir: sən onları dolaşığa sal, gör necə ordan baş çıxarırlar, – bayaqdan fınxıra-fınxıra yuyunan yoldaşını gözləyən qarayanız bəstəboy adam dilə gəldi.

– Rəis, qarabala ağzına yiyəlik eləmir ha, yenə başladı... Sokraşeniyadan canını təzə qurtarıbsan, qadası, ancaq düzəlmirsən də, tut görüm, – dazbaş kürən qıyqacı böyüyünə boylandı.

Canpolad araya söz qatdı:

– Görürəm, uzaq yol gələnə oxşayırsınız, bir stəkan çayıma qonaq olardınız.

– Sağ ol, ağsaqqal, Allah razı olsun, xeyir işinə çağırarsan, gələrik. Yol adamıyıq, tələsirik, qonşu kəndə hüzrə gedirik, – ağ saçlı ciddi görkəm aldı, – dünən televizorda göstərilən, şəhərdə iş başında dünyasını dəyişən yol polisi bizim əməkdaşımız idi...

– Hə-ə, qonşu kənddəndi rəhmətlik, qabaqdan sağa, sonra da düz axıra kimi gedəcəksiniz, – Canpolad əlini irəli uzadıb duruxdu.

– Tamahının badına getdi, insanda pula nə qədər sevgi vardı, ilahi, yatmırdı ki, gecə-gündüz vurnuxurdu, rəis onun toyuna da gəlmişdi... – qarayanız bəstəboy yenə dilini dinc qoymadı.

– Atası kassir idi, kassir Kərim adı ilə tanınırdı, gözünü açıb rəhmətlik evdə pul görmüşdü, neynəsin, – Canpolad da bildiklərini nümayiş etdirdi. – Burda yaxşı ev-eşik salmışdı, içinə girməyə ömür vəfa qılmadı...

– Həyət quyusu olsa da, su şirindir, – bayaqdan dinib-danışmayan dördüncü qonaq da, nəhayət ki, söhbətə qoşuldu. – Ancaq bizim tərəflərin suyuna çatmaz, gedib görəcəksiniz, inşallah...

– Allah qoysa, dayını o yerlərə aparmaq mənnikdir, – qarayanız bəstəboy əlüstü söhbəti tamamladı.

– Bəsdirin, doluşun maşınlara, elə gedək, obedə düşməyək, – rəis səsini qaldırdı. Canpoladla ikilikdə qalanda astadan:

– Çox sağ ol, ağsaqqal, o saat bilinir, böyük ürəyin var, mərhəmətlisən, birdən nəyəsə ehtiyacın olar, çəkinmə, deginən, – ehmalca soruşdu.

– Sən nədən nigaransan, rəis?! – o, səsini elə ucaltdı ki, özü də diksindi.

– Üz-gözündən yorğunluq yağır, həm də narahat görünürsən, – yaxın adam kimi qoluna girdi.

– Sözün düzü, xəstə var, onunçün yuxusuzam. Elə bilərsiz adamdır, yooox, bir cöngəm var, iki gündü azarlayıb, üstünüzə sağlıq. Amma bekara şeydi, müalicə etdirirəm, ayağa durasıdı... – Canpolad rəisin məhrəmliyindən kövrəlmişdi, odur ki, bir az da ürəkləndi: – Qalxacaq ee, rəis!

– Uşaq olanda mən bu hissləri çox yaşamışam. Atam altı uşağı mal-qoyunla böyüdüb, oxudub, yerbəyer edib. Yaxşı yadımdadır, heyvan xəstələnəndə özünə yer tapa bilmirdi, qanı it qanına dönürdü. Qorxumuzdan cınqırımız çıxmırdı. Günlərlə ətini tökən heyvan murdar olanda elə vaysınırdı ki... İndi sən də, cöngə nə qədər çəkisini itirməyib, münasib qiymətə ver getsin. Canın sağ olsun, deyir: malın ağı gedər, qarası gələr... Ağsaqqal, bir şey də soruşum, ancaq düzünü söylə: möcüzəyə, bəxtəzada inanırsan?

– Allah kömək olmuş, yüz biletin doxsan doqquzu uduşlu olsa, o, bir uduşsuz – mənim qismətimdir. Ömürdü yaşayırıq də-ə... – axırıncı sözləri Canpolad elə ümidsiz söylədi ki, su şlanqı biixtiyar əlindən sürüşüb rəisin ayaqqabılarını islatdı.

– Di hələlik, biz gedək, sağlıqla qal, ağsaqqal, – rəis cəld çönüb maşına tərəf yeridi.

Quyunun suyu qurtarmaq üzrə idi. Ona görə şlanqı yığışdırıb qapıdan içəri çəkdi, nasosu cərəyandan ayırdı. Cöngəyə baxmaq üçün saraya gəldi; heyvan əvvəlki qaydada uzanmışdı, başını sola əyib göz qırpmadan məchul bir nöqtəyə baxırdı. Canpolad divarın dibində üstünə nimdaş qadın xalatı sərilmiş ağac kötüyünün üstündə oturdu. İndi hiss elədi ki, soyuq su ayaqlarına dəydiyindən damarları daralıb, ağrılar əmələ gəlib. Ancaq heyvanın indiki durumu ona hər şeyi unutdurmuşdu. Çünki bu həyətdə bin tutandan Canpolad çox mal-qara saxlamışdı, onlardan müxtəlif xəstəliklərdən tələf olanı az olmamışdı. Vaxt vardı, Canpolad xəstə heyvanın azarı ilə sona qədər yaşamışdı, gecələri dirigözlü açmışdı, amma başı bıçağa gəlməmişdi. Kəsilib dəyər-dəyməzinə imansız qəssablara verildiyi hallar ondan da çox idi. Bütün hallarda Canpolad azarlı heyvanların vəziyyətini anbaan izlədiyindən, deyə bilərdi ki, məsələn, cöngə indiki kimi başını sola əyib göz qırpmadan bir nöqtəyə baxırsa, yüzdə-yüz bir neçə saata getməlidir. Yoox, Canpoladın indiki halında cöngə ölməməli idi, ona görə ki, bütün ümidləri satılacaq heyvanla gerçəkləşəcəkdi: qalan üç başın yem pulu, üstəgəl ailənin qış azuqəsi, hələ payızlıq əkinin toxum kirəsi... Hər üçü də ceyran belinə qalxmışdı. Ot iki ildi qiymətdən düşmürdü, builki quraqlıq taxılın

qiymətini də əlçatmaz eləmişdi. "İndi gəl, ay yazıq kəndçi, dolan görüm necə dolanırsan, ölmürsən də canın əzabdan birdəfəlik qurtarsın. Nə danışırsan, ölmək olmazdı, ölənin dalının altında bəd ayaqda, heç olmasa, beş-altı mini olmalıdır. Odur ki, onu yaddan çıxart! Ya rəbbim, sən özün cöngəyə bu səfər səbəb sal, ayağa dursun, görürsən ki nə haldayam?! Heç zaman sənə əl qaldırıb belə yalvarmamışam, hər işinə "özün bilən məsləhətdi" demişəm, ancaq indi vəziyyət tamam alayı cürdür, başına dönüm, mən heç bu bədbəxtin dava-dərman, müalicə pulunu verməmişəm..."

– A kişi, orda kimnən danışırsan elə?... – Arvadı idi, sarayın qabağında dayansa da, görünmürdü. – Dünəndən ağzına bir şey almamısan, barı, şirin çay qayırım, içərdin... – Səs çıxmadığını görüb yubanmadı, sakit gəldiyi kimi səssiz-səmirsiz çəkildi.

Canpolad indi xatırladı ki, işə bax ha, cöngənin bu vəziyyətində qəssablardan hər hansı birinə xəbər verməyib, nədən ki, heyvana bıçaq dəyməmiş, ayaqüstə yenə babat pul verən olur. Qan çıxandan sonra, sanki atırsan hamara. Lakin kimə deyəsən, hamısı sözləşiblərmiş kimi, təxminən eyni qiymət oxuyacaqdılar, o da ancaq dava-dərmanın, həkimin pulunu güclə ödəyirdi. İndiki hava şəraitində kəsilmiş heyvan səhərəcən iylənər. Bu boyda cəmdəyi yerləşdirməyə soyuducu hardaydı. Belini daş divara söykəyib çarəsiz tanış qəssabları fikrində canlandırmağa çalışsa da, insaflısını xatırlaya bilmirdi. Əksinə, yadına düşənlər bir-birindən kəmfürsət, tamahgir idi.

Cöngə isə həyatla ölüm arasında çarəsiz çarpışırdı, heyvanın ağzından köpüklü selik axaraq torpağa damcılayırdı. Canpolad onun başını özünə tərəf düzəltməyə cəhd etsə də, boyun yenə sola əyilib qaxaclaşdı. Şəhadət barmağı ilə alnını taqqıldatdı, əlini gözləri qarşısında yellədi, sonra yumruğunu düyünləyib zərblə qatlanmış ayağına çırpsa da, cöngə heç bir reaksiya vermədən donuq gözlərini məchul nöqtədən ayırmadı. Canpolad güclə eşidiləcək batıq səslə:

– Sənə nə oldu, ay bədbəxt!.. – deyə inildədi. Bu anda cöngənin durumu olduqca ürəkdağlayan idi, sanki imdad diləyirdi ki, heç olmasa son macalda narahat edilməsin...

Dəmir qapı açıldı, bağlananda bərk səs saldığından Canpolad hiss etdi ki, gələn hər kimsə yad adamdır. Aman çəkmədi, cır səs aləmi başına götürdü:

– Ağsaqqal, hardasan? – addım səsləri düz saraya tərəf yaxınlaşırdı. İstər-istəməz ayağa durdu, çevriləndə qəssablığa az müddət əvvəl başlamış, ancaq bu işdə xeyli qabağa getmiş balacaboy, şüvərək cavanla üz-üzə qaldı. – Düz deyiblər hamısını, mal da hazırdır, lakin nə qədər

ölməyib, maşına mindirməliyik, qalanı mənlikdir. Qoşqunu bura rahat vermək olacaq. Ağsaqqal, yeri gəlmişkən, yadında olaram, bir dəfə səndən mal götürmüşəm.

Canpolad, hər halda, gələni ilk baxışdan tanımışdı, bilirdi ki, doğma anasının əmcəyini kəsəndi, gəl ki, yaman zirəkdi, yatmaq nə olduğunu bilmirdi, gecəsi-gündüzü yoxdu. Amma o, özü qəssab çağırmamışdı axı... Qəssab çağırmağı indi götür-qoy edirdi.

Zərrəcə danışmağa heyi-hərəkəti, həvəsi qalmamışdı; elə bil canı ilə əlləşməkdə olan cöngə yox, özü idi.

Birinci dəfə idi ki, Canpolad mal satarkən karıxaraq, lal-dinməz durub baxırdı. Cavan qəssab cibindən bir dəstə pul çıxarıb əlində oynadırdı: hamısı da yüz manatlıq əskinaslar:

– Ağsaqqal, səni sevindirəcəm, bu gün əlim yuxarıdır. Babam rəhmətlik həmişə deyərdi ki, səhər sübhdən duranın ruzusunu Allah verir, mənsə dörd ildir yatmıram, özün şahidsən, çöllərdəyəm. Burda on dənədir, azdırsa, əlavə edim. İnsafən, cöngə xəstələnsə də, kökdür, hələ ətini tökməyib. Deyim köməkçi maşını versin bura, canı çıxmamış yerinə çatdıraq, – deyib ərkyana darvazanı açmağa tələsdi.

Canpolad hələ də lal-kar dayanıb onun hərəkətinə göz qoyurdu: qəssabın gələcəyi parlaqdı, bunu danmaq olmazdı. Cöngəni qoşquya atmaq da çətinlik yaratmadı, köməkçi əldən qıvraq idi.

– Ağsaqqal, düzünü de, məndən narazılığın olmadı ki? – Cavab gözləmədən əlini uzatdı:

– Halallıq dilə...

Canpolad baş verənlərə sanki inanmayaraq maşın darvazadan çıxandan sonra da, yerində dayanıb irəlidəki döngədə gözdən itənədək arxasınca baxdı. Ancaq indi içərisində sevincə oxşar nəsə tərpəndi, geri qanrılıb tələsik darvazadan həyətə adlamaq istədi. Amma üzbəüz sürətlə şütüyən hündür banlı ağ maşını görüb ayaq saxladı: bu dəfə sürücünün yanında oturacağa yayxanmış rəis iki əli ilə dəsmalı üzünə sıxsa da, çiyinlərinin aramsız titrədiyi aşkarca görünürdü...

*III YER*

*Asim ARAZLI*

# KƏLƏNTƏR DAYI



*"Ürəyimi nişan al, Kələntər dayı! Ağrıdır axı!"*

İyirmi yeddi illik ömrümdə ilk dəfə idi ki, dəfn mərasimində iştirak edirdim. Soyuqqanlı deyiləm, əksinə, həssas bir adamam. Səhhətimdə ki, problemlərə görə heç vaxt ürək edib dəfn mərasimlərinə getməmişəm. Amma bu gün bura gəlməyə bilməzdim. Axı, bu gün Kələntər dayı ilə vidalaşma günüdür.

Hava yağışlı idi. Qəbiristanlıqların gecələr nə qədər sakit olduğunu eşitmişdim. Amma gündüz vaxtı bu durğunluq çox qəribə idi.

Kələntər dayını dörd il öncə tanımışdım. Müəllim kimi işləməyə başladığım bu kəndi mənə məhz Kələntər dayı doğma etmişdi. İndi bu durğunluqda fikirləşirəm ki, bir insan bir yeri insana doğma etdiyi kimi, yadlaşdıra da bilərmiş. Özümü tənha hiss edirəm. Lənətə gəlmiş boğulmalarım geri qayıdır. Düşünəndə ki, bu gün Kələntər dayı üçün son, mənim üçün isə bu ağrı ilə baş-başa qaldığım ilk gündür, boğazımda nəsə ilişir qalır. Bir yandan da bu soyuq hava məni çox qorxudur. Son günlər mənə hər vasitə ilə kömək edən insanı öz əlimizlə soyuq torpağa təhvil verib, bu azmış kimi, onu burda tək-tənha qoyub, geri qayıdacağıq.

Kələntər dayının evi kəndin qırağında idi. Tək yaşayırdı. Sonradan öyrəndiyimə görə, on il əvvəl yoldaşı rəhmətə getdikdən sonra tək-tənha yaşamağa başlamışdı. Övladdan bir qızı varmış. Yasəmən. Deyilənə görə, Kələntər dayı və rəhmətlik yoldaşı tək övladlarının adına görə toylarda həmişə "Yasəmənlər açanda" sözləri ilə başlayan mahnını oynayarmışlar. Yoldaşı rəhmətə gedəndən sonra Kələntər dayının nəinki bu mahnıya, ümumiyyətlə, heç bir toyda qolu qalxmadı. Qəribəsi budur ki, daha bu kəndin toylarında bu mahnı səslənmədi. Necə deyərlər, Kələntər dayı bu mahnını rəhmətlik yoldaşı ilə dəfn etmişdi.

Kələntər dayının həyətində pişik çox olardı. Özünün dediyi kimi: "Mehribanlıq olan yerdə pişik çox olar". Heç kim bilmirdi. Amma mən bilirdim ki, qızı Yasəmən bu pişikləri atasına əmanət edib getmişdi. Atadır da, bəlkə də, o pişiklərlə nəyinsə təsəllisini tapırdı.

Novruz bayramını bir dəfə Kələntər dayı ilə keçirmişdim. Ürəyim gəlmədi onu tək qoymağa. Bir tərəfdən də özüm bayramı tək keçirmək istəmirdim. Gecənin yarısına qədər Kələntər dayının qapısına uşaqlar papaq atdılar. Qoca bu papaqları görəndə o qədər sevinirdi ki, onun bu ürəyiaçıqlığına məəttəl qalırdım. Kasıb süfrənin bu mehribanlığı məni də xoşbəxt edirdi. "Bəs indi o papaqları kim dolduracaq, ay Kələntər dayı?".

Hava get-gedə pisləşir. Ağlaya da bilmirəm ki, ürəyim boşalsın. Bundan sonra nələr olacağını düşünəndə hər şey qorxulu bir mənasızlığa bürünür. Yasəmənin hıçqırıqlarını eşidirəm. Amma üzünə baxa bilmirəm. Boşluqlar məni öldürür. Bir yandan öz içimdə yaranmış boşluq, bir yandan da Yasəmənin gözlərində yaranmış boşluq. Bəzi boşluqlar insanı yorur. Öldürmür, sadəcə, yorur. "Yorursan məni, Kələntər dayı, yaman yorursan!". Halım son aylar çox tez-tez pisləşirdi. Ölüm haqqında çox fikirləşmək, boğulmaq, nəfəs ala bilməmək, tənhalıq. Kələntər dayı mənə çox kömək etdi. Yaşayaraq ölümü mənə sevdirən bu insanın öləcəyini heç düşünməzdim.

Kələntər dayı mənim vəziyyətimi öyrəndikdən sonra bir gün tezdən məni götürüb qəbiristanlığa gətirdi. Günortaya kimi müxtəlif qəbirləri təmizlədik. Sonra Kələntər dayı bir uşağın qəbrinin yanında süfrə açdı. Yemək yeməyə başladıq. Kələntər dayı diqqətlə üzümə baxıb soruşdu:

– Bu qəbirdəki uşaq səndən neçə yaş kiçikdir?

Mən başdaşına yazılmış doğum tarixinə baxıb dedim:

– 20 yaş kiçikdir, Kələntər dayı, niyə soruşursan ki?

– Mən o uşağa qibtə edirəm. Sən oxumuş adamsan. Müəllimsən. Amma bu kəndə gələndən ölümdən sonrakı həyat haqqında, bəlkə, yüz dəfə sual veribsən. Bir bax, yeddi yaşlı uşaq səndən gör nə qədər savadlıdır. Sualın cavabını bilir, bizim kimi girinc qalmayıb. İndi, ay bala, bu ölüm sənin üçün qorxudursa, bil ki, qorxmalı heç nə yoxdur, bax o uşağın gözlərinə, heç qorxmur. Çünki ölümü düşünməyib, dərk etməyib. Sən həm düşünürsən, həm də dərk etməkdən qorxursan. Sənin düşdüyün vəziyyət də hər kəsə qismət olmur. Rahat həyat indi sənin üçün şirindir. Özün deməsən də, bilirəm ki, rahat – boğulmadan nəfəs alanlar sənin gözündə dünyanın ən xoşbəxt adamlarıdır. Bəlkə də, sən onlardan da xoşbəxtsən ki, bunu bilirsən. Mən də ölümü fikirləşirəm. Bayaq fikir verdin, gördün ki, rəhmətliyin yanındakı boş yerə diqqətlə baxırdım. Qəribə bir şey yoxdur, ay bala, öz evimə baxıram. Qorxa-qorxa baxmıram. Pis-yaxşı yaşamışam. Rahatam. Öz dəfnimi də fikirləşirəm. Qızımın ağlamağı, sənin də kənardan baxıb köks ötürməyini. Bilirsən, rəhmətlik arvad həmişə deyərdi ki, ölənin yiyəsi çox olar. İndi qapımı açmayan adamlar doluşacaq bura. Yaxşı, ya da pis əməllərimdən, məni axırıncı dəfə harda, necə gördüklərindən danışacaqlar. Görürsən, bala? Ölümdən sonra olanları da bilirəm. Deməli, ölümə hazıram.

– Kələntər dayı, ölümü mənim üçün doğmalaşdırmağa çalışırsan.

– Mən ölümə daha yaxınam. Mən istəmirəm sən bu halına tutunub qalasan. Dünən bütün gecəni səni düşünmüşəm. Sənin sağlamlığınla bağlı

heç bir problem yoxdur. Amma niyə özünü bu qədər üzürsən? Dayın ölməyib hələ sənin.

– Qurban olum, Kələntər dayı, ölmə. Sənin üçün mən hələ heç nə etməmişəm.

– Mənim üçün nəsə etməyini istəmirəm. Deyəcəm ki, məni basdıranda Yasəməni qoyma ağlasın. Bilirəm ki, bunu bacarmayacaqsan. Amma axırıncı doğulan pişiyi görmüsən. Ona "Yasəmən" adını vermişəm ki, "Yasəmən" adı o evdə tez-tez səslənsin. Tənhalıq məni səni ölümün qorxutduğundan betər qorxudub. Görürsən də, mən nələrlə təsəlli tapıram. Başqasının gözündə pişiyinə öz qızının adını verən axmaq qocayam. Amma bilirəm ki, sənə bunları rahat deyə bilərəm. Yaxşı, bala? Gətirəcəksən?

– Əlbəttə, gətirəcəm, Kələntər dayı, mütləq gətirəcəm.

– Gətir, Yasəmənimin biri ağlayacaq, biri isə yox.

Dəfn yekunlaşmaq üzrə idi. İsti göz yaşlarım yanaqlarıma artıq ilk cığırını salmışdı. Gözümün qabağına Tənhalıq gəlirdi. İlk dəfə idi ki, hiss etdiklərimi gözümlə görürdüm. Maşın dumanlı yolla gəlir, mən də onun içində. Pəncərədən baxıram və uzaqdan Kələntər dayının qəbrini görürəm. İlahi, necə də tənha görüntüdür. Qəbiristanlıqda adam çox idi. Ölənin yiyəsi çox olarmış, doğrudan da.

Ətrafda gedən söhbətləri eşidirəm. Elə bil Kələntər dayı bu günün ssenarisini yazıb gedib, bu oyunçular da onları oynayır. Hər şey onun dediyi kimi olur. Gözümün qabağına daha qorxulu şeylər gəlir. "Kələntər dayının tənha qalmış evi. Qapıya yığılmış pişiklər. İndi onlara kim çörək verəcək, Kələntər dayı?". Birdən sinəmdə iki ürəyin döyündüyünü hiss etdim. İkinci Yasəmən paltomun altında asta-asta nəfəs alırdı. Onun balaca ürəyi mənim ürəyimlə bir vururdu. Paltomun düyməsini açdım. Balaca pişik Kələntər dayının yaş torpaqla örtülmüş qəbrinə baxırdı. Amma Kələntər dayının dediyi kimi, o biri Yasəmən ağlayırdı, bu Yasəmən isə, sadəcə, baxırdı. Özümdən asılı olmadan dodağımdan bu cümlələr çıxdı: "Bax, Kələntər dayı, dediyini etdim, gətirdim Yasəməni. O ağlamır".

Hər kəs yavaş-yavaş qəbiristanlığı tərk edirdi. Onlar maşınlara əyləşir, bir-birinə yol verə-verə buradan uzaqlaşırdı. Bilirdim ki, qəbiristanlıqdan uzaqlaşdıqca onların söhbətinin mövzusu dəyişir. Mən isə yağışın altında ikinci Yasəmənlə Kələntər dayının yanında qaldım. Amma haçanacan qalacam ki? Mən də gedəcəm. Bəs hara gedəcəm, ay Kələntər dayı? Bəlkə, buralardan çıxıb gedim? Uzaqlaşım bütün olanlardan, özümə söz verim ki, daha heç kimə öyrəşməyəcəm. Daha bu boşluqlara dözə bilmərəm. Özümü uzun, dumanlı bir yolda görürəm. Qaçıram və birdən özümə deyirəm: "Özündən uzağa qaça bilməyəcəksən".

İrəli yeriyib Kələntər dayının təzə evi ilə üzbəüz dayandım. Ölümdən qorxduğum çox olmuşdu. Amma indi yaşamaqdan qorxuram. Dodağımdan çıxan son cümlələri dedim: "Ürəyimi nişan al, Kələntər dayı, ağrıdır axı".

*III YER*

*Aysel ŞIXLI*



# SONSUZADƏK GÜLÜMSƏYƏN UŞAQ

Tez boya-başa çatmaq arzusunda olan uşaq böyük həyata qədəm basanda yenidən geri – uşaqlığına qayıtmaq istəyir. Bəs uşaqlıq nədir? Qayğılardan xəbərsiz, sevgi və şəfqətlə qurulmuş balaca dünyada yerdən qalxmağa kömək edəcək böyük əllərin olduğu yerdir. Axı hər zaman qanamış dizini üfürərək hər şeyin yaxşı olacağını deyən birinə ehtiyac var...

Otelin girişində dayanmış qara eynəkli qadın iri hörmə papağı ilə özünü yelləyirdi. O, saata baxıb ərinə narazılıq elədi:

– 09:50. Hələ on dəqiqə var. İstidən öləcəyik!

Uzaqdan sarı avtobus göründü, otelin darvazasına çatmamış dayandı. İçəridən düşən cavan oğlan: "Şirincə turu", – deyib əlini havada yellədi. Kişi cəld avtobusa tərəf qaçdı:

– Gördün? Vaxtından tez gəldi.

– Hə, nə olsun? Hələ yarım saat hamının yığışmağını gözləyəcəklər.

Ana papağını başına keçirib yolun kənarında qumla oynayan beş yaşlı oğlunu səslədi. Ata qapının ağzında dayanaraq onlara cəld olmalarını işarə edirdi. Hamıdan birinci içəri keçən balaca İsa: "Mən pəncərənin yanında oturacağam!" – deyərək özünə yer seçdi. İçəri isti və boğanaq idi. Sürücü kondisionerin mühərrik işə düşdükdən sonra işləyəcəyini deyib çölə çıxdı...

İsa pəncərə tərəfdə oturub əsnəyirdi. Uşağın gözləri hey yumulur, o, yatmamaq üçün başını silkələyirdi. Yanında əyləşmiş anası pəncərənin pərdəsini çəkərək içəri düşən günəş şüalarının qabağını aldı. İsa: "Yox, yox! Mən çölə baxıram", – deyib pərdəni təzədən açdı.

Avtobus yavaş-yavaş dolurdu. Hərdən bələdçi başını içəri salıb adamları nəzərdən keçirir, dəftərində qeydlər aparırdı. Sərnişinlər çoxaldıqca İsanın yuxusu qaçdı. O, ayaqlarını yelləyə-yelləyə maraqla pəncərədən ətrafa baxırdı...

Uzaqdan onlara tərəf gələn orta yaşlı hündürboy kişi uşağın diqqətini çəkdi. O, gülümsəyirdi. Yöndəmsiz addımlarla avtobusa yaxınlaşır, arabir əllərini bir-birinə çırpıb gülürdü. Geyindiyi qısa şort nazik ayaqlarını ortaya çıxarmışdı. Bəyaz dərisində çəhrayı səpkilər var idi. Xırda çiyinləri və arıq qolları günəşdən

yanmışdı. Sarıya çalan saçları günlüyünün altından çıxırdı. Kişi hərdən müvazinətini itirirdi, arxasında dayanmış qadın da qolundan tutaraq ona kömək edir, yıxılmağa qoymurdu.

Kişi avtobusa çatanda dayandı, arxaya çevrilib ardınca gələn qadına baxdı və yalnız onun işarəsindən sonra pilləkənə ayaq basdı. Qalxmaq istəyəndə yenə müvazinətini itirdi, yıxılacağından qorxub geri addım atdı. Qadın onun qoluna girərək bir daha cəhd etməsini istədi. Bir-iki uğursuz həmlədən sonra hadisəyə biganə qala bilməyən bələdçi də kişiyə köməyə gəldi.

Nəhayət, içəri girən kişi oturanlara bir-bir nəzər saldı. Bir anda gözləri sevincdən parıldadı və həyəcanlanmış uşaq kimi əl çaldı. Yanındakı qadın arxada yanaşı iki oturacağın boş olduğunu görüb oraya üz tutdu. Kişi də onun ardınca getdi. O, gülümsəyərək yanından keçdiyi adamlara əl edirdi. Bəziləri onun salamını alır, bəziləri özünü görməzliyə vururdu.

İsa bu qəribə kişi ilə göz-gözə gəldi. Utanıb tez üzünü yana çevirdi, ancaq marağına güc gələ bilməyib yenidən ona baxdı. Kişi hələ də gülümsəyirdi. İsa da güldü.

Kişi sevincək pəncərənin yanında ona göstərilən oturacağa əyləşdi. İsa anasına qısılıb pəncərədən maraqla bayıra baxan kişini gizlincə seyr edirdi...

Angelman sindromu təxminən 15.000 körpədən birində rast gəlinir. Bu sindromla doğulmuş uşaqların zəka geriliyi, nitq qüsurları və tarazlıq problemləri olur. Angelman sindromlu insanlar həyata göz açdıqları gündən bitməyəcək uşaqlıq yaşayır və böyüklərin dünyasında həyatda qalmağa çalışırlar.

Avtobus Şirincə kəndinin girişində dayandı. Adamlar düşüb bələdçinin başına toplaşdılar. O, kəndi gəzmək üçün iki saatlıq sərbəst vaxtın olduğunu deyib sonra alış-veriş üçün də bir neçə dükan məsləhət gördü. Hövsələsi daralan İsa atasının şalvarını dartışdırırdı. Bu zaman gözü yenə orta yaşlı kişiyə sataşdı. O, çətin qalxdığı pilləkənləri indi də enməyə çalışırdı. Görünür, yanındakı qadın insanları yubatmamaq üçün hər kəsin avtobusdan çıxmağını gözləmişdi. Onlar bələdçiyə yaxınlaşanda artıq hamı dağılışırdı. Üzündən gülüş əskik olmayan bu kişi İsaya maraqlı gəlirdi. Uşaq barmağını ona tuşlayıb atasına baxdı:

– Ata, o niyə belədir?

– İnsanları barmaqla göstərmək olmaz, ayıbdır! – Ata İsanın əlini aşağı salıb gözlərini ağartdı. – Gedək ananı tapaq, iki daşın arasında yoxa çıxdı. Allah bilir hansı dükana girib.

İsa daha heç nə soruşmadı. Onlar dükanlara tərəf getdilər...

Şirincə gəzintisi bitəndən sonra dəstə avtobusa doluşdu. Bələdçi əlindəki siyahını açıb bir-bir adları çəkməyə başladı:

– Rüstəm, Nilufər!

– Burada!

– Həsən, Gültəkin, İsa!

– Burada!

– Səkinə, Seymur!

Adını eşidən kişi cəld yerindən qalxıb sevincək özünü işarə etməyə başladı. Yanındakı qadın onu yerinə əyləşdirib: Burada! – dedi. Avtobusdan pıçıltılı səslər eşidildi. İsanın anası da yerində deyindi:

– Xəstə adamla belə yerə gəlməzlər.

İsa təəccüblə anasına, sonra "xəstə"yə baxdı. Kişi deyilənlərdən xəbərsiz gülümsəyirdi...

Angelman sindromlu insanlar daima gülümsəyirlər. Buna "Xoşbəxt kukla" simdromu da deyilir. Çünki onlar hər zaman həyat dolu və həyəcanlı görünürlər. Angelman sindromlu insanlar uzun və aktiv həyat sürə bilərlər. Bunun üçün sevgiyə və dəstəyə, cəmiyyət tərəfindən qəbul olunmağa ehtiyacları var...

Avtobus səfalı yerlərdən keçərək, nəhayət, ünvana çatdı. Günorta olduğu üçün havanın istiliyi artmışdı. Dəstə vaxt itirmədən kafeyə tərəf getdi. Həyət olduqca gözəl idi: iri palmaların arasından çiçək kolları görünürdü, düz mərkəzdə iri, mərmər fəvvarə vardı.

Fəvvarədən şırıltı ilə axan suyu görən kişi sevincək qışqırdı, tələsik yöndəmsiz addımlarla o tərəfə getməyə başladı. O, əllərini yuxarı qaldırıb bir-birinə çırpırdı. Dəstədə təlaş yarandı. Bəziləri uşaqlarını yanlarına çəkdilər. İsa da təntiyib anasına qısıldı. Qadın isə heç kimə fikir vermədən kişinin arxasınca getdi və onun əlini tutdu.

Qonaqlar üçün xüsusi hazırlanmış uzun masanın üstünə beqonvillər düzülmüşdü. Hər kəs özünə yer seçib oturandan sonra süfrəyə su və çörək qoyuldu.

Bir az keçmişdi ki, su ilə oynamaqdan əl çəkmiş kişi qadınla birlikdə zala daxil oldu və ortadakı boş stullardan birində əyləşdi. Bu zaman kişinin sağ tərəfindəki ailə narahat olub ayağa qalxdı və başqa, ondan daha uzaq yerə keçdi. Qadın buna əhəmiyyət vermədi. Kişi də heç nə anlamayaraq gülümsəyirdi.

Onlarla üzbəüz oturmuş ana ərinə göz-qaş elədi:

– Bəlkə biz də yerimizi dəyişək? İsa qorxar...

Ərinin etirazından sonra ana susdu.

Masaya yeməklər gəldi. İsa xörəklə dolu qabına baxıb ağız-burun əydi:

– Bu kartoflar çox yekədi. Mən belə yemirəm.

Ana cəld çəngəli ilə kartofları əzməyə başladı, İsa narazı sifətlə stula söykənmişdi. Bu zaman gözü üzbəüzdəki kişiyə sataşdı. Arıq kişi də stula söykənib qadının onun kartoflarını əzməyini gözləyirdi. Onların baxışları toqquşdu. Kişi gülümsəyib ona dil çıxardı. Bunu gözləməyən İsa duruxdu. Kişi ikinci dəfə yenə dilini çıxaranda uşaq da ona qoşuldu. Onlar gülüşdülər...

Angelman sindromlu insanlar su ilə oynamağı çox sevirlər. Onlar tez-tez dilini çıxarır, əllərini bir-birinə çırpırlar. Yeməyi çeynəməkdə və udmaqda çətinlik çəkirlər. Onları uşaq kimi görmək və sevmək lazımdır...

Nahardan sonra istirahət saatı elan edildi. Bəziləri sərin kafedə dincəlməyi, bəziləri isə ətrafı gəzməyi seçdi. Yerlərində dura bilməyən uşaqlar həyətə axışaraq fəvvarənin qırağında oynayırdılar. İsa da onların arasında idi, balaca maşın oyuncağını fəvvarənin kənarında ora-bura sürürdü. Ondan bir az aralıda yerə çöməlmiş kişi əllərilə suyu şappıldadırdı. Hərdənbir ətrafında qaçışan uşaqlara tərəf gedir, onlara nəsə deməyə çalışırdı. Bu zaman kişidən ehtiyat edən valideynlər övladlarını səsləyir, ona çox yaxın getməməyi tapşırırdılar...

Kişi İsaya və oyuncaq maşına maraqla baxırdı. İsa onu diqqətlə izləyən kişiyə gülümsədi. Kiminsə ona maraq göstərdiyini görən kişinin gözləri parıldadı. İsa bir az götür-qoy edəndən sonra fəvvarənin qırağı ilə ona tərəf getməyə başladı. Az sonra onlar qarşılaşdılar. Uşaq sarı maşını kişiyə uzatdı:

– Sənin adın Seymurdu, hə?

Həyəcanlı kişi əllərini qaldıraraq sevinc hərəkətləri göstərdi, daha sonra maşını götürüb suyun içinə saldı və oynamağa başladı.

Ana bir kənarda oturub onlara tamaşa edirdi. Kişinin sərt və yöndəmsiz əl hərəkətlərindən narahat oldu, qalxıb fəvvarəyə tərəf getmək istəyəndə səs eşitdi.

– Narahat olmayın, Seymur ziyansızdır. Elə bilin ki, o da bir uşaqdır. – Qadın anadan bir az aralıda oturmuşdu.

– Aydındır... Çox sağ olun, yanlış anlamayın...

– Mən öyrəşmişəm. – Qadın gülümsədi.

Sakitlik oldu. Bir az keçəndən sonra ana dilləndi:

– Yəqin siz baxıcısınız.

– Yox, bacısıyam. Seymur mənim böyük qardaşımdır. – Qadın yenə gülümsədi. – Valideynlərimiz rəhmətə gedəndən sonra bircə əzizi mən qalmışam.

– Ah, yəqin sizə çox çətindir.

– Ən çətini insanlar tərəfindən qəbul olunmaqdır. Çox adam onu ancaq "xəstə" kimi görür, yanından qaçırlar. Ancaq tanısalar, çox sevərlər. O qədər təmiz ürəyi var ki...

– Əminəm, elədir... – Ana nəzakət xatirinə gülümsədi. – Yəqin qardaşınıza da çətindir. Sağlam adamlardan çox seçilir, geri qalır. Sizcə özü kimilərin arasında ona daha rahat olmazmı?

– Əksinə, onları cəmiyyətdən ayırmaq, fərqli olduqlarına görə haqlarını əllərindən almaq düzgün deyil. Seymur belə də rahatdır. – Qadın yavaşca əlavə elədi. – Narahat olan "sağlam" dediklərinizdir...

– Haqlısınız... – Ana utandı. – Allah köməyiniz olsun!

– Amin! – Qadın köks ötürdü. – Bircə qorxum var, məndən sonra kim onun qeydinə qalacaq, kim onu sevəcək?

Qəflətən tappıltı eşidildi. Ayağı nəyəsə ilişmiş kişi üzüqoylu yerə yıxılmışdı. Əlindəki sarı maşının bir təkəri qoparaq kənara dığırlanmışdı. Kişi pərt halda başını qaldırdı. Həyətə sakitlik çökmüşdü, hamı nəfəsini çəkib ona baxırdı.

Qadın cəld kişinin yanına qaçaraq yerdən qalxmağına kömək etdi və fəvvarənin qırağında oturtdu. Kişinin gözləri doldu, qanamış dizini görəndə isə özünü saxlaya bilməyib ağladı. Qadın ona ürək-dirək verərək yarasını silir, üfürürdü. Ancaq kişi heç cür sakitləşmir, əli ilə üzünü qapayıb ağlayırdı. Yıxıldığını hamı görmüşdü, pərtliyini ancaq göz yaşları ilə ifadə edə bilirdi, hıçqırtısı həyəti bürümüşdü.

Kənarda donub qalmış İsa ağlayan kişidən gözünü çəkib ətrafa baxdı. Fəvvarənin qırağına toplaşmış insanların üzlərində qəribə ifadə var idi: bəziləri qəmgin, bəziləri narazı, bəziləri isə ürkək baxışlarla kişini süzür, ancaq yanına yaxınlaşmırdılar. İsanın başı gicəlləndi, dodağı əsdi və qəflətən özünü yerə çırpıb bərk səslə ağladı. Baxışlar bir anda kişidən uşağa yönəldi. Kişi də ağlamağını kəsərək nəm gözlərini iri açıb uşağa baxdı. Qaçıb gəlmiş ana oğlunu yerdən qaldıraraq üstünü çırpdı. İsanın dizi azca qanamışdı...

...İnsanlar dağılışmışdılar. Kişi artıq ağlamırdı, oturub sakitcə burnunu çəkirdi. O, valideynləri ilə birlikdə fəvvarədən uzaqlaşan İsanın arxasınca baxanda gülümsədi...

Angelman sindromlu insanlar ətrafa ancaq sevgi və nur saçır. Onların valideynlərinin payına sonsuz gülüşlər və işıq düşür...





*Süleyman ABDULLA*

## AĞRILARIN BAZAR GÜNÜ

Bu gün ağrıların bazar günüdür,
Nəfəstək sıyrılıb çıxdıq şənbədən.
Erkən ağrımağa tənbəlmiş ürək,
Obaşdan özünə zülm edir bədən.

Ağrılar ürəyi olanlarındır,
Çəkdik sinəmizin ən sağ yerinə.
Böyüdü gözümüz hədəqəsində,
Düşdük yuxuların qaçaq yerinə.

Hanı o həvəs ki, can çəkə adam,
Bütün tərəzilər susar harama.
Əli əyrilərin düz gəzməsinə,
Bazar olduğundan səbəb arama.

Satanın insafı, alanın cibi,
Burda ürək başqa, burda can başqa.
Vicdanın defisit vaxtına düşdük,
Hər şey bahalaşıb ağrıdan başqa.

Boş yer də qalmayıb canı qoymağa,
Kimsə ağrıdan da bir qazanc güdür.

Bir "bazar olsun"u vardır hər işin,
Bu gün ağrıların bazar günüdür.

## YOLLARIN AĞI

Qara rəngdə imiş yolların ağı,
Susub getmək olmur, dinşəyib qalmaq.
Olmur ki, "gec olar, güc olar" deyib,
Vaxtında zamandan öcünü almaq.

Yalançı adamlar verər təsəlli,
Daş yolun gözünü çalış qır, amma.
Yaş üstə dərd gələr əldən düşən gün,
Qolunda doğruçu saatdır amma.

Əlfini azdırsa yaz mehi, qışda,
Başının üstünü qar almağı var.
Çıxanda bilərsən gün işığına,
Ağ günün bir gecə qaralmağı var.

Nə bağa meyl elə, nə güvən dağa,
Yoxdan çiçəkləyən vardan bar olar.
Hirsini tökürsən daşa, torpağa,
Adamı qınayan adamlar olar.

Düşər qırışlara bəxti adamın,
Daha alın deyil o qaşqa, dostum.
Kəndiri dolamaq bir başqa şeydir,
Kəndiri kəsilmək bir başqa, dostum.

Dadına kim çatar dad-aman etsən,
Kölgələr yox olar bir axşam çağı.
Eyni yerə çıxar sonu ha getsən,
Qara rəngdə imiş yolların ağı.

## SON ADDIMDAN ƏVVƏL

Gərək son addımı atmasın adam,
Söyləyib getməsin son sözü gərək.
Yola düşmək üçün yolçu olmalı,
Yola çıxmaq üçün yol özü, gərək.

Sevinclə kədərin rəmzidir libas,
Ağ köynək üstündən pencəyi qara.
Gecənin koruna uyub da kimsə,
Atarmı özünü ayrılıqlara?

Ən donuq üzdə də nur axtarmalı,
Üşüdü ovcunda ağ qar, deməli.
Çox da qaranlığa aludə olma,
Kölgə düşən yerdə gün var deməli.

Çoxdur xatirəsi ən uzaqların,
Kimsə yad olmur ki, yad eyləməkdən.
Hərdən ağrını da udasan gərək,
Kim ləzzət aldı ki, dad eyləməkdən.

Bəlası ayrıdır yarımçıqlığın,
Olmur bu dünyada hər şey bütöv, tam.
Balaca xəta var, böyük günah var,
Gərək son addımı atmasın adam.

## TUTQUN HAVALARIN ŞEİRİ

Üzücü bir xəbər
əl-qol atırdı dalğaların qoynunda, –
sular udmuşdu ölüm-dirim oyununda bir balıqçını.
"Tutmaq" sözünü öz bildiyi kimi anlayırdı hərə...
Tutulmuşdu hava
balıqçının torundakı çırpıntıtək...
Yağış çisələyirdi yırtıqlarından...
Pis yamamışdı toru
balıqçı yuxusunu yozarkən üzü dalğalara…
Kimsə xatirə danışırdı qayalara çırpılan qayıqdan,
Nə illah etmişdisə
batıra bilməmişdi avarları fırtına.
Ürəyinə salmışdı qayığın Ay işığındakı siluetini dəniz
Xəbər tutub üzülənlər
balığa oxşadırdı dalğaların hikkəsini,
Tut ağacının çalxanan budaqları altında
qərar tutub kədərlənənlərə...
Biri əllərini göyə tutmuşdu,
biri üzünü dənizə,
başqa birisi fikrində çabaladırdı tutulan balıqları...
Üzürdü adamları dənizdə batan balıqçı...

## YARIMÇIQ DƏRS

***-1-***

Əldən düşən adam özünü axtarar, –
əvvəlcə barmaqlarının arasında,
daha sonra ayaqqabılarının burnunda...
Qopmaq söhbəti təkcə tufana aid olmur,
bir gün adamın ürəyi qopar,
başqa bir gün köhnə məstlərinin altı...
Əllərin qopması var dünyadan,
çiçəklərin, – çəməndən...
Hamının quzu arzuları
qurdla qiyamətə qalmır, dostum,
bəzən canavar doğulur süd dişləri adamın.
Qoparağını götürür nəfsi quzu-quzu
üçyarpaq yonca toppuzlarının...
Küləklər dişlərini xırçıldadır eşidəcəklərinə.

***-2-***

Müharibə axmaq işdir, dostum,
xəbəri olmur adamın öldüyündən.
Qəfil bir atəş yeriyir ciyərinin havalanan yerinə...
Solan rəngləri qırmızı boyanır dünyanın,
uçuşur başının üstündə ölüm kəpənəkləri...
Bir qadın səsi gəlir uzaqlardan hönkürtü içində
və ovcunun daşlaşmış qabarında
çiçəkləyir nəfəsi udum-udum...

Adam var ki, yeriyən torpaqdır,
gəzən ağacdır,
sinəsi xışıldayan evdir...
Bostandır əkini xəşəm olmuş...
Dirrikdir günü qara,
tarladır uyuğu yuxulamış,
güllükdür soyuqdəyməsi ləçək-ləçək...

Bacası qızmayan tavan kimidir bəziləri,
Ürək isitmək olmur hər barmaqları talaşalara...

Atəş pis şeydi, dostum,
təkcə düşdüyü yeri yandırmır ağrıların zəbanəsi.
Yerin qulağına son istəyini pıçıldamaq
almadığı sevgi məktubu kimidir, –
qismət olmur hər gənc əsgərə
üzüqoylu düşəndə arzularının qönçələri arasında.
Öz qəbrini çiynində gəzdirənlər üçündür vətən,
Sevgi, onda batmağı bacaranlaradır ümman.

***-3-***

Yoxsa ki,
əllərini gicgahına dayayıb
"əzizinəm..." oxumağa nə var ki,
şər vaxtının alatoranında üzü qürbətə...
Birisi axşam azanında
"ölürəm, ölürəm..." deyə zəngulə vurursa,
üzü qibləyə şikəstə oxuyur demək...
Hər atılan güllə deyil, hər vurulan hədəf...
Səs yanğı olanda oda salır adamı,
Heç kim mahnı oxumaqdan
ölməyib hələ, bilirsənmi?
Səsi mişarla kəsmək olmur, qılıncla doğramaq...
Kəsildisə, heç...
Yarımçıq heç nəyi sevmir həyat,
hətta ömrü belə...

***-4-***

Adam çiçəkliyə sərib üstündə oturur qəbrinin,
hər kəs yaşamaq istər ölümünə...
Son nəfəsin rəngini bilmək,
nəfəsinin tıncıxan yerində duymaq,
kirpiklərin ucundan qoparıb atmaq yuxu kimi...
Qəribə olur əldən düşən adamlar,
damcı-damcı hopur dərinliyinə özünün, dostum...
Su kimi axır ömür, lilli, bulanıq, durnagözü...

## QƏLƏBƏYƏ OYNAMAQ

İndi hamı oynayır...
Biri o biri ilə,

biri o birinin işi ilə,
başqa birisi o birilərinin çörəyi ilə...
Fərqi yoxdur,
nərddimi, damadımı, şahmatdımı....
Ya futbolmu...
Ən sərt bloklara baxmayaraq
hər kəs “kəsmək” istəyir zərbəsini torun o biri tərəfinə...
Ən sərt sürüşmə fəndindən asılı olmayaraq
hər ayaq qol vurmaq istəyində...
Ot üstə xokkeyi var bunun,
buz üstə konkisürməsi...
Sən domino oynamaq istərsən
əlindəki "ulaq" ölməsin deyə…
Tale atıb-tutar səni
bilyard daşı kimi küncdəki "siçan" deşiyində...
Adam var ki,
əlini qumar kağızına vurmur ki, günahdır,
amma anadan olandan "poker" oynayır bəxti ilə.
Yer üzü doludur oynayanlarla,
Kimsə artistlik edir, kimsə rəqqasəlik...
Və bütün bu oyunların sonunda bir qələbə istəyi...
Qaliblər müzakirə olunmur, əmin olun,
ən böyük qələbədir öz üzərində qazanılan!
Ən gözəl oyun təmiz oynanılandır,
ən təmiz qələbə, – nokaut!
Buyursun, tatamiyə...
Tanrı ilə güləşməyə cəsarəti olan kəs!

## QARA GÜNÜN AĞ İŞIĞI

Ağ işıq adına çıxarsan yola,
Üfüq kirpiyində çəkilər dara.
Gözünə görünən ilğımdır, dostum,
Azdırıb aparar qaranlıqlara.

Bir dağın yüzlərlə uçurumu var,
Aşağı dərədir, yanları kaha.
Ağzı günəşədir bütün çalalar,
Qəbirlər qazılır üzü dərgaha.

Atdın gözlərimin içindən lağım,
Düşüb işığına ruh gedəcəkdim.

Özün çuxurlanıb qaldın, torpağım,
Mən səni köksümdə dəfn edəcəkdim.

Ürəyin sinənə çırpar özünü,
İstəyər yaxanı küləyə açsın.
Hər kəsin olmalı bir qəza günü,
Oğul istəyirəm qədərdən qaçsın.

Yaman zayı çıxıb qaranlığın da,
Bir az bu dünyadan yana çıx, amma.
Üzü şər vaxtına sərçə cığında,
İşıq axtarırsan, ağ işıq, amma...

## BİR KİTABLIQ ŞEİR

Bir rəzəsiz qapı keçdi ömür dediyim yerdən,
Yağış döyən libasımı geydim torpaq rəngində.
Gözlərində od aradım yandırmağa özümü,
Demək, bir ovuc kül idim küləklərin cəngində.

Bu dünyada heç nə dəyməz bir udumluq nəfəsə,
Son budaqda son ümidtək çatlayıb bağrı qan nar.
Qəfil məndən çıxıb getdi qaranlığın zil vaxtı,
Ürəyimdə daşıdığım doğma, qərib adamlar.

Yox, özümlə götürmədim nə bir ünvan, nə bir ad,
Daha niyə köks ötürüm sonda ölüm-itimsə.
Bir atılmış daxma düşün, bir tavan, – yağış daman,
İndi məndə nə ürək var, nə üşüyən bir kimsə.

Adamları mümkün deyil qorumaq son ümiddən,
Saatların vərdişidir sabahlara qurulmaq.
Hər adama qismət deyil ölümlərin kralı,
Sevgi kimi gözəl olur ürəyindən vurulmaq.

Dan yerinin sazağında qapadıram kitabı,
Kimsə mənə dərs keçməsin nə insafdan, nə dindən.
Məqamıdır, indi gətir üfürməyə külümü,
Bir rəzəsiz qapı keçdi dünyanın gözlərindən.

## ÜRƏYİM QIŞ MEYDANI

Bu qışın da ürəyimdə izi var,
Kirşələrlə, xizəklərlə cızıldı.
Bəzən altı paxır atdı mis kimi,
Bəzən üstü qızıl zərlə cızıldı.

Böyüklərdi kiçik deyib dananlar,
İynə gözdən nəhəng canı keçirdim.
Ürək demə yumruq boyda meydana,
Mən içində "qış idmanı" keçirdim.

Keç, aldanma üstündəki buz laya,
Girə bilsən, inanmazsan çox şeyə.
Eh, bir azdan vur-çatlasın düşəcək,
Gələn çoxdu baxmaq üçün xokkeyə.

Qarlı yollar medallarla dopdolu,
Qar yuxumun ulduzu çin vaxtları.
Aradabir yuxarı da olurdu,
Atılmağın tramplin vaxtları.

Buğlandımı nəfəs döşün buz donu?!
Əngəldi dağ üstünə çən yıxılsa.
Mahnısının həzin notu qırılar,
Buz üstündə fiqursürən yıxılsa.

Sürüşənlər çox sevinər enişə,
Düşən yeri lap dinc idi hamıya.
Tək sən bildin qıvrılanda ilantək,
Ağrımağın sevinc idi hamıya.

Yağmasa da bu qışı qar yaşadım,
Tufan keçdi gözümdəki oyuqdan.
Əlimdəki tərə baxma, ürəyim,
Üşüyürəm içindəki soyuqdan.

## YER-GÖY SÖHBƏTİ

Yüksəklik
çata biləcəyini sandığın alçaqlıqdır həm də...
Bir ucu yuxarı, bir ucu aşağı

qalxarsa,
qalxarsa yıxılmaq üçün yollar...
Bütün ucalıqların özü boyda da dərinliyi var,
görünməz zirvədən dibi uçurumların.
Bir gün ağac mamırına dırmaşar əllərin,
bir gün qaya çopuruna...
Onda
dartacaq özünü arxasınca ayaqların,
çıxacaq cığırların ən sərtinə...
Ürəyin qopanda biləcəksən,
tufan deyil zirvələri uçuran sütun-sütun,
zəlzələ deyil səhraları qabardan dağ-dağ...
Hər kəs ayaqlarından yıxılar,
sən əllərindən alarsan badalağı.
Dişlərin dırnaqlarına çatmaz,
dişlə-dırnaqla yapışmaq üçün boşluqlardan...
Hər kəs üzü yerə düşər ağrımağa
sən üzü göyə...
İlahi, bulud rəngindəymiş göz yaşları
səma rəngindəymiş ağrılar...
Günəş sarısı çökmüş
son şüaları sozalan gözlərinin ağına,
gecə qaranlığı, – bəbəklərinə...
Düşərsən havasızlığa
ciyərlərin pörşələnər
tüstü verən soba üstündəki daş asılmış qazan kimi
Kirpiklərindən uçular bir dünya
əvvəl-axır
dağıntıları altında qalmaqdır ümidlərin, tale...
Çalışmaq lazımdır ki,
daş-qaya yağmasın başına cəsədinin...
Onsuz da bütün ölənlərin sinəsinə torpaqdır çökən,
ağlamaqla suvarmaq olmur ağrıları.
Sən cəhd eləmə fəthinə ucalıqların,
bir gün özü enəcək ayaqlarına...
Nə fərqi, ya zəlzələdən, ya vəlvələdən...
Könül alçaqlığı bir başqa, təzyiq yüksəkliyi bir başqa
gərək deyil havalanıb havasızlığa düşmək...
İnsan olduğu yerdə dəyərlidir,
yeri varsa olduğu yerdə...
Alın yazısıdır özündən yıxılıb ölmək!

# ÇƏTİN ŞEİR

Nə var ömrü yaşamağa lal, kar, kor,
Hər gün qada yaşamaqdır çətini.
Bir əli yağ, bir əli bal, – asandı,
Zəhər dada yaşamaqdır çətini.

Kasıb düşdük əcəllərin zəngində,
Yüyrək keçdik addımların ləngində.
Ömrü-günü timsahların cəngində
Verib bada yaşamaqdır çətini.

Nə işin var fələklərin işiylə,
Mərd adamsan, vuruş-barış kişiylə...
Ən yaxşısı dırnağıyla, dişiylə,
Çatıb ada yaşamaqdır çətini.

Hər boğazdan çətin keçən loxma ol,
Düşməninə qara dərd ol, boğma ol.
Ya özün ol, ya özünlə doğma ol,
Uyub yada yaşamaqdır çətini.

Hər ağrıya sinə gərər dağ adam,
Qara günü çətin görsün ağ adam.
O dünyada necə desin sağ adam,
Bu dünyada yaşamaqdır çətini?!...





*Günel AĞAZADƏ*

## TƏNHALIĞIN BİR ÜZÜ

Bir an gəlir, doğmalar da
Çox yad olur.
Sarılıram tənhalığa,
O da mənə aşiq olub
Sığal çəkir saçlarıma...
Elə sıxır sinəsinə,
Elə bil ki heç görməyib
Təklənib tənha qalanı.
Tənhalığın bir işi var:
Pıçıldayır qulağına
Zəhər kimi doğruları.
Tənhalığın bir üzü var,
Çoxlu əli...
Hardan baxsan, tənhalıqdı,
Yalan kimi guruldayan
Səsi yoxdur.
Elə bir sükutu var ki,
Batıraraq qulağını
Silkələyir varlığını...
Tənhalıq yaxşı məktəbdi,
Öyrədir ümid kəsməyi.
Ümidsizlikdə ölsək də,
Öyrətmir ümidlər edib

Ayla-illə can verməyi...
Tənhalıqda anladım ki,
Bu dünyaya qonaq gəldim.
Süfrəsində min bir təam,
Həzin rüzgar.
Bardağımda soyuyan çay,
Buludlarda gizlənən Ay...
Gözlərimdə bitmiş sevda,
Roman oldum tənhalıqda.
Tənhalıqda bəziləri
Çıxıb getdi adamlıqdan,
Bəzisi qərq olub getdi
Çılğın sükut dalğasında...
Öyrəndim ki, tənhalıqda
Özünə yol verməyincə,
Getmir insan bu dünyadan...

## YAZILMAYAN MƏKTUB

Hə, mənim əzizim, mənsiz necəsən?
De görüm – İşlərin yolundadımı?
İşinə qarışan, yolunu kəsən,
Xəbərsiz qalanda inciyən, küsən
Sevdiyin o insan qolundadımı,
Yoxsa, keçmiş olsun, geridə qaldı?
O çox güvəndiyin, o çox öydüyün,
Səsin yüksəklərdən gələcək deyə
Mayak adlandırıb, işıq bildiyin
Dostların sağında, solundadımı?
De – Arzulara çatdınmı bir-bir?
Mənimlə qurduğun xəyallarını,
Acı gerçəklərə satdınmı bir-bir?
Allah eləməsin, yadına düşsəm,
Təsəlli olaraq özünə de ki:
Getmək istəyirdi, istədi, getdi,
Mən heç nə etmədim, özünə etdi...
Belə de – Gözünün qurbanı olum,
Axı mən gedəndə açılıb yolun.
Geriyə baxarsan, ehtiyatlı ol:
Birdən ayaqların büdrəyər, əsər,
Birdən yollarını vicdanın kəsər...

## ÇİÇƏK YAĞIŞI

Arxamca yollara baxma, nə olar,
Yolların sonunda həsrət görünür.
Məni yaddaşından silməyə nə var?
Bir gün xatirələr yalana dönür...
Sən sevda çiçəyi qoydun adımı,
Mən sevda günəşin ola bilərdim.
Sorğusuz-sualsız getməyə nə var?
Kaş deyə biləydim duyğularımı,
Sinəndə döyünən daşa deyərdim...
Mən səni sənsiz də sevə bilərəm,
Yar yardan ayrılar, ürək ayrılmaz.
Qəlbində qonaqdım, çıxıb getmişəm,
Bilirəm ki, mənsiz dünya dağılmaz...
İndi istəmirəm geri dönəsən,
Ağlasan, heyifdi gözünün yaşı.
Tənha bir çiçəyi əzib keçməsən,
Yağardı başına çiçək yağışı?

## BİR OVUC HÜZUR

Gəl gedək, ruhum, gedək dünyadan,
Nə varsa, bəlkə də o dünyada var.
Orda nə hiylə var, nə də yalanlar,
İşıqlı yollarla gəl çıxaq gedək.
Ayaqyalın gəzir orda insanlar,
Nə yerdə şüşə var, nə də tikanlar...
Orda hər bir tərəf ağdı, ağappaq,
Kimsənin əl izi kimsəyə düşmür.
O dünyada kimsə ləkə götürmür,
Kimsə səndən küsüb demir barışaq...
Gedək, ruhum, biz də sənlə ayrılaq,
Son zamanlar sənlə olmur anlaşmaq.
Mən yerlə qovuşum, sən get göylərə,
Son dəfə bir dilək tutaq səninlə.
Sonsuz bir hüzur tap getdiyin yerdə,
Tapdığın hüzurdan bircə ovuc da
Gətir məzarıma, gətir qəbrimə...

## EVİMİN ÇARDAĞI YOX

Dörd divar arasında,
Dörd fəsil yaşayıram.
Evimin çardağı yox,
Yazda açan gülləri
Payızda külək vurur,
Ləçəkləri tökülür...
Gözlərim yol çəkəndə
Pəncərəmi buz tutur,
Çərçivələr hönkürür.
Evimin çardağı yox,
Bir künc tapam özümə.
Dizlərimə sarılam,
Özümü qucaqlayam...
Qış evimin ocağı
Yamanca zəifləyir,
Ovuclarım üşüyür.
Evimin çardağı yox,
Sobama qar tökülür...
Söylədiyim hər kəlmə
Ürəyimdən qopunca
Fəryad olur, ah olur.
Evimin çardağı yox,
Səmalara süzülür...

**OXUCULARIN NƏZƏRİNƏ!**

**“AZƏRBAYCAN”**

**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalın bir nüsxəsinin qiyməti 2 manat,**
**illik abunə qiyməti 24 manatdır.**
**İNDEKS: 76300**

*Təranə VAHİD*



# ÇÖKƏKLİKDƏKİ UÇURUM

## *İmsanlığın qürub çağı, amöb və mən...*

Diogen çəlləkdə yaşadığı kimi, mən də illərdi ürəyimin Marian çökəkliyinə çəkilmişəm. Ürək səviyyəsindən min kilometrlərlə aşağıda, çökək, xəfə yerdə sükutun səsinə qulaq asa-asa arzularımı uçururam. Xallı, zolaqlı, xanalı arzularım havada uçuşduqca fərəhimdən yerə-göyə sığmıram. Sağ-salamat mənzil başına çatsınlar deyə, arxalarınca su atdığım vaxtlar da olur. Sözün düzü, arzularımın çoxluğu məni qorxudur. Çoxluqdan qorxuram. Çoxluqda adam, arzu nədi, heç öz səsini də eşitmir. Ürəyimin çökəyini elə bu üzdən seçmişəm.

Hə, onu deyirdim axı, ürəyimin çökəkliyində oturub arzularımı uçurdanda ağlım Etna vulkanı kimi tez-tez püskürüb mənə gic-gic suallar verir. Deyir ki, boş yerə özünü yorma, ya dünyanın çökəyi olsun, ya ürəyin, çökəklik çökəklikdi, çökəklikdən çıxış yolu yoxdu.

Ağlımdan keçənlərə fikir vermirəm, işıq saçan, qanad çalan, azadlığa can atan arzularıma baxıb qanadlanıram.

Baxa-baxa da məhəlləmizdə yaşamış Nəcib müəllimin sözlərini xatırlayıram. Nəcib müəllim deyərdi ki, "arzular ruhdan qopan işıqlardı, dünyanı cazibəsində saxlayan, məhvərindən çıxmağa qoymayan elə o işıqlardı". O vaxtlar hamı müəllimə Allaha inandığı kimi inanırdı axı, mən də inanırdım. Sonra hamı "müəllim" oldu. Məhəlləmizdəki qəssab Balakişiyə, sürücü Qasıma, dəllal Mürvətə "müəllim" deyəndə, Nəcib müəllim məktəbə getmədi. Dedilər başı xarab olub. Kim ona müəllim deyirdisə, qayıdıb "müəllim atandı!", – deyirdi.

Bir dəfə Nəcib müəllimi məhəllədə gördüm. Köhnə oturacaqda oturub kiminləsə xısın-xısın danışırdı. Yanlarından keçəndə onun "Day mənim heç bir arzum yoxdur", – dediyini eşitdim. Ayağım yerdən üzüldü. Adam deyirdi ki, arzum yoxdur! Arzum ha... Vaxtın, pulun, evin, maşının, işin ol-

maya bilər, amma arzun... O gün bərk qorxdum. Üç gün sonra eşitdim ki, Nəcib müəllimin ürəyi dayanıb. Onda başa düşdüm ki, adam arzuları öləndə ölür.

Sonra saysız-hesabsız arzusuz adamlar gördüm. Yarpaq kimi bir ucdan tökülüb gedirdilər. O vaxtlarsa cavanca uşaq idim, havalı-havalı dolaşır, adamlara insan haqlarından, söz azadlığından, dünyanın gedişatını dəyişən adamlardan, bir də rəngli arzularımdan danışırdım. Bir gün universitetdə Əziz müəllim məni yanına çağırıb hal-əhval tutdu, sonra çal qaşlarını qaldırıb: "Oğul, nəbadə kiməsə arzularından danışasan", – dedi.

Narazı-narazı üzünə baxdım.

– Bəs neyləyim, arzularımı gizlədim?

Əziz müəllim heç nə demədən üzünü çevirib getdi.

Elə o gün onu da, dediklərini də unutdum. Bir də illər sonra, ölən arzularımın uzun, çox uzun siyahısını çıxaranda Əziz müəllim yaddaşımda dirildi...

Gör hardan hara gəldim, arzularımdan danışırdım axı.

Ürəyimin çökəkliyində bardaş qurub arzularımı uçurduram. İşıq sorağıyla yola çıxan arzularımın hamısı arzusuna çatmır, vurulub çökəyə düşən arzularımı görəndə məyus oluram.

Budey ha, arzularımdan biri, qızılı butalı arzum havada vurulan göyərçin kimi tappıltıyla yerə dəyir. Mən ölmüş arzumu ovcumda gizlədirəm. İstəmirəm çökəklik ölmüş arzumu görüb ürəklənsin. Onu ehmallıca "Sən çoxlarının bacarmadığını elədin, heç olmasa çökəklikdən çıxmağa cəhd elədin", – deyib ürəyimin sükut yoluyla əbədiyyətə yollayıram.

O gün uçurduğum arzularımdan biri ürəyimin dördüncü kanalından poçtuma məktub göndərmişdi. Oxuyub xeyli təsirləndim. Məktub elə belə başlayırdı:

"Məni tanıdın? Balaca, itburnu çiçəyinə oxşayan ağ-çəhrayı arzunam da. Min kilometrlərlə yolu qanad çalıb işığa çathaçatda qəfildən iri başı, qorxunc gözləri, yastı burnu olan bir yırtıcı peyda olub: "Sən kimsən, kimlərdənsən, nəyə, nəyinə güvənib buralaracan qanad çalmısan, hə?", – deyib yolumu kəsdi. Mən özümü itirdim, amma nəsə deməliydim. Dilim topuq çala-çala: "Mən arzuyam, olanım bu xırdaca qanadlarım, bir də az-maz cəsarətimdir", – dedim. Yırtıcı tərs-tərs məni süzüb kinli-kinli "Boşuna özünü yorma, sən kimsən ki, çökəklikdən çıxmağa cəhd edirsən? Bu cürət, bu cəsarət hardandı? Sən xırdaca, heç nəyə yaramayan, heç nəyi olmayan, olsa-olsa, çökəyə məxsus xəyalpərəst axmaqsan!", – dedi.

Nəfəsim kəsildi, bir belə qanad çalandan sonra gərək mənə belə ağır sözlər deməyəydi. İçimdəki qürur qımıldanıb: "O yekəbaşın dərsini ver!", – dedi. "Bilirsən nə var, mən çox qanad çalmışam, lap çox, işığa çıxacağıma, arzuma çatacağıma inanıram...", – dedim.

Yırtıcı çənəsini şaqqıldadıb ağzımı əydi, "qanad çalmışam, arzuma inanmışam"... Hansı arzuna? Sənin kimi milyonlarla, yox, yox, yox... milyardlarla qanad çalan quşbeyin, səfeh var! Boşuna ha qanadlan, ha uç, ha havalan, elə bilirsən zirvələr yolunu gözləyir? Bax, o zirvələr var ha, dimdiyiylə başımdan elə vurdu ki, gözümün qarası saat kəfkiri kimi o yana-bu yana getdi, onlar hamısı ucdantutma tutulub, heç bir dənə də boş yer yoxdur. Burdan elə get, dəyirmandan darı gedən kimi.

Hə, elə belə də dedi. Mən heç bilməzdim ki, yırtıcı atalar sözü də bilir. Elə qəzəblənmişdi ki, bir dimdik də vursa, canım çıxardı. Amma xoşbəxtlikdən telefonuna zəng gəldi, cəhənnəm olub getdi. Qorxuram yuxarı qalxdıqca bədheybətlərin sayı arta. Belə baxanda, o qorxunc məxluğun hər şeyi var. Sümükdən dimdiyi, möhkəm caynaqları, min rəngə çalan lələkləri, nələri, nələri... utanmadan bapbalaca bir arzunun yolunu kəsib hədə-qorxu gəlir. Utanmaz! Axı mənim nə canım var. Olsa-olsa, Günəşi görmək istəyən xırdaca bir arzuyam da. Heç orasını da bilmirəm ki, arzuma çatam, ya çatmayam...

Di salamat qal, arzularını uçurdanda onlara yolların hamar olmadığını deməyi unutma.".

Bu məktubu yazan arzumdan günlərdi xəbər-ətər yoxdur. Necə oldu, başına nə gəldi deyə, gözüm yollarda qalıb.

Hələ bu harasıdı, yarımcan olmuş arzularımdan biri danışırdı ki, mən çökəklikdən az qala çıxacaqdım. İşığın əlindən tutmağa az, lap az qalmışdı ki, məmuryösünlünün biri peyda olub üstümə çımxırdı: "Olmaz, sənə olmaz, çökəklikdə ola-ola işıq saçırsan, xəbərin var ki, dəniz səviyyəsindən min kilometlərlə yuxarıda hamı bombozdu?! Bu parıltın, fərəhin, işığınla işıqsızların ağlını qarışdırmaq istəyirsən? Qayıt xarabana, hardan gəlmisən ora, bir də qarşıma çıxıb başımı xarab eləmə! – dedi və məni dimdikləyib çökəyə atdı.

Bilənlər bilir, ürəyimin çökəkliyinin ən dərin yerində Çellencer uçurumu var, qanadı qırılan, ümidləri suya düşən, cəhd etməkdən yorulub usanan arzularım bir ucdan özünü uçurumdan əbədiyyətə atır. Düzdü, arzularımın intiharına yaxşı baxmıram. "Madam ki, nə vaxtsa öləcəksən, niyə özünə qəsd edirsən?", – deyə bir dəfə uçurumun başında, ölümün ağzında buza dönən narıncı arzumdan soruşdum. Sakit səslə: "Mən intihardan əvvəl ölmüşdüm", – dedi.

Çellencer uçurumu bir yandan, işığın qarşısını kəsən əjdahalar o biri yandan arzularımı udur.

Çökəklikdə ürəyim sıxılanda suların altında uyuyan qədim mağaralara enib insanlığın itən kodunu axtarıram. Bir dəfə mağaralardan birinin divarında qanad şəkli görəndə heyrətdən ağzım açıla qaldı. Qanadın ucunda iri bir amöb sağa-sola axa-axa birhüceyrəlilərin yeganə nəğməsini oxuyurdu. Arada da səsinin zil yerinə salıb "çökəkliyin arzusu qanaddı", –

deyə-deyə zəngulə vururdu. Min ilin itiyini görən adam kimi amöbə baxdım. – Elə baxma dedi, – görmürsən, gecə-gündüz çökəkliyə qırıq qanadlar yağır.

Amöbün sözləri qarşısında ölüb yerə girdim. Suyum süzülə-süzülə uzaqlaşmaq istəyirdim ki, "dayan", – dedi. Dayandım.

– Sən niyə burdasan?

– Bu uzun söhbətdir, – dedim.

– Bəlkə mənə danışasan?

Etirazın sükut yolunu seçməmişdim, əvvəl-axır danışmalıydım. Amöbdən etibarlısını hardan tapacaqdım?

– Danışacam, – deyib amöbün qarşısında diz çökdüm. Amöb də yalançı ayaqlarını yığışdırdı.

Utana-utana:

– Heç kimə demə, mən insanlardan qaçmışam, – dedim.

Deyəsən, sözlərim amöbü qorxutdu.

– Doğurdan? Bəs bizə Marian universitetində öyrədirdilər ki, insanlar ali varlıqlardı?!

– İnanma, sizin universitet də bizim universitetlər kimi yalan danışır, – dedim.

Amöb tutuldu, pərt-pərt:

– Təbiətdə yalan olmur, – deyib gözlə görünməyən əl telefonunda yalan sözünü axtarışa verdi. Sevincək halda: "Tapılmadı, nəticə 0-dı", – dedi.

– Özünü yorma, yalan insanlara məxsusdur. – Elə beləcə də dedim.

Amöb əlini bizdən üzmüşdü. Deyinə-deyinə: "İnsanlığın itən kodu sevgidi, onu qoruya bilmədiniz, Tanrını məyus etdiniz!", – deyib üzünü çevirib getdi.

Mən heyrətlə müdrik amöbə, divardakı qoşa qanada, bir də suya düşmüş əksimə baxırdım...

# DİVAR

**Proloq əvəzi:** ***Kəsilmiş zeytun ağaclarının sağlam kökləri torpaqdan başını qaldırıb Günəşi axtardı...***

Köhnə beşmərtəbəli binanın üzü zeytun bağına baxırdı. Baxırdı deyəndə, əvvəllər baxırdı, sonra zeytun ağacları bir-bir yoxa çıxdı, yerində ağ evlər "bitdi". Siftə-siftə agaclar yoxa çıxanda adamlar nəyəsə ümid eləyib səs-küy saldılar, sonra hamı susdu. Ta o vaxtacan ki, beşmərtəbəylə üzbəüz sonuncu zeytun ağacları bir gecədə yoxa çıxdı...

Beşmərtəbədə yaşayan Nəsir müəllim o səhər adəti üzrə eyvana çıxıb zeytun ağaclarıyla salamlaşmaq istəyəndə duruxdu. Yarlı-yaraşıqlı, qollu-budaqlı, yamyaşıl zeytun ağaclarının yeri yanmış zəmi kimi qaralırdı. Nəsir müəllim gördüyünə inanmadı, əlini gözünün üstünə qoyub yenidən baxdı, diqqətlə baxdı, bir də baxdı, elə bil ağaclar quş olub uçub getmişdilər...

Ayaqları bir-birinə dolaşa-dolaşa başıalovlu evə keçib çay dəmləyən arvadına bir söz demədən, köhnə gödəkcəsini əyninə alıb tələsik qapıdan çıxdı. Heç arvadının "A kişi, çörəyimiz də yoxdu" ismarıcını da eşitmədi. Nəsir müəllim həyətə düşəndə iki-üç kişi binanın tinində boyun-boyuna verib siqaret çəkirdilər. Adətən, məhəllədə kimsə öləndə bu sayaq olurdu. Nəsir müəllim onlara yaxınlaşıb salamsız-kəlamsız:

– Dünya dərəbəylik deyil ha, gözümüzün qabağında bağı qırıb-çatdılar, cınqırımız da çıxmadı. Day belə də olmaz da! – dedi.

Yaşı səksəni keçmiş Bərəkət kişi çənəsi əsə-əsə:

– Bu gecə ağacları qanbağır elədilər. Kim elədisə, Allah evini yıxsın, – dedi.

Adamlar bir ağızdan "Amin!" – dedilər.

Nəsir müəllim gələndən sonra kişilər elə bil ürəkləndilər.

Hacı kişi əliylə boş yeri göstərib:

– Gedək baxaq, – dedi.

Kəsilmiş ağacların yerində yaşıl budaqlar, yerə tökülmüş qara zeytunlar, bir də ürəyi sıxan boşluq qalmışdı... Bərəkət kişi mişarlanmış 37 kötük saydı. Xıdır kişi siqaret alışdırdı. Hacı kişi gödəkcəsinin cibindən çıxardığı əzik-üzük dəsmalla sulanmış gözlərini silib:

– Yox, balam, bu uşaq-muşaq işi deyil, kimdisə, beli yuxarılara bağlıdı, – dedi.

Xırda gözləri qalın qaşlarının arasında işıldayan Hənifə kişi:

– Belə də insafsızlıq olar?! Qansızlar!

– Hənifə kişi, sən nə qoyub nə axtarırsan? Heç televizora baxmırsan, o onu öldürür, bu onun başını kəsir. O da ola ağac...

Bir ömür soyuq suyu üfürə-üfürə içən Xıdır kişi söhbətin böyüdüyünü görüb qorxdu, güclə eşidiləcək səslə:

– Day, olan olub, – əliylə yaraşıqlı evləri göstərdi, – o evlərdən birini də burda tikəcəklər. Dəyirman bildiyini eləyir, çax-çax baş ağrıdır. Gedək nərd ataq.

Nəsir müəllim yerə düşmüş budaqlardan birini götürüb yarpaqlarını sığalladı:

– Yadındadı, Bərəkət kişi, bu ağaclar gözümüzün qabağında böyüyüb. Yetmişinci illərdə bərk quraqlıq oldu. Ağaclar onda hələ körpəydi. Kinostudiyada işləyən Əlif kişi bir yay bu ağaclara qollarıyla vedrə-vedrə su daşıdı.

Hamı bir ağızdan "Allah rəhmət eləsin!", – dedi.

Hənifə kişi arada əlini gicgahına apardı.

– Yeddi şeytanın ağlına gəlməyən bu dələduzların ağlına gəlir. Ev tikməyə yer qəhətdi? Kəsirlər, dağıdırlar, talayıllar, bir adam gözün üstündə qaşın var demir.

Xıdır kişi sakit səslə:

– Gedək, bir az da burda qalsaq, beynimizə qan sızacaq, – dedi.

Nəsir müəllim yerdəki zeytunlardan üç-dördünü ehmallıca götürüb cibinə atdı...

Elə o gün axşamtərəfi bir də ağacların kəsildiyi yerə getdi. Özüylə götürdüyü boş dibçək qabını torpaqla doldurub evə qayıtdı. Cibindəki dörd zeytun dənəsini bərəkət duası oxuya-oxuya torpağa tapşırdı.

Nə o gün, nə də ondan sonrakı günlər ağacların kəsildiyi yerə kimsə gəlmədi. Gəlmiş olsaydı, bütün gün pəncərədən ağaclarn yerinə baxıb qəhərlənən Nəsir müəllimin xəbəri olardı.

Səhərlərin birində sümsümə bişirən arvadı səsini qısıb az qala pıçıldadı:

– Gülsənəm deyir sabahdan tikinti başlayır, nazirə ev tikəcəklər.

Nəsir müəllim diksindi:

– Hansı nazirə?

– Mən nə bilim, bəyəm birdi, ikdi, o qədər nazir var ki...

Hər şey arvadının dediyi kimi oldu. Səhərin gözü açılmamış, texnikanı tökdülər, bir qazhaqaz başladı ki, yer yerindən oynadı, uçmağa bəhanə axtaran beşmərtəbə sarısını udub uçum-uçum uçundu. Sonra tikhatik başladı, tikdilər, tikdilər, tikdilər... Mülk hazır olanda ev sahibindən çox, iki ildə başı-beyni gedən adamlar sevindilər.

Bu müddətdə Nəsir müəllimin torpağa sancdığı dörd zeytun dənəsinin dördü də torpaqdan baş qaldırıb bir qarış zoğ atmışdılar. Ər-arvad gündə neçə dəfə dibçəyin yanına gəlib fidanların kefini xəbər alırdılar.

Nazirin evinin tikintisi isə bitmək bilmirdi. İndi də tikdiklərini hasara alırdılar, hasarı o qədər qaldırdılar ki, axırda qəsr hasarın içində itdi. Mebellərin daşınması uzun, çox uzun çəkdi, handan-hana bir sürü maşın qabaqda, bir sürü maşın arxada, nazirin külfətini evinə gətirdilər.

Beşmərtəbədə yaşayan qadınlar televiziyalardakı serialları buraxıb, həyat serialına baxmağa başladılar. Nazirin evinə daşınan maşın-maşın hədiyyələr, qucaq-qucaq güllər, səbət-səbət meyvələr, dəm-dəsgahlı, geyimli-kecimli xanımlar, bəylər... Başınızı nə ağrıdım, ən yaxşı tamaşa da bir gün dəbdən düşür. Beşmərtəbədə yaşayan kasıb adamlar da günlərin birində bahalı tamaşadan yorulub pərdələri çəkdilər...

Nazirin həyətində ikinci ev tikiləndə heç kim məhəl qoymadı. Əgər nazirin memarının ağlına yeni ideya gəlməsəydi...

Bir gün yenə məhəllə səsdən çalxalandı. Fəhlələr qan-tər içində nazirin hasarının üzlüyünü sökürdülər. Söz gəzirdi ki, üzlük nazrin xoşuna gəlməyib, Misirdən təzə üzlük gətizdirib. Üzlüyü sökəndən sonra divarı bir ay gecə-gündüz yonqarladılar. Toz-duman adamların canını boğazına yığdı. Tozun dərdindən yuduqları paltarı şəridə sərə bilməyən arvadlar təzə qarğış uydurdular: "Axırın firon kimi olsun!". Nəsir müəllim axır dözmədi, bir gün ustaların yanına gedib: "Qurtarın da bu tappa-tupu, başımız-beynimiz qalmadı!", – dedi.

Elə o axşam Nəsir müəllimi məhəlləyə çağırdılar, siçana oxşar kişi dişlərini bir-birinə sıxıb: "Ağsaqqal, nə məsələdi, nədən narazısan?", – dedi.

Nəsir müəllim olanı dedi. Dedi ki, imkan verin, yaşayaq!

Adam rəng verib, rəng aldı.

– Özünü yığışdır, ağsaqqal, yaşadığın gecəqondunu sökdürüb, səni də ilim-ilim itirərik! – dedi.

Nəsir müəllim evə qayıdanda çiyinləri düşmüşdü. Arvadı ərini nə qədər dilə tutsa da, ağzından bir kəlmə də çıxarmadı. Elə dibçəyin yan-yörəsində qurdalanıb durdu. Sonra telefon kitabçasını tapıb Şüvəlanda yaşayan köhnə dostu Dostəliyə zəng elədi. Başlarına gələn hal-qəziyyəni danışıb dostundan xahiş elədi ki, imkan varsa, bağında dörd fidana yer versin. Dostəli adəti üzrə "bəçeşm!", – dedi. Nəsir müəllimin ürəyi yerinə gəldi. Səhər obaşdan dibçəyi də götürüb yola çıxanda arvadı ağlamsındı. "Öyrəşmişdik... heç olmasa arada-bərədə gedib görə biləydik", – dedi. Nəsir müəllim özünü toxtaq tutdu. Budu ha, burdadı, nə vaxt istəsək, gedib görəcəyik.

Nəsir müəllim evə qayıdanda kefi yerindəydi. Arvadını inandırdı ki, torpaq fidanları balası kimi qucaqladı.

Səhəri gün Nəsir müəllim bir kisə sement, qum, xeyli kərpiclə, bir də əlimalalı ustayla evə qayıtdı. Nəsir müəllim göstərişini verdi, usta nazirin evinə baxan pəncərəni çərçivəqarışıq çıxarıb yerini səliqə-səhmanla hördü. Nəsir müəllim ustanın haqqını artıqlamasıyla verib yola salandan sonra heyranlıqla pəncərənin yerinə baxdı. İndi nazirlə aralarında qalın bir divar vardı...

**Epiloq əvəzi:** ***O payız naziri işdən çıxardılar, yağışın altında firon daşlarının necə ürəkdən güldüyünü öz gözlərimlə gördüm...***

# ÇOXLU ÜRƏK...

## *Həvva öləndə Adəm tarlada darı əkirdi...*

Qaş qaralanda Mirzə oğurluğa gedən adam kimi devikə-devikə Firudinin qapısını iki dəfə astadan döydü. Əvvəlcə içəridən Firudinin hıqqıltısı eşidildi:

– Gəlirəəəm ə, gəlirəm...

Gəldi də. Əlində çay dəsmalı, qapını Mirzənin üzünə açıb, onu uşaq kimi danladı:

– Ə, gəl çıx da, zalımın balası, elə bil dağ dalına getmisən...

Mirzə burnunu çəkdi, əlinin dabanında gətirdiyi payı Firudinə ötürdü, yan-pörtü qapıdan içəri keçib çaxmaq gözləriylə bir anda evə göz gəzdirdi. Allahüçünə, ev səliqə-sahmanlıydı. Heç deməzdin bu evdə on üç ildir qadın yaşamır.

Gözü açıq süfrəyə sataşanda: “Rəhmətlik qaynanam məni çox istəyirdi, hələ də istəyir...” – deyib ürəkdən güldü.

Firudin çay süzə-süzə: “İndi istəməsin”, – dedi.

Mirzə oturmağına oturdu, bu dəfə də gözü qırağı güllü nimçədəki ürək formalı şirniyyata ilişdi, eyni açıldı, kefi duruldu, qımışa-qımışa:

– Yenə ürəkləri isti-isti bişirib yığmısan haaa...

– Yaxşıdı, eləmi?

Mirzə gözünün birini yumub, birini açdı, müştəri gözüylə qırmızı ürəkləri gözdən keçirib:

– Yaxşıdı nədi, bu dəfə quşu gözündən vurmusan, Mirzə canı, bazara çıxarsan, göydə gedər. Sən də ürəksatan Firudin kimi qəsəbədə ad-san qazanarsan. Hələ bəlkə qarşına halal südəmmişin biri də çıxar.

Firudin utandı.

– Kiri ə, gic-gic danışma, dadına bax, – deyib çayı süfrəyə qoydu.

– Qıymaram! Adam ürəyə toxunar?! Bunlar yemək üçün deyil, sənətkar, baxmaq üçündür, necə ki, sənət əsərləri olur ha, adamlar uzaqdan baxır, baxır, baxır, elə bir şeydir.

Mirzə sözünü qurtaranda dodağı qaçdı, qızıl dişləri divarları işıqlandırdı.

– Onda ürəyin istəyən qədər bax, – dedi Firudin.

Araya sükut çökdü. Yaqut rəngli ürəklər hərəsinin ağlını alıb bir yana apardı. Elə bir yerə ki, o yerə getməyə indi ürəkləri gəlməzdi...

Mirzəylə Firudin kiçik qəsəbədə yaşayırdılar. Qohum deyildilər, heç qonşu da sayılmazdılar, özləri də ayrı-ayrı işin-gücün qulpundan yapışırdılar, yatanda da biri Yaxın Şərqə, biri Uzaq Şərqə baxırdı. Onları bir-birinə yaxınlaşdıran

dərdləriydi. İkisi də ahıl çağında arvaddan yetim qalmışdı. Bu yaşdan sonra evlənməyə hamı pis baxır axı, o da ola oğul, uşaq, nəvə ola... Amma bir gün oğul-uşaq hərəsi öz yuvasına çəkiləndə Mirzəylə Firudin damın altında tək-tənha qaldılar, balaca qəsəbənin gözü də canlı kamera kimi üstlərində...

Bilənlər bilirdi, Mirzənin günü pis keçmirdi. Dərd Firudinin dərdiydi. Qadın görəndə özünü itirir, əli-ayağı bir-birinə dolaşır, yaxınlaşmağa da ürək eləmirdi. Arvadı Gülsənəmlə bir dastanlıq ömür yaşamışdı, gül kimi sevgisinin üstünə toz qondurmağa ürəyi gəlmirdi. Dünyada belə kişilərin olduğunu düşünəndə qəsəbə arvadları doluxsunur, "Firudinin qadasını alaq, başına dolanaq, kül bizimkilərin kişi başına" – deyirdilər. Allı-güllü sözlər Firudinin qulağına çatar-çatmaz, başındakı qarışıq sevda külləkləri pırr eləyib Qaf dağınacan uçur, bir müddətdən sonra daşlara sinə-sinə geri qayıdırdı. Düzdü, Firudin sədaqətli kişiydi, amma ölü deyildi, nəfəs alırdı, nəfəs verirdi, yeyirdi, içirdi. Yaşayırdı? Bax, bu, yalan olardı. Yaşamırdı! Yaşamaq başqa şeydi. Səksən yaşlı nənəsi öləndə babası Savalan kişi demişdi ki, sevgi bağı qırılanda adam ölür. Arvadının qırxı çıxmamış, çəliyini əsdirə-əsdirə kəndin ən kifir qarısına elçi düşmüşdü. Pis eləmədi ki, səkkiz il bir-birinə söykənib yaşadılar. Firudin də ölmək istəmirdi, sevmək istəyirdi. Amma onun sevgi limitinin üstünə "abır" etiketi yapışdırıb qəsəbənin gözəgəlimli yerindən asmışdılar. O da yaşamaq üçün özündən sevgi oyunları uydurur, ürək formalı peçenyelər, şirniyyatlar bişirib özünü ovudur, hərdən bişirdiyi ürəkləri sevib əzizləyir, hərdən də ağzına atıb yeyirdi.

Amma Mirzə özünü başqa cür ovudurdu. Yolunu tez-tez qadın alt paltarları satan Səmayənin dükanından salır, guya ondan nəsə soruşur, imkan tapan kimi gözünü yarıçılpaq, incə belli manekenlərə dikib bir anlıq dünyadan zövq alırdı.

Səmayə də ütük arvadıydı, Mirzənin qarnının azarını bildiyindən:

– Ə, bunlardan birini al dayna, – deyib onunla məzələnirdi.

Mirzə də söz altında qalmırdı:

– Onu niyə, ay Səmayə, gəl elə səni alım, – deyirdi.

Firudingildə, ürəkli süfrənin arxasında Mirzə ürəklərə baxa-baxa ürəkləndi:

– Hə, Firudin kişi, deyirəm Səmayə yaxşı kadındı, – dedi.

Firudinin eyni açıldı:

– Hə, yaxşıdı, çox yaxşıdı, indi elə kadını gün işığında çıraqla da axtarsan, tapa bilməzsən, – dedi.

Mirzə diksindi, çəpəki Firudinə baxdı. Mirzənin qarnının dərdindən xəbərsiz olan Firudin başındakı sevda quşlarını uçurdub, yenə ürəklərdən söz saldı.

– Xavarın var, yeni ürək qəlibləri hazırlamışam: incə, kök, butavari ürəklər... Gələn dəfə gələndə hayıl-mayıl qalacaqsan.

Mirzə qəfil yerindən qalxıb "day gedim, işim var", – deyəndə Firudin əl-ayağa düşdü.

– Ə, hara gedirsən, kefin istəyən kəllə-paça bişirmişəm, kənddən başıxamurlu da göndəriblər, getmə, – dedi.

Başqa vaxt olsaydı, Mirzə əlüstü razılaşar, sevindiyindən sümükləri oynayardı. Amma bu dəfə belə olmadı.

Mirzə gedəndə Firudin ürəklərdən üç-dördünü kağıza büküb dərd ortağının cibinə qoydu. Mirzə də havalı-havalı çıxıb getdi.

Səhərin gözü açılar-açılmaz, xəbər gəldi ki, bəs bu gecə Mirzə Səmayəni qaçırıb. Firudin xəbəri eşidəndə həyətdəki kötüyün üstünə çökdü, çiyinləri büküldü, səsi titrəyə-titrəyə: Neyləsin, hamıya ikinci ürək lazımdır, – deyib köks ötürdü.

O gün Firudin ürək bişirmədi...

# GÜMÜŞ DURNALAR

***Elə xatirələr var ki, bahar kimidi ...***

O gün nənəm köhnə corablarımın altını yamadı, paltarını çeşidləyib səliqəylə üst-üstə qalaqladı, qulağındakı gümüş sırğaları çıxarıb duzlu suda yaxşı-yaxşı yuyub parıldatdı. Sonra ovcuna qoyub bir xeyli tamaşa elədi. Sözün düzü, nənəmin sırğaları gümüşdən düzəldilmiş bir cüt zərif durnaydı. Elə bil ayaqlarını suya vurub bu an havaya qalxacaqdılar. Yalan olmasın, nənəm bu durnaları bir ömür özüylə gəzdirmiş, durnalar da vəfalı çıxıb, onu tərk edib uçub getməmişdilər...

Kəndin qız-gəlinləri bu sırğanı görən gündən hayıl-mayıl qalmış, gördüklərinin üstünə beşini də qoyub görməyənlərin ovcuna qoymuşdular. Belə-belə, nənəmin sırğalarının səsi-sorağı yeddi para kəndə yayılmış, uzun illər nənəmin sırğaları heç vaxt dəbdən düşməmişdi...

Hə, onu deyirəm axı, nənəm pal-paltarına əl gəzdirdi, sırğalarını parıldatdı, qaloşlarını yuyub qurusun deyə, çəpərdəki ağaca keçirdi, mən də fürsətdən istifadə edib nənəmin gözündən yayınıb uşaqlara qoşuldum, kəndin ayağında yaşayan Səlimin oğlu Ələddinin toyuna baxmağa getdim. Kaş, getməyəydim.

Toy mağarının qapısında ağzıpartaq Rüzgar arvadla qarşılaşdım. Rüzgar arvad əvvəlcə nənəmin halını soruşdu, sonra da qızıl dükanına oxşayan ağzını açıb elə beləcə də dedi:

– Azzz, nənənə de, qulağındakı sırğaları çıxarıb atsın, indi kənddə bütün arvadların sırğası var, özü də qızıldan. Day onun durnalı sırğasından ötrü ölüf-eliyən yoxdu.

Rüzgar arvadın yanındakılar toyuq kimi qaqqıldaşıb gülüşdülər. Nəsə demək istəsəm də, deyə bilmədim. Pərtliyimi gizlətmək üçün

toy mağarına girib gözdən itdim. Amma o gün zurna-balabanın səsi belə kefimi aça bilmədi.

Evə qayıdanda artırmada oturub lobya dənələyən nənəmə diqqətlə baxdım. Başını çalıb, koftasının qollarını dirsəyəcən çırmalamış, üstü butalı yaşıl tumanını dizlərinin arasına yığmışdı. Nənəm ağbəniz, yupyumru, orta boylu gözəl arvadıydı. Dəniz rəngli iri gözləri vardı. Saçını tən ortadan ayırar, səliqə ilə darayıb iki saç hörər, arxada bir-birinə çatallayardı. Yaşı səksəni haqlasa da, gözəlliyi üstündəydi. Əgər dişləri tökülməsəydi, lap cavan qıza oxşayardı. Amma xırda ağzında vur-tut iki saralmış dişi vardı. Dişlər də ağızdakı boşluqdan istifadə edib uzandıqca uzanmışdı. Bu uzun dişlər belə, nənəmin gözəlliyinə xələl gətirə bilməmişdi. Nənəm sadəcə, qocalmışdı, bəlkə də həyat onu yormuşdu. Qəfildən "Nənə, ay nənə!" – deyib onu öz aləmindən ayırdım.

Diksindi. Az qala ləyəndəki lobyalar yerə töküləcəkdi.

– Vurğun vursun səni, səhərdən hansı cəhənnəmdəsən, ağzın hara düşür, ora da gedirsən, sənin tayların ev yığışdırır, nənəsinə kömək eləyir, qara yerə soxum boyunu, böyümək yerinə, günü-gündən uşaqlaşırsan! – deyib ürəyini boşaltdı.

Mən qızılgül kolunun ətrafında qurdalanıb özümü elə apardım ki, guya nənəmin dediklərini eşitmirəm.

Amma onu da bilirəm ki, nənəmin hirsi yaz qarı kimidi, yerə düşməmiş əriyir.

Axır ki, nənəm deyinə-deyinə oturduğu yerdən qımıldandı.

– Keç içəri, acından-susuzdan öldün, evim yıxıldı. Stolun üstündə kasada qaymaq qoymuşam, təhnədən çörək götür, ye. Bayaq əmin də gəlmişdi, sənə konfet gətirib, servantın alt gözünə qoymuşam, – dedi.

Konfet adını eşidəndə gözlərimə işıq gəldi, nənəmin yanından güllə kimi keçdim. Əvvəlcə şokoladı, üstündən də camış qaymağını yeyib ayağa qalxmaq istəyirdim ki, nənəmin səsini eşitdim:

– Axşam düşür, qaç bulaqdan su gətir, çay qaynadaq.

Balaca səhəngimi götürüb Damcılı bulağa qaçdım.

Səhəngim elə balacaydı ki, gətirdiyim su çayniki güclə doldurdu. Bulağa bir də qayıdası oldum. Kəndin ayağından hələ də nağaranın səsi gəlirdi.

Nənəm dənələdiyi lobyanı mis siniyə töküb ləngərli yerişlə gedib bir qalaq odunun üstünə qoydu. Mənə də tapşırdı ki, gözdə-qulaqda olum, toyuqlar çıxıb dağıtmasın.

Özümü elə göstərdim ki, guya dediyinə əməl edirəm, amma toyuqları güdmək fikrim yox idi. Bekarçılıqdan əlimi səliqə ilə üst-üstə düzülmüş odunlara sürtdüm. Üstü mamırlı yaş odunların ətri

dalğa-dalğa ətrafa yayılırdı. Nənəm əli çatsın deyə, ayağının altına qoyduğu kötüyü diyirlədə-diyirlədə mənə tapşırıqlar verirdi.

– Sabah dükana gedib paltar sabunu alarsan. Ordan da poçta gedərsən, Məhəmməd əminə deyərsən ki, keçən ay "Göyərçin" jurnalım gəlməyib, nə məsələdi?

– Yaxşı, deyərəm.

Günəş dağın arxasına keçəndə, birdən-birə kefim tamam pozuldu. Ürəyim tora düşən balıq kimi çırpındı. Sıxıldım. Bilmirəm mənə əzab verən hissin adı nə idi, elə bil nənəmə nə isə vacib, çox vacib bir söz deməliydim. Amma nə deyəcəkdim, Rüzgar arvadın qurdlu sözlərinimi? Yox, nənəmin kefini heç nədən pozmayacaqdım. Nənəm heç kimin işinə qarışmır, heç kimin sözünü danışmır, ipək kimidir. Bütün gün işləyir, bilir ki, mənim bu dünyada ondan başqa heç kimim yoxdu.

Yadımdadı, bir dəfə nənəm bərk xəstələnmişdi, kəndimizin ara həkimi Ağabikə qarı dedi ki, bəs, Humayın axırıdı. Gecə nənəmlə tək qalanda, pıçıltıyla Allaha yalvardığını eşitdim. Nənəm durmadan danışırdı: Bilirəm qocalmışam, amma nəvəmi qoyub ölən deyiləm. Bax, sözümüz sözdü ha. Ata-anasını vaxtsız-vədəsiz apardın, sözüm yox, özün yaratmısan, özün bilərsən. Mən də qalası deyiləm ha, gec-tez dərgahına gələcəm. Amma azacıq möhlət ver. Onu bu həyət-bacada, bu evdə tək qoyub gedə bilmərəm...".

Onda mən nənəmin nə qədər əlacsız olduğunu görüb qorxdum, özü də bərk qorxdum. Anladım ki, bu dünyda nənəmdən əziz heç kimim yoxdu. O olmasa, kim mənim qeydimə qalar? Kim saçımı darayar, paltarlarımı yuyar, kim yumurta satıb Novruz bayramında mənə dükandan qırmızı güllü don alar. Kim məktəbə gedəndə mənim çantama qoz-fındıq tökər, kim mənə yun əlcək, corab toxuyar, aldığı qocalıq pulundan kim hər gün 20 qəpik ayırıb "özünə bufetdən bir şey al" – deyər? Nənəmin elədiyini kim eləyər? Heç kim! Canım nənəm!

Axşam yatmamışdan əvvəl nənəm işığı söndürüb yerinə girəndə Ay ağacların budaqlarından süzülüb pəncərədən otağımıza boylandı. Divarda nənəmin iri kölgəsi titrədi.

Nənəmlə qədim taxtın üstündə baş-ayaq yatırdıq. Mənə görə dünyada nənəmin ayağı altında yatmaqdan gözəl heç nə ola bilməzdi. Nənəm ayaqlarımı qucaqlayırdı, elə qucaqlayırdı ki, ürəyinin döyüntüsünü hiss edirdim. Mən də nənəmin yupyumru ayaqlarını qucaqlayırdım, hərdən şitliyim tutanda ayaqlarının altını qıdıqlayırdım. Nənəm elə gülürdü ki, bütün bədəni yırğalanırdı. Axırı da onunla qurtarırdı ki, əl çəkim deyə mənə təpinirdi.

O axşam şitliyim tutmadı, nənə-bala ordan-burdan danışıb, dərdləşdik.

– Sabah paltar sabunu alarsan ha, yadından çıxmasın.

– Yadımdadı, – dedim.

Sonra sözü hərləyib-fırlayıb sırğalarının üstünə gətirdim. Durnalı sırğalarını tərifləyib dedim ki, yer üzündə bu gözəllikdə sırğa yoxdu.

Nənəm ürəkdən güldü, bədəni qayıq kimi yırğalandı.

– Bu sırğaları mənə baban alıb. Üççə günün gəliniydim. Soyuq payız günü idi. Bir səhər baban sübh tezdən evdən çıxdı. Axşam oldu, gəlib çıxmadı. Narahat oldum, dedim balam, bu kişi hara getmiş olar? Lampanın yanında oturub yumub-tökdüm, qapı qəfil çırıltıyla açıldı. Babanıydı. Əlləri bumbuz idi. Əlini cibinə salıb bir cüt sırğa çıxardı. Sırğanı görəndə ürəyim uçum-uçum uçundu.

– Zərgərliyə getmişdim, bu sırğaları zərgər Rəsul düzəldib, – dedi.

Baban sırğaları mənə uzatdı, alıb qulağıma taxdım. Vallah, elə bil dünyanı mənə verdilər.

Baban nəsilli-nəcabətləri bir kişiydi. Ata-babası bu mahalın varlı-karlı adamıymış. Sürü-sürü mal-qaraları, tuluq-tuluq qızıl-gümüşü. Şura hökuməti hamısını əllərindən almışdı.

Baban kasıbçılıqdan sıxılırdı, məni sevindirmək üçün yeddi kənd aşıb bu sırğaları gətirmişdi.

Durnalı sırğa o gündən kəndə səs saldı. Qız-gəlinlər axşam-səhər bulağa gedəndə qarşımı kəsib sırğaya baxardılar. Neçə kərə kənddən zərgər Rəsulun yanına gedib durnalı sırğa istəyən oldu, düzəltmədi, dedi əsl zərgər bir düzəltdiyini iki kərə düzəltməz, başqa nə istəyirsiz düzəldim, durnalı sırğa Həmidin istəyi idi, mən də onun istəyini yerinə yetirdim.

O vaxt çox gənc idim, illər sonra babandan soruşdum ki, a kişi, bu durna məsələsi hardan çıxdı, baban altdan-altdan qımışdı. Dedi ki, ilk dəfə səni görəndə incə, durna boyunlu bir qızıydın. Sən mənim qəlbimə durna kimi girdin, sənə görə durnaları sevdim. Bir də, durnalar vəfalı olur, pis zəmanədir, bu əmanəti qoru, həyatı bilmək olmaz, başımıza nə gəlirsə-gəlsin, bu sırğanı qulağından çıxarma.

Nənəm susdu, kim bilir fikri haralara getdi?!

Handan-hana danşmağa başladı:

– Heç çıxarammadım da... Baban olacaqları elə bil əvvəlcədən duymuşdu. Bu durnalardan başqa heç nə babanın istədiyi kimi olmadı.

37-ci il başlayar-başlamaz, qara xəbərlər qara ilan kimi el-el, ev-ev dolaşdı. Baban narahat idi. Filankəsi tutdular, filankəsi xalq düşməni elədilər, filankəs xain çıxdı... Qonşu kənddən Səlim müəllimi apardılar, Molla Hümbəti xalq düşməni adıyla güllələdilər, mənim

sırğalarımı düzəldən zərgər Rəsulu damğaladılar, bu elin, bu torpağın sayseçmə oğullarını budadılar. Bir gün də babanı rayon mərkəzinə çağırdılar. Baban kəndin yeganə təhsil almış adamıydı. Baban özünü tox tutdu, özünü elə apardı ki, guya onu elə-belə çağırıblar. Gedəndə dedi ki, uşaqları sənə, səni Allaha tapşırıram. Baban birdəfəlik getdi, əvvəlcə səsi Şuşa türməsindən, sonra Sibirdən gəldi. Mən də iki uşaqla damın altında qaldım.

Babanı aparandan sonra çörəyimizi yeyən, bizə pənah gətirən adamlar evimizi yağmaladılar, bizi quru yurdda qoydular.

Bir vaxtlar babanın mal-qarasını otaran Bəbiri kolxoza sədr qoyanda arvadı üç dəfə adam yollayıb məndən sırğamı istədi, vermədim. O da boş oturmadı, Əmir əmini meşədə döydürtdü. Onda əminin cəmi-cümü 12 yaşı vardı. Uşaq öldü-ölümdən qayıtdı. O vaxt kənd Bəbirə görükdü, arvadı qorxub bir də biz tərəflərə baxmadı. Amma uzun illər, Stalin ölənəcən kulak ailəsi, kulak uşaqları deyib bizə göz verib işıq vermədilər.

– Babamdan ötrü darıxırsan?

Qəfil sualım nənəmi kövrəltdi, səsi titrədi.

– Ümidimi heç vaxt üzmədim, babanın nə vaxtsa geri dönəcəyini gözlədim. Dərdimi, sirrimi qulağımdakı durnalarla bölüşdüm. İndi day heç nədən qorxmuram, o, qayıda bilmədi, mən onun yanına gedəcəm.

Baban bu evdən çıxanda mənim 19, babanın 28 yaşı vardı. Deyirəm, görən məni bu yaşda görsə tanıyar? Axı aradan çox illər keçib.

Bir də yadımdan çıxmamış bir söz deyim, mən oldum-olmadım, bu sırğaları heç kimə vermə. Demə ki, dəmir qırığıdı, bu durnalar ömrümün şahidi, babanın yadigarıdı.

Araya sükut çökdü. Mən nənəmə nəsə vacib, çox vacib bir söz demək istəyirdim.

Başımı yastığımdan dikəldib:

– Nənə, ay nənə! – dedim.

Nənəm yatmışdı.

Ay otaqda dolaşdıqca gümüş durnaları, Rüzgar arvadın həsədini və sabah alacağım sabunu düşünürdüm...



*Aynur QAFARLI*

**BUNDAN O YANA DA VAR?**

Ulduzumuz küsüşdü
Asimanda qəfildən.
Sübhə kimi yatmadım,
Qüssə içindəyəm mən.
Sıxır məni dörd divar,
Bundan o yana da var?

Könlümdəki sevginin
Sən idin ilk ovçusu.
Sənə gedən yolların
Başqasıdır yolçusu.
Göz yaşımdan oldum xar,
Bundan o yana da var?

Bir də mənim gözümdə
O məşəl yana bilməz.
Bu ağrı, bu nisgilə
Ürək dayana bilməz.
Ümidimə yağır qar,
Bundan o yana da var?

Ölüm nə cür olur ki,
İndi sənə nə yazım?
Necə sığdın həsrətə,
Yerə, Göyə sığmazım?
Dünya olub mənə dar,
Bundan o yana da var?

Bir budaqda oturub,
Min budağa əl atdın.
Səni sevən qəlbimi
Yaraladın, qanatdın.
Könlümdə min ahu-zar,
Bundan o yana da var?

Soruşsam çiyin çəkər,
Nə Göy bilər, nə də Yer.
Əgər ölməmisənsə,
Sualıma cavab ver,
Durma belə lal və kar,
Bundan o yana da var?

## ÜRƏK SƏNİ İSTƏYİR

Çöldə qopan tufanlar
Qəlbimin harayıdır.
Yaşatdığın həsrətin
Hələ ki ilk ayıdır.
Xatirələr üstümə
Gedib-gedib, qayıdır,
Ürək səni istəyir...

Heç kim bir də bizimtək
Sevib-sevilməyəcək.
Nə çəkirəm gecələr,
Heç kimsə bilməyəcək.
Yəni, bir də o günlər
Qayıdıb gəlməyəcək?!
Ürək səni istəyir...

Bir dibçək gülü kimi
Soluram, saralıram.

Havasız bir otaqda
Şam kimi qaralıram.
Sorağını hələ də
Ordan-burdan alıram,
Ürək səni istəyir...

Şəfəq çilə üstümə,
Acılara ol bədəl.
Həsrətini unutdur
Birnəfəsə, əlbəəl.
Gözlərimi açınca
Bir göz qırpımında gəl,
Ürək səni istəyir...

Bircə aylıq həsrətin
Oldu ömürdən baha.
Aynur çıxır hər gecə
Göyləri seyrangaha.
Ay Allahın cəzası,
Gəl çıx, bezmişəm daha,
Ürək səni istəyir...

## ƏLLƏRİ QOYNUNDA BİR QIZ AĞLAYIR

Nə yazı bəllidir, nə qışı daha,
Pozulub ömrünün naxışı daha,
Dayanmır gözünün yağışı daha,
Qalıbdır tək-tənha, yalqız ağlayır,
Əlləri qoynunda bir qız ağlayır.

Hardasan, hardasan, yerini bildir,
Küsüb taleyindən gör neçə ildir,
Günəş də qəlbini isidə bilmir,
İçində nisgilli payız ağlayır,
Əlləri qoynunda bir qız ağlayır.

Bu eşq çox qədimdir, Leylidən qalan,
Zülməti doğruydu, işığı yalan,
Gecə də, gündüz də gözləri nalan,
Göz yaşı üzündə bumbuz ağlayır,
Əlləri qoynunda bir qız ağlayır.

Qəm-qüssə əlində qalıbdır naçaq,
Zindana dönübdür bu ev, bu ocaq,
Ağlaya-ağlaya dəli olacaq,
Sanki kəhkəşanda ulduz ağlayır,
Əlləri qoynunda bir qız ağlayır.

İlahi, göylərə al, ey, bu qızı,
Apar cənnətinə sal, ey, bu qızı,
Baha tutmalıydı tale bu qızı,
Bəs niyə bəxtinə ucuz ağlayır?
Əlləri qoynunda bir qız ağlayır.

## MƏN SƏNİN SEVDİYİN "SARI GƏLİN"ƏM

Daima damarda dövr edən qanın,
Nur saçan şəfəqin, açılan danın,
Nəfəsin, ürəyin, adın, ünvanın,
Qaynayan təbinəm, ötən dilinəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

Mən mələk misallı, sən eşq xəstəsi,
Sən bir alıcısan, mən gül dəstəsi,
Bir eşq bəstəsiyəm, bir eşq bəstəsi,
Kamanda bəminəm, neydə zilinəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

Dadaq bu sevginin doyunca dadın,
Adımla yanaşı çəkilsin adın,
Ən doğman, əzizin, yaxının, yadın,
Yurdun, diyarınam, oban, elinəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

Bir az səbrin olsun, çox demədim ki,
Könlümü yandırıb, yax, demədim ki,
Naz etdim, mən sənə "yox" demədim ki,
Səni sevindirən şirin "bəli"nəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

Mən həm cəfalıyam, həm də vəfalı,
Bir azca sakitəm, bir az davalı,

Aynuram, dəlisov, başı havalı,
Sənin şıltağınam, sənin dəlinəm,
Mən sənin sevdiyin "Sarı gəlin"əm.

## QADINAM

Taleyin dar ağacını
Boynunda çəkən qadınam.
Düyün düşən fikirləri
Beynində çəkən qadınam.

Keçdin məndən qisas kimi,
Yas görmədim bu yas kimi,
Dərdi geyib libas kimi
Əynində çəkən qadınam.

Yaşadım ən ağır günü,
Yandırdım Simurq tükünü,
Həyatın kişi yükünü
Çiynində çəkən qadınam.

## BU DÜNYANIN MƏHƏBBƏTİ QADINDIR

Yazımmı ki, kişilərin dəmadəm
Fikri-zikri, söz-söhbəti qadındır?!
Almasa da bir çoxları boynuna,
Bir ömürlük səadəti qadındır.

Bu həqiqət danılarmı? Yox, qəti!
Bir başqadır qadınlığın şəfqəti.
Axı onun şirinliyi, şərbəti,
Ürəyinin yağı, əti qadındır.

Nə məzarlıq, nə də beşiklik olar,
Nə bir evlik, nə də eşiklik olar.
Onsuz kişi, nə də kişilik olar,
Kişilərin cəsarəti qadındır.

O könüllə sevinin ki, gülün ki,
Qəlbinizdən dərdi, qəmi silin ki,

İlahinin Yer üzünə bilin ki,
Ən müqəddəs əmanəti qadındır.

Dözün ona, heç bir zaman bezməyin,
Qəlbinizi, ruhunuzu əzməyin,
Gedib onu başqa yerdə gəzməyin,
Bu dünyanın məhəbbəti qadındır.

## ÖLƏRSƏN

Ədalıyam, sən dözməzsən ədama,
Əgər sənə naz eyləsəm, ölərsən!
Yavaş-yavaş öyrədərəm nazıma,
Sonra onu az eyləsəm, ölərsən!

Heyif, gəldin bu sevdanın gecinə...
Əriyərsən baxışımın gücünə,
Durub gendən gözlərinin içinə,
Baxıb sənə göz eyləsəm, ölərsən!

Çox danışma Məcnun, Kərəm adıyla,
Xəyallanma eşqin şirin dadıyla,
Alışmasam həsrətinin oduyla,
Ürəyimi buz eyləsəm, ölərsən!

Qiymətim var öz eşqimdə beş kimi,
İncitmədim, aldatmadım heç kimi,
Bir gün durub sənə olan eşqimi
El içində söz eyləsəm, ölərsən!

İşvəm sənə, ədam sənə bəllidir,
Başım eşqdən havalıdır, yellidir,
Mən Aynuram, hələ nazım əllidir,
Qorx ki, onu yüz eyləsəm, ölərsən!

## GİZLƏNPAÇ

Uşaqlıqdan sevirəm
Gizlənpaç oynamağı.
Özümə yuva seçib
Çölü, çəməni, bağı.

Onda – hər axşamüstü
Gün quruba enəndə,
Ürəyim atlanardı,
Çıxardım evdən mən də.

İstər bahar, yay olsun,
İstər soyuq, şaxta, qar.
Bir evin ətrafında
Cəm olardı uşaqlar.

Səhərdən axşamadək
Olardıq qovan, qaçan,
Özümüz də bilməzdik
Düşüb qaranlıq haçan.

Şirin günlərin onda
Sayı-hesabı çoxdu.
Oynamaqdan savayı
Başqa dərdimiz yoxdu.

Biz bilməzdik doğma, yad,
Elə əzizlənərdik.
Ayağımız tutunca
Qaçardıq, gizlənərdik.

Susuzluqdan hər dəfə
Ciyərimiz bişərdi.
Nə yemək yada düşər,
Nə su yada düşərdi.

Qayğısız günlər idi...
Xəyallara dalardıq.
Xallı kəpənək kimi
Uçub qanad çalardıq.

Hərəmiz bir bağçanın
Çiçəkli yazı idik.
Eh, uşaqlıq, biz səndən
Necə də razı idik.

İndi tez-tez göynəyir
Qəlbim o günlər üçün.
Xatirəyə çevrilən
O səslər, ünlər üçün.

O şən uşaqlığımı
Necə qaytarım geri?
Yenidən yaşayardım
Kaş o xatirələri...

Gizlənpaç oynamışam
Demə, uşaqlıq ilə.
O da qaçıb gizlənib,
Tapa bilmirəm hələ.

## NARAHATLIQ

Ayağım yerimir başqa tərəfə,
Dönüb sən tərəfə meyillənirəm.
Küçə uşağına dönmüşəm artıq,
Gəlib məhlənizdə veyillənirəm.

Dəlitək danışıb özüm-özümlə,
Özüm də bilmirəm, hara gedirəm.
Bir yerdə durmağa tutmur qərarım,
O başa, bu başa var-gəl edirəm.

Xəyallar alıbdır məni cənginə,
Sanki gözü koram, qulaqları kar.
Söylədi küçəni süpürən qadın:
“Ay bala, kənar dur, sənə toz olar”.

Kənardan boylanıb gülür kimisi,
Kimisi kövrəlib acıyır mənə.
Qalmışam taleyin sıxıntısında,
Sanki həyat olub mənə məngənə.

Biz onu bilmərik, bir Allah bilir,
Hansımız nahaqdır, hansımız haqdır.
Əgər həsrətinlə ölsəm, ruhum da
Dünyada narahat yaşayacaqdır.

## HƏSRƏT

Həsrət çəkən gözlərim
Yaş tökəcək, gəlməsən.
Tanrı göydən başıma
Daş tökəcək, gəlməsən.

Mənim ahım içimi,
Odum səni yandırar.
Öz varlığım özümü,
Adım səni yandırar.

Qulağına səs gələr
Səs olmayan yerdə də.
Nə bir canlı, nə də bir
Kəs olmayan yerdə də.

İçindəki inadın
Daim göynədər səni.
Xəyallar canavartək
Dağıdar, didər səni.

Mən bilirəm, sevirsən
Məni dünyalar qədər.
Canım çıxar, dözərəm,
Olsa da həsrət, kədər.

Dilim gəlməz qarğıyam,
Dərd səndən uzaq olsun.
Gəlsən də, gəlməsən də
Təki canın sağ olsun.



*Mina RƏŞİD*

## QAZİ

Hər gün hekayəni dinləyirəm,
qəflətən qopan qolunun
yerindəki ağrı incidir qəlbimi…
əlin havadan asılı
düşmən üstünə atılır...
Sən bütün varlığınla döyüşdün,
yaralı olsan da, geri dönmədin
Şəhid olacağına inandın,
amma qazi oldun...

## HƏRDƏN SƏSİN GƏLİR QULAĞIMA

***Şəhid xanımının dilindən***

Hərdən səsin gəlir qulağıma,
sevinirəm.
ah, o təbəssümün...
gülümsəyirəm.
əllərim havalanır,
sənə doğru uçuram
adın gəlincə qızımızın dodağı büzülür,
oğlumuzun qaşları çatılır...
uşaqların səsinə aşağı enirəm

sənə uzanan əllərimlə
iki balamızı qucaqlayıram.
sənin qoxun gəir,
səsin gəlir,
sən həmişə bizimləsən,
qəlbimdəsən, birdənəm...

## TƏK SƏNİN ÖNÜNDƏ BAŞ ƏYİRƏM MƏN

Hər kəs öz qəlbinin tərcümanıdı,
Hamı da düşünür haqlıdı, Allah.
Hərə ürəyində bir heykəl qoyub,
Ürəyim tək Sənə bağlıdır, Allah.

Mən Səndən gəlmişəm, Sənə dönərəm,
Yerdə çox əzaba dözərəm, Allah.
Adını könlümə həkk eləmişəm,
Qələmlə adını bəzərəm, Allah.

Adamlar gör nəyin peşinə düşüb,
Hərə öz bütünü əzizlər, Allah.
Tək Səndən savayı nə var baş əyər,
Gör nəyi, gör kimi bəsləyər, Allah.

Sənin əsərindi günəş də, ay da,
Bütün aləmləri Sən yaratmısan.
Tək Sənin önündə baş əyirəm mən.
Bütün əzizləri Sən yaratmısan.

## YAXŞILIQ

Quşlara qoşulub nəğmə deyirəm,
Budaqlar əl çalır, çiçəklər gülür.
Sular xəyalımı çəkib aparır,
Göy otlar qəlbimdən kədəri silir.

Günəş heç bilmir ki, təkəbbür nədir,
Elə təbəssümlə baxır üzümə.
Göyüzü tərtəmiz nur dənizidi
Min bir naxış vurur adi sözümə.

Sözümlə dünyanı qucaqlayıram
Dünya gülümsəyir doğma nəfəsdən.
Könlümdən pəncərə açdım yollara
Qəlbim azad oldu dar qəfəsindən.

Bircə təbəssümlə dəyişər insan
İntihar etməyi buraxıb gedər.
Sənə savab düşər, ona yaşamaq
Həyat dəyərlidir yaxşılıq qədər.

## AH, ADAMLAR, ADAMLAR…

Adam var, qəlbi geniş,
Adam var, qəfəs kimi.
Adam var, daş-dəmirdi,
Adam var, nəfəs kimi.

Min bir donun içində
Tək bircə donu olar.
Ah, adamlar, adamlar,
Adam sizdən nə anlar?

Adam var, yaşı keçər
Özü bir addım atmaz.
Adam var, hey yarışar
Boyu boylara çatmaz.

Adam var, nənə olar,
Dönüb heç uşaq olmaz.
Adam var, yüz yaşda da,
Adam olmaz ey, olmaz!

## ADAM AĞAC KİMİ SADƏ OLSAYDI

Günəş öz vaxtında çıxır həmişə,
Yenə öz vaxtında qürubda batır.
Baxdıqca dağlara, sal qayalara,
Gözümün-könlümün işığı artır.

Görürəm nə dağlar özündənrazı,
Nə çöllər, nə düzlər yolundan çıxır.

Ağaclar bu qədər bar verir, amma
Bizə yuxarıdan aşağı baxmır.

Bəs niyə adamlar bu ağaclardan,
Dənizdən, küləkdən bircə dərs almır?
Niyə dağlar kimi o təmənnasız,
Nədən günəş kimi işıqlı olmur?

Adamlar sevməyi bacarsaydılar,
Qarlı qış da dönüb bahar olardı.
Adam ağac kimi sadə olsaydı,
Quşlar ürəyində yuva qurardı.

## QARAM, BİLİRƏM Kİ, GÜNAHKARAM MƏN

Yaman günahkaram, yağmayaydım kaş,
O gün Xocalıya mən də, dərd oldum.
Axı çox sevirdi məni uşaqlar,
O gecə yağmaqla mən namərd oldum.

O gün dizə qədər qana batdım mən,
Körpələr çığırdı, yerimdə dondum…
Onu çox incitdim soyuqluğumla,
Dərdinin üstünə şaxta, buz qoydum.

Söndürə bilmədim yanan qəlbini
Donmuş gözlərimlə baxdım tüstüyə.
Düşmən bir tərəfdən, mən də bir yandan
Vaxtsız qonaq kimi yağdım üstünə.

Mən soyuq olsam da, qəm yaddaşımda
Gör neçə körpənin solğun üzü var.
Qaram, bilirəm ki, günahkaram mən,
Üstümdə ömürlük qan izləri var.



# BİZİ SAZ TANIŞ ETDİ

*"Yalnız ruhun nəfəsi palçığa dəyəndə ondan insan yaranır"*

**Ekzüperi**

***Yalnız əsl şair nəfəsi sözə toxunanda poeziya, şeir doğulur...***

***Hər təzə sənətkarla Sözün üzünə Gün doğur.***

***Sözün bayramı başlayır.***

***Sözün üstünə Gün doğduran sənətkarlarımızdan biri də Azərbaycanın Xalq şairi, respublika Dövlət mükafatı laureatı, Hüseyn Arifdi.***

***Onun haqqında mənim də xeyli xatirəm, bildiyim və eşitdiyim lətifələr var.***

Bizi ilk dəfə bir-birimizlə saz tanış edib. Mən onu qonaq qaldığı evdə sazla yuxudan oyatmışam; 1983-cü ilin bir payız axşamıydı. Toydan gəlmişdim. Birdən qapımızda bir maşın dayandı. Baxdım ki, Mürsəl müəllimin oğlu Yasindir.

– Atam deyir ki, bir bizə gəlsin, Hüseyn Arif bizdədi. Səni şairlə tanış etmək istəyir.

...Həyətdə Mürsəl müəllimdən başqa hələ heç kim gözə dəymirdi. "A Yasin, bə hanı şair?!" - deyəndə Mürsəl müəllim işarə etdi:

– Bir bağa sarı bax!

Gördüyüm mənzərə məni mütəəssir etdi. Tək armud ağacının altında yer saldırıb yatırdı. Havada sazaq vardı. Şairə soyuq dəyəcəyindən narahat oldum. Fikrimi ev sahibinə dedim. O, bağa getmək istəyəndə ağlıma daha bir fikir gəldi:

– Yox, şairi elə-belə qaldırmaq olmaz. Onda günaha batarıq.

– Bəs necə qaldıraq?

– Sazla! Saz havasıyla. Xan Eyvazı “Durna teli” səfərində necə ki, saznan qaldırırlar ha, bax elə!

Razılaşdıq. Hərdənbir dınqıllatdığım sazımı gətirib “Dilqəmi” üstə köklədim. Niyə məhz bu hava üstə, eləmi? Şairin rəhmətlik oğlu deyərmiş ki, ata, sən özünü Dilqəmdə, yazdığın “Dilqəm dastanı”nda tapmısan. Ona görə bu havanı seçdim.

Saz səsini eşidən kimi şair oyandı. Əllərini başının altına çarpazlayıb çaldığım havanı dinlədi. Sonra qalxıb həyətə gəldi. Ona qədər içəridə dincələn bir-iki qonaq da eşiyə çıxdı. Stolun ətrafında adamlar çoxaldı. Kövrək və boğuq bir səs eşitdim:

– Kimiydi çalan?!

Məni göstərdilər. “Bir “Yanıq Kərəmi” də çal,” – dedi. Doğrusu, özümü itirdim. Ürəyimdən keçdi ki, “Dilqəmi”ni yaman çalmışdım, qalmışdı elə bir “Yanıq Kərəmi!”

Nə isə... Əlac nəydi, şairin sözündən çıxmaq olmazdı. Havaya qulaq asıb razı qaldığını bildirdi:

– Qızıl barmaqların var!

Mən sıxılsam da, ev sahibi qürrələndi və fürsəti fövtə vermədi:

– A şair, bu oğlan təkcə yaxşı saz çalmır, həm də yaxşı şairdir.

– Nə danışırsan? – şair üzünü sevincək halda mənə tutdu:

– Ə, bə indiyə qədər sən harda idin? Niyə yanıma gəlmirdin?!

Dedim ki, nə bilim, ustad, bir yandan cürət etməmişəm, o biri yandan da, iş-güc imkan verməyib, uzaqlarda işləmişəm.

Dərhal bir neçə şeirimi oxutdu, bəyəndi. Lakin bir iradını da vurğuladı:

– Həmişə şeirdə kansofkaya fikir ver, şeirdə ki kansofka olmadı, heç nə!... – Daha sonra qarşıma bir şərt qoydu:

– Səhər Ağstafaya yanıma gələ bilərsənmi?!

– Niyə gəlmirəm?

– Şeirlərini də gətir, sənə “uğurlu yol” yazacam, indiyəcən harda itirib-batmısan?!

Təklifə sevinsəm də, razı olmadım:

– Ustad, axı, siz yurd havası almağa gəlibsiniz. Bu dar macalda Sizi narahat etmək insafdan deyil. Bakıda görüşərik.

Şairin üzü nurlandı:

– Ağıllı oğlansan! Onda, gözləyəcəm, gələrsən.

...Və mən bir gün Bakıya Aşıqlar Birliyinə getdim. Hüseyn Ariflə görüşdüm. Şairə həsr etdiyim “Dilqəmi” şeirini apardığım şeirlərin lap üstə qoymuşdum. Bu şeir kənddə onu sazla oyatdığım ovqatdan yaranmışdı.

Görüşüb hal-əhval tutduq. İndi də belə bir şərt qoydu ki, bu gecə şeirlərini oxuyum, səhər gələrsən, fikrimi deyərəm. Saat doqquzda burda olarsan.

Düz dediyi vaxtda gəldi. Qapını açdı və ucadan nə desə yaxşıdı:

– Gəl görüm, gəl içəri! Bu gecə sən məni yatmağa qoymamısan!

– Niyə? – dedim, – ay ustad, mən ki, mərdimazar adam deyiləm.

Şair elə bil məni eşitmirdi. Öz "giley-güzarındaydı":

– Bu gecə doğrudan da yatmamışam. Sənin şeirlərini oxumuşam. Sənə bir şeir yazmışam. Birini də yazmaq istəyirdim. Qoy görüm, ilk misrası deyəsən, beləydi: "Bu gejə yatdımsa, atama... yox ey, yuxuma lənət!" Dalı gəlmədi, yazmadım.

Ürəyimdə hövlləndim. "Bə deyirlər, Hüseyn Arif huşsuzdu. Götürdüyünü itirir, yaxud guya nə dediyini yaddan çıxarır?!"

Bəli, şair oturub təzədən bir daha şeirlərimə baxır və deyirdi:

– Şeirlərin xoşuma gəlib. Uğurlu yol yazacam.

Söhbət bu məqama çatanda, düzü, ürəyimdəki şübhəni gizlədəmmədim. Düşündüm ki, yox, bu lap ağ oldu. Ay inandım ha! Mən bu düşüncələr içində ikən qəfil dedi ki, ordan katibəni və onun yanındakı qızı çağır.

Çağırdım. Mənim ona yazdığım "Dilqəmi" şeirini əlinə götürdü, nə fikirləşdisə, özümə qaytardı.

– Al, bu şeiri oxu bir!

Qızlara sarı döndü:

– Siz də qulaq asın!

Oxumağa başladım:

***Dünya sükutdaydı can otağında,***
***Batan günəşdimi... batırdı şair.***
***Kosalar kəndində, qürub çağında,***
***Bağda yer saldırıb yatırdı şair...***

Şeir qızların da xoşuna gəldi. Ustad qayğıkeşliklə əlini başqa bir vərəğə uzatdı. Və məlum oldu ki, bu, doğrudan da, mənə yazılmış şeirdir. Bu şeiri özü oxudu:

***İçdim sözlərini bir şərbət kimi,***
***Hardadı bu ləzzət, bu dad, qardaşım?***
***Beləcə yayılıb sən şeir-şeir,***
***Beləcə ucalıb boy at, qardaşım!***

***...Nizamini ara, Sabiri səslə,***
***Vaqifi xatırla, Vurğunu istə!***
***Siz elə qalxsanız kökünüz üstə,***
***Biz rahat ölərik, rahat, qardaşım!..***

Şair şeiri qurtarıb əlavə etdi:

– Bunu təzə kitabımda verdirəcəm.

O, sözünə düz çıxdı. Şeir 1985-ci ildə şairin İkicildliyində çap olundu.

* * *

Hər dəfə şairin mənə yazdığı şeiri oxuyanda hiss edirəm ki, bu adi bir şeir deyil. Şair vəsiyyətidir. Bəlkə də oğluna, mənim kimi yüzlərlə övladına olan vəsiyyəti.

Bu şeirin bir misrasında bir hərflə bağlı əhvalat da ibrətamizdir. “Siz elə qalxsanız kökünüz üstə” misrası əvvəlcə “Siz elə qalsanız” şəklində idi.

Şair mənə verdiyi həmin şeirin əlyazmasını geri istədi və dedi:

– Ağlın nə kəsir? Qalxsanızmı yaxşıdır, qalsanızmı?! Mən dedim ki, vallah, nə deyim, ustad. Özünüz bilən məsləhətdir. İndi də olmasın bir hərf, nə olasıdı ki?!

– Yox, – dedi. Axı qalsanız sözündə ucalmaq mənası yoxdur. Cavanlar pöhrədir, boy atandır. Ona görə də qalxsanız ifadəsi daha dürüst səslənir. “Qalsanız” şəklində olsa, yerə yapışacaqlar.

Bu güclü məntiqin qarşısında əlimi yuxarı qaldırdım. Yəni ki, mən təslim! Və şairin söz üzərində inadla işləməyinə heyran kəsildim.

O, dediyi kimi də elədi. Qalsanız sözündə “l” hərfinə bir “x” hərfi artırdı və oxudu:

***Siz elə qalxsanız kökünüz üstə,***
***Biz rahat ölərik, rahat, qardaşım!***

“Bax, belə! İndi bu oldu əla!”

Bu dərsi unutmadım və heç vaxt unutmaram da! Mən o vaxt bir həqiqəti dərk etdim. Hüseyn Arif üçün sən demə, ədəbiyyat bir hərfin davasıymış.

Başa düşdüm ki, şair haqlıymış və nə üçün bir hərfin üstündə belə əsirmiş...

* * *

Mənim yazdığım bir şeiri oxuyur, bəzi misraları, bəndləri təhlil edirdi. Bir bəndin üstündə ayrıca dayandı və yenidən oxudu:

***Ovçu gülləlləri səpildi düzə,***
***Ehtiyat salmadı duyuq, ceyranı,***
***Görən bəzəndirib çıxarsaq üzə,***
***Çölə yaraşarmı qoruq ceyranı?!***

– Şeirə fikir ver, – dedi. Hamı deyir ki, nəsli kəsilən heyvanları qorumaq üçün qoruq yaradaq, hansı heyvanlarısa qoruyaq. Sən isə deyirsən ki, yox, dünyanı qoruqdan qoruyaq. Gözəl fikirdir! Məni kövrəltdi, silkələdi buradakı məna. Gözümün önünə pələng, ceyran o şəkildə gəldi ki, qoruqda gəlir sərhədə qədər və... ordan o yana keçə bilmir. Dəhşətdir bu!

Mən özüm təbiət şairi olsam da, bu anı tutammamışam. Sən bu dərdi çox yerində duyub yaza bilmisən.

* * *

Bir dəfə yenə Bakıya getmişdim. Mən Bakıya çatanda xəbər çıxdı ki, bəs, deməzsənmi, ermənilər keçən gecə Qazaxın sərhəd kəndlərinə yenidən güclü hücum ediblər. Rayondan gəldiyimə peşman oldum. Yaxşı ki, şair dostum Zirəddin Qafarlıya rast gəldim. “Gəl bir qağamızın yanına gedək” təklifi lap ürəyimdən oldu. Fikrim bir az dağıldı.

Qapını açıb salamlaşanda baxdım ki, şair harasa getməyə hazırlaşır. Elə bil yol üstədir!

– Ay qağa, – dedim,– belə çox narahat görünürsən. Olmaya səfərin-zadın var?

– Hə, Qazaxa gedəcəm.

– Nə yaxşı. Xeyirdimi?!

– Bə, eşitməyibsənmi, ermənilər yenə hücum ediblər?!

– Mən də elə qatardan bu səhər düşmüşəm. Bilsəydim, heç gəlməzdim. Gərək mən də qayıdım.

– Sən gedib nağayracaqsan ki?!

– Heç olmasa gülədən-zaddan daşıyaram, qaraltılıq eliyərəm.

Əllərini havada etiraz əlaməti olaraq o yan-bu yana oynatdı:

– Yox, getmə, getmə. Ermənilər deyir, "Zemlya, Zemlya" raketi artır. Sən onun qabağında neyləyəcəksən?!

Mən də bu ötkəm sualı cavabsız qoymadım.

– Bəs sən gedib nağayracaqsan ay qağa, onda?!

– Mən gedirəm ki,... Eşitmişəm, adamlar kəndləri, sərhədi tərk edirlər. Gedirəm deyim ki, hara qaçırsınız, ən böyük sərhəd insan özüdür!

– O vaxt bu müdrik ifadəni zarafatla deyilmiş bir söz sanmışdım. Zaman keçdikcə şairin bu sözlərinin haqq olduğu aydınlaşdı.

...Katibə içəri girdi. Başını qaldırmadan bizlə salamlaşdı. Əvvəlcədən tanışlığımız olduğu üçün mən soruşdum ki, bacı, nə var, nə yox?!

Qız başını qaldırdı:

– Bıyy... Barat, sənsənmi?! – deyəndə Hüseyn Arif də bu yandan başladı ki:

– A-az, bu Baratdımı kı?!

Gördü ki, bir az tutuldum. O saat könlümü aldı, əlavə etdi:

– Baratdısa, yaxşı şairdir...

Gülməyimizi zorla saxladıq. Deyə bilmədim ki, ay qağa, bə savaxdan bəri Qazax haqda kimnən danışırdın?

Şairi qınamadım. Siyasi hadisələr, narahatlıqlar, bir yandan da xəstəlik onu əldən salırdı.

* * *

Şairin bir söhbəti heç yadımdan çıxmır. Deyirdi: "Mən görürəm ki, qarşımdakı bicdi, özümü qoyuram bicliyə. Düzdü, düz oluram. Axmaqdısa, başlayıram axmaqlığa... Yoxsa məni didib yeyərlər, vallah!

* * *

Hüseyn Arif 1978-ci ildə Azərbaycan SSR-in Dövlət Himninin mətni üzərində necə işlədiyini belə danışırdı:

– Şairləri bir yerə yığıb müsabiqə keçiriblər ki, himnin mətnini yazsınlar. Axıra 39 şairdən 9 şair qalıbmış. Onların da yazdığı Heydər Əliyevin xoşuna gəlməyib. Akademik Həsən Əliyev məni nişan verib ki, bu işi Hüseynə tapşır. İlhamlı şairdir. Bir gün məni MK-ya Heydər Əliyevin qəbuluna çağırdılar. Heydər Əliyev həmin 9 şairin şerini mənə göstərib fikrimi bilmək istədi:

– Yoldaş Əliyev, bunlar Himn mətni deyildir, – dedim. – Himnin nə olması haqda şeirlərdir.

Onda MK-nın birinci katibi bu işi mənim öhdəmə buraxdı, vaxt ayırdı:

– Bir həftə bəsdirmi? – dedi.

– Bəsdir, – dedim.

MK-da xasiyyətimi bildikləri üçün evə çatanda zəng etdilər ki, görsünlər evimə gəlmişəm, yoxsa ağzım o yan-bu yana düşməyib ki?! Çünki H.Əliyev tapşırmışdı ki, bu müddət ərzində heç yana getmə. Otur, Himnin mətnini işlə.

Nə olacaq, kirimişcə aradan çıxdım, Ağstafaya getdim. Üç günün içində mətni işlədim, qayıtdım. Heydər Əliyev mətni bəyəndi və yalnız bir söz artırmağı tövsiyə etdi: "Odlar yurdu" kəlməsini. Himn hazır oldu. Zəhmətimə görə Dövlət Mükafatına layiq görüldüm.

* * *

Qazaxda bir dostunun qonağıymış. Dostu süfrəyə bir sovxoz direktorunu da dəvət edibmiş. Nəsə şairin bunun vid-fasonundan xoşu gəlmir. Hiss edir ki, axmaq adama oxşayır. Ona hər 5-10 dəqiqədən bir sözarası axmaqlığını xatırlatmağı lazım bilir, özünü unutqan kimi aparır, həmin adamdan soruşurmuş:

– Bağışlayın, adınız nə oldu?! – O da adını deyirmiş. Məclis sona yetir. Həmin adam gedir. Dostu şairin "oyunu"nun sirrinə varmaq istəyir. – Ay qağa, lap yaddaş olub getmisən ki! Bir adamın adını neçə dəfə soruşmaq olar bir məclisdə.

Şair şaqqanaq çəkir:

– Ayə, a kişi, adamın adı olar, yadda qalar. Onun adı, siması yoxdu. Ona görə də tez-tez soruşur, özüm qəsdən onu ələ salırdım. Bədbəxtdi o! Adı yoxdu onun!

* * *

Bir dəfə kefinin kök vaxtında şair belə bir əhvalat danışdı:

– Mehdixan Vəkilov APİ-nin rektoruydu. Mən də "Yolda" poemasını təzəcə tamamlamışdım. Mən ona "qağa" deyirdim. Aramızda zarafatımız vardı. Bir-birimizin xətrini çox istəyirdik. Söhbətlərin birində Səməd Vurğun haqqında yazılmış ən yaxşı əsər haqda söz düşmüşdü. Mehdixan qulağım eşidə-eşidə qəsdən öz müsahiblərindən birinə dedi ki, "Yolda" poemasını yazan köpəkoğlu kimdisə, yaman yazıb ha!

Dostlarım mənə baxıb qımışanda Mehdixan heç təhərini də pozmadı. Guya məni heç görmür və dediyi sözü də mənim eşitməyimin fərqinə varmırdı. Ürəyimdə qərara gəldim:

– "Yaxşı, ay qağa, sən deyən olsun, hesab oldu sənin xeyrinə 1:0. Sonrasından Allah saxlasın".

...Aradan bir müddət keçdi. Fürsət gəzirdim ki, hesabı bərabərləşdirim. Amma necə, nə təhər, harda?!

Bir gecə yuxum ərşə çəkilmişdi. Saat 4 olsa da, gözümə çimir getmirdi. Birdən qağamla olan haqq-hesab yadıma düşdü. Telefonu görüb ev nömrəsini yığdım. Aparatdan bir azdan yuxulu bir səs gəldi.

– Kimdir? Eşidirəm...

Dəstəyi yerə qoydum.

Bir az keçdi. Zəng etdim. Yenə eyni sual təkrar olundu. Bir daha adboy verdim. Kişini cinlətdirmək istəyirdim. Üçüncü dəfə hirslə soruşdu ki:

– Kimsən, ay adam?!

Səsimin tonunu bir az dəyişib indi mən sual etdim:

– Mehdixan müəllim, bağışlayın, bəlkə siz bilərsiniz... Səməd Vurğun haqda o gözəl əsəri – "Yolda" poemasını görəsən kim yazıb?!

Qağam əvvəlcə cezv olmadımı? Birdən səsimi tanıdı:

– A köpəkoğlu! – dedi, – bu sənsənmi?!

– Mənəm, hə, ay qağa! Mənəm, – dedim, – necəsən, incimə, indi hesab oldu 1:1...

Qağamın yarırazı, yarınarazı gülüşüylə oyunumuz sona yetdi. Hayıf ondan! Gözəl kişiydi!

Zarafat etməyə adam da qalmadı!

* * *

Kosalar kəndində Mürsəl müəllimgildə qonaq olanda dedim ki, ustad, siz xoşbəxt adamsız. Bilirsizmi niyə?!

Vaxtilə ustadımız Səməd Vurğun da bu kənddə olub. Özü də qonaq qaldığımız evin qonşuluğundakı evdə. Bax, çəpərin o üzündəki evdə.

Şair bu sözdən xoşhal oldu. Həmin səmtə sarı bir xeyli dərin düşüncələr içində baxıb fikrə getdi...

– Deyirəm axı, məni bu kəndə çəkib gətirən nədi?!

* * *

Köhnə meşəbəyi dostlarından biri necə olubsa, yatıbmış fil qulağında. Oğluyla bağlı şairin başına gələn faciənin mahiyyətini tam anlaya bilməyibmiş. Bir dəfə görüşəndə şairdən soruşub:

– Sən ki, ay qağa, Hüseyn Hüseynzadəydin, necə oldu ki, Hüseyn Arif oldun?!

Şair ona az qala atalar sözü səviyyəsində olan aforistik yüklü bir sözlə cavab verib:

– İtirdim balamı, tapdım adımı!

* * *

Hüseyn Arifin Vətən sevgisiylə bağlı şeirlərindən birində belə deyilir:

***Kürün sahilində yaşıl baxça-bağ,***
***Hər evdə, eyvanda təzə çır-çıraq.***
***Sevirəm Tiflisi, sevirəm, ancaq,***
***Öləndə Qazaxda götürün məni!***

...Qazaxla Ağstafanın hələ ayrılmadığı vaxtlarıydı. Hüseyn qağa 1992-ci ilin sentyabrında dünyadan getdi. Qazaxdan götürülmək arzusu yerinə yetdi.

Belə ki, o zaman Ağstafada məscid olmadığı üçün, onun nəşini Qazağa gətirib Qazaxdakı məsciddən yuyub ordan götürdülər.

Onun səsi Allaha çatan səsiymiş...

* * *

Qazaxda Osman Sarıvəllinin dəfnində çıxış edirmiş:

– Ay qağa, sənin 85 illiyinlə bağlı mənə məqalə yazmağı xahiş etmişdilər. Kansofkanı tapa bilmirdim. Sən demə, kansofka buymuş (yəni sənin ölümün).

Daha sonra deyibmiş: – Yaxşı elədin, Qazağa gəldin. Öləndə deyəcəm, məni də Qazaxda basdırsınlar...

Beləcə, bu zalım dünyayla yarıciddi, yarızarafat edə-edə Hüseyn Arif də bir gün köçdü dünyadan.

***Hüseyn nələri gətirir yada,***
***Gözümün işığı Ağstafada,***
***Yenicə on dördü qoyub arxada,***
***On beşə yetdiyim günlər olaydı.***

– deyən şairimizi də dünya qocaltdı, əldən saldı, aparıb kor gözünə soxdu. Bizi şeirləriylə ağladan, zarafatıyla güldürən Hüseynimiz hayıf oldu.

***Evimizin arxası yaşıl tənəklik idi,***
***Tənəklikdən o yana güllük-çiçəklik idi.***
***Haydan, küydən aralı tənhalıq, təklik idi,***
***Hayıf, o sakitliyə,***
***Hayıf, o səssizliyə,***
***Hayıf, Hüseyn Arif!***



***Barat VÜSAL***



*Xatirə NURGÜL*

## BİLAL

Hər səhər
atının başını tumarlayıb
üzünü üzünə dayayar Bilal.
Sonra da
yapışıb atın üzəngisindən
aparar yonca dolu çəmənliyə.
Bilalın ruhu atdır.

Yaşıla bürünmüş çəməndə
şirəli otları
gözünə təpər at,
gözləri yaşarar otların iyindən.
İki damcı göz yaşı
isladar torpağı.
Atın ruhu yağışdır.

Sonra Bilal at ruhuna minib
çapar uzaq səhraya.
Nəfəsi od olub qaçar,
qanadı yel olub uçar.
Səhra açar

ucsuz-bucaqsız qoynunu Bilala,
aparar onu
uzaq sonsuzluğa.
Səhranın ruhu gəmidir.

Sonra xırda bir daş götürüb
çəmənlikdə axan
çaya atar Bilal.
Zümzümə edər –
“Saçın ucun hörməzlər...”
Bilalın səsinə qoşular
çayın şırıltısı,
şərqi kimi süzülər çay.
Çayın ruhu səsdir.

Qaş qaralmamış evə qayıdar
atla Bilal,
addımlarını daş kimi
basarlar yola.
Atın ayağından,
Bilalın əlindən tutar yol.
Yolun ruhu işıqdır.

## QARANLIĞIN İÇİNDƏN

Qaranlığın içindən
əsasına yüklənən
bir adam gəlib keçir.
Sanki bütün adamları
aparır özü ilə.
Ayın zərif işığı
süzülür boş küçəyə.

Sən ayı düşünürsən,
bir də gələn sabahı.
Ulduzlar dənə-dənə
qırpır gözünü,
açır.
Buludlar hara qaçıb?
Küçə necə sakitdir...
Necə səssizdir yollar...

Necə səssizdir şəhər.
Niyə səssizdir şəhər?
Adamlar hara gedib?

Susub-susub baxırsan
bu qəribə gecəyə...

Tutub qulaqlarını
qaçırsan lap uzağa,
baxırsan sola-sağa.
Elə bu vaxt qonşu it
səni ümid bilərək
düşür dalınca.
Dilə gəlib deyir it –
"ey, yemək ver, acam".

## DƏRDİN AYAQYALIN HALI

Hərdən
dərd də sənə qoşulub
qaçmaq istəyir
nəyinsə əlindən –
harasa...
Amma çıxılmaz dalana dirənir
sanki həyat.
Hara qaçasan?

Məsələn,
susmaq istəyəndə görürsən ki,
əslində
bütün sözlər deyilib.
Bütün yollar keçilib...
Bütün yuxular yozulub...
Bütün adamlar yaşanıb...

Qatarlar daha xoşbəxtliyə aparmır...
Dənizlər gizlətmir balıqları –
Budur bax,
bu da qızıl balıq.
Səndən bircə arzum var
qızıl balıq,
məni keçmişə apar.

Özümü itirmişəm,
gedim görüm,
bəlkə keçmişdə qalmışam.

Dərd də qoşulub mənə
gedirik keçmişə...
Eh, əslində
belə olub həmişə...
Həyat qovub,
biz qaçmışıq...
Neynək...
Çınqıl yolda
ayaqyalın qaçmaq kimidir
xatirələri silmək...

## YUXUYOZAN

Ən gözəl yuxuları
uşaqlar görər,
görərlər ki, uçurlar...
Böyüdükcə
qırıldı qanadlarım,
"ümid" adı qoyduqlarımı
yox etdi həyat.

Uşaqlar yuxunu gerçək bilər...
O gerçəyin tərs üzünü
yaşadım həmişə...
Elə bildim nə vaxtsa,
nəsə dəyişər.
Amma gerçək də
yox oldu
ümidlər kimi.

Yuxular uşaqları güldürər...
Ağlamadığım günlərdə
o qədər sıxdım ki
zavallı ovuclarımı,
qırım-qırım qırıldı
barmaqlarım...
Mən heç vaxt uşaq olmadım...

## QARANLIQ GÖZLƏRİMİZDƏN BAŞLAYIR

Dur,
yu əllərini,
gözlərini yu...
Topla saçlarını,
kirpiklərini.
Havaya üfürmək təklərin işidi.
Bütün varoluşların xatirinə
bağışla özünü.
Unutma,
qaranlıq gözlərimizdən başlayır.

Üzünü aya tərəf tutub
oxuduğun dualar,
Dərviş əcdadına işarədir.
Ya da təkliyin
yalquzaq mənşəli olmasına...
Gecənin
aya meydan oxuyan zülməti
şeir deyir
ulduzların gözlərini qırpmasına.
Qaranlıq gözlərimizdən başlayır.

Quşların uyuduğu yerdən
susursa ağaclar,
sularda əks olunmursa əllərin,
Unutma,
Qaranlıq gözlərimizdən başlayır.

## BU ŞEİRİN ADI DARIXMAQ DEYİL

Çınqıl yoldan keçən arabanın səsi
yuxuma gəlir hərdən...
Durub çağırıram
– ey... arabaçı,
bir az dayan,
dincəlsin atın.

Nəsə demək istəyirəm,
amma
atın kədərli gözləri

həyatın nə qədər fani olduğunu
salır yadıma.
Susuram...

Hərdən elə bilirəm
çınqıl yoldan keçən
arabanın səsi
hardansa tanış gəlir...
atı da hardasa görmüşəm,
arabaçını da.
– Ey... arabaçı,
deyəsən atın susayıb,
özü də yaman axsayır...

Bir araba keçir hər gün yuxumdan,
Atın kədərli gözləri çıxmır yadımdan...

## MELANXOLİK

Gərək belə olmayaydı...
Gərək yox olmayaydı insan,
bitməyəydi ömür
Yolun son addımından
sağa burulaydı
bütün ömürlər,
işıq gələn tərəfə açılaydı
bütün qapılar.

Belə olmayaydı, belə...
Gərək yuxunu deyil
ayıqlığı seçəydik,
Sükuta deyil,
səsə tərəf qaçaydıq.
Gərək tənhalıq
aldatmayaydı bizi.

Dünyanın ən gözəl adamları
"Belə olmayaydı gərək" deyə-deyə
Suya danışdığımız yuxular kimi
yuyulub getdi
gözlərimizdən....



*Tural CƏFƏRLI*

## DEYƏRDİM

Olmasaydı uşaq kimi küsməyin,
Bu sevginin daşını at, deyərdim.
Məndən sonra bir iş tapıb özünə,
Hamı kimi başını qat, deyərdim.

Darıxanda kitab oxu, keçəcək,
Yun bir ipdən corab toxu, keçəcək.
İnan mənə, dərdin çoxu keçəcək,
Qalan dərdi gələn qış sat, deyərdim.

Səhər durub şehə danış yuxunu,
Sübh azanı mehdən alım qoxunu.
Tuşlayaraq hərdən eşqin oxunu,
Ürəyimə nizətək bat, deyərdim.

Ehsan edib yoxluğunu gözümə,
Şərab içdim gəlmək üçün özümə.
Minbər bildim üz çevirib sözümə,
Günahıma oyanma, yat, deyərdim.

Tale yazan yazıb kədər gönündə,
Ömür gedir karvan kimi yönündə.
Bir gün gəlib dayansam düz önündə,
Gözəlliyin görüb, mən mat, deyərdim.

## DÜŞƏRSƏN…

Gedəndə adam bir xəbər eyləyər,
Demirsən yağışa, qara düşərsən?!
Duamı arxanca yollayım barı,
Bəlkə ondan sonra xara düşərsən…

Nəfəsim içimdən çıxan tüstüdü,
Yerdə məni tutan göyün üstüdü.
Bu qərib baxışlar məzar büstüdü,
Çox baxma, qorxuram gora düşərsən.

Gizlədə bilmərəm aşkar olanı,
Saxlamaq olarmı qəlbə dolanı?!
Gəl dəymə, incitmə vaxtsız solanı,
Bəlkə yoxluğumdan vara düşərsən.

Məcnun deyiləm ki, dərdindən öləm,
Nə Yusif deyiləm, quyuda güləm.
Musa da deyiləm, dəryanı böləm,
Gözləmə, gözləsən, zara düşərsən.

Çoxdan atılıbdır, göyərməz daşım,
Dəmlənib, dən olub kədərdən aşım.
Yaman zəifləyib son vaxt yaddaşım,
Unutsam, bilmirəm hara düşərsən…

## VECSİZLİK...

Qəribə adamsan, baş açmaq olmur,
Sevmirsən, sevəni dəli bilirsən.
Elə bil qarşına Məcnun çıxacaq,
Olmaya özünü Leyli bilirsən..?!

Bəlkə də oxuyub sevgi romanı,
Deyirsən aşiqlər bir ağıldadı...
Sən bilən Əslilər, Züleyxalar da
Dastanda, əsərdə, tək nağıldadı...

Sən uşaq deyilsən tutum əlindən,
Hamıya dərs verib keçərsən özün.
Uzaqdan içimi görə bilirsən,
Demək ki, açıqdı bəsirət gözün.

Sən getdin, qapımı döydü küləklər,
Hərdən deyinirdim, külək susurdu...
Hara gedirdimsə, düşüb arxamca,
Sənli xatirələr məni pusurdu.

Dinləyib gecənin Ay sükutunu,
İçimdə ulayan iti qovurdum.
Elə ki darıxdım o itdən ötrü,
Düşüb küçələrin gözün ovurdum...

## GÜNORTA

Bu qədər adam var bu boz şəhərdə,
Heç kimə qaynayıb, qarışmaq olmur.
Yadları anlayıb yola verirsən,
Özündən küsəndə barışmaq olmur.

Gül gözəl olmazdı, solmasa əgər,
Yağış düşməz bulud dolmasa əgər.
Anan namaz üstə olmasa əgər,
Canını Allaha tapşırmaq olmur.

Bir axşam özgəyə dönüb gedərsən,
Bezib öz kölgəndən çönüb gedərsən,
Gözünün önündə sönüb gedərsən,
İçində çölünlə yarışmaq olmur...

## SƏNİN YOXLUĞUNA SAĞLIQ DEYİRƏM

Deyəsən gözümün yaddaşı gedib,
Arana baxıram, dağlıq deyirəm.
Elə ki darıxdım badə əlimdə,
Sənin yoxluğuna sağlıq deyirəm.

Soruşma nə edim xatirələri?!
Sən ki unutmaqda qoçaq adamsan.
Dərdimi-sərimi necə danışım?!
Axı sən duyğudan qaçaq adamsan...

Beləcə başımı qatıram mən də,
Həsrətin küləyi əsdikcə xəfif.
Sən əzbər bildiyim şeir kimisən,
Ay üzün nəqarət, baxışın rədif.

Güzgüdə özümə baxmıram daha,
İncidir saçımın dən olan yeri.
Getmisən, eybi yox, barı geri ver,
Döyünmür qəlbimin "sən" olan yeri.

Kaş ki, öyrədərdin tərk etməyi də,
Bir dəfə özümdən çıxıb gedəydim.
Əhdinə vəfasız adamlar kimi,
Verdiyim sözümdən çıxıb gedəydim.

## QATAR

İnan ki, hamıdan soruşdum hər gün,
Dedilər bir qatar apardı səni.
Elə bil içimdən bir yarpaq kimi,
Kimsə gülə-gülə qopardı səni.

Çəkilib oturdum öz xarabamda,
Bayquşlar uladı canavar kimi.
Əsirdim xatirən olan yerlərə,
Hər axşam mülayim gilavar kimi.

Qayıtsan, özünlə bir az kül gətir,
Dərdimin başına qoyacam onu.
Bizi kor eyləyən ayrılığın da
Gözünü çıxarıb, oyacam onu.

Darıxsan, yum gözün, bir az söy məni,
Nəbadə qarğışa keçərsən, gülüm.
Hərdən şərab süzüb mənim yerimə,
Qəmin sağlığına içərsən, gülüm.

İtirmə vaxtını unutmaq üçün,
Özündən muğayat olgunan əsas.
Bir gün mən olmasam, səni aparan
O əclaf qatardan alarsan qisas.

**ŞUŞA**

Elə bil göy üzü yerə enibdi,
Tanrının sərdiyi xalıdı Şuşa.
Dünyanın ən gözəl çiçəklərindən
Yığılıb süzülən balıdı Şuşa.

Bir yanı qaladı, bir yanı meşə,
Saf suyu az qala qayanı deşə.
Təbiət sevməkdir ən gözəl peşə,
Cənnətin başqa bir halıdı Şuşa.

Günəş də sevinir səhər obaşdan,
Musiqi sədası gəlir hər daşdan.
Tanıdım mən səni o kaman qaşdan,
İsmətin örpəyi, şalıdı Şuşa.



*Vüsal NURU*

# XƏYAL MƏHKUMU



♦ *Hekayələr*

Şirkətin bənövşəyi rəngli uniformasını geyinmiş xanım üzündəki təbəssümü dəyişmədən dedi:

- Rasim bəy, növbə sizindi. Buyurun otağa.

Akvariuma oxşayan ofis otağı binanın 24-cü mərtəbəsində yerləşirdi. Burdan baxanda şəhərin mərkəzi ayaq altda görünürdü.

Pəncərənin qarşısındakı şəffaf stolun arxasında üz-üzə əyləşdilər.

- Bütün hisslərim quruyub. Darıxıram. Hər yerdə. Hamının yanında. Burdan şəhərə baxıram, təsəvvür elədiyimdən də kiçikdi. Sıxır məni şəhər.

- Sizi anlayıram, Rasim bəy. Şirkətimiz sizlərə xidmət üçün qurulub. - Stolun sol küncünə işarət barmağını toxundurdu, planşet açıldı. Xanım səhifə butonlarını göstərdi: - Hisslər bölməsində xəyallar, arzulardı. Adamlar bölməsində "Dostlar". Baxın, hər yaşda, hər ölçüdə, cinsdə "dostlar"ımız var. Kiraladığınız müddətdə ağlınıza gələn münasibəti, rəftarı göstərməkdə sərbəstsiniz. Məqsədinizə uyğun gələni kiralaya bilərsiz. Bu bölmədə heyvanlardı: Burda da seçim böyükdür...

- Seçim eləmişəm. 31-ci mərtəbədən gəlirəm.

- Deməli hisslər...

- Xəyal kiralamaq istəyirəm. Bilmirəm, axırıncı dəfə nə vaxt xəyalım olub.

- İndiki vaxtda ən münasib seçimdi.

- Qarışıq xəyal istəyirəm. "Səfeh xəyalı" mənə uyğun olar.

- Təbrik edirəm! Əla seçimdi, Rasim bəy. Bu xanaları doldurun. Rəsmiləşdirmə üç dəqiqədən az çəkəcək. 31-ci mərtəbədə sizi qarşılayıb xəyal otağına aparacaqlar. Bu xananı da doldurub ödənişi təsdiqləyin. Bitdi. Buyurun? sağ lift, 31-ci mərtəbə...

Rasim bəyi 31-ci mərtəbədə qarşılayan əməkdaş onu otağa gətirib çəhrayı üzlü kresloda əyləşdirdi. Biləyindən tutdu... "Bir neçə dəqiqəyə

beyninizə "səfeh xəyalı" yüklənəcək. Əməkdaş xəbərdar edib proseduru başlatdı, otaqdan çıxdı.

Rasim bəy yarıuzanılı yuxarı baxırdı. Tavanın yerində səma görünürdü. Rasim bəy əlini uzatsaydı, buludlara toxunardı. Barmaqları göylərin nəmini hiss eləyərdi. Buludların üstünə çıxarsaydı, Günəş yandırardı...

Otağa hansısa bitkilərin məstedici ətri yayılırdı. Uzaqda yarpaqlara düşən yağış damcılarının səsi eşidilirdi. Otağın işığı diqqət dağıtmadan rəngini dəyişirdi.

Rasim bəyin meyit gözləri göyə dirənmişdir. "Bir adam kiralayıb döysəydim, bundan maraqlı olardı. Cavan, cüssəlli, məndən güclü birini yerə yıxıb təpikləmək... Bəlkə, həzz alardım." Ağlından keçirdi. "Həzz almaq necə olurdu? Qıdıqlanmaq, yoxsa ürpənmək?.." "Dağ kiralamaq. İt də götürüb dağlara getmək pis olmazdı. Getdim. Bəs sonra? ". "Xəyal qurmaq... Bəlkə, bir arzu kiralayaydım? Nə məsələn? Arzulayardım ki... Arzulayardım... Arzum bu olardı ki, sonsuz bir xəyal qurum. "Səfeh xəyalı". "Səfeh xəyalı." "Deyəsən, axı şirkət müştərilərini aldadır. Beynimə nə yüklədi bu əyrəmçə? Tüstü məni zəhərləyir. Bu sui-qəsddi." Rasim bəy kreslodan sıçrayıb durdu. Qapıya gedib itələdi, açılmadı. Tüstünün gəldiyi yeri axtardı. Havalandırma jalüzlərini görmürdü. İşıq hələ də aram-aram rəngini dəyişirdi. Hiss elədi ki, indi bu rəngdəyişmələr onun sinirlərinə toxunur.

- Açın qapını! Açın deyirəm! Açın! - Qapını, şüşə divarları döyəclədi. Dəhliz, işıqlar, paraleldəki otaqların qapıları, tünd şüşə divarları içəridən görünsə də, çöldən içəri görünmürdü. Rasim bəy liftdən çıxıb dəhlizlə otağa gələnə qədər buna fikir vermişdi.

Şüşəni sındırmağa ağır, küt əşya axtardı. Kreslo, bəlkə, şüşəni qıra bilərdi, onu da yerindən tərpədə bilmədi.

- Eşidirsən məni. Bilirəm. Aç qapını! Məni burda saxlamağa heç kimin ixtiyarı yoxdu! Zəhərləyib öldürmək... Yox! Bunu heç kim bacarmaz!

Şəhərə baxan şüşələri yumruqladı, çiyinlə sındırmağın mümkün olmadığını anlayanda çarəsiz dayanıb baxdı. Alnını, qulaqlarının yanında ovuclarını şüşəyə yapışdırdı. Burnu əzilib üst dodağına dəyirdi. Gözünü qırpanda kirpikləri şüşəyə sürtünürdü. Aşağıda şəhərin işıqları sayrışırdı. Rasim bəy hardasa uzaqda binoklla baxan adama özünü göstərmək istəyirdi. İstəyirdi qarşı binanın pəncərəsində kim varsa, onu görsün. Özünü göstərmək üçün şəkildən-şəklə düşdü.

Hava qaraldıqca qarşıdakı binanın pəncərələri aydınlanırdı, otaqlarda çırpınan, özlərini şüşələrə çırpan adamlar görünürdülər. Yalqız adamlar, boş adamlar, ölü adamlar... Binaların pəncərələri də yaxın adamlar kimidi; yan-yana, alt-üst olsalar da, bir-birlərinin içlərini görmürlər.

İçəri dolan bitkilərin ətrindən başı ağırlaşır, gicgahlarında döyüntülər hiss edirdi. Kürəyi iki yerdən bıçaqla kəsilirmiş kimi ağrıyırdı.

– Məni kim sifariş verib? Aldatmaq! Yox! Belə asanlıqla məni öldürmək olmaz!

Damcı səsləri artırdı. Saçında, dərisində iri damcıların nəmini hiss eləyəndə başını qaldırıb baxdı. Damcılar üzünə töküldü. Gözünü qıydı. Bulud görünmürdü, amma yağış getdikcə şiddətlənirdi. Su topuğuna çatanda anladı ki, içəri divarlardan su süzülür.

– Üzə bilirəm. Məni çətin boğasız. Əvvəllər balıq olmuşam. – Qəhqəhə çəkdi. – Yağ! Yağ!

Kürəyinin kəsikləri dəhşətli dərəcədə qaşınmağa başlamışdı. Yaş paltarlarını dartıb başından çıxartdı. Kürəyini divarın küncünə sürtdü. Ağ küncə qan bulaşdı, yayıldı. Yağış yuyub axıtdı. İçinə dolan doğuş sancısından qıvrılıb bağırdı. Kürəyinin kəsiklərindən şəffaf arı qanadları qırışını xışıltıyla açıb, şaxlandı. Taqəti kəsiləndə dizlərini yerə qoydu. Su sinəsinə qədər qalxmışdı. Qanadlarını tərpətmək istədi, çalmağa çalışdı. Qanadlarının yerinə qolları tərpənirdi. Durub yenə pəncərəyə yapışdı. Qarşı pəncərələrdə arılar uçuşurdu. Çölə dəlik axtarırdılar.

– Mən uça bilirəm! Uçaram. Mən arıyam. Arılar uçur. İndi uçaram. Uçaram...

Şalvarı cırıldı. Belini sıxan kəməri açdı. Budunun başı şişdikcə aşağı sallanırdı. Bədəni ağırlaşırdı. Əllərini şüşəyə yapışdırıb özünü ayaq üstə güclə saxlayırdı. Yuxarı dartınır, uçmaq istəyirdi.

Yağış birdən dayandı. Son damcı düşəndə otağın qurşağa qədər qalxmış suyu bir anda çəkilib getdi.

– Qanadlarımı aça bilmirəm. Tərpənin! Hə! Tərpənin!

Pəncərənin şüşəsində əksini görürdü. Qanadlarına güc verdikcə sinəsinin əzələləri yığılıb boşalırdı, qolları tərpənirdi, di gəl, qanadına siqnal getmirdi.

– Mən arıyam. Qanadlarımı tərpətməliyəm. Uçmalıyam. Burda ölə bilmərəm.

Hiss elədi ki, səsi vızıltı kimi çıxır. İndi bu vızıltıyla onu heç kim başa düşməz. Arxası yerə dəyirdi. Ayaq üstə durmağa taqəti qalmadı. Yeriyə bilmədi. İməkləyə-iməkləyə gedib krelsoya qalxdı. Dizlərinin, dirsəklərinin üstündə durub çölə baxdı. "Görəsən insanın qanadı olsa, uça bilərmi? Necə tərpədər qanadlarını?" Ağlından keçirtdi. "Görəsən adamlar da arılar kimi darıxır? Arılar kimi yalqızdılar?"

– Rasim bəy, xəyalınızın kirayə vaxtı bitdi. – Əməkdaş onun yanında dayanmışdı. Ucu iynəli naqilləri onun biləklərindən çıxarıb kənara qoydu.

Bir müddət əməkdaşa baxdı. Sonra otağa, çevrilib pəncərəyə boylandı. Durub yaxınlaşdı. Qarşı binanın pəncərəsində adamlar şüşələri döyəcləyirdilər, şəkildən şəklə düşürdülər...

– Rasim bəy, inanıram ki, xidmətimiz ürəyinizcə oldu. Başqa istəyiniz varmı?

- Əslində, xatırlamağı yaxşı bacarmıram. Təssadüfən yadıma kəndimizin çölləri düşdü. Uşaqlıq illərindən bir səhnə. Şüşə balona arını salıb qapağını bağlayırdıq. Qapağın deşiyindən siqaret tüstüsünü içəri üfürürdük. Gözləyirdik görək çiçəklərin ətrinə öyrəşmiş arı tütün tüstüsündə nə qədər yaşayar. İndi sizdən şüşə balona salınmış arı kiralamaq istəyirəm.

- Siz bir işçi arının xəyalındasız. Gerçək olan arı bəydi.

- Bəsdi, bu ola bilməz. Yaxşı. Daha "Səfeh xəyalı" qurmaq istəmirəm. Buraxın məni. Oyadın. Nə lazımdırsa edin. Kəndimizin çöllərinə getmək istəyirəm. Məni həqiqətə qaytarın.

- Şirkətimiz sizə həqiqəti kiralamağı təklif edir. İyirmi dördüncü mərtəbəyə düşün. Gözləmə zalında əyləşin. Əməkdaşımız sizə yaxınlaşacaq.

Şirkətin bənövşəyi rəngli uniformasını geyinmiş xanım üzündəki təbəssümü dəyişmədən dedi:

- Rasim bəy, növbə sizindi. Buyurun otağa...

# DİŞ QATİLİ

Mən otağa girəndə Camal babam ölmüşdü. Bir neçə dəfə çağırdım, silkələdim, nəbzini yoxladım. Barama kəpənəyi kimi canı ayrıq qalmış ağzından uçub getmişdi. Üst damağındakı aman-zaman qızıl dişi "məni dart çıxart" deyirdi.

Babam qızıl dişinə görə protez qoydurmadı. Bəlkə diş düzəltdirsəydi, 72 yox, lap 100 yaşayardı. Bu qızıl diş babamın həm ən bəlalı, həm də ən müqəddəs yeriydi. Doğmasıydı. Boyunu sevirdi bu qızıl dişin. Balaca yumru güzgüsü vardı, – əvvəllər gizlin baxarmış, sirri açılandan sonra heç kimdən çəkinmirdi, babam güzgünü üzünə tutub dişiylə danışırdı. Dişin səsini eşidirdi kişi. Suallarına cavab verirdi. Bir də görürdük babam dişindən küsüb; kişinin qaşının düyünü açılmazdı, dodaqlarının arasına loxma girməzdi. Bir də görürdün dişiylə barışıb; gülüşü üzünə yaxılıb. Çox eşitmişəm; qonşular deyərdilər Camal kişi havalanıb. Yəqin atamgilin də qulağına çatmışdı, babamı məcbur edərdilər dişini çıxartsın. Fürsət tapanda hərə bir tərəfdən kişinin üstünə düşərdi:

"Anamdan artıqdı o diş? Çıxartdır, arvadın da barışsın. Bu yaşda nə küsgünlükdü, ay ata? Nə tərslikdi?" – atam çəkinə-çəkinə olsa da sözünü deyərdi.

"Dəmiri ağzından çıxart, protez damaq düzəltdir, yeməyini də rahat ye, mədən, bağırsağın da düzəlsin. Sarı dəmirə görə zülüm

çəkirsən. Biz də bir dişin bəlasını çəkirik. Nə qədər söz-söhbət olar? Arvadın istəmir də. Nolar ki, onun qəlbin qırmasan? Nədi axı metal diş? Yırtıcıya oxşadır səni. Lap elə qoca vampirə də..." Bibim yaman sərt danışardı.

Dişi iki barmağımla tutub silkələdim, laxlamırdı. Gördüm babam tərpənmir, bir az da cəsarətlənib güc verdim. Babamın canı bu dişindəydi, ağrısını hiss eləsə, oyanardı.

Başa düşmüşdüm ki, babamın qızıl dişində sirr yatır. Diş həkimindən qorxan adam deyildi. Sonralar bildim ki, nənəm bu sirri təxminən on il bundan əvvəl öyrənib. O gündən nənəm deyirmiş Camal mənə xəyanət eləyib. Babam deyirdi mən it kimi sadiq adamam. Elə bu sirr də nənəmin ürəyinin xərçəngi olub. Yazıq arvad xiffətdən getdi. Ölənəcən babamı dindirmədi. Demişdi, ya o diş, ya mən. Yoxsa üzünə baxmaram. Yaman kin saxlamağı vardı arvadın.

Babam güləndə nənəm onu ələ salardı. Elə sözlər deyərdi adamı gülmək tutardı. Baxardım ki, doğrudan da babam bu qızıl azı dişiylə çox gülməli, güləndə çox qorxunc, stulda mürgüləyəndə eybəcər görünür. İlk dəfə təsadüfən eşidəndə ki, babam dişinə Zülfiyyə deyir, uğundum gülməkdən. Dedim kişinin hayı gedib, vayı qalıb. Adam da dişinə ad qoyar? Özü də Zülfiyyə. Nənəm babamı bu ada qısqanmışdı. Amma qırx il əvvəl nənəm babama vurulanda da qızıl diş babamın ağzında bərq vururmuş. Bir dəfə, onda babamla küsməmişdi, özü dedi ki, Camal güləndə vuruldum ona. Dodaqları qaçdı, qızıl dişi göründü. Camalın üzü nurlandı. Qızıl diş ona yaraşırdı. Babam da bu vurulma, sevmə əhvalatını tez-tez nənəmin başına qaxardı: "Elə qızıl dişimə vurulmusan də. Deyirdin, gül, ay Camal, sənə gülmək yaraşır. Sən güləndə ürəyim titrəyir. Həmin dişdi də. İndi gülürəm, ağzını əyirsən. Dişimə günü olmusan". Babam sözünü deyib acıqca dodaqlarını çirməyər, Zülfiyyəsini göstərərdi. Nənəmin üstünə qaynar su tökülərdi onda. Elə bil, doğrudan da günüsün görərdi. Arvad dizini çırpardı. Başına qapazlayardı, deyərdi daş düşəydi təpəmə. Kül olaydı ağlıma. Gözüm töküləydi. Qarğış eləyərdi, deyərdi: "Dişin qırılsın, Camal!

"Dişin qırılsın!" babam üçün ən ağır qarğış idi. Deyərdi müqəddəsimin goruna söyür. Əlinə keçəni atardı nənəmə, ərinməzdi, durub qapazı endirərdi başına. Arvad nətəhər ağlayardısa, ürəyimin başına od düşərdi. Bilmirdim nənəmə yanım, yoxsa qızıl dişinə

görə bu qədər qınanan, uşaq kimi azar eşidən, qəlbi qırılan babama. Atam da, bibim də qalardılar bu iki qoca uşağın arasında. Evin qanı qaralardı. Ara yerdə bibim oğluyla mən ac qalardıq.

Camal babamın da ağlamağı var idi; çəkilərdi xəlvətə, döş cibindən güzgüsünü çıxardardı, ağzını, dodağını tərpətmədən dişinə baxa-baxa danışardı, gözünün yaşı qırışların arasıyla çənəsinə süzülərdi. Döyülmüş, qovulmuş yetim uşaq kimi asta-asta hıçqırardı. Gileylənərdi, şikayətlənərdi bəxtindən, Zülfiyyəsinə dərdini deyərdi. Gileylənərdi.

Ha dartırdım, diş damağı buraxmadı. Sürüşüb barmaqlarımın arasından çıxdı. Kişinin çənəsi az qalırdı əlimdə gəlsin, di gəl, diş laxlamırdı. Bir tərəfdən də babamı çox incitmək istəmirdim. Nə bilim, bəlkə ölülərin canı başqa cür ağrıyır?

Bibim hirslənib özündən çıxanda deyərdi: "Anamı sənin dişin öldürdü. Hələ yaşayardı, ürəyi qübar bağladı getdi. Harda görülmüşdü ki, arvadı infarkt vura".

Babamın cavabı dəyişməzdi: "Əcəl gələndə baş ağrısı bəhanədi..."

Ağlıma kəlbətin gəldi. Babamın pilləkənin yanındakı alətlər şkafından tapdım.

Bir dəfə bibim oğlu dedi gəl babaya dərmən verək yatsın, damağına da keyidici vuraq, dartaq çıxaraq dişini, bu evdən söz-söhbət yığışsın. Qorxdum. Dedim kişi ayılmaz, ürəyi zəifdi. Ayılsa da, görər Zülfiyyə yerində yoxdu, ürəyi dayanar.

İçimdəki hiss deyirdi sal kəlbətini meyidin ağzına, dart çıxart dişi. Nənənin də qisasını al. Bir yandan da ürəyim gəlmirdi.

"Heç olmasa Zülfiqar qoyaydı adın, Zülfiyyə nədi?" Bibim oğluyla aramızda müzakirə eləyirdik. "Ona Zülfiqar lazımdı? Sən istəyərsən ağzında kişi otursun? Kişinin boyunu sevəsən. Darıxanda gəzməyə aparasan. Dodağını çirməyib getdiyin yerləri göstərəsən. Bu kişinin bığı var, qarnı var... Təsəvvür elə, damağında bığlı, qarınlı kişi oturub, səni də iki gündən bir məcbur eləyir ki, səhər xaşa gedək. Siqaret çəkək. Necə olarsan? Amma damağında qız otursa... Zərif, işvəli, nazlı... Dodaqların onu hiss eləsə... Dilin üzünə sığal çəksə. Hamıdan bezəndə, darıxanda, ürəyin qırılanda ağzındakı sarışın qıza sığınsan, danışsan, dərdləşsən, səsin eşitsən, babam kimi gəzməyə aparsan ağzındakı qızı. İsti-soyuq içməyib qoruyasan, sevgilin kimi qayğısını çəkəsən... Necə olarsan?"

"Elə danışdın, qızıl diş qoydurub onunla evlənmək istədim."

Babamın mənə verdiyi cavabları bir az da bəzəyib bibim oğluna yedirirdim.

Kəlbətinin ağzına pambıq doladım.

Təklifim ağlına batmışdı. Razılaşdıq ki, azı dişimizin üstünə qızıl qalpaq qoyduraq. Babama təsəlli olsun. Təklənməsin. Həmişə bizi qızının, oğlunun, gəlininin şillə-qapazından qoruyardı axı. Kimin hünəri vardı babam olan yerdə bizə bozaraydı?

Bibim oğlu diş qoydurdu. Bir qırğın-mərəkə də onda başladı. Nənəm dedi: "İtdən əmələ gələn, qəbrimin üstünə ayağın dəyməsin". Anası dimdiyini qaraltdı. Elə həmin gün də qalpağı sökdürdü.

İki dəfə kəlbətin boşa çıxdı. Axırıncı dəfə necə dartdımsa, xırçıltısını bəlkə də, babam o dünyada eşidib diksindi. Kəlbətinin ağzında elə bil canavar dişiydi.

"Bağışla, Zülfiyyə. Bağışla, baba."

Dişi pambıqla təmizləyib qoydum cibimə. Bir topa təmiz pambığı basdım babamın ağzına, boş qəbirə oxşayan dişin yerinə. Nənəmin ağ yaylığı vardı, üstü xonçalı, babamın qapazından sonra ağrıyan başına bağlayardı arvad, onu gətirib babamın çənəsini çəkib bağladım. Sonra bu qismətə özüm də məəttəl qaldım. Həm də dedim bibim oğlu görməsin.

Görmədilər. Mürdəşirin yanına da heç kimi qoymadım, özüm girdim.

Meyidi yumağa aparanda bibim oğlu dirənmişdi ki, gəl dişi çıxardaq. Maşının içində mafənin yanında ikimiz oturmuşduq. Çibində diş kəlbətini gətirmişdi.

– Sən üzün aç, mən dartım. Kişi ol! O tərəfdə qızıl babamın nəyinə lazımdı? Sataq Zülfiyyəni, bölək. Kim biləcək?

– Olmaz! Günahdı! Babamın ruhu inciyər. Səni də rahat buraxmaz. Zülfiyyənin sirrini sən də bilsən, kəlbətin gətirdiyinə utanarsan.

– Bilirsən? Deməli, bilirsən! Sən babamın ruhu, bilirsənsə denən.

– Zülfiyyə babamın ilk sevdiyi qız olub. – Daha sirr saxlamaq mənasız idi. – Nişanlanıblar, amma ağızdan. Üzük əvəzinə bir-birlərinə qızıl diş taxıblar. Zülfiyyə öləndə hamiləymiş. Səkkiz aylıq.

– Nənə də ölüyə qısqanırdı? Ta denən diş nənəmin günüsüymüş ki.

– Hə, deyirdi, Camal məni aldadıb, həmişə Zülfiyyəni sevib.

– Hardan bilirsən?

– Bir dəfə babam Zülfiyyəni gəzməyə aparanda dalınca düşdüm. Qəbirisanlığa getdi. Başdaşında Zülfiyyənin şəklini də gördüm, adını da oxudum. Doğum günüymüş. Babam ağlayanda getdim yanına, dedim indi ürəyi dayanacaq. Onda dedi ki, ağzımdakı Zülfiyyə həm ilk sevdiyimdi, həm də doğulmamış ölən balam. Diş həkimiymiş. Özü düzəldib dişi. Babama Zülfiyyədən qalan tək yadigarmış. Ona görə dəyərliymiş.

– Pah! Kişidəki sevgiyə bax, sədaqətə bax.

– Sən də kəlbətin gətirmisən ki, Zülfiyyəni babamdan ayırasan. Onları ölüm ayıra bilməyib heç. Əbədi bir yerdə olmalıdılar. Aşiqlər bir çənədə qovuşublar.

Öz sözümdən xəcalət çəkirdim. Əslində, nə iş tutduğumu başa düşmüşdüm. Gec idi.

Diş ovcumdadı. Mürdəşirin başı qarışanda dişi babamın ağzına atmaq üçün məqam gözləyirəm...

Ovcumu açıb qızıl dişi zərgərin qarşısına tutdum. Götürüb baxdı, qaytardı:

– Qızıl deyil!

– Elə şey olar? Necə yəni qızıl deyil? Babamın dişidi. İllərdi bu qızıl dişin eşqinə yaşayıb.

– Baban nə eşqinə yaşayıb bilmirəm, amma diş qızıl deyil. Tulla getsin.

Acığa, başqa zərgərin dükanına girdim. Beş zərgər üzü gördüm, bir söz eşitdim.

Babamın ölənə qədər sadiq qaldığı bu müqəddəs dəmir parçası mənə bir qara qəpik qazandırmadı. Neyniyim indi? Qaytarıb yerinə də qoya bilmirim. Atım getsin?

# Klassik ənənələr və modernist axtarışlar



*Azərbaycanın rusdilli ədəbiyyatının tanınmış nümayəndələrindən olan Natiq Rəsulzadə gənc yaşlarından mətbuatda çap olunmağa başlamışdır. Moskvada Maksim Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir (1975). "Kabuslar arasında" (1989), "Xonxarlar", "Qolfstrim" (2015) romanlarının, "İntihar edənin gündəliyi" (1990), "Gecə çaparı", "Ev" (1999), "Nonsens" (1989), "Dostum Mika" (2020) povestlərinin, "Adacıq", "Xor adamı" pyeslərinin, "Quş çəkirəm" (1982), "Məhəbbət ili" (1983), "Bayramda yağan yağış" (1999), "Tələ" (2009) kimi onlarla hekayələrin müəllifi olan Natiq Rəsulzadənin ssenariləri əsasında "Mələklərə inanmayın", "Bayramda yağış", "Yaşa qızıl balıq", "Vahimə", "Sifarişçi", "Gecə qatarında qətl", "Nə gözəldir bu dünya...", "Girov", "Ovsunçu", "Biz qayıdacağıq" filmləri çəkilmişdir. Yazıçının əsərləri bir çox dillərə tərcümə edilərək dünyanın müxtəlif ölkələrində çap olunmuş, nüfuzlu mükafatlara layiq görülmüşdür.*

*1979-cu ildən Azərbaycan Yazıçılar Birliyinin, Kinematoqrafçılar və Teatr Xadimləri İttifaqının üzvüdür. Azərbaycanın əməkdar incəsənət xadimi (1999), Respublika Dövlət mükafatı laureatıdır. 2009-cu ildə "Şöhrət" ordeni ilə təltif edilib, Azərbaycan Respublikasının Xalq yazıçısıdır (2019).*

Rusiyada təhsil aldığı illərdən başlayaraq yaradıcı mühitdə tanınmağa başlayan müəllifin əsərləri rus yazıçıları tərəfindən yüksək qiymətləndirilmişdir. Hansı dövrdə (sovet və ya postsovet) qələmə alınmasından asılı olmayaraq Natiq Rəsulzadə əsərlərində müasirlərinin dolğun psixoloji portretini, cəmiyyətin mənəvi-psixoloji durumunu əks etdirməyə çalışmışdır.

XX əsrin 90-cı illər ədəbiyyatında şərin, qaranlığın təntənəsi yaşanırdı. Mübariz sovet obrazından əsər-əlamət belə qalmamış, cəmiyyətə hakim olan ümidsizlik mühitində xeyirin qalib gələcəyinə ümid aradan qalxmışdı. Həmin illərin insanı mənən zəif, inamsız, özünü məğlub hesab edən biridir. Şərin qarşısında aciz, tərksilah qalan insan mübarizəyə qalxmağa cəhd belə göstərmirdi. Yazıçının həmin illərdə qələmə aldığı əsərlərində dövrün bəlaları

– asanlıqla qazanılan sərvətin, göydəndüşmə pulların cəmiyyətdə yaratdığı xaos, müharibədən dönən əlil əsgərin (Əfqanıstan müharibəsi) sərgüzəştləri – carəsizliyi üzündən başqalarının pis əməllərini həyata keçirmək üçün vasitəçiyə çevrilən günahsız insanın taleyi ("İntihar edənin gündəliyi"), karyerizm, tamah, gənc nəsli məhvə sürükləyən "ağ ölüm" ("Ruhlar arasında") kimi problemlər əks olunmuşdur.

Natiq Rəsulzadənin bir çox personajlarını klassik ədəbi tiplər olaraq təsnif etmək olar: "kiçik insanlar" ("Təmtəraqlı hadisə"), "qılaflı adam" ("Bayramda yağan yağış"), "oyunçu" ("Mayeşka"), "romantik aşiq" ("Alınmayan görüş") və s. Ömrünün çətin "sərhəd" dönəmini – ölüm gözləntisi ("Nonsens"), yaxın insanın itkisini yaşayan ("Altı gün Venesiyada"), xəstəlik keçirən ("Sehrbaz", "Kaşmar Maştağalının həyatı və ölümü"), bəzən isə keçmişə üz tutaraq əvvəlki hissləri yenidən yaşamağa çalışan ("Başqasının həyatı", "Xoşbəxt görüş", "Alınmayan axşam", "Uçan su" və s.) personajların canlandırıldığı əsərlərdə dramatizmi şərtləndirən əsas amil – reallaşmayan həyat eşqi, sərf olunmayan daxili potensialın doğurduğu ağrı hissidir. Onların əksəriyyətinin düşüncələri bu günlə deyil, ötən zamanla bağlıdır. Yaddaşlarında yaşatdıqları obrazları xatırlayaraq o hissləri yenidən yaşamağa can atsalar da ("Xoş görüş", "Baş tutmayan axşam"), çox zaman peşmançılıq hissi yaşayırlar. Yeni hisslərə baş vurmağa, yeni həyata başlamağa isə artıq nə gücləri, nə də cəsarətləri qalmayıb.

Ömrünün kritik məqamına yetişən, dəyişikliyin zəruri olduğunu, artıq bu cür yaşamın mümkünsüz olduğunu anlayan insanlar əzab və narahatlıq keçirirlər. Çətin dönəmdə gözlənilmədən qarşılaşdıqları sevginin nicat gətirəcəyi ehtimal olunsa da, münasibətlərin sonu heç də uğurlu olmur ("Tələ", "Pəncərə").

Müxtəlif insan tiplərinin canlandırıldığı, personajın xarici görkəmi, həyat tərzi haqqında ətraflı məlumat verildiyi əsərlərdə ("Mayeşka", "Mənim dostum Mika", "Bayramda yağan yağış", "Yaşanmayan həyat", "Müşahidəçi") müəllif, personajları mənfi və ya müsbət insanlar olaraq xarakterizə etməyə çalışmır. Əsasən eksiztensial həqiqətlərə üz tutan Natiq Rəsulzadə yaradıcılığı üçün yaxşı-pis, ağ-qara kimi binar qarşıdurma xarakterik deyil. İnsan psixologiyasının dərinliklərinə varmağa cəhd edən yazıçı, fərdi idarə edən impulsları üzə çıxartmağa, obrazın mənəvi dünyasını bütün mürəkkəbliyi ilə göstərməyə çalışır. "Qapı arxasında dayanan" əsərində seçim qarşısında qalan − əbədi yaşam üçün başqa birini öldürməli olan insan, "Soyuq oktyabr ayı"nda qadının xəstəliyi (şizofreniya) səbəbindən dağılan xoşbəxt bir ailə, faciəni ağrılı şəkildə yaşayan ailə başçısının keçirdiyi hisslər təsvir edilmişdir.

Yazıçının bir çox personajları təklənən fərdlər olaraq təsvir edilirlər ("Pəncərə", "Dostların yığıncağı", "Adacıq" və b.). Başqaları kimi məqsədyönlü, mənsəbpərəst olmadıqları üçün ətrafdakı insanların, yaxınlarının qınaq obyektinə çevrilən bu insanlar, əsasən seçim qarşısındadırlar: ya öz qəlbinin səsini eşitməli, ya da ətrafdakıların istədiyi kimi olmalıdırlar. Yalnızlıq, ən yaxın

insanlar arasında yaşanan anlaşılmazlıq onların yaşamının dramatikliyini şərtləndirir. Yaşadıqlarından "əzab" çəksələr belə, əksəriyyəti vəziyyəti dəyişmək iqtidarında olmayan insanlardır. Bəzən fərd olaraq öz istəklərinə, qəlbinin səsinə uyğun şəkildə yaşamaq ürəklərindən keçsə belə, bu istək anidən yanıb-sönür. Yalnız tək-tək insanların yalnızlığı üstün tutaraq ("İşıq saçır, amma isitmir"), ürəyinin hökmü ilə harmoniyada yaşamağa gücü çatır. Çoxları isə kütlənin ittihamedici təpkisinin təsiri altında hamı kimi olmağa çalışır. Kütləviləşmə, hamı, hər kəs kimi olmaq, seçilməmək istəyi son olaraq mənəvi kasadlaşmaya səbəb olur, həyat öz rəngarəngliyini itirir.

"Oğlanlar, uçmaq haqqında düşünməyin" (1989) hekayəsində böyüklərə (valideyn və müəllimlərinə) təpki göstərməyə gücləri çatmayan uşaqlar öz unikallığından (uça bilmək bacarığını) əl çəkməli olurlar. Sosiallaşdıqca, yaşa dolduqca uşaqlıq cağında yaranan bu bacarığın aradan qalxması ilə rahatlıq tapdığını düşünən insan sevinc hissi keçirsə də, həmin dövrlə bağlı nisgili ömrü boyu ürəyinin dərin bir güşəsində gizləyir. Ətrafdakı insanların təsiri, təzyiqi nəticəsində qeyri-adi bacarığını itirən və hamı kimi yaşamağı üstün tutan, bu yolu tutduğu üçün şükür edən insanların faciəsi "Xonxar" romanında bir nəslin faciəsi olaraq əks olunub. İtirdiklərinin fərqinə varmadan yaşayan insanın həyatı təkrarlanan zorakılıq labirintinə bənzəyir, yüzillik qisas qanunlarının əsirinə çevrilən insan nəsli məhv olur.

Müxtəlif biçimli psixoloji arsenaldan istifadə edərək, insan münasibətlərinin dərinliklərinə baş vurmağa can atan yazıçı əsərlərində bir çox psixoloji vasitələrdən (fərqli təhkiyə strukturu, mistika, yuxu, qarabasma, sürrealistik təsvir, detal və s.) istifadə etmişdir.

"Qızıl sikkə" hekayəsində insana yaşayışını təmin etmək üçün vasitə kimi gərəkən qızılın ailə başçısının həyatının mənasına cevrilməsi onun daxilində yaşanan dəyişikliyin, kasadlaşmanın uğurlu ifadəsinə çevrilir. "Əminə", "Qardaşlar", "Oğlanların yığıncağı", "Yeddinci gecə" hekayələrində çevrilmə metamorfozası insanın daxili naqisliyini göstərmək üçün vasitə olaraq yer almışdır.

"Bayramda yağan yağış" (1999) hekayəsində personajın xarici görkəmini, həyat tərzini, iş mühitini ətraflı şəkildə əks etdirən müəllif onun xarakteristikasını dolayı yolla canlandırmağa çalışmışdır. Mühitin detallı təsviri personajın həyatının miskinliyini ifadə etmək üçün vasitəyə çevrilmişdir.

Yazıçının yaradıcılığına xas avtobioqrafizm də əsərlərdəki psixoloji möndəricənin zənginləşməsinə xidmət edir. Ata obrazı ("Atamın şəkilləri", "Qolfstrim"), uşaqlıq qorxuları və həyatında yer alan bir çox epizodlara – öz çəkmələrini ulağa verən balaca, doğum gününə motosiklet hədiyyə alınan oğlan və başqa bu kimi hadisələrə təkrar-təkrar qayıtma cəhdi müəllifin öz mənəvi-psixoloji durumuna baş vurma cəhdi kimi qiymətləndirilə bilər.

Natiq Rəsulzadənin yaradıcılığı janr baxımından rəngarəngdir. Onun əsərlərini – absurd ("Duel", "Tramvay", "Görüş, görüş və..."), mistik-psixoloji ("Fikirləri oxuyan", "Qapı arxasında dayanan", "Dostum Mika" və b.), şərti mə-

kan və personajların, yığcam süjet xəttinin canlandırıldığı, fəlsəfi və ya etik problemin əks olunduğu hekayə, povest-pritçalar (“Uzunqulaq haqqında”, “Ev”) olaraq təsnif etmək olar.

Yazıçı daim fərqli təhkiyə formalarına müraciət etmişdir: daxili monoloq (“Çığır”), birinci şəxs tərəfindən nəql (“İntihar edənin gündəliyi”, “Nə olduğunu bilmirəm” və b.) formasında yazılmış əsərlər. Son illər qələmə aldığı “Yeddinci gecə” hekayəsində isə təhkiyəçi-personajın ikinci “mən”i, təxəyyülünün məhsulu olan Muradla eyniləşməsi yaşanır.

“Pəncərə” hekayəsi hadisələrə neytral baxış bucağından nəzər salan təhkiyəçi-personaj tərəfindən nəql edilir. Yazıçının yaradıcılığında tez-tez yer alan bu cür təsvir zamanı hadisələr yalnız nəql edilmir, həm də “şərh” edilir. Birbaşa oxucusuna müraciət edən təhkiyəçi əsərə “canlılıq” qatır: “Köhnə məhəllələr içində bu birmərtəbəli, damının qırı dağılmış, yoxsul teatrın dekorasiyalarını xatırladan ev də vardır (Yeri gəlmişkən, dama bir baxın...? Necədir? Antennalar! Əladır, hə? Onlar haqqında sonra danışaram)”. Hekayədə əvvəlcə şəhərin dəyişən görkəmi, bu yeniliklərin sakinlərə təsiri canlandırılmış, bir qədər publisistik üslubda yazılmış giriş hissəsindən (şəhərin təsviri) sonra, tədricən dar məkana– bir məhəlləyə keçid edilmişdir. Beləliklə, hekayənin ilk səhifələrindən yazıçı mövzunun miqyasını, ciddiliyini vurğulayaraq əsərin “məhəllə hekayəsi” ampluasına sığmadığına işarə etmişdir.

Natiq Rəsulzadənin bir çox əsərlərində olduğu kimi, bu hekayəsində də yaradıcı insandan – rəssamdan bəhs olunur. Rəssam hər kəslə, özü ilə belə konfliktdə olan, ətrafdakıların “yaşlı uşaq” olaraq yanaşdığı insan olaraq təsvir olunub. Cəmiyyətdə mövqe sahibi olaraq özlərinin rahat yaşayışını təmin edən kolleqaları, istedadsız olsalar belə, qoca rəssama yuxarıdan aşağı baxırlar. O isə bu boz kütlədən kənarda, ehtiyac içində, yaşadığı ağrını biganəlik kimi təqdim edərək ömür sürməkdədir.

Öz yaradıcı potensialını yetərincə reallaşdıra bilməyən qoca rəssam yaşadığı köhnə evin divarlarını, damını, həyəti iri, əlvan kəpənək, quş rəsmləri ilə bəzəyərək bu miskin, boz dünyaya rəng qatmağa çalışır. Pəncərəsi olmayan dar, havasız otağına həyat verməyə çalışaraq divarda həqiqi pəncərədən seçilməyən bir pəncərə şəkli çəkir. Az qala küləyin tərpənişinin belə əks olunduğu şəkil reallığı ilə insanları caş-baş salır. Evin “gözü” olaraq qəbul edilən pəncərə rəsmindən evə işıq, hava dolur.

Pəncərəsizlik – anbarda ömür sürən, yaşamağa normal şəraiti olmayan rəssamın həyatını simvolizə edir. Bu səbəbdən, rəssam reallıqda olmayan gerçəkliyin illüziyasını quraraq, yaradıcılığına sığınaraq yaşayır və təsadüfi deyil ki, ölərkən də həmin mənzərəyə yuvarlanaraq dünyadan köçür.

Gözlənilmədən, ömrünün ahıl cağında qoca rəssam qonşuluğa köcən cavan qıza aşiq olur. Onun həyatı kimi sevgisi də fərqlidir, platonik və əlçatmazdır. Gənc qız ətrafdakılardan fərqli olaraq onun yaradıcılığını duya bilsə də, onun hisslərini bölüşməyə, qəbul etməyə qadir deyil. Beləliklə, həyatında yaranan

vaxtsız dönüş, rəssamı həyatın bozluğundan qurtara bilmir. Onun dünyasını dərk edəcək, anlayacaq birinin olmadığını dərk edən qoca susqunluğa çəkilərək dünyadan köçür.

"Tələ" hekayəsində də həyatın bozluğundan qurtulmağa, həyatı şövq ilə yaşamağa imkan verən ilğım – sevgi yaşanır. Lakin bu hiss müvəqqətidir, anidir, həyatın özü kimi fanidir. Uzun illik ömür yoldaşının, xanımının belə familiyası ilə müraciət etdiyi sıradan biri olan insanın həyatına sevgi, qasırğa kimi gözlənilmədən daxil olduğu kimi, anidən də qeyb olur.

Dövrün mənəvi-psixoloji problemləri, personajların ətraf mühit ilə qarşıdurmasının təsvir edildiyi hekayələrdə, insanlar tərəfindən şər adlandırılaraq qəbul olunmayan xüsusiyyətlərin cəmiyyətin doğurduğunu göstərən müəllif, son olaraq yalnız marginal insanı deyil, şəri doğuran mühiti ifşa etmişdir. "Oğru", «Qırmızı paltarlı qadın», "Cəhənnəmə aparan yol" hekayələrində həyatda özünü tapa bilməyən, yaşamaq şansını itirmiş, ölümə məhkum doğulmuş insanların taleyi əks olunmuşdur.

Təəssüf ki, bəzən əsərlərə xas ekzistensial mündəricə (əsasən iri həcmli əsərlərdə) – aldadılan, əzilən, xoşbəxt olmaq şansını birdəfəlik itirən insanın hisslərinin, həyatın amansızlığının təsviri kriminal aləmdə baş verənlər, yenidənqurma illərində cəmiyyətdə yaşanan xaosun, cinayətkar dəstələrin fəaliyyətinin geniş təsviri ilə parçalanır. Təfərrüatların uzun-uzadı təsviri psixoloji təsviri zədələyərək canlandırılmasına əngəl olur.

Ümumən nəzər saldıqda, Natiq Rəsulzadənin dünya ədəbiyyatında yaşanan "izmlər"i izləyən, yaradıcılığında dünya ədəbiyyatının təsiri sezilən müəlliflərdən olduğu bəlli olur. "Sehrbaz" (1983) hekayəsində modernist təsvir – xəstə qızcığazın hisslərinin rəng çalarları vasitəsilə calandırılması, əsasən 90-cı illərdə postsovet ədəbiyyatı üçün xarakterik olan Kafkanın təsiri (pritçaları) müəyyən zaman ərzində onun yaradıcılığı üçün də aktual idi. Bir çox müasirləri onun yaradıcılığının bu mərhələsindən bəhs etmişlər. Bəzi yaradıcı insanlar üçün təsirlənmə əks təsir olaraq yaşanır, sonradan müəllif öz "cığırını" tapa bilmir. Natiq Rəsulzadə isə əksinə, yaradıcılığının ilk mərhələsində intensiv axtarışlar apararaq, sonradan uğurlu şəkildə öz yolunu tapa bilmişdir. Yazıçının son dövr yaradıcılığı buna əyani sübutdur.

Müəllifin ikinci dövr yaradıcılığı (2000-ci illər) bu baxımdan, məhz psixoloji mündəricənin dolğunluğu baxımından daha uğurlu mərhələ olaraq seçilir. "Yeddinci gecə", "Soyuq oktyabr ayı" hekayələrinin personajları da yaradıcı insanlardır. Hər iki hekayədə qadın və kişi arasında yaşanan münasibətlər canlandırılır. İlk sevgi təcrübəsi uğursuz olduğundan daxilən həssas olan bu insanlar hər kəsdən təcrid olaraq qapalı ömür sürməyə üstünlük verir, yenidən həyata açılmaqdan çəkinirlər.

Son illərə aid olan "Mayeşka" (1999), "Fikirləri oxuyan" (2009), "Qapı arxasında dayanan" (2019), "Dostum Mika" (2020), "Kaşmar Maştağalının həyatı və ölümü" (2014), "Xonxarlar" (2011) və b. əsərlərdə mistik təsvir, ikiləşmə, qa-

rabasmalar, sürrealistik təsvir yer almışdır. “Heç bilmirəm nədir” başlıqlı klassik janr tələblərinə cavab verməyən, yazıçı düşüncələrindən, lətifələrdən ibarət olan hekayədə, müəllif dövrü, insanlar haqqında fikirlərini bədii formada deyil, publisistik şəkildə ifadə etməyə çalışmışdır. “Qolfstrim” romanında da klassik janr qəlibləri, sərhədlər gözlənilməmişdir. Təhlillərdən göründüyü kimi, daha açıq, sərbəst formalara üz tutan yazar, daim yeni yaradıcılıq cığırları axtarışındadır.

Bu illər ərzində yazıçının çoxsaylı hekayələri ilə yanaşı, iki romanı çap olunmuşdur.

“Xonxarlar (qanlı qisasın xronikası)” romanında bir nəslin nümayəndələrinin həyatını təsvir edən müəllif, zahiri dəyişiklik arxasında dəyişməyən daxili kasadlığa, xarici müasirliklə uyğunlaşmayan vəhşi ehtirasa mistik çözüm verərək uça bilmək bacarığını itirən, qatilə çevrilən insanlığın faciəsini canlandırmışdır.

XIX əsrdən başlayaraq müasir dövrə qədər olan müddət ərzində bir ailənin həyatından bəhs olunan romanda illərin gözləntisindən sonra (uzun zaman doğulan oğlan uşaqları beş yaşına çatmadan vəfat edirlər) ailədə oğlan övladı dünyaya gəlir. Ailənin digər nümayəndələri də nəsillərinin davamçılarının doğulmasını həsrətlə gözləyirlər.

Maştağanın Xonxar qəsəbəsinin sakinləri “Böyük-kiçik yeri bilən, nəzakətli, lakin şərəflərinə toxunacaq biri olarsa, hər an qılınca” sarılmağa hazır olan “beyni qanlı” insanlar olaraq xarakterizə edilirlər. İnsanlara böhtan ataraq özünə mövqe qazanmağa çalışan zümrənin formalaşdığı, sovet quruluşunun bərqərar olduğu dövrdə ailənin ulu babası Ağanemət haqsız olaraq şərlənərək, evindən didərgin düşür. Oğlu onun qatilini öldürür və bununla da iki nəsil arasında qan davası başlanır. Qarşı tərəf Ağahüseynin haqlı olduğunu, qətlin günahsız insanın şərləndiyi üçün baş verdiyini anlasa da, xalqın gözündən düşməmək, şərəflərini qorumaq üçün qanının yerdə qalmasına razı olmurlar. Hər iki nəsil sona qədər ədavət aparmaqda israrlı olduqları üçün, qətl hadisələri illər ərzində davam edərək, onların həyatını alt-üst edir. Xonxarlar övladlarını sevmələrinə, əziyyətlə, çətinliklə böyütmələrinə baxmayaraq (Ağanemətin oğlu Əlihüseyn keçirdiyi qəzadan sonra nəzir-niyazla, duaların, türkəçarənin köməyi ilə yenidən doğulur) həyatın aliliyini gözə almadan – “Şərəf birdir. Şərəfini qorumaq yaşamaqdan daha üstündür”, – düşüncəsi ilə yaşayaraq gənc yaşlarında, həyatdan kam almadan dünyadan köçürlər.

Övladlarının qəribə bacarığını – uçduğunu görən ailə üzvləri təlaş hissi keçirirlər. Çünki, həyatın aliliyinə işarə olan bu işarələri dərk etməkdə acizdirlər. Bu qeyri-adilik onları qorxudur. Əlihüseyn yalnız bıçaq zərbəsindən “qanad açıb” yerə sərilməyə qadirdir. Çoxları vəziyyətin absurdluğunu anlamağa qadir olmasalar da, nəslin növbəti nümayəndələrindən biri – uşaq yaşlarından müdrik, təmkinli biri olaraq təsvir edilən Məmmədağanın qəlbi rahat ömür sürmək istəyi və qisas çağırışı arasında qarşıdurmaya dözmür. Övladı dünyaya gəldikdən sonra, 19 yaşında vəfat edir.

Həyatın Allah tərəfindən verilən bəxşiş olduğunu dərk etmədən, möcüzələrə varmadan (nəslin nümayəndələrinin qeyri-adi bacarıqları), vəhşi instinktin

əsiri olaraq ömür sürən ailə şəcəri haqqında hekayətin, yeniləşən dünyada baş verənlər, tarixi hadisələr haqqında publisistik təsvir ilə paralel şəkildə əks olunduğu romanda bu iki xətt kəsişməyərək, paralel şəkildə inkişaf edir. Zənnimizcə, dünyada baş verən hadisələrlə ailənin həyatı arasında bağlılıq yaranmış olsaydı, roman təkrarlanan hadisələr – dünyadan erkən yaşda köçən ata, övladını tək böyüdən qadınlar – nənələr və analar labirintini xatırlatmazdı. Nəslin nümayəndələri fərqli epoxaların insanları olsalar belə, hər kəs bir-birinə bənzəyir. Qisas burulğanında dövr edən ailənin üzvləri bir-birinin təkrarı olaraq meydana çıxıb, sonradan yox olurlar. Nümunəvi qadınlar və qeyrətli kişilər ordusunun təsviri bir qədər sxematikdir. Hətta başqa ölkənin, millətin nümayəndəsi (ailənin rus millətindən olan gəlini) belə əsl "xonxar" kimi düşünür. Personajların oxşarlığı nəticəsində sanki hadisələrin eyni dövr, eyni insanlar arasında yaşandığı təəssüratı yaranır, zamanın gərdişi sezilmir. Təəssüf ki, əsasən psixoloji kolliziyalara həssaslıqla yanaşan, yaşananların təfərrüatına dalmağa çalışan yazıçı bu əsərində həmin məqamlardan yan keçmişdir.

Natiq Rəsulzadənin «Qolfstrim» əsəri bədii-sənədli nəsrə aid olub avtobioqrafik əsərlərə aid edilə bilər. İlk olaraq romanın janrından bəhs edən yazıçı, memuar istilahından ehtiyatlandığını bildirərək, əsərin janrını roman-kardioqram olaraq müəyyənləşdirmişdir. Avtobioqrafik süjet xəttinin yazıçının bədii yaradıcılıq, sənətə baxışı haqqında fikirləri ilə növbələşdiyi əsərdə, romanın janrından bəhs edərək, ənənəvi yanaşmalara etirazını bildirən müəllif yazır: «Nə qədər ənənəvi roman anlayışına əks olsa da, mən, təsadüfən bu əsəri roman adlandırmadım. Biz adət etmişik ki, romana bir çox zəruri klassik atributlar xasdır... Mən stereotiplərdən uzaqlaşmaq istədim. Süjetsiz roman yazaraq burada hisslərimi, düşüncələrimi ifadə etdim, onları kiçik hekayətlərlə, nəticədə öz həyat təcrübəm ilə zənginləşdirdim» (Burada və daha sonra gətirilən nümunələrin tərcüməsi məqalə müəllifinindir – L.H.).

Uşaqlıq illərindən xatirələrin, yaradıcılıq prosesi haqqında düşüncələrin yer aldığı "Qolfstrim" romanı filoloji mətn xüsusiyyətləri ehtiva edir. Əsərdə yazıçının xatirələri ilə birgə bədii yaradıcılıq, süjet xətti, obrazlar aləmi, yaradıcılığı haqqında düşüncələri də əks olunmuşdur.

Uşaqlıq illəri, yaradıcılıqda ilk addımları haqqında məlumat verən müəllif ötən illərdə baş verən hadisələri sadalamaqla kifayətlənməyərək balaca oğlanın hisslərini canlandırmağa çalışmışdır: «Şeir və nağılları oxuduqdan sonra anam kitabları adətən kəskin şəkildə qapadardı. Balaca ikən, bu zaman mən hər dəfə diksinirdim: mən qorxurdum ki kitabda səliqə ilə düzülmüş sözlər və cümlələr pərən-pərən düşərək dağıla bilər. Mən qorxurdum ki, gələn dəfə anam kitabı açdıqda sətirlər və cümlələr başqa cür yerləşəcək və artıq əvvəlki kimi maraqlı olmayacaqlar».

Bir çox avtobioqrafik əsərlərdə olduğu kimi, əsər yazarın uşaqlıq həyatını altını üstünə çevirən hadisənin təsviri ilə başlanır. Altı yaşlı oğlanın yaradıcılığının zirvəsi saydığı əsərinin – gipsdən düzəltdiyi pəhləvan büstünün «düşməni» tərəfindən məhv edilməsi, yaradıcılığı korafəhm insan tərəfindən

məhv edilən insan mövzusunu aktuallaşdırır. Balacanın ilk yaradıcılıq eksperimentləri (heykəltəraşlıq, hekayələr uydurması) və bu xüsusiyyətləri ilə yaşıdlarından fərqlənməsi, tənhalığı, ömrünün sevincli məqamları, məhəbbəti, qorxuları, ilk velosipedi, ilk dəbli paltarı, sonradan gənclik illərində peşəkar yaradıcılığa başlaması, ilk əsərinin çapı ilə yaşanan həyəcanın və başqa mühüm məqamların təsvir edildiyi romana emosional, gərgin atmosfer xasdır. Bu cür təsvir uşaq psixologiyasının özəllikləri ilə izah edilə bilər; çünki, «uşaq əsasən düşünmür, narahatlıq keçirir» , daha çox hisslərlə yaşayır, hadisələrə rasional yanaşma nisbətən ikinci planda qalır. Uşaqlıq şüurun diktəsindən azad, insan ömrünün daha səmimi və qadağalardan azad yaşadığı illər olaraq xarakterizə edilir: «Uşaqlıq xatirələri daha kəskin və rəngarəngdir» , «uşaqlıq – həyatın adi günlərindən keçən isti bir axındır, çoxları yaşlandıqca bu hiss tükənir və ya soyuq axınla qarışır. Ona xas ilkin istiliyi qorumaq vacibdir» .

Personajın xatirində dərin iz buraxmış hadisələrin əks olunduğu əsərdə, zamanlar arasında sərhəd gözlənilmir, keçidlər ani və əlaqəsizdir. İllər öncə yaşadığı hissləri ifadə etməyə çalışan yazıçı hadisələri sistemləşdirməyə, müəyyən çərçivələrə salmağa cəhd etmir, bu gün və dünən xaotik bir ardıcıllıqla təsvir edilir.

İlk hissələrdə xatirələr üstünlük təşkil etsə də, sonrakı hissələrdə getdikcə müəllifin yuxularının, düşüncələrinin təsvirinə daha geniş yer verilir. Şüurun nəzarətindən azad olan yuxularda insanın qorxuları, hissləri daha azad şəkildə təzahür edir. Burada yeni əsərlərinin yaranmasına təkan verən («Ev» povesti) illüstrativ-psixoloji yuxularla yanaşı, müəyyən süjet xətti üzrə inkişaf edən fraqmentlər də yer almışdır.

Uşaqlıqla bağlı xatirələrin yığcam xronotopu doğma məhəllə, gənclik illərində isə Moskvada yaşanan hadisələr, əsasən yaxınları, ata və anası, həmyaşıdları ilə münasibətlərinin təsviri ilə əhatələnmişdir.

Uşaqlıq, gənclik illərindən bəhs edən hekayətlərdə müxtəlif insan qalereyası canlandırılıb: intihara can atan insan, başqasını incidib bundan zövq alan «özünü axırıncı əclaf kimi» aparan Əlişka və b.

Qeyd etdiyimiz kimi, konkret insanlar, hadisələrlə birgə yazıçı, müxtəlif illərdə həyata keçirdiyi, bəzən isə tamamlamadığı işlərindən bəhs etmiş, yaradıcılıq planları ilə bölüşmüşdür. Bədii və filoloji fikir, düşüncələrin xaotik ortamda təqdim edildiyi əsər həm yeni janr yaradıcılığı sahəsində eksperiment, həm də uşaqlıq illəri ilə bağlı orijinal əsər olaraq maraq doğurur.

Beləliklə, yaradıcılığına nəzər saldıqda yazıçının klassik nəsr ənənələrinin davamcısı olduğu, lakin bununla belə, müasir ədəbiyyatın intensiv axtarışlarından kənarda qalmadığı, yaradıcılığının janr, mövzu, üslub baxımından yeni keyfiyyətlər əldə edərək inkişaf etdiyi görünür.



***Lalə HƏSƏNOVA***



# "NECƏ ƏL ÇƏKİM..."

## *Bir tədbirdə deyə bilmədiklərim*

***Qarşımda dalğalı dərin bir ümman,***
***Ümmanı sarsıdır bir acı tufan,***
***Bəyaz köpükləri bir çiçək yapan***
***Şeirdən, xülyadan necə əl çəkim?***

Müşfiqin "necə əl çəkim?" hayı-harayı bu şeiri hər dəfə dönə-dönə oxuduqca və ya əzbərdən öz-özünə pıçıldadıqca qovrulub, yanıb-yaxılırsan "Necə əl çəkim?.."

Ancaq Müşfiqə uzanan namərd əllər onu bütün bunlardan, "şeirdən" də, "xülyadan" da, bir sözlə, işıqlı dünyadan da "əl çəkdirdilər..."

***"Oxu, tar, oxu, tar!***
***Səni kim unudar!"***
***İndi bu sözləri***
***Ona desək yeri var:***
***"Səni kim unudar".***

– Bu misralar isə indi özü də unudulmaz sənətkarımızın, Xalq şairimiz, ulu Rəsul Rzanın "Qızılgül olmayaydı" poemasındandır.

* * *

***Bu el dolu könlüm ki var,***
***şeir yazmaq istəyirəm.***
***Həyat ki var,***
***ölüm ki var –***
***şeir yazmaq istəyirəm,***
***şeir yazmaq istəyirəm!..***

– Bu misralar isə yaradıcılığı boyu Müşfiqə həsr edilən neçə-neçə şeir, poema, mərsiyələr kimi ələmli esselər yazmış, elə o misraları, esseləri necə ağrı-acıyla qələmə alan müəllifin özü də həmişə "şeir yazmaq istəyirəm" arzusu ilə yaşayıb gün-güzəranımızın bütün umu-küsülərindən, qeybətlərindən, dedi-

qodularından yan qaçmağın ucalığında durmağı bacaran, lakin nə yazıqlar ki, 2013-cü ilin isti yay gecələrinin birində, paytaxtın mərkəzdən kənarda yaşadığı Əhmədlidə, evinin eyvanından suları qaranlıq Xəzərdə Nargin adası tərəfə baxa-baxa qəfil dünyasını dəyişən unudulmaz dostum, gözəl şairimiz Ələkbər Salahzadənindir.

Müşfiqin şeir yazmaq istəyi ilə çırpınan, alışıb yanan, yerə-göyə sığmayan şair xülyalarını, elə onun öz dili ilə misralara çevirən Ələkbər Salahzadənin, illər keçsə də Müşfiqin unudulmayacağına öz müdrik, uzaqgörən, saf, nə qədər ürəyi yumşaq olsa da, sərt şair qəlbinin hökmü ilə inanıb "Səni kim unudar!" – deyə qəti bir hökm verən Rəsul Rzanın misralarının təsdiqi kimi, elə unudulmadığından idi ki, bu ilin yayında, iyul ayının isti günlərinin birində bizim Siyəzən şəhərində Mikayıl Müşfiqin adını daşıyan orta ümumtəhsil məktəbində şairin doğum günü ilə bağlı növbəti təntənəli bir tədbir keçirilirdi.

O tədbirdə iştirak edən qonaqlar arasında mən də var idim və çıxış üçün mənə də söz verildi. Yaşımın yetmiş illiyini tamamlayacağım o ərəfədə zaldan, əyləşdiyim yerdən qalxıb səhnəyə, səhnədə qoyulmuş mikrafona yaxınlaşarkən Müşfiq haqqında nələr deyəcəyim haqqında. Vur-tut 29 il ömür sürmüş, şeirləri-nəğmələri dillər əzbəri bir nakam şair haqqında 70 yaşlı sıradan biri olan "bir qələm əhli" indi nə deyə bilərdi ki?..

Səhnəyə, o səhnədəki mikrafona doğru addımlarkən qısa zaman kəsiyində ilk əvvəl yadıma birdən-birə dünyaya gələndə ata-anasının çağaya, körpələrinə verdikləri adı öz-özümə pıçıldadım: Mikayıl, illər keçəndən sonra isə şeir yazan Mikayılın özünə götürdüyü təxəllüsü: Müşfiq...

* * *

Və beləliklə, Mıkayıl Müşfiq...

Bəli, o, dünyaya gələndə doğmaları adını Mikayıl qoydular. Mikayıl Allahın dörd mələyindən biri! Dini yozumlara görə Mikayıl Tanrının o dörd mələyinin – cənab Əzrayıl, Cəbrayıl, İsrafilin arasında ən xeyirxahıdır. Allahın hökmüylə o insanlara ruzi yetirir, pay verir. Qədim ivrit dilində tərcümədə bu adın mənası "Allah kimi olan, Allaha bənzər" anlamı verir. Adı Mikayıl olan şairin dədə-baba soyadı İsmayılzadə idi. Təxəllüsü isə Müşfiq! Və bu söz də ərəbcədən tərcümədə "şəfqətli, rəhmdil, ürəyiyumşaq" deməkdir.

... Mələk Mikayıl, şəfqətli Müşfiq!

* * *

Keçmiş sovet rejiminin ötən əsrin 1937-1938-ci illərin həbs edilən məhbusları, isgənclərə məruz qalanlara, represiya qurbanları haqlarında türkün düşməni olan erməni əsilli məhkəmə "üçlüyünün" vur-tut 10-15 dəqiqəlik iclas qərarı ilə haqlarında ən ağır hökm çıxarılırdı.

Həzrəti Peyğəmbərimizin müqəddəs hədislərinin birində deyildiyi kimi: o kəslər ki, halal ruzi ardınca gedə və o yolda həlak ola, o kəslər də şəhid məqamındadırlar.

İndi 37-ci ilin “repressiya qurbanları” deyə ağrılı tarixi yaddaşımızı oyadan bir ifadə işlədirik. Adlarını sadalayırıq. Onlar – Hüseyn Cavid də, Əhməd Cavad da, Mikayıl Müşfiq də... repressiya qurbanları yox, haqq, halal-müqəddəs söz uğrunda canlarından keçənlərdir...

Şəhid Müşfiqim mənim!

* * *

O tədbirdə deyə bilmədiyim çox sözlər var idi. Reqlament qısa, danışmaq, ürəyini boşaltmaq, şair haqqında söz demək istəyənlər, Müşfiqsevərlər isə çox... Deyəcəyim sözlərin çoxunu ürəyimdə saxladım.

Paytaxt Bakıdan sonra ötən əsrin 70-ci illərinin sonlarında Siyəzən şəhərində də Müşfiqin büstü ucaldıldı. Yəqin ki, bu da təsadüfi deyildi. Axı, Siyəzən şairin doğulub dünyaya göz açdığı qonşu Xızının Sayadlı kəndindən “əl uzatsan çatan” qədərincə məsafədədir.

İndi adı yalnız Müşfiqlə bağlı yada düşən o kənddən ancaq quruca adı qalan Sayadlıdan (işə bax, bəzən coğrafi adları, yeri-yurdu əbədi yaşadanlar bir vaxt o torpaqda dünyaya göz açan oğulları-qızları olub, Müşfiq adı çəkildikcə Sayadlı adlı bir kənd də indi beləcə xatırlanır. Bu yaddaşın isə ömrü əbədidir...), o tərəflərdən, Xızı dağlarından əsən, bəzən sakit-həlim, bəzən dəli-dolu küləklər yaxın-uzaq bilməyib yeri-yurdu başına alıb dolaşa-dolaşa ən yeyin buralara, Siyəzən tərəflərə çatır. Doğma yurdun, torpağın, yazda o torpaqda cücərib pardaqlanıb açan, sonra da vaxt keçdikcə, payızda xəzan olub saralıb solan güllərin-çiçəklərin, otların xoş ətrini, rayihəsini Siyəzən adlı bu yurd yerində şairə daha tez çatdırır. Ancaq nə yazıqlar ki, bir vaxtlar Müşfiqin ruhu dolaşıb gəzən o yerlərdən xəfif-xəfif əsib gələn, bəzən az qala yeri-göyü qabağına qatıb yerlə-yeksan etməyə qadir olan o küləklərin də şairin büstündəki hər baxana tanış olan qıvrım qara tellərini ustufca da olsa yerindən tərpədib qarışdırmağa gücü çatmır.

Küləklərin nə günahı?..

Müşfiqin Siyəzən şəhərindəki büstü paytaxt Bakıdakının demək olar ki, oxşarıdır. Baxanın ürəyini param-parça edən daşlaşmış nisgilli, qəmli bir çöhrə, yaşadığı haqsız dünyanın kədər yüklü qurğuşun buludları dolmuş alacalanmış həyəcanlı, nigaran, təlaşlı gözlər... Müşfiqin hər iki büstünü yonan o sənətkarların adlarını da heç bilmirəm... Köks ötürürəm.

Eh, heykəltəraşlar neyləsin?..

* * *

Tanış bir şeirdən, o şeirin sözlərinə bəstələnən bir mahnıdan, xülasə, bir şair misralarından “lalələrin bağırlarının qan” olduqlarından agah idik. 1990-cı ildə imperiya qoşunları tərəfindən xalqımıza qarşı törədilən qanlı 20 Yanvar soyqırımından sonra toy-bayramlarda əl-əl gəzən qıpqırmızı qərənfillər sinələri qara xallı lalələrdən daha çox bağrıları yanıq – “qanlı” qaldılar. Ana torpaqlarımızdan bir fəsil boyu boy verib qalxan, təbiətin rəng qismətlərinə

yazdığı o qırmızı donlarını dəyişməyə sonralar gücləri çatmadı. Rəngləri eləcə qırmızı qalsa da, çiçək qəlbləri bağırları qanlı qaldılar. Bir vaxt dim-dik duran qərənfillərin də qədləri əyildi, boyunları büküldü...

Gərək ki, "525-ci qəzet"dən oxumuşdum. Müşfiqin növbəti anım günündə şairin xatirəsini yad etmək üçün AYB-nin rəhbərliyi Dənizkənarı Bulvarda Xəzərin sularına ənənəvi olaraq yenə də qərənfillər səpirlər.

Sən demə, çiçəklərin də döyünən qəlbi, fəhmi varmış... Həmin gün Xəzərin köpüklü, dalğalı, coşqun sularında həmin o güllər-çiçəklər, qərənfillər düz o yerlərə tərəf – Müşfiqin "işıqlı dünyadan" doymayan, yaşamaq eşqi ilə döyünən, yer üzündə ürək çırpıntılarının son kərə vura-vura, həm də ölümün gözünə dik baxıb məğrur-məğrur ayaq üstdə durduğu Nargin adasına sarı yol alıbmış...

Anar müəllim köks ötürübmüş: "Qərənfillər mənzili, ünvanı yaxşı tanıyır..."

* * *

***Ah, mən gündən-günə bu gözəlləşən,***
***İşıqlı dünyadan necə əl çəkim?***
***Bu yerlə çarpışan, göylə əlləşən***
***Dostdan, aşinadan necə əl çəkim?***

Müşfiqin ürək dağlayan bu misralarında, adamı odsuz-ocaqsız yandıran hay-harayında, məncə, "işıqlı dünyadan" – bu gəlimli-gedimli, fani dünyamızdan daha çox, şairin "dostdan, aşinadan necə əl çəkim" nisgili, fəryadı, harayı, ağrısı-acısı durur.

Müşfiqin o "dostlarının, aşinalarının" kimliyi haqqında düşünəndə isə yadıma ilk əvvəl Rəsul Rza, həm də o böyük sənətkarın hələ ötən əsrin 37-ci il repressiyasının günahsız qurbanlarının, söz uğrunda şəhidlərin bəraətindən sonra Müşfiq haqqında yazıb çap etdirdiyi ağısı, elegiyası, rekviyemi: "Qızılgül olmayaydı..." poeması düşür.

Qurğuşun kimi ağır, dolu buludların yeri-göyü tərpədən bir şimşəkdən sonra axır ki boşalıb, əvvəlcə leysan kimi, sonra da narın yağışa çevrilib damla-damla yağa-yağa adamı odsuz-ocaqsız yandırıb yaxan misraları. Bəzən səssiz-səmirsiz az qala pıçıltı ilə deyilən, bəzən də kükrəyib coşub daşıb şahə qalxan dalğaların hayı-harayı:

***Doğrudur,***
***Müşfiqi apardılar, – deyib***
***kitablarını***
***ev-ev qaçırmadım.***
***Şəklini, məktubunu atmadım.***
***Ancaq götürdüm onları***
***ilk baxışda***
***gözə görünə bilən***
***qəfəsəsindən kitabxanamın.***
***Gizlətdim***
***göz yaşından***

***möhürü çaylaq daşı kimi hamarlanmış***
***köhnə canamazında anamın.***

Yadıma bir də ustad Rəsul Rza məktəbinin "ən əlaçı şagirdlərindən biri", davamçısı, şəxsiyyətində də elə ona bənzər, "kənək qoz kimi bərk" gözəl şairimiz, əziz dostum Ələkbər Salahzadə... (Gülhüseyn Hüseynoğlunun, Rəfiq Zəka Xəndanın, Müşfiq haqqında söz deyib dünyadan köçən digər qələm sahiblərinin də ruhları qoy məni bağışlasın...)

***Mən***
***hardayam – bilən varmı?***
***Bilənmi var – hardayam mən...***
***Göydəyəm mən,***
***Yerdəyəm mən?!***
***Soruşuram,***
***Susmusunuz, susursunuz, bəlkə yoxam?***
***Danışdıqca soruşuram, demək, varam!***
***Gözləmirdiz gəlib çıxam!..***

Müşfiqi həyatda görməyən, onun ölümündən neçə il sonra dünyaya gələn Ələkbər Salahzadəni Mikayıl Müşfiq yaşasaydı, ömrünün istər orta, istərsə də ahıl, qoca çağlarında aralarında xeyli yaş fərqi olmasına da məhəl qoymayıb ustad məhəbbəti, ustad qayğısı ilə yəqin ki, Rəsul Rza kimi... özünə yaxın dost bilərdi...

* * *

Mikayıl Müşfiqin imperiya quruluşunun namərd gülləsindən sonra nəşinin harada torpağa gömüldüyü, dəfn olunduğu yer hələ də məlum deyil. Bir neçə il bundan qabaq nakam şairimizin naməlum qəbri ilə bağlı sosial şəbəkələrdə söz-söhbətlər gəzdi. Hətta DNK testləri ilə bağlı xəbərlər də yayıldı. Müşfiqsevərlər, hələ neçə-neçə kimlər-kimlər... sevinib təsəlli tapdılar. Gec də olsa, nəhayət, axır ki, şairin qəbri üstünə "elin qəmli gəlinləri olan qızılgülləri" düzə biləcəklər...

Xəbər çıxandan sonra, hələ ki, indiyəcən daha heç bir səs-soraq çıxmadı...

* * *

Beləcə Müşfiqin məzarından, harada torpağa tapşırıldığı yer-yurddan, son beşiyindən-qəbrindən bir xəbər yoxdur...

* * *

...Sağlığında ona "qəbir" qazanların isə indi ölkədə həm də ziyarət yeri olan bir qəbiristanlıqda – Fəxri Xiyabanda yerləri məlum bir məkanda, rahat yatdıqlarını deyə bilmərəm. Ancaq onların neçəsi dünyalarını dəyişəndə dövlət tərəfindən çəkiən xərc hesabına dəfn olunmuş qəbirüstü abidələri də götürüldü (dövlət neyləsin). Mərmər baş daşlarında zərlə yazılmış doğum tarixləri, dünyadan köçdükləri il, ay, gün, fəxri titulları... Baha başa gələn qəbirüstü büstləri...

Yenə də Ələkbər Salahzadənin Müşfiq haqqında yazdığı ağrılı-acılı misralara üz tuturam, yada salıram:

***“Uzaqlarda qan içində, çapalayan üfüq Müşfiq,***
***Adından od şaxələnən, misra-misra şəfəq Müşfiq”***

Bir də:

***“Məzarı belə yoxdu, varsa göstərin, nişan verin.***
***...Yerini nişan verən yoxdusa, onda məzarı Yer kürəsidir!”***

* * *

Əlbəttə ki, elədir... Ancaq...

Fikrim fikrə calanır. Və min bir fikrə düşürəm. Yenə də ustadı, Rəsul Rzanın misralarını xatırlayıram:

***Qəlbin böyük ağrısına***
***Şəfa deyil söz məlhəmi.***
***Min bir ümumi sevinc***
***Dağıdarmı bir həsrətdən.***
***Bir ölümdən doğan qəmi?!***

Kədərimi, qəmimi-qüssəmi boğub, öz-özümü toxtadıram. Necə ki, Müşfiqin elə özünün dediyi kimi, “kainat durduqca şeir olacaq” – və O da, Müşfiq də öz misralarında əbədi yaşayacaq...

**P.S.** *O tədbirdə çıxışımı dəfələrlə oxuduğumdan əzbər bildiyim, təəssüflər ki, yaddaşıma arxayın olmadığımdan kağıza köçürüb əlimdə hazır tutduğum bir şeirlə bitirmək fikrindəydim.*

*“Müşfiqin xatirəsinə” adlı o şeir Məryəm Həsənovanın 1969-cu ildə “Gənclik” nəşriyyatında çapdan çıxmış “Səhər” adlı kitabından idi. O Məryəm Həsənova ki, ötən əsrin sonlarında respublikamızda müstəqilliyimiz, suverenliyimiz uğrunda başlanan azadlıq hərəkatının öncüllərindən biri idi. Siyəzən dairəsindən namizədliyi irəli sürülən, o illərdə vəzifəli, adlı-sanlı rəqiblərinə qalib gəlib səs çoxluğu ilə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdi.*

*Mikayıl Müşfiqin qətlinə fərman verən bir imperiyadan xilas olub qurtulmaqla bağlı Ali Sovetdə keçirilən tarixi sessiyada Azərbaycanımızın müstəqilliyinə, suverenliyinə səs verən vətənpərvər deputatlardan biri də elə kişi qeyrətli Məryəm xanım olmuşdu...*

## MÜŞFİQİN XATİRƏSİNƏ

Nə vaxtdır qəlbimdə yumruqtək düyümlü sual var,
Tükənmir suallı cavablar, cavabsız suallar.
Ürəyim yaralı pələngmi, yaralı ahumu?
Sualım inlədir, sualım incidir ruhumu.
Sualım sual yox, arzumdur, sualım-diləyim?
Söyləyin, arzumu mən necə, mən kimdən diləyim?

O gün ki, açılmaz sirr olub batmısan, şairim,
Dəryalar qoynunda dürr olub batmısan, şairim.
Ötən il, dönən ay, ölən gün, siz deyin, o hanı?
Qoymazdım gələydi o günü, qoymazdım çataydı o anı.
O gün ki, o an ki, canitək bir ömrü pusubmuş,
Bir an ki, o anda bir ürək, min arzu susubmuş.
Gəzirəm bir cavan şairi, bir kükrək ilhamı,
Şair ki, el onun ilhamı, onundur el hamı.
Ötüşmə yanımdan, məni də şairin dostu san,
A rüzgar, axı sən şairin əşisən, dostusan.
Oxşarı varmıdır o qaynar ruhuna bu oynaq yellərin,
Oxşarı varmıdır o şaqraq səsinə bu coşqun sellərin.
Kürsüyə sığmayan səbirsiz duruşu gəzirəm,
Əlimə düşməyən o günlə vuruşu gəzirəm,
Gəzirəm mərdanə gülüşü, ürəkli gülüşü,
Saf qəlbin hökmüylə gurlayan sürəkli gülüşü.
Şairin üzünü buludtək qaplayan qəmləri gəzirəm,
Elimlə dediyi, elimlə güldüyü dəmləri gəzirəm.
Mən dedim, qoşullam yellərə, düşərəm dərbədər,
Gəzərəm, taparam, məzarın dərdimi tərpədər.
Gəzdirrəm əlimi, başdaşın əlimi yandırar,
Ürəyim qövr edər, bu həsrət qəlbimi dondurar.
Mən dedim, məzarın üstündə açaram başımı,
Qəlbimdə nə varsa tökərəm, tökərəm gözümün yaşını.
Bir itkin məzarı gəzirəm, eşidin ay ellər,
Mənimlə gəzin siz, xəfifcə-xəfifcə əsin siz, a yellər.
Diksindir nalənlə dağları, daşları, harayım!
Tapmasam bu itkin məzarı, ellərin qəlbini arayım.

***Aydın TAĞIYEV***





*Əli Rza XƏLƏFLİ*

## BİR ACI XATİRƏ

***Poema***

Hərəmizin qəlbində bir acı xatirə var,
Oxunar kitab-kitab, dillər sözə gətirər.
Unudulmaz... üstünə çöksə də zaman dağı,
Yaddaşı yağmalayan illər sözə gətirər.

Dünyanın qan çanağı çatladı başımızda,
Qan çıləndi torpağa, qızardı daşımız da...
Göyərdi ömrümüzdə, kök atdı yaşımızda,
Güllələrdən qalanı güllər sözə gətirər.

Yeddi yüz min oğul da bizdən getdi cəbhəyə,
Gedənlərin yarısı qayıtmadı geriyə.
Keçdilər canlarından Vətən qorunsun deyə,
Gölləndi axan qanlar... sellər sözə gətirər.

Vətəndən uzaqlarda Vətən dedi son anda,
Həsrəti ah içində bitən dedi son anda.
Sənə sevgim, eşqimdi yetən dedi son anda
Uçdu Vətən göyünə... yellər sözə gətirər.

Müharibə bürüdü od-alova dünyanı,
İkinci böyük savaş... ölüm-dirim bəyanı,
Bayatıydı, ağıydı bu savaşın hər yanı,
Yaşayar sinələrdə ellər sözə gətirər.

Avropa çöllərində qəbir-qəbir ad olan,
Bir səngərdə döyüşdü doğma olan, yad olan,
Anaların qəlbində göynəyən, fəryad olan,
Nalələri o yerlər... çöllər sözə gətirər.

Avropada can qoyan oğulların yerinə,
Xələflinin qələmi sözü çəkər dərinə.
Durulmadı siyasət, ötdü zaman, qərinə,
Doğruları bulanıq... lillər sözə gətirər.

Cavadoğlu sinəsi zəngin bir xəzinədir,
Üfüqləri görünməz əngin bir xəzinədir.
Danışdıqca yüz ilin sirr dağları ovulur,
Gözlərimin önündən qaranlıqlar qovulur.

Görürəm, ağrı-acı, dərd məntiqi yerində,
Söhbətinə heyranam, sərt məntiqi yerində.
Səksənə az qalsa da, ağıl tacdır başında,
Hər olayın ayrıca yeri var yaddaşında.

Bir canlı salnamədir, tarixin öz sözüdür,
Tarixin sözü də yox, bəlkə, tarix özüdür?!
Cavadoğlu danışır, sözü-sözə tuturam,
Qəlbimi, varlığımı oda, közə tuturam.

Elə canlı danışır, mən də şahid oluram,
Dirigözlü alışır, yanır, şəhid oluram.
Bu xalqın taleyində bir xoş gün olmayıbmı?
Salnaməyə yazılıb yaddaşda qalmayıbmı?!

Müharibə başladı... od gəldi, alov gəldi,
Talelər yağmalayan tor gəldi, tilov gəldi.
Dağıdıb düz elədi bərələri, bəndləri,
Yandırıb kül elədi şəhərləri, kəndləri.

Döyürdü qapıları, qırırdı kilidləri,
Ölüm bir-bir yeyirdi sonuncu ümidləri.
Cəbhələrdə atılan güllələr can yeyirdi,
İçin-için daşlanan Azərbaycan yeyirdi.

Analara dəyirdi atılan hər bir güllə,
Arzuları öldürüb, qazırdı qəbir güllə.
Yeddi yüz min oğulu vermişdi Azərbaycan,
Faşizmə sinəsini gərmişdi Azərbaycan.

Gedənlərin yarısı... bəlkə, çoxu dönmədi,
Yollara baxan gözlər çıraq oldu, sönmədi.
Dəhşətdən nişanəydi əlsiz, qolsuz gələnlər,
Əbədi həsrət idi dilsiz, yolsuz gələnlər.

Rusiya çöllərini gedənlər Vətən bildi,
Uzaq, yaxın hər yeri – can bildi, bədən bildi.
Sədaqətlə vuruşdu Azərbaycan əsgəri,
Hər qarışı qorudu neçə can-can əsgəri.

Bakı qan verdi hərbə damarından, canından,
Ürək verdi, dil verdi insan həyəcanından.
Əvəzində nə gördü qardaş dediklərindən,
Sözüm qana bələnər arxı vursam dərindən.

Bu payların içində neçə dağlı günü var,
Xocalının taleyi, Qaradağlı günü var.
Dərddən dağlar yaranıb, dövlət belə, var belə,
Yaddan çıxarmı hələ İyirmi Yanvar belə.

Didərginlik, qaçqınlıq – bir milyon insan demək,
Dərddən ağır dərd olar ağrı yemək, dərd yemək.
Gülüstandan bu yana, Türkmənçaydan gələn yol,
Qarabağda qan gölü, durub üzə gülən yol.

Haracan yazam yenə, mənimlə gedər bu dərd,
Ruhumu, varlığımı illərdi didər bu dərd.
Yerisəm arxasınca, dərd məni alar gedər,
Dastanım da yarımçıq, yarıda qalar gedər.

Qayıdıram o yerə – qanlı cahan savaşı,
Dağıdırdı dünyanı, sökürdü dağı, daşı.
Yer göyə çevrilirdi, göy çökürdü torpağa,
Doğranan gövdələrdən dərd qalırdı yarpağa.

Faşizmin qəddar üzü insanlıqdan çıxmışdı,
İnsanlıq sarayını faşizm özü yıxmışdı.
Ölüm yerə, göyə də Allahlıq eləyirdi,
Xeyir zəlil olmuşdu, şər ölüm ələyirdi.

Ölüm qanad açmışdı dağ boyu, dərə boyu,
Yeriyirdi günbəgün bənd boyu, bərə boyu.
Qafqaz əzəmət, qürur, sinə gərdi yağıya,
Qəzəbindən od aldı, güllə dərdi yağıya.

Gədəbəyin dağları dedi, gedin oğullar,
Yaşadar adınızı əfsanələr, nağıllar.
Məmməd kişi bilirdi daha hünər vaxtıdır,
Qeyrətin, dəyanətin indi dinən vaxtıdır.

Burda torpaq adı var, burda Vətən adı var,
Şərəfin, ləyaqətin dildə özgə dadı var.
Nabat ana görürdü bu daha başqa rəngdi,
Könülləri tifrədən, sızladan bir ahəngdi.

Döyüşmək istəyini Kərəm könüllü yazdı,
Baxmadı arzuların qönçəsi, gülü yazdı.
Get vuruş kişi kimi, – dedi atası Məmməd,
Adınla gətirərsən bu yurda şöhrət, hörmət.

Səninlə fəxr edərik el içində, ay oğul,
Hər oğul da Vətənə Allahdan bir pay, oğul.
Səni aparan yollar bir gün bizə qaytarar,
İgidin adı qalsa, dilə, sözə qaytarar.

Nabat ana qəlbini öz dərdinə bələdi,
Oğlunun arxasınca göz yaşını ələdi.
Sağ-salamat qayıt gəl, dağlarımız sevinsin,
Açılsın qönçələri, bağlarımız sevinsin.

Gözləyəcək oğulun, gözləyəcək anan da,
Gözləyəcək vəfalın, sənsiz qalan sonan da.
Bir gün gəlib görərsən oğlun Yusif böyüyüb,
Həsrətə, ayrılığa necə dözüb böyüyüb.

Sevgilin, gözəl Bağdat sənə sadiq qalacaq,
Göynəsə can kitabı, əhdi dərman olacaq.
Önündə düşmənlərin saralsın, solsun, – dedi,
Ulu yaradan özü köməyin olsun, – dedi.

Nabat ana oğlunu belə göndərdi hərbə,
Ürəyində min dəfə lənət oxudu Qərbə.
Məktublar körpü saldı uzaq-uzaq yollara,
Vüsal gəlib yetmədi həsrət-həsrət qollara.

Səngər-səngər uzanan yollar qandan keçirdi,
Vətən də oğul-oğul qandan, candan keçirdi.
Şimali Qafqaz, Mozdok, Moskvaaltı döyüş,
Nifrət, qəzəb kükrəyir, kəsilmir hədə, söyüş.

Kərəm geri çəkilmir, ölümlə cəngə çıxır,
Gözlərindən düşmənə od yağır, şimşək çaxır.
Döyüşürdü – amalı müqəddəs Vətən adı,
Çarpışırdı – hər anı ölüm dadı, qan dadı.

Kərəm keçən yerlərdən hünər, qeyrət bitirdi,
Azərbaycan adına şərəf, şöhrət bitirdi.
Komandirlər yazırdı qürurunuz dağ olsun,
Belə oğul böyüdən ata, ana sağ olsun.

Bir qaladı basılmaz, igid Kərəm səngəri,
Azərbaycan oğludu böyük Vətən əsgəri.
Məktub əl-əl gəzirdi el içində, obada,
Kərəm uca ad alıb qan içində, davada.

Uzanırdı bu dava ötdükcə aylar, illər,
Üzülürdü insanlar dəyişdikcə fəsillər.
Ərinin yadigarı Yusif ilə baş-başa,
Bağdat ana qalmışdı tale ilə daş-daşa.

Cavad uca tuturdu namusunu, adını,
Gətirdi öz evinə qardaşı arvadını.
Dedi Yusif böyüyər uşaqların içində,
Yoxsa tələf olardı buzun, qarın içində.

Doğmalar arasında ana-bala bir qədər,
Aram olub dolanar, gəlməsə qəza-qədər.
Yusifi qoruyurdu Cavadın uşaqları,
Qayğısız ötüşürdü Yusifin də çağları.

Yerimirdi fəsillər, günlər ağır keçirdi,
Müharibə dəryazı insanları biçirdi.
Kəsildi Kərəmdən də gələn kağız bir ara,
Ümid işıq salmadı zülmət qaranlıqlara.

Qucaqlayıb Yusifi Bağdat ana ağlardı,
Ağlamağı gecələr daş-divarı dağlardı.
Bayatılar güllənir dilimdən misra-misra,
Hər sözün ağrısı var ilimdən misra-misra.

Şirinin zəhəri var, zəhərin təhəri var.
Hər qaranlıq gecənin açılar səhəri var.
Aç gözünü çölü gör, bülbül qonan kolu gör.
Sən könüldən-könülə, gözdən keçən yolu gör.

Qəminə qardaş olam, dərdinə yoldaş olam,
Ürəyində göyərəm, sözünə sirdaş olam.
Dönməz düzün karvanı, sönməz közün karvanı.
Yaddaşda yol eləyər, gedər sözün karvanı.

Axır ki, qara kağız döydü onun baxtını,
Uçurub viran qoydu sevgisinin taxtını.
Onun cavan qəlbindən qara qanlar axırdı,
Atasızlıq xiffəti uşağı da sıxırdı.

Beləcə gənc Yusif də gündən-günə əriyir,
Əzizlənir, öyülür, amma yenə əriyir.
Axır ki, Yusifi də apardı müharibə,
Ümidlərin əlindən qopardı müharibə.

Zaman belə dolandı aylar, illər keçdikcə,
İnsanlıq nələr çəkdi dövran qanlar içdikcə.
Bu savaşda can verdi, qan verdi Azərbaycan,
Əvəzində dərd dərdi, qəm dərdi Azərbaycan.

Hələ yollar dumanlı – boran idi, qar idi,
Hələ aydın sabaha neçə sabah var idi...
Bir erməni gəzirmiş Kərəm adı dillərdə,
Kərəmi axtarırmış altmışıncı illərdə.

Deyirmiş adı, xatirəsi bənzəsə də nağıla,
Yaşadığım ömürü borcluyam bu oğula.
Xilaskarım döyüşçü Alnabat kəndindəndi,
Məmməd oğlu Kərəmdi, elə sizin dindəndi.

Axtarıb Gədəbəydə – Alnabata yol gəlib,
Axtarıb yaddaşlarda cığır gəlib, kol gəlib.
Gəlib görür Kərəmdən bir qara kağız qalıb,
Evi uçub, dağılıb, oğlunu zaman alıb.

Kərəm mənə deyirdi: Yusif adlı oğlu var,
Yaşayar adı ilə tale olsa ona yar...
Pavel adlı erməni danışıb ağlayırmış,
Göz yaşları kəsilmir, elə hey çağlayırmış.

Eşidənlər, bilənlər yığışıblar başına,
Bir xatirə danışıb, güvənib yaddaşına,
Kəşfiyyatçı olmuşuq, qorxu-qada içmişik,
Neçə dəfə cəbhəni o üz-bu üz keçmişik.

Yadımdadır, son dəfə getmişdik kəşfiyyata,
Sanki sonuncu dəfə baxırdıq bu həyata.
Çox uğurlar görmüşdük Kərəmin sayəsində,
Qorunurdu bəxtimiz onun himayəsində.

Mənim yerlim Samvelin pozuldu kefi niyə?
Komandir Kərəm idi biz iki erməniyə.
Üç nəfər birgə getdik, hava tutqun, boran, qar,
Öyrəndik mövqelərdə düşmənin nə sirri var.

Biz geri qayıdanda duyuq düşdü almanlar,
Ölüm yağdı güllələr, itdi iman, gümanlar.
Yaralandım orda mən, budumdan qan axırdı,
Taqətim kəsilirdi, canımdan can axırdı.

Kərəm yardım elədi, qoymadı qan itirim,
Qıymadı yarı yolda həyatımı bitirim.
Eşitdim Samvel deyir: – Ara, bunu qoy yerə,
Apara bilmərik biz, – söylədi neçə kərə.

İgid Kərəm dedi, yox, onu burda qoymaram,
Belə xəyanət olmaz, dostu darda qoymaram.
Heysiz, halsız olsam da, bunları anlayırdım,
Ürəyimdə bəxtimi, günümü danlayırdım.

Samvel təkid eylədi, başına bir güllə çax,
Ölsün, gəbərsin burda... almanlar gəlir, bir bax!
Kərəm baxdı Samvelə, bir tərs nəzər yetirdi,
Məni endirdi yerə, bəxtim belə gətirdi.

Düşündüm bu da sonu... axırım çatdı yəqin,
Türk deyən qaraçuxam burdaca yatdı yəqin.
Kərəm silah götürdü, mövqe tutdu döyüşdü,
Arada bir qəzəblə qışqırıb da söyüşdü.

Mən görürdüm Samveli, dodaqaltı deyinir,
Alçaqlıq libasını o, beləcə geyinir.
Silahını götürüb aradan belə çıxdı,
Belə alçaqlar üçün yol hər zaman açıqdı.

Kərəm ilə birlikdə qeyrət, təpər döyüşür,
Almanlar elə bilir iki nəfər döyüşür.
Ayrı-ayrı yerlərdən durub atəş açırdı,
Axır ki, cəsarəti düşmənləri qaçırdı.

Məni ölməyim deyə paltarına bürüdü,
Taqəti kəsiləndə qar üstündə sürüdü.
Sonra da istədim ki, Samveli ələ verim,
Əməlinin yolunu özüm ona göstərim.

Ancaq Kərəm dedi ki, hər şeyi Allah görür,
Doğru-düzgün cəzanı Allahın özü verir.
Beləcə xilas olur Samvel də tribunaldan,
Kərəmin sayəsində sağ çıxır qeylü-qaldan.

Belə yerdə deyirlər, başına pırlanım mən,
Bu kəndin torpağına, daşına pırlanım mən.
Belə oğul yetirən tork anası var olsun,
Qoy bu dağlar, bu yerlər hər vaxt bəxtiyar olsun.

Bundan belə nə deyim, olanları söylədim,
İllər boyu sinəmdə qalanları söylədim.
Samvelə dedim: sənsən insanlığın düşməni,
Sən erməni olsan da, türk xilas etdi məni.

Kərəm məni gətirdi, qospitalda sağaldım,
Kərəmin sayəsində sağ qaldım, ömür aldım.
Hey deyirdim, ey Tanrı, kaş Kərəmi görəydim,
Baxıb uca boyuna, sevincimi dərəydim.

İndi bildim Kərəmin nə oğlu, nə evi var,
Ancaq mənim qəlbimdə bir sevgi görəvi var.
Bu dünya çox qansızdır, xain çıxır doğma da,
Samvelin timsalında bunu gördüm voynada.

Sonralar Samvel gəldi, sol qolu da yox idi,
Kim bilir necə olub, hiyləsi də çox idi.
Məni görmax istəmir, hər vaxt yan qaçır məndən,
Mənim üçün fərqi yox onun qəddar düşməndən.

Voynadan söz düşəndə sivişib aralanır,
Xəyalım dolandıqca ürəyim yaralanır.
Dedim, gəlim söyləyim sizə doğrunu, düzü,
Ürəyimdə qalmasın tarixin doğru sözü.

Kərəm belə Kərəmdi, igidlərin igidi,
Mərdlikdə, sədaqətdə igidlikdə tək idi.
Çardaxlı ermənisi dili yaxşı bilirdi,
Dilimizin dilini bizdən yaxşı bilirdi.

Danışırdı, dilində sözlər gül-gül olurdu,
Sanki onun dilində kəlmə bülbül olurdu.
Pavelin söylədiyi bu hekayət bitmədi,
Yaddaşlarda yaşadı, izsiz keçib getmədi.

Çardaxlıda çoxları bilirdi bu söhbəti,
Pavelin nəvələri itirmirdi hörməti.
Ötdü zaman, qərinə... əsrin sonuna yaxın,
Ermənilər təzədən kükrədi axın-axın.

Baş qaldırdı samvellər, kəsildi bənd, bərələr,
Pavelləri də uddu bu uçurum dərələr.
Pavelin övladları Rusiyaya köç etdi,
Qarabağın işğalı neçə ömür puç etdi,

Erməni daşnakları bizə bəla gətirdi,
Neofaşist donunda təzə bala gətirdi.
Bu yerdə Cavadoğlu yada salır Nijdeni,
Faşizmdən dünyaya ayaq açan müjdəni.

Bu gün heykəl donunda faşizm bir qayadır,
İnsanlıq bəlasını düşüncədə oyadır.
Acı olan budur kı, dünya inadla susur,
Erməni mədəsindən faşizm bəla qusur.

Qələbədən yetmiş beş il ötsə də, hələ var
Faşizmin yarasını qəlbində daşıyanlar.
O zaman insanlığın birliyi güc göstərdi,
Dünya quduz Hitlerə dərs verdi, öc göstərdi.

Azərbaycan da bu gün bir dünya modelidir,
Düşmənə qarşı birlik bu xalqın öz əlidir.
Dünya görmüş dostumun sözünün hikməti var,
Hər sözün alt qatında gizlənən siqləti var.

Vətənə xain çıxıb, asudə gəzmək olmaz,
Xainin tamah qabı nə daşmaz, nə də dolmaz.
Bilirəm ki, xainlər İrəvana züy tutur,
Hələ kimlər, kimsələr səs qaldırıb, küy tutur.

Yaman marıqda yatıb, yallanan, yal yeyənlər,
Ölkəni öz içindən dağıtmaq istəyənlər.
Vətənə yanan dostum nə çəkir mən bilirəm,
Sözümün şah qapısı... söz evimə gəlirəm...

Erməni hiyləsinə aldanan yazıqları
Başa salaq, qaytaraq yolundan azıqları.
Cavadoğlu yanğısı sözümün atəşidir,
Sözümə işıq verən ürəyi, günəşidir.

Tarixi günümüzə gətirdim bir görk olsun,
Yolunu düz gedənə Xələflidən ərk olsun.
Kərəm kimi oğullar bir gün silaha dolar,
Yağılar zəbun olar, yurd yenə bizə qalar.

Bir kimsə düşünməsin nələrsə yaddan çıxar,
Toqquşar düşüncələr, yaddaşda şimşək çaxar.
Göy üzündə dolanır Kərəmlərin ruhları,
Lənətlə damğalayır bu qaragüruhları.

Bu acı xatirəni sözə çəkdim – yaşasın,
İnsanlığa sədaqət, hörmət-izzət daşısın.
Dostum Cavadoğlunun dinlədikcə sözünü,
Hər sözünün sonunda mən görürdüm özünü.

Ağrılar daşıyırdı xatirələr içində,
Vətən dərdi, el dərdi daha nələr içində.
Hər sözündə bir məna, hər mənada bir hikmət,
Hər hikmətin özündə dövrə ehtiram, hörmət.

Gələcəyə gedən yol keçmişdən keçər yenə,
Həqiqət bulağından təşnələr içər yenə.
Mən Ənvər Nəzərlidən bir təxmis eləyirəm,
Sözümü ustadımın ruhuna bələyirəm.

Sevənlərin eşqinə məndən yadigar olsun,
Harda sevgi var olsa, orda səsim var olsun.
Dillənsin pərdə-pərdə ürəklərin telləri,
Duyğuları paylasın eşqin səhər yelləri.

Bülbül ol qönçə gülə – ötsən də, ötməsən də,
Dərdinlə cıdıra çıx – ötsən də, ötməsən də.
Qismətinə gecikmə – tutsan da, tutmasan da,
“Tərk etmə eşqi, vəslə yetsən də, yetməsən də,
Yol yolluğunda qalmış, getsən də, getməsən də".

Yolunu tanıyanı döndərsən yoldan dönməz,
Ürəyində eşq odu haqdan yanırsa sönməz,
Uçdusa könül quşu, ha çağır, göydən enməz,
"Sevda bu can evindən bir dəm bitib, tükənməz,
Ey ömrümün baharı, bitsən də, bitməsən də".

Unudarmı bir kərə qanan, səni, ey aşiq,
Bilər bir gün eşqində yanan, səni, ey aşiq.
Üzü qara qalacaq danan səni, ey aşiq,
"Mənzil başında gözlər canan səni, ey aşiq,
Eşqin çətin yolunda itsən də, itməsən də".

Arzularım qönçədi, sən bəzəkli güldansan,
Yatmışları uyğudan dan üzü oyadansan,
Dan üzü üfüqləri al qana boyadansan,
"Sən eşqimin nübarı, sən bir zərif fidansan,
Əkdim könül bağımda, bitsən də, bitməsən də".

Qəlbimi alıb getdin, mənə şad xəbərindir,
Dan üzü yel gətirən ətrindir, ənbərindir,
Əli Rza Xələfli aşiqin, Qənbərindir,
"Şövq ilə can ver eşqə, onsuz da dilbərindir,
Ənvər, fəda bu canı etsən də, etməsən də".



***Bulat OKUCAVA***

***Bulat Şalvoviç Okucava (1924-1997) – gürcü əsilli rus şairi, nasiri, ssenaristi, bardı və bəstəkarıdır. SSRİ Dövlət mükafatına və "Rus Bukeri" ədəbi ödülünə layiq görülüb. 200-dən çox mahnının müəllifi kimi o, 1960-80-ci illərdə ölkə ictimaiyyəti tərəfindən dərin rəğbət görən "müəllif mahnısı" janrının ən tanınmış nümayəndələrindən birinə çevrilmişdi.***

# Arzuladığım qız

1947-ci ildə anamı necə qarşıladığımı bu gün də xatırlayıram.

Düz on il boyu bir-birimizdən ayrı düşmüşdük. O vaxt mənim on iki yaşım vardı. İndi isə iyirmi iki yaşlı universitet tələbəsi, müharibədə döyüşmüş, bərkdən-boşdan çıxmış, yaralanmış, amma hələ də, xatırladığım qədəriylə, bir az dayaz, dəli-dolu bir cavandım. Qəribə burasıdır ki, məndə hələ də nə isə tam oturuşmamış cəhətlər sezilməkdəydi.

Hə, düz on il boyu bir-birimizdən ayrı düşmüşdük. O dövrdəki şərait, ağır itkilərin və bitməz-tükənməz ayrılıqların səbəbləri indi artıq hamımıza yaxşı bəllidir, bunları indi hamımız yaxşıca anlaya, izah edə bilirik, bütün bu yaşananları tarixi faktlar kimi qələmə veririk, bəzən hətta onu da unuduruq ki, özümüz də o "qazanda" qaynayıb, bişmişik, həmin hadisələrin canlı iştirakçısıyıq, o olub-bitənlər özümüzü də zədələyib, yaralayıb və əsla təsirsiz ötüşməyib.

O yaşda ikən onillik müddət, indiki ilə müqayisədə mənə xeyli uzun görünürdü: indi isə illər sürətlə axıb-gedir, sayğacdakı rəqəmlər kimi təzələnir, üzü axşama doğru bir də görürsən ki, hətta yaşananların bəzilərini unudubsan gedib. O vaxt isə az qala bütün ömrümüz bəlli bir nizama tabe olmaqla yanaşı, bizə sonsuz dərəcədə uzun görünürdü, mən də düşünürdüm ki, əgər mənə bunca yaşamaq-böyümək nəsib olubsa, deməli, anam artıq tamamilə ağbirçək, çəlimsiz bir qarıya çevrilər... Və bu fikirdən dəhşətə gəlirdim.

O vaxtkı həyat tərzim belə idi. Cəbhədən qayıdan kimi Tbilisi universitetinə daxil olmuşdum və başqa bir şəhərə köçmüş bibimin mənə ayırdığı, birinci mərtəbədəki otaqda yaşayırdım. Filologiya fakültəsində təhsil alır, başqalarını

yamsılayan tərzdə şeirlər yazırdım, müharibədən sonrakı illərdə tənha bir tələbə necə yaşayırdısa, mən də eynilə o cür yaşayırdım: gələcəklə bağlı hansısa xəyallar qurmurdum, pulsuz olsam da, çarəsizliyə-filan qapılmırdım. Aşiq olur, eşq oduyla qovrulurdum deyə, aclıq hissini boğa bilirdim, gümrahcasına düşünürdüm: sağ-salamatamsa, daha nə istəməliyəm ki?! Anamı xatırlayarkən ayrılığın acı sirrini, o nəhs və qapqara rəngin sirrini isə artıq qəlbimin dərinliklərinə gömmüşdüm.

Məndəki bir neçə fotosunda anam hələ cavan idi: iri, qəhvəyi gözləri vardı, səliqə ilə geriyə daranmış saçlarını boynunun ardında yığmışdı, əyninə ağ yaxalıqlı və tünd rəngli paltar vardı, üzündən sərtlik yağsa da, sanırdın ki, dodaqlarının ucu az sonra qaçacaq. Bir də yaddaşımda onun danışıq və gülüş tərzi, nəvaziş dolu hansısa sözləri və digər xırda təfərrüatlar qalmışdı. Vaxt keçdikcə silinib-getməkdə olan bu xəyalını hər nə qədər sevsəm də, hətta onunla ayrılıq mənə əzab versə də, bu xəyal məndən ötrü sadəcə bir simvol sayılmazdı, çünki həm əziz, həm sirli, hər cür təmtəraqlı sözlərə layiq və mücərrəd bir dəyər idi o mənim üçün.

Divarın o biri üzündəki qonşum Meladze yaşlı, şişman, şəlpə qulaqlarından dümağ tüklər boy göstərən, pinti, qaşqabaqlı, qaradinməz bir kişi idi: ən çox mənimlə kəlmə kəsməyən bu adam yəqin qorxurdu ki, ünsiyyət qursaq, ondan mütləq borca pul-zad istəyəcəm. İşdən evə necə gizli dönürdüsə, onun qapıdan nə vaxt içəri keçdiyini hələ bir nəfər də görməmişdi. İndi mənə elə gəlir ki, o, hər halda nəfəslikdən içəri dalır, qoltuğundakı qəhvəyi rəngli, nimdaş çantası ilə də yenə elə oradan küçəyə çıxırmış. Kim idi, nə işlə məşğul idi – indi bu məqamları dəqiq xatırlamıram, çox yəqin, elə o vaxt da bunlardan xəbərsiz idim. Heç bayıra çıxmadan öz otağında qaxılıb oturardı o. Görəsən neyləyirdi ki, orada?

Hər ikimiz yalqız idik – o da, mən də.

Düşünürdüm ki, mənimlə qonşu olması onun heç ürəyincə deyildi. Hərdənbir yanıma eynilə özüm kimi ac-yalavac, dəymədüşər, çılğın tay-tuşlarım və qızlar gəlirdi, qarğıdalı unundan yoğurduğumuz qupquru kökələri tavada bişirər, ucuz şərab şüşələri açardıq. Yəqin ki, nazik divarın o biri üzündəki Meladze də həm bizim hay-küyümüzü, qəhqəhəmizi, stəkanlarımızın toqquşma səslərini, pıçıltılarımızı , öpüşmə-lərimizi özü də istəmədən eşidərdi, buna görə də hər davranışıyla bəlli edərdi ki, qopardığımız o mərəkələrdən tamamən boğaza yığılıb və mənə aşkar nifrət bəsləyir.

O vaxt mən onun səbrini və yüksək alicənablığını layiqincə qiymətləndirmək-də aciz idim, əlbəttə, çünki qonşumun dilindən bircə kərə də qınaq dolu sözlər eşitməmişdim. O, məni sanki görmürdü, mənimlə kəlmə kəsmirdi və ara-sıra sırf qonşu kimi ondan duz, kibrit və ya iynə-sap istəyəndə də əsla etiraz etməzdi, amma bunları mənə uzadanda baxışlarını mütləq yana tutardı.

Həmin o əlamətdar gün mən evə gec qayıtdım. Haralarda veyilləndiyimi indi xatırlamıram. Girişdəki mətbəxdə qabağımı kəsib, ortadan qatlanmış kağızı mənə uzadaraq, pıçıltıyla demişdi:

– Teleqramdır.

Karaqanda şəhərindən gəlmişdi teleqram. Kağız sanki əlimi yaxıb-yandırırdı. “Beş yüz birinci reyslə məni qarşıla. Öpürəm. Anan”. Böyür-başımda fısıldayaraq vurnuxan Meladze baxışlarını məndən çəkmirdi. Karıxdığımdan mən nöyüt sobamızı əvvəlcə yandırıb, sonra isə söndürdüm və çaydanı onun üstünə qoydum. Sonra mətbəxdəki masamın böyür-başını süpürməyə başladım, ancaq tezliklə buna ara verib, masanın müşəmbə örtüyünü təmizləməyə girişdim...

Məhz həmin an ən ağlasığmaz şey, həm də qəfildən baş verdi! Anamın alışdığım o xəyali görkəmi dəqiq cizgilər qazanmağa başladı. Çünki indiyədək ümidsizlik içində arzuladığım, uğrunda gecələr tənhalıqda və gizlicə göz yaşı axıtdığım o görüş az qala əlyetən olmağa başlamışdı.

Meladze mızıldandı:

– Karaqandadan, hə?

Qüssəli halda dedim:

– Hə.

O, qəmli-qəmli ağzını nırçıldadıb, dərindən köks ötürdü.

– Hansısa beş yüz birinci qatarla gəlir, – dedim. – Yəqin bir səhv olub. Bəyəm bu cür nömrəli qatarlar da olur ki?!

Qonşum pıçıldadı:

– Yox, bu, səhv deyil. Beş yüz birinci – “beş yüzüncü şən reys” deməkdir.

Bundan heç nə anlamadım:

– Bəs niyə “şən reys”?

– Qatso (gürcücə “oğlan” deməkdir – A.Y.), bu, yük vaqonlarından ibarət bir reysdir. Yol uzun çəkir deyə, içəridəki hər kəs şənlənir, – deyə o, təkrar ağzını nırçıldatdı.

Gecə gözümə yuxu getmədi. Divarın o üzündə Meladze isə öskürürdü. Səhər açılan kimi vağzala yollandım.

Veri yoxuşunu sürətlə endiyim və Jores küçəsiylə vağzala tərəf getdiyim anlarda doğma anamı tanımayacağımla bağlı qorxunc fikir mənə əsla rahatlıq vermirdi, qatarların və kütlənin arasında dayanmış vəziyyətdə özümü öz xəyalımda canlandırmağa çalışırdım, insan axınının ən gur yerində ağsaçlı bir qadın gözə dəyirdi və biz bir-birimizə tərəf cumurduq. Sonra biz on nömrəli tramvayla evə gedib, şam edirdik, haqqında danışacağım və göstərəcəyim hər şeyin – sivilizasiyanın, dincliyin, yeni zəmanənin, təzə salınan qəsəbələrin, ara-sıra göndərdiyim məktubları oxuyub ağlayarkən onun artıq unutduğu, unuda biləcəyi, yadırğadığı şeylərin – birlikdə ona necə xoş təəssürat bağışlayacağını təsəvvürümdə aydın bir şəkildə canlandırırdım...

O cür qəribə nömrəli qatar həqiqətən də varmış və cədvəldənkənar xəttə çıxdığı üçün onun stansiyaya dəqiq çatma vaxtı hətta yol dispetçerlərinə də məlum deyilmiş. Bütün bunlara rəğmən, onun gəlişini gözləyən bir xeyli adam ümid bəsləyirdi ki, hər halda axşamacan gəlib, Tbilisiyə çatar.

Mən evə qayıtmalı oldum. Döşəməni yudum, yeganə masa örtüyümü və yeganə əl-üz dəsmalımı suya çəkdim. Həmin müddətdə bütün fikrim-zikrim

anamla necə görüşəcəyim və ilk baxışdan onu tanıyıb-tanımayacağımla məşğul idi: axı o, yaşa dolmuşdu, qəddi bükülmüş, saçları isə ağarmışdı. Uzaqbaşı, onu tanımayıb, yanından ötüb-keçəcəkdim, o da vağzaldakı qələbəliyin arasında məni tapa, tanıya bilmədiyi üçün yəqin məhz özünü qınayacaqdı, ya da gözlərimə baxdığı zaman anlayacaqdı ki, onu tanımamışam və bu fakt onun yarasının qaysağını qoparacaqdı...

Saat dörd üçün mən özümü təkrar vağzala çatdırdım, ancaq o "beş yüz birinci reys" yağlı əppəyə dönüb, qeybə çəkilmişdi. İndi də onun gecəyarı gələcəyini deyirdilər. Təkrar evə qayıtdım, içimdəki təlaşı yatırtmaqdan ötrü masa örtüyü ilə əl-üz dəsmalını ütülədim, xalçamın tozunu çırpandan sonra otağı bir də süpürdüm...

May ayı idi. Təzədən onuncu tramvaya minib, təlaş içində vağzala üz tutdum, ətrafımdakı yad anaların və oğulların içimdəki bayramdan yerli-dibli xəbəri yox idi, ancaq bu dəfə geriyə artıq tək deyil, çəlimsiz anamın çiynini qucaraq dönəcəyimə bəslədiyim ümidlər daha dərin idi... Onu da gözə almışdım ki, perrona yanaşacaq o uzun qatarın yanıyla o baş-bu başa çox qaçmalı olacağam: axı, oradakı yüzlərlə insa-nın arasından öz anamı tanımalı, tapmalı, qucaqlamalı və onun ağuşuna qısılmalı olacaqdım, o qısaboylu, ağbirçək, çəlimsiz və əldən düşmüş qadını yüzlərlə sərnişinin və onların pişvazına çıxanların arasından seçib-tanımağa borclu idim.

Budur, onu qarşılayıram. Evdə birlikdə şam süfrəsinə oturmuşuq. Anam mənə ömür yolundan söz açır, mən isə ona – həyatımdan. O ara biz çox da dərinə getməyəcək, bütün yaşananların səbəblərini və təqsirkarlarını əsla axtarmayacağıq. Hər nə olub, olub da, əsas odur ki, yenə də bir aradayıq...

...Sonra mən onu kinoya aparacağam ki, orada ruhən dincələ bilsin. Hətta filmi də bəri başdan seçmişdim. Əslində, onu seçməmişdim, sadəcə, bütün Tbilisli sakinlə-rinin bəyəndiyi, baş rolunu Marika Ryokkun oynadığı, ələdüşməz film sayılan "Arzuladığım qız" idi bu. O filmin nümayiş olunması şəhərin normal həyatına danılmaz bir təsir göstərmişdi – hamı ondan danışırdı, bir azca boş vaxt tapan kimi ona baxmağa yollanırdı, küçələrdə hamı o filmin musiqisini fitlə çalırdı, laybalay açılan Tbilisi pəncərələrindən də küçələrə o filmdəki melodiyaların fortepianoda ifası yayılır, şəhər sakinlərinin könlünü oxşayırdı. O rəngli film mahnı və rəqslərlə, sevgi macəralarıyla, komik durumlarla zəngin idi. Davadan sonrakı məşəqqətlərlə dolu illərdə bu gözoxşayan, səs-küylü şou bütün tamaşaçıları özünə valeh eləmişdi. Şəxsən mən o filmə təxminən on beş kərə tamaşa eləmişdim, könlümün dərinliyində o gözqamaşdırıcı, qüsursuz və gülümsər Marikaya vurulmuşdum, filmi başdan-sona əzbər bilməmə rəğmən, hər dəfə tamaşa etdiyimdə baş qəhrəmanların aqibətiylə bağlı dönə-dönə təlaş hissinə qapılırdım. Təsadüfi deyildi ki, mən məhz bu film sayəsində anamın həyatının normal axara düşəcəyinə bel bağlayırdım. Düşünürdüm ki, bu filmə baxandan sonra anam özünün qəm-qüssə dolu fikirlərindən, ötəri də olsa, bir hovur aralanar, həyatdakı gözəl şeylərin fərqinə varar, sülh dövrünə, əmin-amanlığa, firavanlığa və musiqiyə köklənər, bütün bunlar isə hamılıqla onu

həyata, sevgiyə və mənə, yəni oğluna qaytarar... Bəs filmin o qadın qəhrəmanı? Axı o, üz-gözündən bəxtəvərlik yağan cavan bir qadındır. Səxavətli təbiət ona sağlam və gümrah bir bədən, qızılıya çalan dəri, uzun və qüsursuz ayaqlar, heyrətamiz bir sinə bəxş eləmişdi. Gülümsədiyi zaman çılğın Tbilisi əhli bu qadının gömgöy gözlərinin dərinliyində qərq olurdu, gərilən dodaqları təkrarsız bir gözəllik qazanırdı və həmin qadın öz ətrafındakı güclü, dəli-dolu və daima qayğısız cavanlarla rəqs edirdi. O qadın xəyalən mənimlə baş-başa idi, hətta ayaqlarını bir-birinin üstünə aşırmaqla, mənim nimdaş taxtımın üstə oturub, öz göy gözlərini məhz mənə dikirdi, anlaşılmaz ətirlərini havaya yaymaqla, avstriyalılara xas sonsuz gümrahlıq sərgiləyirdi. Mən isə onu öz qaba yaşam tərzimlə, davasonrası kədərimlə və ya anamın Karaqanda çöllərindən gətirəcəyi acı eyhamlarla küsdürmək fikrindən tamamən uzaq idim. Bəlkə qızın üstün cəhəti də bu idi ki, gözəl və mavi Dunay çayının sahilləri boyu uzanan məskənlərdə dərdsiz-sərsiz rəqs elədiyi vaxt o, bu dünyada kimlərinsə hədsiz darısqallıqda yaşadığından da xəbərsiz idi. Nə ədalətsizlik, nə də şər-xəta qurbanı idi o. Qoy elə hər qada-bəla da ona, o xanıma yox, məhz bizə tuş gəlsin. Onu qiymətli bir qaş kimi mən xəlvətdə saxlayır, xlor qoxusu verən tamaşa zallarının ekranlarına gözlərimi heyranlıqla zilləyəndən-zilləyənə o gizlin guşəmdən çıxarmağa qıyırdım.

İnsanların səs-küyündən vağzalyanı meydanda baş-qulaq tutulurdu. Vağzalın qarşısındakı nəhəng məkanda ala-bula bir insan kütləsi qaynaşırdı. Asfaltın üstünə çamadanlar və bağlamalar qalaqlanmışdı, gülüş və hönkürtü, çığırtı və söyüşlər havada uçuşurdu... Onda başa düşdüm ki, azacıq da olsa, gecikmişəm, ancaq hələ də ümidvar idim... Əşyalarının üzərində oturan insanlardan soruşdum ki, onlar beş yüz birinci qatarlamı gəliblər. Məlum oldu ki, yox, bu adamlar Batumidən gəlibmiş. Ürəyim yerinə gəldi. İzdihamı yararaq, məlumat köşkünə yanaşdım, o “lənətəgəlmiş beş yüzüncü”nü oradan xəbər aldım, ancaq dar pəncərədən bayıra boylanan, cırnamış və səs-küydən qulaqları batmış qadın uzun müddət ona nə dediyimi anlamadı, çünki eyni vaxtda gah ona, gah buna cavab verirdi. Ancaq elə ki, nə soruşduğumu başa düşdü, sərt şəkildə və bozararaq üstümə çımxırdı ki, beş yüz birinci qatar düz bir saat qabaq gəlib, hə, o gicbəsər qatar çoxdan gəlib və gətirdiyi sərnişinlərin də hamısı bir saat qabaq vaqonlardan endiyi üçün indi burada onlardan hər hansı əsər-əlamət qalmayıb...

Həftəsonu bazarı qədər tünlük olan vağzal meydanında bir yığın çamadan və bağlama üstündə qəddi bükülmüş bir qarı oturmuşdu, çarəsizlik içində həndəvərinə baxınırdı. Ona tərəf yönəldim. Üz cizgilərində nələrsə mənə tanış gəlməyə başladı. Qacımış ayaqlarımı ağır-ağır hərəkətə gətirə bildim. Məni görən və şübhə ilə süzən qadın xırda əlini yaxınlığındakı bağlamaya saldı.

Evə tərəf payi-piyada yola düzəldim ki, bəlkə yolda anama rast gələrəm. Ancaq qapıya çatsam da, onunla qarşılaşmadım. Otağım səssiz və kimsəsiz idi. Divarın o üzündən Meladzenin öskürəyi eşidildi. İndi durub təkrar vağzala qədərki o yolu qaçaraq qət etməliydim, ancaq elə qapıdan çıxan kimi ən yaxın tində anamı gördüm! O, ağır addımlarla evə tərəf gəlirdi. Əlində fanerdən

hazırlanmış çamadan vardı. Tam xatirimdəki qadına bənzəyirdi: hündür və yaraşıqlı idi, başındakı bozumtul yaylığı isə əzik-üzük və yöndəmsiz görünürdü. Güclü və cavan görkəmi vardı, çöhrəsi gün altda yanmışdı. Onu ahıl və qəddi bükülmüş halda yox, məhz bu cür gördüyümə hədsiz dərəcədə sevinməm yaxşı xatirimdədir.

Hava təzəcə qaralırdı. O, məni qucaqladı, yanağını yanağıma söykədi. Çamadanı səkinin üstünə qoymuşdu. Yoldan ötənlər bizə hər hansı diqqət yetirmirdilər: hamının hər rastlaşdıqlarında, yəni gündə bir neçə kərə öpüşdüyü Tbilisi sakinləri üçün bizim bu sadə qucaqlaşmamızda qeyri-adi heç nə ola bilməzdi axı.

O, heyrətlə təkrarlayırdı:

– Gör, necə böyümüsən! Mənim balam, mənim oğlum, bir gör, necə də böyüyüb!

Bütün bu sözlər yadıma o köhnə, unutduğum vaxtları saldı... Biz ağır addımlarla evə tərəf üz tutduq. Onun çiynini qucmuşdum, təzəcə haradansa gələn birinə adətən verilən: "Hə, necəsən? Orada necə yaşayırdın?.." suallarını ona vermək istəsəm də, özümü ələ alıb, susurdum.

Evə girdik. Yəni mənim otağıma. Onu köhnə divanımda oturtdum. Divarın o üzündə Meladze öskürürdü. Əyləşəndən sonra anamın düz gözlərinin içinə baxdım. O iri, badamı və palıdı gözlər indi la-a-p yaxınımda idi. Dim-dik onlara baxdım... Qarşılamağa hazırlaşarkən düşünürdüm ki, bu görüşümüz xeyli göz yaşı və acı fər-yadlarla müşayiət olunacaq, odur ki, anamı sakitləşdirəcək bir təsəlli də tapmışdım: "Anacan, yoxsa görmürsən ki, salamatam, hər şey yolundadır, sən də həm gözəlsən, həm də sağlam, hər şey bundan belə daha yaxşı olacaq, sən evinə qayıtmısan və artıq biz yenə bir yerdəyik..."

Bu sözləri öz-özümə dəfələrcə təkrarlamışdım, on illik ayrılıqdan sonra gözləniləcək ilk qucaqlaşmalara, ilk göz yaşlarına daxilən hazırlamışdım özümü... Budur, onun gözlərinin içinə baxıram. Bu gözlər quru və qətiyyətli idi, anam mənə baxsa da, sanki məni görmürdü, üzü də donub-daşlaşmışdı, dodaqları xəfifcə aralıydı, günəşdə yanan əllərini qeyri-ixtiyari dizlərinin üstünə qoymuşdu. O, özü heç dinib-danışmadı, eləcə mənim təsəlli dolu sözlərimə, ağlıma gələn şeylər barədə boş gəvəzəliyimə qarşılıq verərək ara-sıra "hə, hə" deyib, durdu, üzündə donan qüssə ilə bağlı isə heççə nə söyləmədi... Düşündüm ki, kaş indi o, hıçqıraydı. Sonra ucuzvarı bir papiros çıxarıb, yandırdı. Ovcunu saçımda gəzdirdi...

Mən gümrah tərzdə dedim:

– İndi yemək yeyəcəyik. Meylin çəkirmi?

O, soruşdu:

– Nə?

– Deyirəm, yemək istəyirsən? Axı uzaq yoldan gəlmisən.

O, yenə də anlamadı:

– Mənmi?

Güldüm:

– Sən də, əlbəttə ki, sən...

Üzüyola halda:

– Mən hə, bəs sən? – deyərkən sanki gülümsədi də, ancaq yenə də əvvəlki kimi – əllərini eləcə dizlərinin üstünə qoyub, oturmağına da davam elədi...

Mən mətbəxə gedib, nöyüt sobasını yandırdım, qarğıdalı ununun qalan qismindən xəmir yoğurdum. Cüzi ərzaq ehtiyatımdan güclə qoruyub-saxladığım İmeretiya pendirindən iri bir tikə kəsdim. Bütün bunları könlü açılsın deyə, anamın qarşısına, süfrəyə düzdüm: qoy görsün ki, necə bir oğul sahibidir, onun necə evi var, necə əlli-ayaqlıdır, düşdüyümüz çətin şərait bizləri əsla ruhdan sala bilməyib, biz sınaqlara mətanət və sevgi ilə sinə gərmişik. Qabağında ora-bura vurnuxsam da, anam yerindən heç qımıldanmır, eləcə papirosu papirosa calayırdı... Qaynayan çaydan üçün süfrədə yer açdım. Həyatımda ilk dəfə idi ki, yemək hazırlayarkən qab-qacaqla da, nöyüt sobasıyla da belə cəld, belə qıvraq, belə səliqəli davranırdım – təki anam da əmin olsun ki, yanımda yaşasa, heç vaxt itib-batmaz... Həyat isə durmadan axıb-ge-dirdi... Əlbəttə, onun evdən və məndən uzaqda başına gələn məşəqqətlərdən sonra tezliklə özünə gəlməsi asan məsələ deyildi, bunlar səbr və zaman tələb edirdi...

Bişən kökələri ocaqdan götürdüyüm vaxt arxamda peyda olan Meladzenin fısıltısını eşitdim. O, mənə bir boşqab lobya uzatdı. Dedim:

– Neyləyirsiniz? Bizim hər şeyimiz var...

O, ötkəm tərzdə dedi:

– Bunu da götür, qatso... Bilirəm var...

Boşqabı alsam da, o, çıxıb getmədi. Qapımı laybalay açdım:

– Gəlin, gedək, sizi anamla tanış edim.

Anam hələ də o cür, yəni əllərini dizi üstə qoyaraq oturmağında idi. Adət üzrə, qonağı görüncə, ayağa durub, gülümsünəcəyini düşünürdüm; "çox məmnun oldum" deyəsiydi, adını söyləyəcəkdi... Ancaq o, lal-dinməz günəşdə yanıb-qaralan sağ əlini qonşuma uzatdı və təkrar onu dizinin üstünə qoydu.

Stul çəkərək, qonağa: "Əyləşin" – dedim.

Anamla üzbəüz oturan qonşum da əllərini dizlərinin üstünə qoydu.

Qaranlıq qatılaşırdı. Pəncərənin fonunda bu bir cüt insan hərəkətsiz və eyni pozada donub qalmışdı, həm də yandan baxdığım zaman bir-birinə bənzədiklərini düşünürdüm.

Mətbəxə üz tutanda onların kəlmə kəsib-kəsmədiyini biləmmədim. Otaqdan hər hansı səs-hənirti gəlmirdi. Geri dönəndə zaman anamın əllərinin artıq dizləri üstə olmadığına və onun deyilənlərə qulaq verirmiş kimi, önə əyildiyinə şahid oldum. Səssizliyi Meladzenin sualı pozdu:

– Batık?

Anam mənə nəzər salıb:

– Jarık... – dedi və gülümsədi.

Mətbəxdən-otağa və geriyə vurnuxduğum dəqiqələrdə onlar bir-birinə qısa, anlaşılmaz və sadəcə, dodaqlarının ucuyla nələrsə deyib, durdular. Meladze elə hey ağzını nırçıldadıb, başını bulayırdı. Xatirimdəydi ki, bu Jarık – anamın məs-

kunlaşdığı yerə yaxın bir stansiyanın adıdır, məktublarını da mənə oradan göndərirdi. Onlar sayəsində öyrənirdim ki, anam sapsağlamdır, gümrahdır, işləri yolunda gedir, yetər ki, mən dərslərimi oxuyum, həm də yaxşı oxuyum, hə, təkcə bunu məndən xahiş edirdi anam... Mən də özüm barədə məlumatları: sapsağlam, gümrah olduğumu, işlərimin yolunda getdiyini, Puşkin haqqında bir məqalə yazdığımı, hamının məni tərifl ədiyini bildirirdim, məndən sarı narahat olmamasına, gec-tez hər şeyin yaxşı bitəcəyinə və onunla görüşəcəyimizə dair gen-bol təsəlli verirdim anama...

Budur, artıq onunla görüşmüşük və yəqin ki, indi o, həmin məqalə və mənim digər hap-goplarım barədə nələrsə soruşacaqdı...

Pıçıltıyla soruşdum:

– Bəyəm o da oralarda olub ki?

Anam soruşdu:

– Kim?

– Necə yəni kim?.. Meladze də...

Qadın heyrətlə:

– Meladze? – deyə soruşub, üzünü pəncərəyə tərəf tutdu. – Meladze kimdir?

Hövsələdən çıxdım:

– Necə yəni kimdir? Ana, sən dediyimi eşitmirsən ki? Meladze... indicə səni tanış elədiyim qonşudur da... O da... oralara sürgün olunubmuş?

Anam üz-gözünü bürüşdürdü:

– Sakit ol, sus... Gəl, bu barədə danışmayaq, bala...

Ey tənhalıqda fısıldayan və ora-bura vurnuxan Meladze! Yəqin bir vaxtlar sənin də zoğal budağı qədər zərif qamətin, bütün cavanlara xas odlu dodaqların və sığallı bığların var imiş. İndi isə dodaqlarının rəngi soluxub, bığların yanlara salxır, dolğun yanaqların isə çöküb. Mən həmişə sənə gülər, səni gizlicə dostlarıma nişan verərək deyərdim ki, baxın, uşaqlar, əgər siz də yarma sıyığı yeməsəniz, o məzəli daydaya oxşayacaqsınız... Özümüz hələlik toppuşdodaq və itigözlü gənclər olduğumuzdan bu yöndəmsiz kişinin necə yeridiyinə, oğrun-oğrun qapının arasından bizə necə göz qoyduğuna heyrətlənirdik... Görəsən nədən qorxurdu Meladze?

Anamla baş-başa oturub, çay içirdik. Yenə orada necə yaşadığını soruşmaq istədim, amma sonra çəkindiyim üçün fikrimdən daşındım. Anam danışdıqlarımı dinləyərkən başını tərpədir, üzünə maraq dolu ifadə verir və gülümsünürdü, yeməyini də aramla çeynəyirdi. Əlini isti çaydanın səthində gəzdirəndən sonra ovcuna çökən hisi süzdü sonra da... Onu sakitləşdirməyə çalışdım:

– Sən fikir eləmə, boş şeydir, bu çaydanı tərtəmiz silib-ağardacağam.

Üzünü boşluğa tutub:

– Mənim zavallı balam, – dedi və qəfildən hönkürdü. Onu sakitləşdirdim, təskinlik verdim: əşşi, nə böyük şeymiş, çaydandır da. O, göz yaşlarını silib, boş fincanını qabağa itələdi, utancaq bir təbəssümlə: – Yaxşı, yaxşı, sən mənə fikir vermə, – dedi və bir papiros yandırdı.

Divarın o üzündən Meladzenin öskürək səsi eşidildi.

Düşündüm ki, heç nə olmaz, tezliklə hər şey öz yoluna-yolağına düşəcək. Çayımızı içəndən sonra isə onu kinoya aparacağam. Orada nələr görəcəyini anam heç ağlına-xəyalına da gətirə bilməzdi. Gözlərimi qıyıb düşündüm: birdən bütün o şeylərdən sonra, yəni mavi dalğalardan, musiqidən, sevinc hissindən, şaxıyan günəşdən və Marika Ryokkdan sonra, bütün o şeylərdən sonra... yəni sahib olduğum ən gözqamaşdırıcı, ən qiymətli nemətləri bir arada anama hədiyyə edəcəyimi düşündüyüm an duyduğum o hüdudsuz səxavətin ağırlığından nədənsə nəfəsim daralmağa başladı...

Həmin an anama dedim:

– Bilirsən, sənin üçün mən bir sürpriz hazırlamışam, ancaq onu sənə bəxş etməm üçün gərək evdən çıxıb, bir azca dolaşaq...

Anam üz-gözünü bürüşdürdü:

– Evdən çıxıb?

Məni gülmək tutdu:

– Qorxma. Daha sən heç nədən qorxma. Mənə inan, əsl möcüzə ilə rastlaşacaqsan! O elə bir möcüzədir ki, onu hətta dərman yerinə xəstələrə də vermək olar... Eşidirsən məni? Gedək, gəl, gedək...

Anam üzüyola tərzdə yerindən qalxdı.

Axşama qərq olan Tbilisinin küçələrini dolaşdıq. Orada necə yaşadığını təkrar soruşmaq istəsəm də, bunu etmədim: hər şey könülaçan idi axı, mülayim və xoş bir axşam idi, yanaşı addımladığım anamın dirsəyinə toxuna bildiyim üçün dünyanın xoşbəxt idim! Özünün bozumtul, əzik-üzük, Tbilisi dəbinə uymayan çit paltarına, ayağındakı nimdaş, artıq dabanı yeyilmiş sandalına rəğmən, anam zərif və gözəl bir qadın idi. Düşündüm ki, bu qadın oradan birbaşa gəlib, bu ılıq yay mövsümünə, çinar yarpaqlarında bərq vuran işıq şüalarının və həyatından razı, səs-küylü kütlənin içinə düşübdür... Bir də ağlıma o fikir gəldi ki, gərək mən ona əyin-başını dəyişmək, özünə əl gəzdirmək imkanı verəydim, yoxsa necə vardısa, o cür, yəni oradangəlmə bu paltarla. Bunları unutmaq lazım idi.

Anamla Rustaveli prospekti ilə irəliləyirdik və o, heç nə soruşmadan, böyrümə düşüb, gedirdi. Mən biletləri aldığım müddətdə hərəkətsiz halda divarın dibində durdu, baxışlarını da döşəməyə dikdi. Kassa növbəsində ikən başımı tərpətdiyimi görüb, deyəsən, hələ mənə gülümsədi də.

Bürkülü zalda oturduğumuz vaxt dedim:

– İndicə sən əsl möcüzəyə şahid olacaqsan, bu o dərəcədə gözəldir ki, sözlərlə ifadəsi imkansızdır... Qulaq as, orada ikən sizə heç kino-zad göstərirdilərmi?

– Nə? – deyə xəbər aldı.

– Yəni hansısa filmlər-filan... – desəm də, sarsaqladığımın fərqinə vardım. – Barı ara-sıra...

– Bizəmi? – deyə soruşub, şirin-şirin gülümsədi.

Cırnayaraq pıçıldadım:

– Ana, nə olub axı sənə? Soruşuram ki... Olduğun o yerdə...

Anam qətiyyətlə cavab verdi:

– Əlbəttə ki...

Duyduğum həzzdən xoşhallanaraq dedim:

– Nə yaxşı, biz yenə bir yerdəyik.

O isə öz xəyal aləmindən ayrılmadan təsdiqlədi:

– Elədir, elədir.

Özümün ən böyük sərvətimi, ən üstün dəyərimi anamla bölüşdüyüm anlarda mən gah ekrana, gah da ona baxırdım, bütün zal isə heyrət içində idi, uğunub-gedir, içini çəkir, çəpik çalır, ekranda səslənən mahnıları mızıldanırdı... Anam isə başını aşağı sallayıb, oturmuşdu eləcə. Pıçıldadım:

– Həqiqətən də gözəldir ha! Sən ora bax, bax, indicə ən maraqlı yer gələcək... Anacan, baxsana!..

Yeri gəlmişkən, bu ara həm də növbəti dəfə beynimə belə bir ağlasığmaz fikir də batdı ki, ekranda və mavi Dunay çayı sahillərində baş verən bu gözqamaşdırıcı Avstriya karnavalı ilə anamın oralarda yaşadığı müsibətlər əsla bir araya sığa bilməz.

Anam mənim bu təklifimə cavab olaraq, qaldırdığı başını heç nə görmədiyi üçün təkrar aşağı sallamalı oldu. O heyndə gözoxşayan və çılpaq Marika sabun köpüyü ilə dolub-daşan çəlləyin içində oturmuşdu. Heç nəyi vecinə almadan yuyunurdu. Zaldakı hər kəs bundan həzz alır və heyrətdən çığırırdı. Mən də qəhqəhə çəkib, dərin ümidlə anamın gözlərinin düz içinə baxdım. O isə sırf nəzakət xatirinə mənə gülümsəməyə çalışsa da, cəhdi boşa çıxdı.

Qəfildən pıçıltıyla dedi:

– Gəl, gedək buradan.

Mən isə heyifsilənərək cavab verdim:

– İndi ən maraqlı səhnə gələcək axı...

– Xahiş edirəm – gedək buradan...

...Ağır addımlarla evə sarı gedərkən susurduq. O, heç nə soruşmurdu.

Misilsiz Marikanın o təmtəraqlı, al-əlvan geyimlərindən sonra anamın paltarı mənə daha bozumtul və kasıbyana görünməyə başlamışdı. Dedim:

– Yaxşıca günəşlənmisən ha, əcəb gözəl görünürsən. Mən qarşımda qoca bir qarı görəcəyimi düşünürdüm, sən isə elə gözəlsən ki...

Məni soyuqqanlı tərzdə süzən anam əlimi sığallayaraq dedi:

– Belə de.

Ona yatacaq yer salmaq üçün vurnuxduğum dəqiqələrdə anam əvvəlki stulda oturub, düz önünə baxırdı, əlləri isə yenə də dizlərinin üstündə idi. Özümə taxtda yer saldım, ona isə – yeganə çarpayıda. Anam buna dirənməyə cəhd göstərdi, taxtda yatmağa alışdığını deyərək, mənim çarpayıda yatmamda israr elədi: hə, hə, xeyr, xeyr, bax, səndən artıq dərəcədə xahiş edirəm, gərək sözümdən çıxmayasan (bunu deyərkən səsinə məzəli çalar da qatmışdı hələ)... axı mən – sənin ananam... Sonra üzünü kimə isə yox, sırf boşluğa tutaraq dedi: – A-na... a-na... mən ana-yam...

Mətbəxə yollandım. Öz vərdişlərinin ziddinə gedərək, Meladze taburetdə əyləşmişdi. Onun sual dolu baxışları mənə zilləndi.

Pıçıltıyla şikayətləndim:

– Onu kinoya aparmışdım, ancaq seansın yarısında zaldan çıxdı.

Qonşum heyrətləndi:

– Kinoya? Hansı kinoya, qatso? Axı o, dincəlməli idi...

– O, nə isə belə başqa cür olub ey, – dedim. – Bəlkə də mən nələrisə anlamıram... Söz soruşanda, elə hey sual verir, sanki heç nə eşitmir...

Ağzını nırçıldadan Meladze pıçıltıyla dedi:

– Artıq-əskik danışmaq istəməyəndə insan adətən ağır-ağır danışır, yüz ölçüb, bir biçir. Bildin? Hə, ölçüb-biçir... Vaxta ehtiyac duyur... Bu xasiyyət onda bir vərdiş halını alıb...

Soruşdum:

– Yəni o, mənə də artıq-əskik nəsə deməkdən çəkinir ki?!

Qonşum özündən çıxdı:

– Sənə yox, genatsvale, sənə yox... – şəhadət barmağını yuxarı tuşlayaraq dedi: – Sən orada, məhz orada olmamısan axı! Orada bu qadını başqaları sorğu-suala çəkmişdi: nə olub, niyə olub? Hə, başa düşdün indi?

Hər şey unudulacaq, hər şey unudulacaq, hər şey unudulub-gedəcək... Biz təkrar mavi Dunayın sahillərinə üz tutacaq, oradakı izdihamdan seçilməmək şərtiylə, insanlara qaynayıb-qarışacağıq, gözəlliklərdən, gəncliyimizdən və musiqidən həzz alacağıq...

Meladze dilləndi:

– Sən onun üçün meyvə al...

Təklifin məğzini başa düşmədim:

– Nə meyvəsi?

– Gilas al onun üçün, gilas...

...Həmin dəqiqələrdə anam özünün o bozumtul paltarındaca, üstünə heç nə örtmədən, büzüşərək, taxtın üstündə uzanmışdı. İçəri girdiyim zaman məni süzdü, xəfif bir gülümsəmə yarandı çöhrəsində – o təbəssüm mənə tanış idi artıq.

İncik halda dedim:

– Ana, axı taxtda mən yatasıydım.

Anam uşaq inadıyla:

– Xeyr, xeyr, – deyib, qəhqəhə çəkdi...

Soruşdum:

– Sən gilas sevirsən heç?

Sualımı başa düşməyib:

– Nəyi? – deyə soruşdu.

– Gilası deyirəm, – sevirsən? Sən gilas sevirsənmi?

– Mənmi? – deyə dəqiqləşdirdi.

***Rus dilindən tərcümə etdi:***
***Azad YAŞAR***



*Mübariz CƏFƏRLİ*

# TORPAĞA BAŞ ƏY...



♦ *Hekayələr*

...Rüstəm sağlıq deməyə başlayanda Azərlə Hikmət yeməkdən əl götürüb diqqət kəsildi, mən isə bu sağlığı çox eşitmişdim, bilirdim ki, Rüstəm içki içəndə həmişə eyni şeyi danışır.

– Deməli, məsələ beləydi, dava başlayan kimi atam işindən-gücündən əl çəkib getdi müharibəyə. Heç bir həftə keçməmiş, ölüm xəbəri gəldi... – bu arada süfrə arxasındakılar ona xoş gəlmək üçün, həm də nəzakət xətrinə yavaşcadan: "Allah rəhmət eləsin" desələr də natiq sağ əlini yuxarı qaldırdı, yəni sözümü kəsib mənə mane olmayın. – Basabas illərdi də, Şura hökuməti dağılmışdı, ermənilər də fürsətdən istifadə eləyib Qarabağda at oynadırdı. Nə isə, atam öləndən sonra ailəmizin bütün yükü düşdü mənim çiynimə. Evin böyük oğlu idim axı... On beş-on altı yaşım vardı, düz-əməlli məktəbə də getmirdim, səhərdən-axşamacan bazarda ona-buna kömək eləyib beş-üç manat çörək pulu qazanırdım. Söz vaxtına çəkər, bir gün, elə bu vaxtlar idi, payızın son ayı, qaralan havadan elə qaramat yağırdı, bazardan əl-ayaq yığışırdı, tərs kimi həmin gün mənə iş buyuran olmamışdı, bircə manat da qazanmamışdım. Ümid-siz-ümidsiz ürəyimdə Allaha yalvarırdım ki, heç olmasa, evə bir-iki çörək almaq üçün pul yetirsin, evdəkilər ac yatmasın. Bu dəm səliqəli geyinmiş çal saçlı, nazik saqqallı bir kişi bazarın tualetindən çıxıb əli ilə məni çağırdı. Sevincək kişinin qabağına qaçdım. Kişi birbaşa mətləbə keçdi. "Ay bala, indicə tualetə girmişdim, pulqabım cibimdən sürüşüb düşdü deşiyə. Gəl sən mənim o pulqabımı ordan götür, mən də səni razı salım". Mən bir anlığa donuxub qalsam da, çar-naçar, əlacsız-əlacsız, könülsüz-könülsüz razılaşdım. Həlbət ki... Əlacı olan könüllü bu işə necə gedər? Acığından onu bu işə sövq eləyənə gücü çatmasa belə, kişinin dalına bir təpik ilişdirib tüpürər dabana, qaçıb çıxar aradan... Mənsə... – azca ara

verib qulaq asanlara baxdı, böğazını arıtlayıb davam elədi. – Nə isə, tualetə girdim, bazar ayaqyolusu məlumdu ki, nə kökdə olar, ancaq yaxşı ki, içəridə heç kəs yox idi, pulqabını məlum yerdə görəndə bir anlığa neyləyəcəyimi bilmədim, ürəyim qalxdı, istədim doğrudan-doğruya qaçıb gedəm, ancaq elə o dəm evdəkilər gözümün qabağına gəldi. Qollarımı çırmaladım, yavaş-yavaş əyilərək, iyrənə-iyrənə əl atıb bulaşıq dəri pulqabını götürəndə onun üstünə qonub uyumuş iri, yaşıl milçək vızıltı ilə uçdu, xarab olduğundan heç vədə bağlanmayan, suyu səhərdən-axşamacan şırıltı ilə axan divardakı krantın altında, bumbuz, soyuq suda həm əllərimi, həm dəri pulqabını yaxşı-yaxşı yudum. Barmaqlarım qıpqırmızı qızardı, soyuq sümükləriməcən işləyib əllərimi keyləşdirdi. Portmanatı, əllərimi qolları yamaqlı gödəkçəmə silib birtəhər qurulamaq istədim. Bayıra çıxıb pulqabını kişiyə verdim, kişi də portmanatı açıb ordakı pulların arasından birini nimdaş, bozumtul gödəkçəmin döş cibinə basdı, elə bil istəmirdi ki, təsadüfən əli əlimə toxunsun. Mən çörək almağa qaçdım. Çörək alıb sevinə-sevinə evə gedəndə birdən qəhər məni boğdu. "Ay Allah, mənə çörək pulu yetirəcəkdinsə, nə səbəbə zir-zibilin içini eşələməyimi rəva gördün, axı sən çox qüdrətlisən, başqa cür göndərə bilməzdin ruzimi?" – fikirləşdim, evə çatanacan biixtiyar zar-zar ağladım. İndi də sizə deyirəm ki, əgər o göydəki kişi... – qəhərlənib şəhadət barmağını tavana tuşladı, – sizə yox yerdən bir tikə çörək yetirirsə, şadlığınıza şitlik eləməyin... Necə deyirlər onu, həmişə göylərə şükr elə, torpağa baş əy...

Bu yerdə Hikmət dilini dinc saxlaya bilmədi:

– Alə, söz danışdın də, tualet belə gəldi, pulqabı belə getdi, nə bilim, zir-zibil, qoy çörəyimizi rahat yiyək, iyrəndirmə bizi, sən lap keflənmisən, baş əyməli o qədər cibi dolu vəzifə sahibi var ki... Torpağa baş əyməklə nə cib dolar, nə qarın... Bəs balalarımızı necə dolandıraq?..

Azər qəhqəhə çəkdi.

– Düzdü!.. Yaz faiz!..

Rüstəmin danışmaq həvəsi öldü:

– Mən nahaq yerə başıma gələni hər qammaza söyləyirəm... – əlindəki qədəhi süfrəyə qoyub əyləşərək acıqlı-acıqlı dedi. – Gərək çörəyi çörəkçiyə verəsən, zər qədrini zərgər bilər...

Gördüm vəziyyət qəlizləşir, Rüstəmə dedim ki, hirslənmə, zarafatdı eləyirik, dur gedək, eyvanda bir siqaret çəkək. Sağ olsun, əsəbiləşsə də, dərinə gedib sözümü yerə salmadı. Baxma ki, masanın üstündə də külqabı vardı, bayaqdan Hikmətlə Azər elə içəridə siqaret tüstülədirdi.

Həm də sağlıq deyənin yadına düşmədi ki, mən siqaret çəkən deyiləm. Deyəsən, həqiqətən keflənmişdi...

# ATLILAR, QANADLILAR

*Quşlara*

Binayi-qədimdən adamlar quşlara həsəd aparıblar, çünki özləri qanadlanıb uçmağı bacarmayıblar. Bəlkə içlərindəki yekə qibtəyə görə diri tuta bildikləri quşları qəfəsə salmağı, qəfəsdə saxlamağı xoşlayıblar? Özləri isə gah uçan xalça uydurublar, gah bər-bəzəkli hava şarı düzəldiblər, gah da röyada göy üzünə qalxıb yalnız vaqeədə, yuxuda uçublar. Düzdü, deyirlər, göz qırpımında ruhları hər iki dünyanı dolaşıb geri qayıdan müqəddəslər də olub. Amma bu qəliz, dolaşıq söhbətdi, sənlik deyil. Yekəxana danışmayım, bu söhbəti xırdalamaq heç mənlik də deyil, sonsuzacan üzbəsurət oturub çək-çevir eləsək də bir yana çıxa bilməyəcəyik.

Əlqərəz, axır ki, illər-əsrlər ötəndən sonra quşlara həsəd aparanlar özləri qanadlana bilməsələr də, dəmir təyyarələr yaradıb buludları yaxından seyr elədilər. Fərqinə varmadılar ki, uça bilməmələrinin, qanadlarını itirmələrinin günahı elə özlərindədi. Belə nəql eləyirlər ki, qurbanolduğum cəmi məxluqatı qanadlı yaradıbmış, intəhası, günaha batıb qadağanı pozanlar, loru dillə desəm, cızığından çıxanlar qanadlarından məhrum olub. Bəzi rəvayətlərdə "atlılar-qanadlılar" kəlməsi də yəqin elə buna görə işlənilir. Tamam günah içində çabalayanlarsa, nəinki qanadlarını, get-gedə ayaqlarını da itirib, qalıblar sürünə-sürünə... Yəqin bizim ömrümüz çatmaz bunu görməyə, ancaq yüz faiz əminəm ki, Adəm övladlarının da axırı elə sürünməklə bitəcək. Bəlkə də ayaqlarını itirmədən sürünəcəklər. Başa düşməyəcəklər ki, uçmaq bir yana, yerimək də yasaqdı onlara. Daha doğrusu, yasaq-zad deyil, di gəl, əndazədən çıxıb tamam ağ elədiklərinə görə yerişlərini itiriblər, qalıblar sürünə-sürünə... Uçmaq üçün qov kimi yüpyüngül olmaq gərəkdi, beşikdən-qəbrəcən sərvət yığan, var-dövlət hərisi olan necə qanadlana bilər? Övladlarından, törəmələrindən tutmuş qızıl-gümüşünəcən, pul-paranacan heç nə sənin deyil, o yekəlikdə ağırlıqla göyün yeddinci qatına yüksəlmək mümkün olmayacaq, uzaqbaşı, yerin altına gömüləcəksən... Bir ayağı gorda olanlar belə dünyaya indicə gəliblərmiş kimi sərvət hərisidilərsə, məxluqata necə, nə təhər, nədən öyüd-nəsihət verəsən? Əslində, bütün öyüd gözlərinin qabağındadı. Deyirlər, əməlisaleh bir kişinin qəflətən gözünə bədheybət bir varlıq görünür, kişi vahimə içində soruşur ki, sən kimsən? Həmin bədheybət də sakitcə deyir ki, Əzrayılam. Kişinin zəhri yarılır, güc-bəla ilə xəbər alır ki, məndən nə istəyirsən? Əzrayıl gülümsünür ki, qorxma, hələ sənin əcəlin çatmayıb, sən din-iman adamısan, de görüm, vaxtı yetişəndə sənin canını necə alım ki, könlün xoş olsun? Kişi qayıdır ki, elə də, belə də, fərqi yoxdu, hərəmiz bir can borcluyuq, canı alınanın könlü xoş ola bilməz, necə yazılıbsa, eləcə də alarsan canımı, halal xoşun olsun, sən əmr eləyən deyilsən,

icraçısan, amma canımı almamışdan qabaq mənə xəbər verərsən ki, yır-yığış eləyim, bu dünya ilə tamam-kamal üzülüşməyə, vəsiyyət eləməyə macal tapım. Əzrayıl razılaşıb qeyb olur. Nə isə, ay ötür, il dolanır, bir gün yenə Əzrayıl kişinin gözünə gürünür ki, əcəlin tamamdı, gəlmişəm sənin canını almağa, day bu vaxta zərrəcə o yan-bu yan ola bilməz. Kişi qorxudan vahimə içində dilini ağzında zorla sürüyə-sürüyə çaşqın-çaşqın mızıldanır ki, axı sən mənə söz vermişdin ki, əcəlim çatmamışdan xəbərdarlıq eləyəcəksən, sən boyda mələyə yaraşarmı vədinə xilaf çıxmaq, məzlum bəndəni aldatmaq? Əzrayıl gülümsünür ki, səhvin var, ey bəni-Adəm, mən vədimə xilaf çıxmadım, səni də aldatmadım, yaxşı yadına sal, atan öldü, əmin öldü, qardaşların öldü, arvadın öldü, qonum-qonşun axirət dünyasına köçdü? Bəs xəbərdarlıq ayrı nə təhər olar?..

Sən heç sərvət əsiri olan qanadlı görmüsən, quş görmüsən? Cünki bir dəfə göy üzünə qalxıb qanad çalmaq, dövrə vurmaq, süzmək yerdəki bütün özülsüz, bünövrəsiz ötəri, fani, gəldi-gedər var-dövlətindən, cah-cəlaldan irəlidi... Ona görə adamlar həmişə qanad açıb uçmaq həsrətində olublar, di gəl, nəfslərinə də hakim kəsilə bilməyiblər, nə yardan doyublar, nə əldən qoyublar, bir əldə iki qarpız tutmaqla həlbət ki, yalnız dəmur qanadlının içində əyləşib uşmaq görüntüsü yaratmaq mümkündü. Sən qanadlana bilmirsən, havada qala bilmirsən, uça bilmirsən, səni bir anlığa göyə qaldırırlar, sonra da layiq olduğun yerə endirirlər. Sən özünəbənzərləri, Adəmlə Həvvadan törəyənləri aldada bilərsən, əstəğfürullah, tanrıyasa kələk gələ bilməzsən, Allah sənin, öz bəndəsinin kələkbazlığına kinayə ilə, istehza ilə qımışır. Sən yaradanı aldada bilsəydin, ölümsüz olardın, əbədi olardın, axirət əzabından, məhşər mizan-tərəzisindən qurtula bilərdin... Bu isə sənlik deyil, bunu heç vaxt bacarmaya-caqsan, ən azı, uçmaq istəyənlərə daş atıb vurmağının, uçanların qanadını qırmağının ucbatından... Sürünməyə məhkumlar, gözdən pərdə asanlar heç vaxt uça bilməz, çünki öz gözləri həqiqətən pərdəlidi. Hamını aldatmaq istəyənlər ən əvvəl özlərinə kələk gəlirlər, kim nə eləyirsə, özü-özünə eləyir. Yaxşılığı da, pisliyi də... Aş, qaşıq məsələsi bir yana, hansı daş-tərəzi ilə çəkiblərsə, onları da eləcə, eyni cür ölçəcəklər...

Yerdəki heyvanlara baxanda quşların bəxti gətirib, adamların bir elə əli çatmır onları incitməyə, tamam “qapazaltı” eləyə bilməyiblər qanadlıları. Özün bilirsən də, əvvəllər kəndimizdə bir dənə yiyəsiz göyərçin yox idi, indi il-ildən bəd gəlir, camaat özü ac-yalavacdı, hərə öz hayındadı, day göyərçin saxlayan yoxdu. Kimdi onlada dən alan? Ona görə yazıq quşlar sahibsizlikdən vəhşiləşərək artıb, yem, dən, su axtarışındadı bütün günü, yerə bir ovuc tum tökürsən, bir dəstə göyərçin qonur ətrafına, bir andaca dənələrin axırına çıxır... Allah kasıbçılığın üzünü qara eləsin, baisin, heyvanlara-insanlara zülm eləyənlərin də kökünü kəssin!..

Matdım-matdım, təəccüblə üzümə baxıb çaş-baş qalma ki, bayaqdan molla var-dövlət yığanları, nəfsinə hakim ola bilməyənləri lənətləyirdi, indi kasıbçı-lıqdan gileylənir. Mən nə dediyimi yaxşı bilirəm, hər şey qədərində yaxşıdı.

"Qədər" dünyanın ən böyük sözüdü. Yüz mənası var, yüz cürə yozulur. Bütün hallarda yerimək sürünməkdən, uçmaq yeriməkdən yaxşıdı. Uçanda mələkmisal olursan. Ona görə quşlar digər canlılardan, hətta insanlardan da irəlidi. Cünki qanadlarını qoruya biliblər, itirməyiblər...

Yaman əsnəyirsən, bu gün çox işləmisən yəqin Əlipaşanın xarabasında. Amma çalış, zəhmət haqqını bəri başdan al ondan, yoxsa o əclaf Əlipaşa çox cığal adamdı, hərliyib-fırlıyıb bir bəhanə ilə sənin pulunu kəsəcək. Yəqin bilməmiş olmazsan, çox adama pislik eləyib o. Allahsızın biridi, ömründə məscidə-zada ayaq basmaz, Allahı-tanrını tanıyan adam camaata pislik eləyə bilməz axı... Məndən olsa, elə şələşür adamdan uzaq olmağın məsləhətdi. Elə adamdan aldığın pulun da bərəkəti olmaz. İntəhası, yenə özün bilən yaxşıdı, uzaqdan məsləhət vermək asandı, hərə öz işinin çəmini daha yaxşı tapır...

Nə isə, zəmanədən giley, adamlardan şikayət qocalıq əlamətidi. Mən də day qocalmışam da, gərək üzürlü sayasan. Şoğərib xəstəlik yayılandan məscid bağlanıb, mən də qalmışam boş-bekar... Bekarçılıqdan gəlib səni salıram çənəmin altına, uzun-uzadı deyinib sənin başını xarab eləyirəm. Gülmə, gülmə, bilirəm ki, mənə candərdi qulaq asırsan. Day mən gedim... Sənin üçün yarpaq dolması gətirmişəm. Ürəyin istəyəndə qızdırıb yeyərsən. Amma qatıq gətirmək yadımdan çıxıb. Bura gəlib çatanda baxmışam ki, qızım dolmanın yanına balaca bir şüşədə qatıq qoymağı unudub. Zərər yoxdu, mən özüm də bura gəlməmişdən yemişəm, yaxşı dolmadı, nə təfavütü var, elə qatıqsız ötüşdürərsən gedər. Əslində, qatıq dolmanın dadını dəyişir, qoymur damaq ətin təamından ləzzət alsın...

# GÖZLƏMƏ

*Qoqolun xatirəsinə*

Gecə ev telefonu zəng çaldı, dəstəyi götürdüm. Köhnə dostum idi, nəsə ordan-burdan, narahat-narahat danışırdı. Məndən xeylaq böyük olsa da, bir-birimizi çoxdan tanıdığımızdan, aramızdakı yaş fərqi yavaş-yavaş əriyib getmişdi. Soruşmaq istəyirdim ki, nə olub, özü məsələni açdı.

– Başıma bir iş gəlib axı...

– Nə məsələdi?..

– Bizim o diş texniki Fərəc...

– Onun sənnən arası yoxdu axı...

– Yox idi, o dəfə zəng vurub könlümü aldı, dedi ki, eşitdim infarkt olmusan, bəs indi nə təhərsən? Bizim arvad mənə tapşırıb ki, o, yaxşı kişidi, hökmən get, ona baş çək...

– Lap yaxşı da... Sonra?..

– Sonrası budu ki, dilinin şirin yerinə salıb saqqızımı oğurladı, mən də düşdüm evin altındakı çayxanaya. Çayxanada gördüm Fərəcin yanında iki kişi də oturub. Salamlaşıb onların yanında əyləşən kimi diş texniki qayıtdı

ki, sizin işinizi bu kişi düzəldəcək... Yanımda oturan ağbaş məndən xəbər aldı ki, filan rayon məhkəməsində adamın var? Fərəc tez mənim əvəzimə cavab verdi ki, bu kişinin hər yerdə adamı var, neçə il yaxşı vəzifələrdə işləyib, hər yerə əli çatır...

– Bəs demədin ki, indi təqaüddəyəm, elə bir imkanım yoxdu?

– Yox, əclaf Fərəc ağzımı açmağa imkan vermirdi, elə bil mənim də dilimi-ağzımı bağlamışdılar... Axırda ağbaşın yanındakı xallı yerində qurcalanıb soruşdu ki, yaxşı, bəs, pulu kimə verək?.. Fərəc də tez-tələsik cavab verdi ki, pul yox, pul yox, pul məsələsi qalsın sonraya... Mən barmağımı dişləyib lapdan durdum ayağa, dedim ki, bağışlayın, ürəyim ağrıyır, gərək evə qayıdıb dərmanlarımı içəm. Sağollaşıb gəldim evə...

– Hə, noolsun? – heç nə başa düşmədim.

– O olsun ki... Burası evdə lapdan ağlıma gəldi... – izah elədi. – Birdən o Fərəc qurumsağ mənim adımdan pul alıb-eləyər e, o kişilərdən... Guya, mənə verəcək... Sonra yox yerdən böhtana düşərəm... Ola bilər?..

– Nə bilim, hər şey ola bilər, adamlara nə etibar...

– Mən də onu deyirəm də... Neçə gecədi fikirdən yata bilmirəm...

– Zəng vur, Fərəcin özündən xəbər al da, day niyə fikir eləyirsən?

– Zəng eləmişəm neçə kərə gecəyarısı, bircə balasının canına and ilib aman eləyir ki, mən o adamlardan pul-zad almamışam, qəti narahat olma, bu məsələ bağlanıb...

– Bəs nədən əndişəlisən?

– Deyirəm bəlkə yalan danışıb mənim başımın altına yastıq qoyur? Necə bilirsən, hə?..

– Nə deyim... Ümumi dostlarınızı yığ başına, məsələni birdəfəlik çürüt getsin.

– Onu da eləmişəm... Zahidi, Faiqi çağırıb zəng elətdirmişəm Fərəcə... Onlara da da and içib ki, vallah-billah, arada pul-para söhbəti olmayıb...

– Bəs?..

– Deyirəm bəlkə Fərəc onları da aldadır? O dəfə vəkil qonşuma da açdım məsələni. O da gülüb dedi ki, qəti narahat olma, sən nə pul almısan, nə də pul vermisən... Bəd ayaqda biz ölüb-eləməmişik ki, dağ kimi arxanda durmuşuq... Srağagün gördüm yuxum ərşə çəkilib, gecə saat ikini keçib, yığdım Fərəci ki, bu məsələni bir də soruşum, acıqlı-acıqlı qışqırdı ki, a kişi, sən nə qəliz adamsan, bir də mənə zəng vurma, qoy öldüyümüz yerdə ölək... Belə deyib sağolsuz, xudahafizsiz telefonu qoydu yerinə. İndi sən ağıllı adamsan, de görüm, bu işin axırı nə olacaq? Zahidlə Faiq deyir ki, narahat olma, bu iş bitib, heç bir problem-zad yoxdu. Bəs sən nə fikirdəsən?..

– Aradan nə qədər ötüb?

– Bir ay...

– Nə deyim... Hər şey ola bilər...

Köhnə dostumla təzəcə sağollaşıb dəstəyi yerinə qoymuşdum ki, oğlu zəng vurdu. Mənə möhkəm-möhkəm tapşırdı ki, sən Allah, bir də atama: "Hər şey ola bilər, demə, ürəyi xəstədi, ortada heç nə yox, kişinin başına bir

iş gələr, onsuz da neçə vaxtdı gecə-gündüz Fərəc məsələsi ilə evdə hamımızın başını xarab eləyib".

O gündən tez-tez zəng vururdu dostum mənə, həmişə də hərləyib-fırlayıb mətləb üstünə gələrdi, deyirdi ki, o işin də üstündən filan qədər keçib... Mən də birtəhər malalayıb qayıdırdım ki, boş şeydi, fikir vermə, yadından çıxart getsin. O da incik-incik inildəyirdi ki, necə fikir vermə, özümdən asılıdı bəyəm, ha başımı başqa şeylə qatmaq istəyirəm, zalım oğlu Fərəc gəlir gözümün qabağına...

Amma day çoxdandı zəng eləmir dostum, deyəsən günləri, ayları qarışdırıb, ya da bu işin başını birdəfəlik buraxıb... Mən də qəsdən onu itirib-axtarmıram ki, qoy tamam sağalıb özünə gəlsin...

# *QURBANLIQLAR*

***Qoyunlara***

Həzrəti İbrahim bıcağı oğlu İsmayılın boğazına dirəyəndə Allah göydən qoç göndərməsəydi, öz balasını qurban kəsmək adət halını alacaqdı. Get-gedə adamlar öz oğlunu qurban verməmək üçün çıxış yolu – çıxış yolu da yox, belə desəm daha düzgün olar, özünəsərfəli yollar – axtaracaqdılar, nəhayət, qərara gəlinəcəkdi ki, övladının əvəzinə pul-para ilə aldığın qul-qaravaşı da qurban kəsmək olar. Beləcə, varlılar satın aldıqları kasıbı qurban kəsəcəkdi, güclü zəifi xirtdəkləyəcəkdi Allah yolunda. Qan dizə çıxacaqdı, zülm ərşə dirənəcəkdi. İndikindən də zalım bir zamana gəlib çıxacaqdıq. Amma bütün hallarda – cəngəllik qanununa bənzər – kişi kimi bıçağı düşmənin, qurbanın boğazına çəkmək, üzünə gülə-gülə başını pambıqla kəsməkdən yaxşıdı. Yoxsa, bu zəmanədə arxanı söykəyib dincini almağa bir divar da tapmırsan. Hara dirənmək istəyirsən, uçulub tökülür.

Axır vaxtlar dediklərimi deyingənlik kimi yozma. Amma boynuma alıram ki, bu sinli vaxtımda mən day adamlardan əlimi üzmüşəm, qızım, nəvəm olmasa, hər şeydən üz döndərib qalan ömrümü tərki-dünya yaşayaram. Məxluqa qaynayıb qarışdıqca, bir də ayılırsan ki, elə ətrafdakıların tayı olmusan. Bir eləyənə beş cavab verməklə hara gedib çıxacaqsan? Yaxşıya yaxşı, pisə pis olmağı az-maz ağlı kəsən uşaq da bacarar, bəs onda, bizə göndərilən müqəddəs kitablardan nə öyrənmişik? Belə çıxır ki, heç nə... Adam olan yerdə nəfs var, qeylü-qal var, yoxsa qardaş qardaşın qanına bais olmazdı ki... Hərdən doğrudan-doğruya, əl-ayağımı uzadıb ölmək də yox e, ərimək, öz-özümə yox olub getmək, canımı qurtarmaq istəyirəm, fəqət yenə qarabaxt qızımla tifil nəvəm gəlib durur gözümün qabağında. "Lənət sənə, kor şeytan!" – deyirəm özlüyümdə

çarəsiz-çarəsiz. Heç bilmirəm mən öləndən sonra o yazıqlar neyləyəcək. Allahsız olsa da, bizim ayıbımızı örtən elə Şura hökuməti imiş. İndi bütün çatlaqlar çıxıb üzə. Heç vecinə alan da yoxdu. Üzümə mərhəmətlə baxma, mənə yazığın gəlməsin, ağlayıb-eləmirəm, ancaq day qocalmışam da, gözlərim öz-özünə yaşarır. Qocalıq da bir şey deyil, başına qulluq eləyirsən dalın sözünə baxmır, dalına baxırsan başın əldən gedir, heç yerin ağrımayandasa, bir anlığa elə bilirsən ki, day sağ deyilsən, ölmüsən...

İsmayıl qurbanına gəlincə, çanaq yenə dilsiz-ağızsız heyvanın – qoçların, qoyunların – başında sındı. İkiayaqlılar bu dəfə də sudan quru çıxdılar. Hər halda, bu məsələdəki bəzi məqamlar mənə qaranlıqdı. Bu necə Allah yolunda qurban eləməkdi ki, axırda elə qurban kəsən özü kəsdiyini ləzzətlə həzmi-rabedən keçirir? Özümüzü cəmi yaradılmışların ən mükəmməli hesab eləyib adını da qoyuruq ki, heyvanların, qoyun-quzunun ağlı yoxdu. Heyvanatın ağlı-süuru var, çarəsi yoxdu.

Günlərin birində çoban Barat gəldi yanıma ki, ay molla, sən bizim ağsaqqalımızsan – hərçənd Barat yaşda məndən böyükdü – dünyagörmüş adamsan, bir çarə qıl... Mənim iki qoçum var, biri ağdı, biri qara, bu heyvanlar doğulandan, quzu vaxtlarından bir-birindən ayrılmayıb. Birinə daş dəyəndə, o biri həngamə qoparıb. Neçə ilin çobanıyam, belə şey görməmişəm. On gün qabaq bezara gəlib istədim ki, qara qoçu kəsim. Dedim həm ətini sataram, həm də ağ qoçun fironluğuna son qoyaram. Əlimdə qəmə elə heyvanı basmarlamaq istəyirdim ki, ağ qoç arxadan dalıma bir kəllə vurdu, üzü üstə dəydim yerə. Az qaldı ombam çıxa, hələ də axsaya-axsaya gəzirəm. Amma içimdə ləzzət eləyir mənə dilsiz-ağızsız heyvanların tərəfkeşliyi, necə deyim e, dostluğu, qardaşlığı... İndi sən özün bir məsləhət ver, mən o dəliyə dönmüş heyvanlarla neyləyim? Əlim də gəlmir e, onları incitməyə, yekəliyimə baxma, ürəym yuxadı...

Özün bilirsən axı, mən də kövrək adamam, çoban Baratı qorxutdum ki, nəbadə o qoçları kəsəsən, bu bir ilahi işarədi, yoxsa sənin ailənə, arvad-uşağına böyük bədbəxtlik üz verə bilər. İstəsən, ikisini də bir adama satarsan ki, heyvanlar ayrılmasın. Fəqət ən yaxşısı budu ki, Allah rizası üçün o qoçlara toxunmayasan, nə qədər ki, o heyvanlar sağdı, bolluca ruzi-bərəkət sənin başından töküləcək, xəta-bəladan da uzaq olacaqsan... Həm də ki, o iki qoçla sən nə dövlətli olacaqsan, nə kasıb. Bizlər nəkarəyik, verən də o gözəgörünməzdi, alan da...

Deyirəm, heç qoyun olmaq da, cümlə-aləmdə baş verənləri vecinə almayıb tapdığından otlaya-otlaya başıaşağı gün keçirtmək də bəd deyil, xaliqin yaratdığına pis deməyin özü küfrdü, günahdı. Bir şərtlə ki, qurbanlıq olmayasan, başın bıçaq altına düşməsin...

Səd heyif ki, bu da qoyunlardan asılı deyil...

*HƏCƏR*



# ŞEŞ QOŞA

♦ *Hekayə*

Bayram günlərinin bitməsinə hələ iki gün qalıb. Obaşdan oyanıb, inkir-minkir kimi kəsib başımın üstünü sayır:

– Kombi xarab olub, usta çağır. Gör özün düzəldə bilsən, lap yaxşı, usta pulu cibimizdə qalar. Bazara da getmək lazımdır. Evdə mer-meyvə, ərzaq qurtarıb, uşaqlar yazıqdı, arıq şeydilər, meyvəsiz qalmasınlar. Toyuq-cücənin də dəni bitib. Nağının "pekap"ıynan get, iki "meşok" al, gətir. Evin qabağındakı taxta-tuxtanı, köhnə şaxları çəpərin yanına daşımaq lazımdır. Bir aydır, tökülüb qalıb orda, əl-ayağımıza dolaşır. Hinduşkaları da bazara göndər, Tamaşa xala satacaq, özünə demişəm, qırx manatdan aşağı vermə. Piy-palan saxlamışam, çimyağdır. Hərəsinin bir ləyən əti olur. O itin də zincirinin yerini dəyişmək lazımdır, arxa tərəfdə tutdan aralı – çəpərin yanına bağla. Mən də bostanda işləyəcəm. Bir dünya yır-yığış işi var. Allah haqqı, ölürəm, hamısını eliyə bilmirəm. Bu neçə günü bir az iş-gücə əl at, nə olar... Mən də canam də...

Az qaldım dəli olam. Siyahının uzunluğu gözümü qaraldtdı. Bu nədi e? Rayondan canım qurtarmadı də. Heyif deyilmi şəhər… Əli-ayağı quru, get işə, gəl evə, yuyun, ye, yat. Səhər dur, arın-arxayın yenə get işə. Buraya çatanda düşüncələrim haçalandı. Hər gün beləmi? Eyni günlər adamı yormazmı? Şəhərin teatrı, konsertləri, gəzintisi də var axı. Yenə hövsələm qaçdı. Rayona neçə dəfə artistlər gəlib. Konsertə getməkdən ötrü arvad ilan dili çıxarıb, ayağımı da qoymamışam. Bir dünya pul verim, nədi-nədi, gedib oxuyanı canlı görəcəm. Hər gün televizorda göstərirlər də.

Durub geyindim. Həyətdə toyuq-cücənin, hinduşkaların səsi bir-birinə qarışmışdı. Uşaqlar görünmürdü. Görünür, anaları ikisini də iş dalınca buyurub. Bu idarə işi olmasaydı, neyliyərdim görən? Noolsun e, pulu azdır. Ev onsuz da ötüşür birtəhər. Nə isə, çarə, çıxış yolu axtarmağa başladım. Balkondan baxıb həyətdə o yan-bu yana iş dalınca yüyürən arvadımı görəndə dərindən nəfəs alıb "puff" edərək geri çəkildim. Elə işgüzar görkəmi var ki zalım qızının. Görən, bu, anasının qarnında doqquz ayı necə dözüb? Gərək soruşam, arvad neçə aylıq doğub bunu. Bu vurhavurda ağlıma gələn fikir lap mənasız göründü. Köhnə kreslonun üstünə çöküb bir az əsnədim, gərnəşdim. Könülsüz-könülsüz qalxıb əl-üzümü yumağa getdim. Hamamın qapısını açanda gördüm, dəstək yerində durmur, laxlayır. Bu da bu yandan çıxdı. İndicə başlayacaq: "Qapının

dəstəyi qırılıb, düzəlt". Bir dəstəkdən ötrü bir ay danışacaq. Bu xarabada niyə hər şey qırılır-tökülür, bilmirəm. Geri qayıdıb vintaçanı götürdüm, boşalmış şrupları bir-bir bərkitdim. Dəstək kip oturdu yerinə. Elə sevindim. Həvəslə yuyunmağa başladım. Boz-bulanıq güzgüdə sifətimə baxdım. Aydın görünmürdü. İdarədən çıxanda yolum çilçıraq mağazasının qarşısından düşür. Böyük güzgüsü var. Hərdən girib elə-belə baxır, üzümə diqqət edirəm. Orda sifətimin bütün cizgiləri aydın görünür. Zaman keçdikcə üzümdə artan qırışların, saçıma düşən dənin artdığını görəndə içimi qüssə bürüyür. Hamamın güzgüsündə bunları görə bilmədiyim üçün qanım qaralmır. Yeni güzgü almaq ağlıma da gəlməz.

Balkona keçib stolun üstünə nəzər saldım. Hər şey səliqəsiz halda dar-dağınıq tökülüb qalmışdı. Şənbə, bazar günləri də belə olur. Obaşdan oyanıb çaylarını içir, iş dalınca gedirlər. Mən hamıdan axıra qalıram. Mahirə çaydan-çaynikin üstünü dəsmalla bərk-bərk örtür ki, soyumasın. Bilir ki, isitməyə ərinəcəm, soyuq içəcəm. Onun qayğma qalmasına, çayı isti saxlamasına həmişə sevinirəm. Özümə çay süzüb stəkana üç qaşıq "pesok" tökürəm, dəli kimi çaqqaçaqla qarışdırmağa başlayıram. Bu, məndə vərdişdir. Mahirə həmişə danışır: "Hər işdə tənbəl, astagəl adamsan, çayı qarışdıranda niyə dəliliyin tutur, bilmirəm". Onun bişirdiyi yuxanın arasına pendir, yağ qoyub dürməkləyirəm. Pendir yağdan fərqlənmir heç. Elə ləzzətlidir. Görən, hardan, kimdən alıb bunu? Yadıma düşdü, keçən ay yalvardı ki, işdən gələndə yolüstü dön Burnel Əhmədgilə, pendir demişəm, onu da götür. Dönmədim. Pulum az idi, ayın sonuna da hələ çox vardı. Dönsəydim, gərək pulunu da verəydim. Əhmədin arvadından da zəhləm gedir. Pazaq qoyun kimi elə arıqdır. Danışanda da ağzının cəvcələrini tüpürcək basır. Bunu düşünəndə pendirdən iyrəndim. Dürməyi bir kənara qoymaq istədim, ancaq Mahirə deyinməsin deyə qırıqlayıb həyətdəki toyuqlara atdım. Ac hinduşkalar cəld tərpənib bir uduma yuxa qırıntılarını uddular, toyuqlar ora-bura şığıyıb qalan kiçik qırıntıları dənlədilər.

Dürməyi təkcə yağla tutub şirin çayımı iki-üç uduma başıma çəkdim. Geyinib tənbəl-tənbəl həyətə düşdüm. Arvadımın səsi evin arxasından gəlirdi. Deyəsən, Turanı – böyük oğlumu danlayırdı:

– Dədən kimi nataraz iş tutma. Gül kimi qab düzəltmişəm. Xurmaları elə qopar ki, yerə düşməsin. Bir-bir yığ səbətə.

Uşaq bir naqolay iş tutanda mənə oxşadır, yaxşı işlərini isə özünə. Səhər sadaladığı işlər gözümə dururdu. Evin arxasına keçib soruşmaq istədim ki, hansından başlayım. Ayağım həyətə tökülmüş köhnə taxta-tuxtaya, quru şax-şəvələ ilişdi, büdrəyib valaylamağa başladım. Yıxılmamağa çalışaraq qollarımla havanı yarır, birtəhər dayanırdım. Ayaqlarımı qoymağa rahat yer tapa bilmədiyimdən birdən taxta-tuxtanın üstünə yıxıldım. Dik başıyuxarı dayanan mismar qolumu üzüaşağı cızdı. Birtəhər ayağa qalxaraq əlimə doğru axan qanı silib taxta yiyəsinin yeddi arxa dönənini yad elədim. Səsimə Mahirə evin arxasından qaçaraq gəldi. Qolumun qanını görüb həyəcanla:

– Booy, sən niyə durduğun yerdə yıxılırsan? Gör qolunu nə günə qoydun. Gərək yod-zad vuraq, çirkləyər yoxsa.

Cəld evə tərəf qaçıb tappatupla pillələri çıxdı. İki dəqiqə keçməmiş, pəncərədən boylanıb:

– Qafar, yod yoxdu e, qurtarıb. Turana pul ver, gedib aptekdən alsın, – dedi.

Əlimi cibimə salmaq istəyəndə birdən duruxdum. Aptek uzaqdır, bəlkə, gedib Tahirədən – yaxınlıqda yaşayan tibb bacısından alsın, noolacaq ki. Aşağıdan yuxarı səsləndim:

– Az, qoy getsin, Tahirədən alsın. Onlarda həmişə ehtiyat hər şey olur.

Söz ağzımdan çıxan kimi dalağım sancdı. Mahirə Tahirəni çox qısqanır. Adı gələndə cin atına minir. Toyumuzdan bir xeyli sonra orta məktəbdə Tahirəni sevdiyimi sinif yoldaşımdan eşitmişdi. Neçə gün günümü göy əskiyə düydü: "Adım onun adına oxşadığı üçün mənimlə evlənmisən. Mahirə, Tahirə – bircə hərf fərqi var". İndi hərdən "Mahirə" də deyəndə ürəyim üzülür ki, birdən çaşıb "Tahirə" deyərəm.

O, pillələri düşdü. Yanıma gəlib gözünü qıyaraq üzümə baxdı, sakit və ciddi səslə:

– Hə, nədi, Tahirə düşdü yadına yenə? Xalxın avadına gedib nə deyəcək uşaq? Deyəcək ki, dədəmin "yenə yada düşdü bizim sənəmlər"i tutub, hə? Aptek dura-dura uşağı camaatın evinə niyə göndərirsən? Tahirənin də adını elə əziz-əziz çəkirsən ki, elə bil pişik sığallayırsan. Utanmaz! – dedi.

Onun birdən-birə qəzəblənməyi, Tahirəni qısqanmağı beynimin qurdlarını tərpətdi. Qolum da bərk acışırdı, bu da bir tərəfdən. Əlimi atıb yerdən bir şax qırığı götürüb üstünə cumdum:

– Onun adı çəkiləndə niyə ölürsən? Min ilin söhbətini utanmırsan, təzələyirsən? Mənə yod lazımdır, Tahirə yox. Onu görmək istəsəydim, elə özüm gedib istəyərdim də, ta uşağı niyə göndərirdim.

Üstünə qıcanmağım, əlimdə çubuğu bərk sıxmağım Mahirəni lap təbdən çxardı. Bildim ki, qiyamət qopacaq. Döyüşə hazır vəziyyət aldım.

– Hə, gəl, döy, döy məni. Kimin üstündə? Bir qatır şortunun üstündə? Gərək onu alaydın, qalaydın oğul-uşaqsız, onda deyəydin Ta-hi-rəə, – bunu deyəndə ağzını elə əydi, sifətini bir günə saldı ki, bilmədim güləm, ya hirslənəm. – Yadından çıxmır da, zor deyil ki, çıxmır. Barmağımın onunu da şam eləyib tutam gözünə, yenə qədrim bilinmir. Hələ bir ağac götürüb üstümə qıjanır. Nankorun biri nankor.

Səhər tezdən onsuz da qanım qaraydı. Bu səbəbsiz dava-şava da bir tərəfdən. Düşündüm, görən, övladsız Tahirə ilə əri xoşbəxtdir, ya mən uşaqlarla, arvadımla xoşbəxtəm? Görən, hansımız taledən daha çox yarımışıq? Eşitmişdim, əri onu yağ içində böyrək kimi saxlayır, ancaq arvadağız adamdır. Tahirə öz bildiyini eləyir, ər də ev-eşikdə qulluqçu kimidir. Qaynanası nə qədər çalışıb, Tahirəni boşada bilməyib. Bizdən bir az yuxarı gözəl ev tikdirib köçdülər ora. Camaat daha Tahirənin əməllərinə öyrəşib, tənə-zad da eləmirlər. Elə-belə, xısın-xısın danışırlar, küçədə-bacada görəndə də kamali-ədəblə salamını alır, halını soruşurlar. Əlqərəz, əlimdəki şaxı yerdəkilərin üstünə vızıldatdım. Evə qalxmaq istəyəndə Mahirə arxamca:

– Hara gedirsən? Bunları daşı, tök evin dalında çəpərin dibinə. Çörək bişirəndə lazım olur. Odun tapılır bu xarabada? Yaxşı ki, papam ordan-burdan

tapıb gətirir, – deyə qışqırdı. Sonra qeyri-ixtiyari şaxın lap böyüyündən hirslə yapışıb sürüməyə başladı.

Əlimi yelləyib evə qalxdım. Getməyə yer axtarırdım. Açıq pəncərədən Mahirənin səsi gəlirdi. Ötəri baxdım, həmin böyük budağı evin arxasına tərəf sürüyür, o birilər də ilişib şaxa, hamısını çəkib aparırdı. Arıqca bir şeydir. Hirslənəndə elə güclü olur, məəttəl qalıram. Bir dəfə divanı təmir etməyə usta gəlmişdi. Nə qədər çalışdıq, divanı küncdən bəri çəkə bilmədik. Mahirə elə hey deyir, "jurnalnı"nı bəri çək, sonra divanı qaldırın. Mən də fikir vermirəm. Birdən elə hirslə cumdu, "jurnalnı"nı bir tərəfə itələyib ikiəlli yapışdı divandan, bayaqdan iki kişinin tərpədə bilmədiyi divanı çəkib qoydu evin ortasına. Ustanın gözü kəlləsinə çıxdı. Arvadımın qırımını görüb mən də dinmədim, ancaq matım-qutum qurumuşdu. O vaxtdan bildim ki, bu bu qız hislənəndə necə güclü olur. İndi də yarım saat keçməmiş həyətdəki bütün taxta-tuxtanı, şax-şəvəli deyinə-deyinə daşıyıb həyəti təmizlədi. Birdən xatırladım ki, işin biri qurtardı, qaldı o birilər. Sevindim. Bu dəm mobil telefonun zəngi məni fikirdən ayırdı. Ekranda iş yoldaşım Əlabbasın adını görəndə srağagünkü söhbətimiz yadıma düşdü. Açdım:

– Ə, hardasan? O günü demədim, "Söyüdlü kafe"də nərd atmağa yığışacağıq? Dur, tərpən, hamı gəlib, təkcə sən yoxsan, – dedi.

"Yaxşı", – deyib telefonu söndürdüm. Bir həftəydi, çimmirdim. Hamama keçib kranı açdım, amma su isinmədi ki, isinmədi. Hə, axı səhər deyirdi, kombi xarab olub. Geyinib bayıra çıxdım. Usta çağırmağa nə qədər pul lazımdı. A səni zəhrimara qalasan, hara tərpənirsən, pul...

Həyətə düşüb Mahirəni səslədim:

– Az, bu hinduşkların babatlarını seç, özüm aparıb satacam.

O, bostandan qaçaraq gədi. Cücüləyb hinduşka-toyuğun hamısını həyətə yığdı. Bir an keçməmiş səkkiz hinduşkanın ayağını bağlayıb yan-yana yıxdı. Qaldı Nağının furqonlu "Moskviç"ini çağırıb quşları bazara aparmaq. Zəng etmək istəyəndə yadıma düşdü ki, Nağının oğluyla ağızlaşmışam. Telefonu oğlu götürsə, neyləyəcəm. Mobil telefonla da zəng vursam, kişi zənəyin biridir, bir saat çənəsinin altına salacaq, bütün konturum zay olacaq. Yenə Mahirəni səslədim:

– Konturum qurtarıb, qalx evə, Nağıya zəng vur, gəlsin qapıya.

O, sevincək pilləsləri quş kimi qalxdı. On dəqiqə keçməmiş Nağının "pekap"ı qapıda tırıldayırdı. Hinduşkaları maşına yığanda Mahirə yenə bərk-bərk tapşırdı:

– Sən Allah, özün satsan, əlli-altmış manatdan ucuz vermə ha. Tamaşaya da versən, pulunu nağd al, sonra çəm-xəm eləyəcək, uzadacaq. Alınca zəhləmiz töküləcək.

Qaş-qabağımı töküb işgüzar görkəm alaraq:

– Az, yaxşı ta, bildik. Get işinlə məşğul ol, – dedim.

Yol uzunu dinmədim ki, Nağıya "pas ötür"məyim, danışıb başımı xarab eləməsin. Zalım oğlu danışanda hər kəlməbaşı "zad" deyir, hövsələdən çıxıram. Bir xasiyyəti də var, maşın kimin evinin yanından keçsə, o adam haqqında mütləq bir "istoriya" danışmalıdır. Yeni tikilmiş iki-üç mərtəbəli evləri görəndə yenə qəfildən:

– Ə, sən öl, o zad özünə bir zad tikdirib, adam baxanda zadı açıq qalır, – dedi.

“Zad”ın birini qismən (ev), üçüncünü tam (ağzı) başa düşdüm, birinci zad isə heç aydın olmadı. Sual verməkdən özümü güclə saxladım. Maşın qayınatası Məhəmmədəli kişinin evinin yanından keçəndə başladı:

– Sən öl, zamana xarabdı. Camaat öz zadını görmür, başqasına ağıl öyrədir. Bir qələtim vardı. O günü arvada çatdırıblar, evdə zaddı-qırğındı. Qaynatam arvadıynan gəlib haya. Qaynanam elə hökküldüyür, az qalır, məni öldürə. Arvadım da mər-mər məliyir, iraq uşaqların canından, elə bil zadı ölüb. Qaynanam bir xeyli danışdı, danladı, əsəbimdən ölürəm. Kişi də, zaddı, mısıb durub bir kənarda, dinmir. Birdən arvad cumdu ərinin üstünə ki, sən niyə dinmirsən, bir söz də sən de də, dilni niyə udubsan? Kişi mənə qayıdasan ki, Nağı, sən bu yaşında həyatının ən böyük bağışlanmaz zadını-səhvini eliyibsən. Odlanmadımmı. Dedim:

– Ə, nə qoqezdənirsən e, zaddı, sən guya uşaqsan elə? Yadındadı, o ili gölün qırağında qalmışdın lümlüt? Rus qızlarını aparıb yeyib-içmişdiniz, sonra da giribsən gölə çimməyə, qızlar bütün paltarlarını, pul-paranı götürüb getmişdilər. Birinin zadıynan zəng vurdun, pal-paltar gətirib səni ordan qurtardım. İndi maa deyirsən, bağışlanmaz səhv eliyibsən?

Booy, bunu demdəmmi, arvadım da, qaynanam da məni boşlayıb cumdular kişinin üstünə. Didiyinu çıxardılar.

Yaxşı ki, Nağı bununla da mövzunu bağladı, ta gerisini gətirmədi. Biz bazara çatanda Əlabbas yenə zəng elədi:

– Qafar, hardasan? Bayaqdan gözlüyürük, gəl çıx də.

Ürəyim atlandı. Bildim ki, oyunun qızğın vaxtıdır. Hinduşkaları lap ucuz versəm də, yenə axşama ancaq satardım. Tamaşanı axtarıb tapdım. Piştaxtanın dalında iki qadınla laqqırtı vururdu. Məni görən kimi yaxına gəlib:

– Mahirə demişdi. Neçəsini gətirmisən? Baxım görüm nətəərdi, babatdılarmı? – deyib maşına yaxınlaşdı. Hinduşkaların birini götürüb əlində samladı, döşünü-budunu əlləyib köklüyünü yoxladı və:

– Bəh-bəh, pərmuda saxlayıb, qəşəngdir, – dedi, – elə dediyi qiymətə də götürəcəm. Daşı, gətir, piştaxtanın böyründə “setka”lı qəfəslər var, yığaq ora.

Hinduşkaları daşıdım yanına, o da ayaqlarını açıb saldı qəfəsə. Sonra əlini xalatının cibinə salıb bir dəstə pul çıxardı. Üç yüz iyirmi manatımı verib:

– Axşama “Söyüdlü kafe”də yığışasıyıq. Könlün istəsə, gəl. Qiyamət olacaq, - dedi və dəyişmiş baxışlarıyla üzümə baxıb sırtıq-sırtıq elə pis irişdi ki, ətim ürpəşdi. Heç nə demədim, pulumu cibimə qoyub uça-uça “Söyüdlü kafe”yə qaçdım. Nərdin şaqqıltısı, “şeş-beş”, “dütdülü”, “çaharlar”, “yeganədü” səsləri uzaqdan eşidilirdi. Dörd nəfərdilər, mənimlə olduq beş. Bir neçə tas çırpdıq, sonuncu oyunu uduzan qonaqlıq verməliydi. Finala mənimlə bizim şöbənin müdiri Firidun qalmışdıq:

– Fedya, görək Marsa kim uçacaq, sən, ya mən? – dedim. – Səni “pramoy” raketlə göndərim, bir get gör, oralarda nə var, nə yox, – deyib nərdi həvəslə özümə tərəf çəkdim.

Otuz beş yaşa çatsa da, hələ evlənməyən Firidun zərləri qoşalayıb atdı. Oyun davam edir, daşlar sıra ilə qarşımı kəsdikcə hövsələdən çıxırdım. Bir neçə ələ istədiyimi versəydi, vəziyyətdən çıxa bilərdim. Az qalırdım zərləri qoşalayıb taxtanın üstünə qoyam... Ürəyimdə: "A Tanrı, bircə şeş-qoşa versənə. Sən Allahlığın, bircə dəfə, bircə dəfə şeş-qoşa… Di hə, gözünə dönüm, nooldu axı, ver görək…", – deyə Allaha yalvarırdım. Aha, budur, Firidun Marsa məni göndərdi. Dilim-ağzım qurudu. Di gəl beş nəfərin qonaqlığını ver görüm, necə verirsən. Həmişə özümə söz verirəm, yekə-yekə danışmayım, olmur. Əlimi cibimdəki üç yüz iyirmi manatın üstünə çəkib sığalladım.

Əlabbas qanımın qaraldığını görüb qulağıma pıçıldadı:

– Ə, qorxma, uşaqlar bilməsin, araq məndən. Çalışacam, çox uzağa getməsinlər.

Bir az toxdadım, amma nəsə özümü bir cür hiss elədim.

– Bu, kişilikdən deyil. Uduzmuşam, özüm də ödəyəcəm. İşin olmasın, – dedim.

Xülasə, nərdi ortadan yığışdırdılar. Yemək və salatlar, kompotlar stolun üstünə düzüldükcə cibimdəki pulların arıqlayıb nazildiyini hiss eləyirdim. Araqların ağzı açıldı, qədəhlər dolub-boşaldı, sağlıqlar deyildi. Hamı bir-birini tərifləyir, marçamarç öpür, məclis uzanırdı. Başım dumanlı olsa da, hələ sayıqlığımı itirməmişdim. İstəyirdim, toyuqlara dən almağa, hamamı düzəltdirməyə pul qalsın. Bir az da Mahirəyə qalsın, bəlkə, nəyəsə ehtiyacı var. Birdən Mahirəyə elə yazığım gəldi, başladım hönkür-hönkür ağlamağa. Yoldaşların ikisi artıq getmişdi, mənimlə üzbəüz outran Fərrux da (iş yoldaşım) qoşuldu mənə. O niyə ağlayırdı, bilmədim. Pulları çıxarıb Əlabbasa verdim, dedim, get, hesabı ver. Bir azdan Əlabbas əlində bükülmüş pulla geri qayıdıb qulağıma pıçıldadı:

– Arağın pulunu özüm verdim. Tut arağıydı. Tamaşa özü çəkir, gətirib burda satdırır. Köpəkqızının çəkdiyi araqdan olmaz da. Gördün, nə gedirdi. Al, bu da yüz doxsan manatın.

Pulu bürmələyib soxdum cibimə. Ayağa qalxıb qapıdan çıxmaq istəyəndə Tamaşanı bər-bəzəkli, üzündə bir kilo boya kafenin arxa tərəfinə keçdiyini gördüm. Əlabbasa:

– Bir də buralara ayağımı qoymaram. Deyəsən, burda pis işlərlə məşğul olurlar,- dedim. O qızarıb bir söz demədi. Dükanların bağlanan vaxtıydı, özümü çatdırmalıydım. Əvvəlcə, iki-üç kisə taxıl alamağı fikirləşmişdim, amma indi bir kisə alıb Nağıya zəng vurdum:

– Gəl bazara – taxıl-zad satılan tərəfə. Gözlüyürəm, – dedim.

Nağı elə bazara yaxınmış, beş dəqiqə keçməmiş özünü yetirdi. Köməkləşib kisəni maşına qaldırdıq. Araq məni bərk tutmuşdu, evə çatana kimi mürgülədim. Amma arada Nağının "zad"la dolu söhbətini qulağım çalırdı. Darvazaya çatanda yükü yerə düşürüb qayıtdı. Evin aşağı mərtəbəsindən anbar kimi istifadə edirik, dəni ora çatdırmalıydım. Səndələyə-səndələyə kisəni anbara tərəf sürüdüm. İt hənirimi alıb atılıb-düşməyə, yaltaq-yaltaq zingildəməyə başladı. Kisəni bir az sürüyəndən sonra dincəlmək üçün dayandım, itin yanına gedib başını sığalladım, böyür-başını dürtmələdim. İçdiyimi hiss eləyən heyvan birdən ciddiləşdi. Görünür, həm də yumruqlarım ağrıtdığı üçün zin-

gildəməyinə peşman olmuşdu. Yuvasına qaçmaq istəyəndə zinciri ayağıma dolaşdı, dəydim yerə. Əllərim, üst-başım itin zibilinə bulaşdı. Ödüm ağzıma gəldi, yediklərimin hamısını qaytardım. Əllərimi ota, torpağa, çəpərin taxtasına sürtüb təmizlədim, qayıdaraq kisəni sürüməyə başladım. Tez çəkib aparmaq, qalxıb yuyunmaq istəyirdim. Kisə yerdə nəyəsə ilişdi. Qəfildən çəkəndə bir cırıltı səsi gədi, deyəsən, cırılmışdı. Böyrü üstə yıxıb bu biri üzünə döndərdim, anbara qədər ölüm-zülüm apardım. Birdən bərkdən qışqırdım:

– Ma- hi- rəə!!

O, pəncərədən boylanıb tez də geri çəkildi, bir dəqiqə keçməmiş yanımda bitdi:

– Oy, Allah, sən saxla, noolub, Qafar? Niyə bu gündəsən? – sonra araq iyini alıb, - Allah bəlanı verməsin, bu nədir belə, harda içmisən? – dedi. – Üstün-başın toz torpağın içində, yıxılmısan? Hinduşkaların pulunu neylədin bəs?

Əlimi qaldırıb çırtma ilə boğazıma vurdum:

– Hinduşkaların pulu getdi içəri şəhərə, bildin, içəri şəhərə... Əlabbas yaxşı oğlandır, arağın pulunu özü verdi, bir kəlmə dinmədim, bircə kəlmə də. Bilirsən niyə, Mahirə, ona görə dinmədim ki, puldan uşaqlara bazarlığa, sənə də qalsın, bir də toyuq-cücəyə taxıl alım, kombini düzəltdirim. Bildin, bir kəlmə dinmədim ha, bax, nərddə uduzduğum qonaqlığın araq pulunu Əlabbas verəndə sənə görə din-mə-dimm. Andıra qalmış bircə əl şeş-qoşa versəydi, uduzmazdım. Bircə əl... Vermədi də, neyliyim... Əlini sal, cibimdə qalan pulları götür, pis gündəyəm, əlimi vurmayım o pula.

Mahirə yazıq-yazıq üzümə baxdı, sonra pulu yavaşca çıxardı. Cırılmış kisədən anbaracan iz salmış taxılı görəndə:

– Deyəsən, toyuqların sabahkı dənini indidən səpmisən, – deyə gülümsədi, – Səhər hindən çıxan kimi daraşıb dənləyəcəklər, ta mənə dən səpməyə ehtiyac qalmayacaq. Gəl, çıx yuxarı, yuyun, çirk-pasını tök görək.

Mahirənin bu xasiyyətindən xoşum gəlir, içdiyimi başıma qaxmaz, dava-dalaş salmaz. Əslində çox içən deyiləm, ayda-sayanda bir dəfə ola, ya olmaya. İçəndə də gəlib uşaqlarla, Mahirəylə mazaqlaşar, zarafat edərəm. Pillələri valaylana-valaylana qalxıb hamama girdim. Əvvəlcə sərin suyla, sonra ılıq suyla çimib rahatlandım. Birdən yadıma düşdü, axı kombi işləmirdi, su necə isinib. Hamamdan çıxan kimi soruşdum:

– Mahirə, kombi işləmirdi axı, kim düzəldib bunu?

– Özüm usta çağırdım, düzəltdi, ta səni gözləmədim. Pulunu da qardaşım Rusetdən göndərmişdi, sağ olsun, günorta qaçaraq gedib poçtdan aldım, ondan verdim. Gəl, heç olmasa bir stəkan rəngli çay iç, başın ayılsın.

Çarpayıya uzanıb:

– İçmirəm, – dedim, – gəl otur yanımda, qoy sənə baxım, ürəyim sakitləşsin.

O, yavaşca çarpayının qırağında çökdü. Əllərindən tutub dodaqlarıma apardım:

– Sən mənim şeş-qoşamsan, Mahirə, – deyə pıçıldadım.

*Bayram İSGƏNDƏRLİ*



# TORPAĞA ƏKİLƏN DUYĞULAR

♦ *Hekayə*

Qoca yazıçı (bundan sonra ona qoca yazıçı yox, sadəcə, yazıçı deyəcəyəm) əlindəki qələmi o yan-bu yana çox fırlatdı, çox sığalladı; xeyri olmadı. O, yazmaq istəyirdi; sevgidən, məhəbbətdən, sədaqətdən: dünyada nə qədər yaxşı şey varsa, ondan. Bir daha bəyan etmək istəyirdi ki, bu aləm gözəldir, çox gözəl; bol neməti var. Allah bu gözəlliyi, bu bol neməti insan üçün yaradıb. Yaradıb ki, insan bu gözəlliyi qorusun, ondan zövq alsın, bol nemətdən istifadə edib o tək Allaha şükürlər etsin. Bir sözlə, ürəyi dolu idi; yazmaq istəyirdi.

Ağlından keçənlərin ömrü bir an da olmurdu; başqa bir fikir onu əvəzləyirdi; fikirlər, düşüncələr qorxmuş sərçələr kimi pərən-pərən olurdular. Yazıçı xam ovçu kimi, hara və necə atəş açacağını bilmirdi; heç vaxt belə vəziyyətə düşməmişdi; oturmuşdu, qələmi əlinə almışdı, sözlər muncuq kimi ağ vərəqdə yan-yana düzülmüşdü, özünün dediyi kimi, üzünə gülümsəmişdi. Sözlərin gülümsəməsindən ürəyi rahatlanmışdı; deməli, alınıb; sözlər çiçək təkin rayihəlidir, qoxuludur...

...Sözlər yenə çiçək kimi rayihəli, qoxuluydular, sevgililərin pıçıltılarıtək şirin, dadlı, cazibədar idilər... Lakin yazıçı onları sıraya düzə bimirdi, sözlər inadkar uşaq kimi üzə durmuşdular. Ürəyi sıxıldı, gözləri doldu, yaşının bu çağında ağlamaq istədi. Vaz keçdi bundan; axı, heç vaxt belə eləməmişdi; görünür, yaş öz işini görmüşdü – yaddaş həmin yaddaş deyildi artıq... Taleyi ilə razılaşdı; deməli, daha yazmayacaqdı. – “Yox, yox” – dedi, – yaddaşım məni belə asanlıqla tərk edə bilməz; bir az hava alıb qayıdım.

Həyətə çıxdı; yazın gözəl çağıydı – qızılgüllər qönçələnmişdi, budur, budur, açacaq, ərik ağaclarının çağalaları tam açılmamış yarpaqların arasından boylanır, azacıq qızartıları var. Gilənar ağacları çiçəklərini yenicə sovub, balaca turş alçalar diqqəti cəlb edir, adamın ağzını sulandırır, heyvalar çiçəkləyib. Yaxınlaşıb heyva ağacının budağını əydi; ağ, içi bir qədər qırmızıya çalan çiçəklərin ləçəklərinə baxdı. Saydı; hər çiçəkdə altı ləçək var. – Bax e, indiyədək heç buna fikir verməmişəm. – Maraq onu götürdü,

çiyələklərə yaxınlaşdı; bunun isə hər çiçəyində beş ləçək var. – Yenə təkrarladı: – Bax e, mən heç buna fikir verməmişəm. – Qarağatın yarpaqları ona qəribə göründü; üçbarmaq idilər; insan əlinə oxşayırdılar... Həyətdə nə əkmişdisə – tutun, narın, əncirin, almanın, armudun, badamın... yarpaqlarını, budaqlarını, gövdələrini heyranlıqla nəzərdən keçirdi; ot-əncər, ən çox sevdiyi tərxun da diqqətindən yayınmadı. Bir-iki qanad qoparıb qoxuladı; tərxunun acıtəhər qoxusu ciyərlərinə doldu; sonra o iki qanad tərxunu ağzına qoydu. Ağzında qəribə bir dad hiss elədi. – Vallah, dünyanın heç bir yerində belə tamlı, belə ətirli göyərti yoxdur, – dedi.

Dünya ona gözəl, çox gözəl görünürdü. Ona elə gəldi ki, dünya heç vaxt belə gözəl olmayıb; gördüyü bu gözəlliyi yazıçı öz əlləri ilə yaratmışdı. Əvvəllər bu gördüklərinin yerində nə var idi? Sapsarı gilli torpaq; xırda, böyük çay daşları o sapsarı gilli torpağa pərçimlənmişdi; min illər idi ki, o torpaqla qucaqlaşıb yatmışdı; o olmasaydı, min illər də o torpaqla qol-boyun olub yatacaqdı... Onları yuxudan oyatdı ... Külünglə yeri qazdı; torpağı daşlardan təmizlədi; torpağa peyin, kül (qeyri-üzvi gübrədən zəhləsi gedirdi. Deyirdi ki, bu gübrələr çıxdı-çıxmadı, hər şeyin dad-duzu qaçdı) verdi; ağac, gül, göy-göyərti əkdi. Cana gəlmiş torpaq onları övladı kimi yedizdirdi, içizdirdi, qayğısına qaldı...

Yazıçı keçib söhbət evindəki köhnə divanda oturub yerini rahatladı; amma gözlərini ağaclardan, gül-çiçəkdən, göy-göyərtidən ayırmadı. – Bu armud, bu heyva, bu badam, bu alma, bu zoğal ağacıdır... Heyvanınkı ağ – bir az firuzəyiyə çalır, gilənarınkı isə ağdır... Göy-göyərti ləkləri nizamla düzülmüşdü. Hər ağac, hər kol yerində idi; hamısı onun istədiyi kimi sıralanmışdı; sözə baxmayanı yox idi. Yazıçı razı halda gülümsündü. Ona elə gəldi ki, yaza bilmədiyi hekayəni torpağa yazıb. Gözləri yavaş-yavaş qapandı. Sərin külək başının seyrək tüklərini üzünə dağıtdı. Xəbəri olmadı bundan; çünki o, hər tərəfi gül-çiçəkli, sonu bilinməyən bir yolla irəliləyir, irəliləyirdi...

*Təranə MUSAYEVA*

# ALMAN MAŞINI



♦ ***Hekayə***

Maşın otelə yaxınlaşanda pəncərələrin bəzilərində öləzik işiqlar yanırdı. Bu işıqlar o qədər sönükdü ki, elə şüşələrdə boğulub qalırdı. Çərçivənin nəinki çöl tərəfini, iç hissəsini belə aydınlatmaq gücündə deyildi.

Axtardıqları avtodayanacaq otelin arxa tərəfində yerləşirdi. Ətrafı nazik tellərlə qapalı idi. Burda çox sayda xarici markalı maşın vardı. "WAİT" adlı bu otel ölkənin sərhəd qapısına yaxın olduğu üçün sərhədi keçib dincəlmək istəyən insanlar buranı seçirdilər. Üç qatlı, sadə görkəmi ilə ev ortamına daha yaxın idi. Şəhərin mərkəzindəki otellərdən fərqli olaraq burda nə iri giriş salonu, pilləkənlər, çılçıraqlar, xalçalar, divar rəsmləri vardı, nə də çeşidli yemək menyüsü. İnsanın günlük ehtiyaclarının təmin olunacağı bir oteldi. Əslində ağıllı düşünülmüş bir tikili idi. Harda olursa olsun, hansı ölkədən gəlirsən gəl, sərhədi keçəndə insanın üzərində həyəcanlı bir yorğunluq olur. O həyəcanı xoş bir hissə çevirmək, yorğunluğun yerini rahatlama ilə əvəz etmək üçün bu "WAİT" oteli əvəzsiz yer idi. Otelin "WAİT" ("Gözlə") adına gəldikdə isə daha çox yerləşdiyi yerə görə seçildiyi düşünülürdü.

Gecə yarısı otelin avtodayanacağına daxil olan alman maşını yalnız deyildi. Maşının üstündə əlavə qutu vardı. Gümüşü uzun qutu maşının üzərinə pərçimlənmişdi. Qutunun təzə olması avtoqarajın solğun işığını özündə parlaq əks edilməsindən hiss olunurdu.

İrəli-geri gedən maşın axır ki, maşınların arasında münasib yer tapıb dayandı. Sürücü yüngül idman geyimində idi. Maşından endikdən sonra arxa oturacağın qapısını açıb ordan götürdüyü kepkanı başına qoydu. Üzündəki dilxorçuluq, yorğunluq və narahatçılıq bir-birinə qarışmışdı. Az sonra sağ tərəfdən maşından düşən qəmli qadından fərqli olaraq, kişinin üzündə kədərdən əsər-əlamət yox idi. Qadın sual dolu baxışlarla əvvəl maşına, sonra kişiyə baxdı. Kirpiklərini isladan yaşlar onların rəngini bir az da tündləşdirmişdi. Kişi də dönüb maşına və maşının üstündəki qutuya nəzər saldı və güclə boğmağa çalışdığı acıqlı və əsəbi səslə:

– Bir şey olmaz! Sabaha az qalıb. Yuxu gözümdən tökülür, bir-iki saat yatım, dincəlim, sabah yolumuza davam edərik, – deyib qabağa düşdü, otelə

tərəf irəlilədi. Büzülmüş dodaqlarının səssiz tərpənişindən özü-özünə gileyli danışığı aydın görünürdü.

Qadının vücud dili bar-bar bağırır, ayaqlarının irəli getməsinə etiraz edirdi. Kişinin ardınca yeriyən ayaqlarının biri getsə də o biri geri gedirdi. Vücudunun irəli getməsi gözlə görünsə də ruhunun geridə – maşının yanında qalması açıqca hiss edilirdi. Boynu geri çevrilmiş, gözləri maşının üstündəki qutuda qalmış vəziyyətdə kişinin ardınca gedirdi.

Öz aralarında türkcə danışsalar da növbətçidən yer alanda kişi almanca danışdı. Cəmi dörd saat oteldə qalacaqdılar; ancaq otelin qaydasına görə, bütün günün pulunu verəndə etiraz etmədilər. Yorğun olduqları bəlli idi, ancaq ruh halları yalnız yorğunluqla ölçüyə gəlmirdi. Otaqlarının açarını alıb əlləri yanlarında ikinci mərtəbəyə qalxan pilləkənlərə yönəldirlər.

Az sonra yenidən aşağı enən kişi girişdəki divanda əyləşdi. Arxaya yaslanıb əllərini bəyazlanmış saçlarına çəkdi. Dalğın və düşüncəliydi. Çarəsiz və məzlum səslə:

– Allahım, sən kömək ol, – dedi.

Salonun künc tərəfindəki qaraltı tərpəndi. Bayaqdan nəzəri cəlb etməyən bir adam küncdəki kreslodan qalxıb kişinin yanına gəldi. Onunla üzbəüzdəki yumşaq stulda əyləşib nə baş verdiyini soruşdu.

– Mən axşamdan burdayam. Yaxın qohumumu gözləyirəm. Sabah yola düşəcəyəm. Sizə necəsə kömək edə bilərəm?

– Təşəkkür edirəm, – kişi nəzakətlə cavab verdi. – Köməyə ehtiyacım yoxdu. Bir az dincəlib sübh tezdən yola düşəcəyik. Yoldaşımla birlikdəyik.

– Nədən belə qayğılısınız?

Kişi bir müddət duruxduqdan sonra düşüncəli halda:

– Biz Berlində yaşayırıq. Arvadım, iki uşağım və qaynanamla birlikdə. Qaynanamın bir qızı – yəni mənim arvadım – vardı. İki gün öncə qaynanam vəfat etdi. Uzun illərdi xəstəlikdən əziyyət çəkirdi. Bir növ, canı qurtardı çəkdiyi əziyyətlərdən. Yəni gözlənilən ölüm idi. Gözlənilməyən o idi ki, anası vəfat edən kimi arvadım onun mütləq öz ölkəmizdə dəfn edilməsi tələbini irəli sürdü. Anlatmağa çalışdım. Heç cür razı sala bilmədim. Anası mütləq 55 il yaşadığı, çalışdığı Berlində deyil, doğulub 30 il yaşadığı Qara dəniz bölgəsinin ucqar bir kəndində, doğmalarının yanında torpağa verilməlidir. Qardaşım, bu qadın evlənib əri ilə bərabər Berlinə gedəndən doğmalarından uzaqlaşmış, illərlə kəndlərinə getməyib, kənddə yaşayan qonşu, qohum hər kəsi cahil hesab eləmişdi axı. Kəndinin bir yoxsuluna əl uzatmayıb, oxumaq istəyən tələbəsinə yardımçı olmayıb, toy-düyünlərində əl qaldırıb oynamayıb axı. Oynamamağı bir yana, o kənddə olduğu günlərdə belə dəvət alanda bir toya, məclisə getməyib axı. İndi öləndən sonra doğmalarına yaxın olmaq nədi? “Torpaq çəkər” – məsəlidirsə, bunu torpaq öləndən sonra çəkdi? Niyə sağ ikən, hətta xəstə vaxtlarında çəkmədi?! – kişi danışıb-danışıb dayandı, qarşısında oturan adamın gözlərinə baxdı.

Adam nə deyəcəyini bilmədən sakitcə onu dinləyirdi. Üzü gərilmiş, qaşları yuxarı dartılmış, gözləri bir az da açılmış, ağzı aralı qalmışdı. Söhbətin hara gedəcəyini gözləyirdi. Kişinin susduğunu görüb soruşdu:

– Qaynanan iki gün öncə rəhmətə gedib, siz onu aparıb basdırıb geri qayıdırsız? Necə vaxt tapdız bu qədər işi görməyə?

– Yox, hələ basdırmamışıq. Hələ indi aparırıq!

– Necə? Necə yəni? Hara aparırsız?

– Dedim axı, arvadım israr etdi, anasını məmləkətinə basdırmağa aparırıq. Hələ indi aparırıq.

– Anlamadım, nəylə aparırsız? İki gündü ölüb, indi aparırsız?

– Neyləyə bilərəm ki? Sənəd-sünəd işləri bütöv bir günümü aldı. Sonra cəsədi qoymaq üçün qutu düzəltdirmək, həkimlə danışmaq, dərmanlamaq-filan, ancaq oldu.

– Nə ilə aparırsız dediniz?

– Öz maşınımla, – dedikdə həmsöhbətinin gözləri hədəqəsindən çıxdı. Özünü geri çəkdi. – Baxın, ölümü gözlənilən olsa da hər ölüm kimi bu da qəfil oldu. Təyyarəyə bilet tapa bilmədik. Ona görə öz maşınımla aparırıq. Odey, maşınım otelin arxasındakı avtodayanacaqdadı. Qaynanamın olduğu qutu da maşınımın üstündə. Sabah günortaya inşallah çatarıq doğmalarının yatdığı qəbiristanlığa. Bu dünyada görmək istəmədiyi doğmalarına qovuşar. Görək doğmaları onu necə qarşılayacaq?! Bir az yatıb dincələrəm deyə bu otelə gəlmişdim, ancaq yuxu tutmadı, ona görə suyu bəhanə edib bura gəldim. Siz də sağ olun ki, yaxınlaşdınız. Bəzən yad biriylə danışmaq, ona içindəki hər şeyi açıb-tökmək insanı rahatladır. Gedim, yata bilməsəm də, uzanıb dincimi alım. Neçə saatdı sükan arxasındayam. Səhər tezdən də yola çıxmalıyam.

Hər ikisi yerlərindən qalxdılar. Kişi pilləkənlərlə yuxarı mərtəbəyə qalxanda adam sakitcə əvvəlki yerinə dönüb qaranlığa gömüldü.

* * *

Sübh tezdən doğan günəş al qırmızı idi. Sonra narıncı, bir azdan sarı rəngə boyanıb dünyanı öz əsrarəngiz gözəlliyinə, şəfqətinə, şəfasına bürüyəcəkdi. Hələ şüalanmamışdı. Ancaq işığı yeri-göyü aydınlatmışdı.

Otelin şüşələrini aşağıdan gələn tükürpədici səs silkələyirdi. Səs avtodayanacaq tərəfdən gəlirdi. Bir qadın nalə çəkir, bir kişi hündürdən, əsəbi səslə bağırırdı. Səsə gələn insanlar kişinin gözətçiyə bağırdığını, maşınını göstərərək boğuq səslə ondan şikayət edəcəyini gördülər. Gözətçi gecəni icazəli olduğunu, onlar maşınla avtodayanacağa gələrkən işdə olmadığını qırıq-qırıq danışdığı alman dilində söyləyirdi. Sərhəd şəhəri olduğu üçün Almaniyadan gələn maşınlarda çox sayda oğurluq olduğunu, ancaq bu oteldə ilk dəfədir ki, belə bir oğurluq hadisəsinin baş verdiyini söyləyirdi. Çox güman ki, oğrular o gecə gözətçinin işdə olmadığını öyrənmiş, çox əziyyət çəkmədən maşının üstündəki gümüşü qutunu oğurlamışdılar.

# HƏMİŞƏ MÜASİR



1970-ci ildə atam Rəsul Rzanın sarı cildli, o vaxt üçün (elə indinin özündə də) çox nəfis tərtibatlı “Vaxt var ikən” kitabını almışdı. O kitabı alandan iki-üç gün sonra, axşam hava qaralanda, bütün ailəmizin əyləşdiyi iri stolun arxasında atam bizə – yəni ailə üzvlərimizə həmin kitabdan şəxsən mənə çox kədərli təsir bağışlayan şeirlər oxuyur:

**ANA QAZ**

***Qazın yeddi balası vardı,***
***Qonaq gəldi,***
***Ev yiyəsi birini kəsdi,***
***Dedi: altısı qalar, bəsdir.***

***Gecə bala qaz,***
***Boynunda qıpqırmızı lent,***
***Girdi ana qazın yuxusuna.***

***Dəli bir külək əsdi,***
***Bir bala düşdü su quyusuna.***
***Beşi qaldı.***
***Səhər ikisini qonşu satın aldı...***

Şeir mənə, 10 yaşlı uşağa kədərli nağıl təsiri bağışlayır. Amma bu şeirin nağıldan bir fərqi var idi: nağıl (istər kədərli, istərsə də sonu xoşluqla bitən nağıllar) yaddaşda bir müddət qalır, sonra da unudulur. Amma “Ana qaz” şeirinin uşaq vaxtı ruhumda yaratdığı kədərli ovqat bu gün də mənimlədir və bu yazını yazarkən, həmin şeiri Allah bilir neçənci dəfə oxusam da, o uzaq uşaqlıq illərimdə olduğu kimi yenə də kədərlənirəm.

Rəsul Rza mənim mənəvi dünyama ilk dəfə bu şəkildə daxil olub.

Atam İmamverdi Əbilov Rəsul Rzanın ilk tədqiqtçılarından olub. Aralarında böyük yaş fərqinə baxmayaraq Rəsil Rza ilə dostluq edib. Mən Rəsul müəllimi ilk dəfə evimizdə görmüşəm. Onu ilk gördüyümdə 4 yaşım olardı. Elə o vaxtkı uşaq təəssüratımla, necə var, elə xatırlayıram. Tutqun idi, az danışırdı. Fikirliydi. Hava qaralanda onun "QAZ-21" "Volqa"sı ilə dəniz kənarına gəldik. Sahildən dənizin içərisinə doğru uzanan bir körpü var idi. Üstündə qatar relsləri olan körpünün uzunluğu bir kilometr olardi. Deyirdilər ki, həmin körpü-limana gəmilər yan alır. Onu da deyim ki, mən heç vaxt həmin körpüyə yan alan bir gəmi görmədim. Atam əlimdən tutmuşdu. Yeri taxta döşəməli körpünün sonuna qədər getdik. Rəsul Rza, dediyim kimi, fikirli idi. Elə bil dalğaların səsini dinləyirdi. Ay işığında bir müddət dənizə tamaşa etdilər. Sonra dəniz kənarında olan Binəyə baş çəkdilər. Binədə yerli camaat mal-heyvan saxlayırdı. Qamışdan bir neçə alaçıq var idi. Maşın alaçıqlara yaxınlaşanda bir neçə it səs-səsə verib maşına tədəf qaçdı. İtlərin səs-küyünə bir neçə kişi, əllərində kerosin, neft lampası bayıra çıxdılar. İtləri sakitləşdirdilər. Alaçıq sahibləri atamın həmkəndliləri idi. Atam Rəsul müəllimi və maşındakı digər qonaqları (onların kimliyini xatırlamıram) onlara təqdim etdi. Qonaqları alaçıqlardan birinə dəvət etdilər. Neft lampasının işığını artırdılar. Yerdə, həsirin üstündə əyləşdilər. Rəsul müəllim onlarla söhbət edir, nəsə soruşurdu. Arada əlindəki bloknota qeydlər edirdi. O da yadımdadır ki, hamımıza mis camda qatıq verdilər. Bir müddət orada qaldıq...

Rəsul Rzanın o vaxtki tutqunluğunun səbəbini bilmək üçün, atamın "Xatirələr işığında" yazısını bir daha oxuyuram. 1964-cü ilin martında Rəsul Rza iki nəfər tanışı ilə bizə gəlib. Cay içə-içə ədəbiyyat və insan taleyi, insan ömrü və poeziya haqqında söhbət düşüb. Bir müəllifin yenicə çap olunmuş hekayəsini bir neçə ay əvvəl intihar etmiş bir məşhur rejissorun (atam adımı yazmasa da, söhbətin Lətif Səfərovdan getdiyi məlumdur) intiharı ilə əlaqələndiriblər. Atam yazır: "Mövzu məhz bu məsələyə yönələndə şairin elə bil nitqi kəsildi. Hiss edirdim ki, müzakirə ürəyincə deyil. Görünür, söhbətin kəsiləcəyini gözləyib susurdu. Lakin belə olmadı. Gümanlar, fərziyyələr çözələndi. İlk dəfə idi ki, onu belə hövsələsiz görürdüm.

– Halına bu qədər həssas idinizsə, sağlığında qayğısını çəkəydiz, fəlakətin qarşısını alaydız – deyib ayağa dalxdı, otaqda var-gəl etdi. Rənginə baxdım, təşvişə düşdüm. Sən demə, mərhum onun dostu imiş. Şairin yoldaşları isə, şübhəsiz, qəsdən yox, sadəcə əsaslı-əsassız dəlillər gətirməklə səslərini ucaltmış və şairin qəlbini incitmişdılər. Rəsul Pza qəhərlənmişdi, ancaq biruzə vermirdi, cöhrəsi rəngdən-rəngə düşürdü. Pəncərə önündəki divana uzandı. "Volakardin", "Validol" verdim, çay istədi. Səfər dostları peşman-peşman ona baxırdılar. Kal səslə üzr istədilər. Başqalarına adi, bəlkə də təbii gələn bir söhbət şairin qəlbini qırmişdı. O, mərhum dostunun təəssübünü çəkirdi, həm də küysüz, çılğın bir sükutla. Sonralar kitablarına daxil etdiyi məlum misralar, şübhəsiz, bu mənəvi ağrının ifadəsi idi:

***Nə gərəkdir indi əllaməlik,***
***qəhmərlik, məzəmmət?***
***Nə gərəkdir doğruya bənzəyən***
***yalanlar?***
***Nə haqla gedənləri***
***Darıyır qalanlar?***
***Nə kimsəyə qadağandır bu yol,***
***Nə kimsəyə örnək.***
***Lakin***
***Fəlakət azalar yəqin,***
***Bağlı qalmasa ürək".***

Demək, Rəsul Rzanın ogünkü tutqunluğu, həmin darıxdırıcı söhbətə görə imiş...

Atam Rəsul müəllimin həm poeziyasına, həm də şəxsiyyətinə böyük hörmət bəsləyirdi. Ondan tez-tez məktub və kitab bağlamaları alardı. Məktublarını da, kitablarına avtoqrafları da, adətən, yaşıl çernilli avtoqələmlə yazardı. 1960-cı ilin may ayında gəlişini evimizdə tez-tez xatırlayırdılar. Yaşlı qonşularımız da o gəlişi tez-tez yada salardılar. Qonşumuz Əsgər dayı mənə danışırdı ki: "Bir dəfə qapınızda bir mikroavtobus dayandı. Bilirsən o maşından kimlər düşdü? Rəsul Rza, "Qaytar ana borcunu" yazan (Əli Kərim), Əliağa Kürçaylı. Bir də çavan bir oğlan düşdü. Sonradan bildik ki, o cavan oğlan Anar imiş... O biri adamları tanımadım".

Əsgər dayının tanımadığı adamlar Mikayıl Rzaquluzadə, Mirmehdi Seyidzadə, Ənvər Əlibəyli (Ənvər Əlibəyli o zaman Azərbaycan Teleradio Komitəsinin sədr müavini işləyib. Mikroavtobus da həmin komitəyə məxsus imiş), Nəbi Xəzri və Qabil olub.

İki gün bizdə olublar. Gəlişlərinin ikinci günü Neftçaladakı Mədəniyyət sarayında Rəsul Rzanın 50 illik yubileyi keçirilib. Yubilyar haqqında məruzəni atam edib. O gözəl günləri, dediyim kimi, evimizdə həmişə xoş bir ovqatla yad edirdilər. Axşam atam qonaqları üçün həyətimizdə süfrə açıb. Mikayıl Rzaquluzadəni masabəyi seçiblər. Mikayıl Rzaquluzadə də şərt qoyub ki, hərə sağlığının sonunda hökmən bir şeirini deməlidir. Rəsul Rza bu şeirini söyləyb:

***Təbrizin yolları oyum-oyumdur.***
***Yanıqdağdan qalxan duman olaydım.***
***Həsrət könüllərdə ümid olmasam,***
***Heç olmasa, zəif güman olaydım.***

Atam Rəsul müəllim haqqında xatirələrini yazib. Keçən əsrin 80-ci illərində çap etdirib. O vaxt hər şeyi yazmaq olmurdu. Hər hadisəni qələmə almaq məqbul sayılmırdı. Yaxşı ki, həmin yazmadıqları xatırələri atam bizə danışıb.

...Demək, ziyafət bitir, süfrəyə çay gəlir. Atamın ən yaxın dostlarından olan Əli Kərim atama:

– Balıq kababı çox dadlı idi, amma heyf ki, duzsuz yedim, – deyir.

Atam:

– Niyə ki, Əli, axı süfrədə duz var idi.

Əli Kərim:

– Duz Rəsul müəllimin qarşısında idi. Götürməyə ürək eləmədim.

Bu qədər həssas, incə münasibəti, hörməti olub Əli Kərimin Rəsul Rzaya.

Atam danışırdı: Səhər tezdən oyandım. Rəsul Rzanı həyətdə gördüm. Qızılgül kollarına tamaşa edirdi. Salamlaşdım.

– Sabahınız xeyir, – deyə arxadan duru, aydın bir səs eşitdim. Bu, Əli Kərim idi.

– Şair yatağan olmaz, Əli, – Rəsul Rza xoş ovqatla dillənir. – Şair yuxu yox, fikir sərrəfidır.

Əli Kərim yuyunub üzünü qurulayanda, Rəsul Rza qoşa ovcunu su ilə doldurub suyu Əli Kərimin başına çiləyir, sonra da onun yumşaq saçlarını bir-birinə qarışdırıb, gülə-gülə:

– Bax, bu başqa məsələ. İndi gəl ağacı silkələyim, tutdan nuş elə, – deyir.

Rəsul Rza Əli Kərim yaradıcılıgını yüksək qiymətləndirirdi. Ona qayğı göstərirdi, böyük hörmət bəsləyirdi, bu istedadlı gənc şairin şeirlərini qərəzli tənqidlərdən müdafiə edirdi.

Həmin unudulmaz iki gündə şəxsən mənə ləzzət edən bir hadisə də olub. Atam həmin hadisəni də xatirələrində yazmayıb. Deyir, Rəsul müəllim həyətdə Mirmehdi Seyidzadə ilə nərd oynayırdı. Digərləri də onların oyununa tamaşa edirdi. Bu vaxt qapımızda bir "VİLLİS" maşını dayandı. Bu, Salyan Rayon Partiya Komitəsinin I katibinin xidməti maşını idi. Katib də ədabaz, lovğanın biri. Mən Rəsul müəllimə yavaşca:

– Rəsul müəllim, Salyanın katibi gəlib, – dedim.

Rəsul Rza tövrünü pozmadan və oyununa ara vermədən:

– Gəlib-gəlib də... – dedi.

Katib həyətə girdi. Bizə yaxınlaşdı. Rəsul Rza sanki onu görmür. Bütün diqqəti nərddədir. Katib Rəsul müəllimin ona qarşı laqeydliyini görüb əlini şairə elə tərzdə uzatdı ki, Rəsul müəllim onun əlini sıxmaq üçün hökmən ayağa qalxmalı olsun. Rəsul müəllim katibin üzünə baxmadan oturan yerdə, bir qədər də köntöy şəkildə əlini katibə uzatdı. Atam deyir, bu soyuq görüşmədən katib pərt olsa da, pərtliyini biruzə verməyib, elə ədalı səslə Rəsul müəllimə:

– Şair, Neftçalaya gələn yol Salyandan keçir, – dedi. – Salyan döngəsi ilə raykomun binasının arası 15-20 addımdır. Neftçala ərazi kimi Salyanın tərkibindədir. Deməк, mən həm də Neftçalanın rəhbəriyəm. Nə olardı ki, Neftçalaya gəlməmişdən, raykoma gələydiz, mənimlə görüşəydiz. Mən də bilərdim ki, rayonumuza sizin kimi görkəmli şair gəlib.

Atam deyir ki, katibin bu uzun danışığı Rəsul müəllimi darıxdıran kimi oldu. Katib yenə nəsə demək istəyirdi ki, Rəsul müəllim onun sözünü kəsdi:

– Filankəs, – dedi. – Mən də bilirəm Neftçalaya gələn yol Salyandan keçir. Lazım bilsəydim, maşını Salyana, raykoma sürdürərdim. Raykoma yox, Neftçalaya, İmamverdinin evinə gəlmişəmsə, demək, belə lazım bilmişəm.

Atam söyləyirdi ki, hamı həm gərginliklə, həm də maraqla onların bu söhbətinə qulaq asırdı. Zərlər Mirmehdi Seyidzadənin əlində idi. Rəsul müəllim sözünü deyib Mirmehdi Seyidzadəyə:

– Zərləri at, – dedi.

Deyəsən, Rəsul Rzanın katibə dediyi söz Mirmehdi Seyidzadəyə ləzzət eləmişdi. Mirmehdi Seyidzadə xoş ovqatla, tez-tez dediyi sözü bir daha təkrar etdi:

– Ay zalım, – deyərək zərləri nərdtaxtaya atdı.

Pərt olmuş ədabaz, lovğa katib elə pərt vəziyyətdə bir neçə dəqiqə də yanımızda dayandı. Sonra da kimsəyə hiss etdirmədən sakitcə çıxıb getdi.

Atam Rəsul müəllimin ailəsi ilə həmişə sıx, doğma münasibətdə olub. Atamın arxivində rəhmətlik Nigar xanım Rəfibəylinin atama yazdığı məktublar var. Həmin məktubların birindən bir parçanı burada yazmağa daxili bir ehtiyac hiss edirəm:

"Hörmətli İmamverdi müəllim!

Ailəmizin səmimi dostu, Rəsul yaradıcılığının diqqətli və həssas tədqiqatçısı kimi, Sizin nəzərinizə bir şeyi də çatdırmaq istərdim. Nədənsə, bunu Sizə yazmağa daxili ehtiyac hiss edirəm. Rəsulun şeir yaradıcılığına Siz məndən də yaxşı bələdsiniz. Ancaq onun bir insan, bir həyat yoldaşı kimi mənə göstərdiyi qayğı və hörmət heç bir ölçüyə gəlməyəcək dərəcədə böyükdür. İki ay Moskvada qaldım. 35 gün xəstəxanada yatdım. Qışın lap sərt vaxtı idi. 25-27 dərəcə şaxta olurdu. Mən yatan xəstəxana – onkoloji institut mərkəzdən 15 kilometr uzaqda idi. Rəsul bütün bu soyuqlarda hər gün mənim yanıma gəlir, həkimlərimlə görüşür, aparılan müalicələrlə yaxından tanış olurdu. Nə lazımsa əsirgəmirdi. Onun keçirdiyi həyəcan və iztirabı təsvir etmək mümkün deyil. Kiçik qızım Təranə də dərslərini, yoldaşlarını, nişanlısını qoyub iki ay atası ilə bərabər Moskvada oturdu. Anar iki dəfə gəlib-getdi, operasiyam zamanı Moskvada oldu. Mən çox qüdrətli həkimlərin əlində idim. Onların böyük səyi və humanizmi sayəsində sağalıb yataqdan qalxdım, amma çiyinlərimə əbədi bir borc yükü aldım. Heç altından çıxa bilmirəm, inanın. Moskvaya yolum düşəndə həkimlərimlə çox səmimi görüşürük. Mənə elə gəlir ki, bir dərya göz yaşı da töksəm, Rəsulun gözlərində parlayan yaşları əvəz edə bilməz... ".

Zənnimcə, belə məktublar ancaq ailəyə ən məhrəm adamlara yazıla bilər.

Anam rəhmətlik də Nigar xanımın xətrini çox istəyirdi. Onu həmişə hörmətlə yad edərdi. Bir dəfə, 60-cı illərdə atam anamı da Rəsul müəllimgilə aparıb. Anam danışırdı ki, Nigar xanım məni mətbəxə apardı. " – Gəl naharı birlikdə hazırlayaq" – dedi. Nigar xanım şüyüdplov bişirirdi. Anam deyir ömrümdə birinci dəfə idi ki, belə bir xörəyin – şüyüdplovun olduğunu eşidirdim. Anam bunu Nigar xanıma da deyir. Nigar xanım anama şüyüdplovun hazırlanması qaydalarını öyrədir. Plovu da birlikdə bişirirlər.

Yuxarıda yazmışdım. Atam Rəsul Rzanın tədqiqatçısı olub. Rəsul Rza haqqında ilk kitabın (1960) müəllifi də atamdır. 1970-ci ildə atam "Rəsul Rzanın

yaradıcılıq yolu" mövzusunda dissertasiya müdafiə edib. Bundan başqa, Rəsul Rza yaradıcılığı haqqında çoxlu sayda məqalələr qələmə alıb. Bəlkə də keçən əsrin 50-60-70-ci illərində Rəsul Rza haqqında atam qədər ardıcıl yazan ədəbiyyatçı olmayıb. Və həmin məqalələr 50-ci illərdən başlayaraq "Azərbaycan" jurnalında, "Ədəbiyyat və incəsənət", "Kommunist", "Azərbaycan müəllimi" qəzetlərində ardıcıl olaraq çap edilib... Atam Rəsul müəllimin yaradıcılığına, necə deyərlər, məftun idi. "Qızıl gül olmayaydı... " poeması kitab kimi çap olunanda həmin poemanı da atam bizim üçün oxumuşdu. Həmin poemanı oxuyanda atamın dəfələrlə qəhərlənməsi, göz yaşını saxlaya bilməməsi indiyə qədər də gözümün qabağındadır.

Rəsul Rzanan "Rənglər" silsiləsi atamı valeh eləmişdi. "Rənglər" silsiləsi haqqında atam bir məqalə də yazmışdı. Həmin məqalə "Azərbaycan" jurnalında çap olundu. Hamıya məlumdur ki, Rəsul Rza yaradıcılığını sevənlər oldugu kimi bədxahları da var idi. Bu qaragüruh Rəsul Rza istedadını, – Rəsul Rza yaradıcılığına və şəxsiyyətinə olan böyük xalq məhəbbətini həzm edə bilmirdi. Rəsul Rzanın ona qarşı qərəzkar nadanlara bir şeiri də var:

***Mən hansı xanədə tutdumsa qərar,***
***Hər gələn piyada "şah", "şah" eylədi.***
***Neyləyim ki, belə kür taleyim var,***
***Məni nadanlara ürcah eylədi...***

Rəsul Rzaya ovaxtkı qəzet və jurnallarda yazılan böhtan dolu qərəzli yazıları mən də oxumuşam (bu ənənə ovaxtkı bədxahların "layiqli davamçıları" tərəfindən, təəssüf ki, bu gün də davam edir). Bu qərəzli məqalələr Rəsul Rzaya təbii ki, ağır təsir edirdi. Amma o, heç vaxt ümidsizliyə qapılmadı, ona qarşı qərəzli hücumlara Rəsul Rza ədəbiyyat tariximizin inciləri olan şeirləri ilə cavab verdi. Atamı da "Rənglər" haqqında olan məqaləsinə görə tənqid ediblər. Ovaxtın tanınan tənqidçilərindən biri mətbuat səhifəsində, atamın həmin məqaləsi haqqında "İ.Əbilovun "Rənglər" haqqında yürütdüyü fikirlər "Rənglər"in özü qədər dumanlıdır" yazmışdı... O yazı da, təbii ki, qərəzli yazı idi və həmin məqalə müəllifinin adı (vəfat etdiyi üçün adını yazmıram) bu gün ədəbiyyatla bağlı heç bir qəzet-jurnal səhifəsində heç xatırlanmır da. "Rənglər" isə təkcə Azərbaycan ədəbiyyatının yox, dünya ədəbiyyatının ən seçkin nümunələrindən biridir.

Dediyim kimi, Rəsul Rzanın atama böyük hörməti olub. Atama həmişə hörmətlə yanaşıb... 1959-cu il dekabrın son həftəsində atamın anası Sürəyya xanım dünyasını dəyişdiyi gün Rəsul Rza atama zəng edib. Təbii ki, Rəsul müəllimin nənəmin vəfatından xəbəri yoxdur. Rəsul Rza atamla salamlaşıb birbaşa mətləbə keşir:

– İraqa gedirəm. Məktubunu indicə almışam, xahişinə qayıdan kimi əməl edib anamın şeirlərini, ilk şeir və hekayələrimin dərc olunduğu "Qığılcım" almanaxını, "Dan ulduzu" jurnalını, bir də dayımın şeirlərini göndərəcəyəm. Arxayın ol (atam o vaxtlar Rəsul Rzanın yaradıcılığı haqqında olan dissertasiyasını yazırdı). Sonra Rəsul Rza: – Evdə nə var, nə yox? – deyə soruşur.

Atam deyirdi ki, danışmaq iqtidarım yox idi. Üstəlik, səfərə çıxan həssas şairə qubarlı günümün təfsilatını danışmaq istəmirdim. Görünür, sükutdan ürəyinə nə isə damdı: "Nə olub? Niyə dinmirsən?". Qırıq-qırıq kəlmələrlə bunu deyə bildim. "– Anam keçinib". Axşamcağı atam bir teleqram alır (həmin teleqram atamın arxivindədir): "Ananız Sürəyyanın vəfatı münasibətilə hüznlə başsağlığı verib, böyük kədərinizə şərik oluruq. Qayıdan kimi yanındayıq. Rəsul Rza, Bəxtiyar Vahabzadə, Qasım Qasımzadə"... Həmin ərəfədə Rəsul Rza, Bəxtiyar Vahabzadə və Qasım Qasımzadə İraqa yola düşürlər. İraqdan gələndən sonra atam Rəsul müəllimgilə gedib. Rəsul müəllim atama bir daha başsağlığı verəndən sonra ona Kərbəladan gətirdiyi nadir, təbərrük hədiyyələri bağışlayıb: Həzrət Əlinin rəngli rəsmini, Kərbəla möhürü və təsbehi... Bibim Minayə xanım ömrünün sonuna qədər (2004) namazını həmin möhürə qıldı, namazdakı rükətlərarası zikrini həmin təsbehlə etdi. Atam Həzrət Əlinin rəsmini evə gətirəndən sonra şəkil üçün oyma naxışlı qızılı rəngli bir çərçivə düzəltdirdi. Həmin pak və müqəddəs rəsm indiyə qədər də qonaq otagımızın divarındadir... Biz o şəkli göz bəbəyi kimi qoruyuruq. Əlbəttə, ən əvvəl Həzrət Əinin rəsmi olduğu üçün. Eyni zamanda, Rəsul Rzanın Şərqə ilk səfərindən gətirdiyi qiymətli yadigar olduğuna görə. Həzrət Əlinin o mübarək rəsmi ilə bağlı mənim o qədər əziz xatirəm var ki. O vaxt, yəni 1959-cu ildə yaşlı və orta nəsildən Həzrət Əlinin şəklini görən olmamışdı... Dəstə-dəstə insanlar (əksəriyyətini heç tanımırdıq) altı ərəb yazılı o şəklə baxmağa gələrdilər, əsasən dindarlar. Başqa rayonlardan da gələrdilər. Ən çox gələnlər cənub zonasından olardı. O vaxt üçün çox nadir hadisə idi.

Rəsul Rza haqqında yazdıqca xatirələrim çözələnir. Bu işiqlı insan haqqında düşünmək, onun şeirlərini mütaliə eləmək insana yalnız xoş hisslər yaşadır.

Atamın evi Neftçaladadır. Mən isə Neftçalanın 1 kilometrliyindəki, xalq arasında Qoltuq adlanan (Qoltuq, əslində, Neftçalanın ərazi hissəsidir) ata yurdumda yaşayıram. Atam mən yaşadığım kənddə dünyaya gəlib. Orta məktəbi də bu kənddə bitirib. Neftçalaya 1952-ci ildə köçüb. Qoltuqdakı həyətimdə iki ev var, biri mən yaşadığım 2 qatlı ev, bir də atamın Neftçalaya köçənə qədər yaşadığı ikiotaqlı kiçik ev. Atamın yaçadıgı ev köhnəlib. Bu köhnə ev görünüş cəhətdən yeni evimə xələl də gətirir. Çox adam, dost-tanış bu köhnə evi sökməyi məsləhət görürlər. Amma mən o köhnə evi heç vaxt sökmərəm. Divarlarına atamın, anamın, istəkli bibimin nəfəsi hopmuş o ev mənim üçün müqəddəsdir. Həm də o ev tarixi evdir axı. O evdə kimlər olmayıb? Mustafa bəy Topçubaçov, Vəli Axundov, Süleyman Rüstəm, Süleyman Rəhimov, Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, İsa Hüseynov, Xəlil Rza... və əlbəttə, Rəsul Rza. Hətta Rəsul müəllim o evdə gecələyib də.

... Neçə illər bundan əvvəl kəndimizdən olan Əkrəm adlı şəxs (indi rəhmətə gedib) mənə maraqlı bir hadisə danışdı. Əkrəm musiqiçi idi, tar çalırdı (70-ci illərdə rayonumuzun musiqi kollektivinin rəhbəri olmuşdu). Atam ona orta məktəbdə dərs demişdi. Həmin görüşümüzdə Əkrəm mənə:

– 1951-ci il idi. Atan mənə xəbər göndərdi ki, Əkrəm tarını götürüb təcili bizə gəlsin. Tarımı götürüb gəldim. Gördüm həyətinizdə 3-4 adam var. Onlardan biri Rəsul Rza idi. Mən onlar üçün tar çaldım. Özü də bərk həyəcanlanmışdım. Zarafat deyil, Rəsul Rza kimi böyük bir şairin qarşısında tar çalmaq bilirsən nə deməkdir? Çalğım xoşuna gəldi Rəsul müəllimin. Bunu bilirsən nədən bilirəm? "Qəzəb və məhəbbət" kitabının üstünə "Gənc tarzən Əkrəmə – gələcəyinə böyük ümidlərlə" sözünü yazıb mənə bağışladı. Həmin kitabı saxlayıram. Gələn qonaqlarıma göstərirəm ki, mənə Rəsul Rza kimi böyük bir şair qiymət verib...

Yaşadığım Qoltuq kəndində Rəsul müəllimi görən insanlar çox olub. Onların əksəriyyəti dünyalarını dəyişsələr də, onların bu böyük şair haqqında xatirələrini indi onların övladları, nəvələri danışırlar.

Zabil adlı bir taksi sürücüsü var idi. Mənə danışırdı ki, atanın tez-tez məşhur qonaqları gələrdi. Bir dəfə dedilər Rəsul Rza gəlib. O vaxt kəndimiz çox kiçik idi. Bir dəqiqədə hər hadisədən xəbər tuturduq. İndi sən yaşadığın evin qabağında o vaxt bir təpə var idi. Bir dəstə uşaq həmin təpənin üstündə uzanıb, hava qaralana qədər, uzaqdan-uzağa Rəsul Rzaya tamaşa elədik...

... Fransız yazıçısı, Nobel mükafatı laureatı Fransua Moriak Nobel nitqində uşaqlıq illərini "itirilmiş cənnət" adlandırır. Bu sözü çox sevirəm. Həqiqətən də belədir. Ömrün ən xoş illərini qayğısız uşaqlıq illərində yaşayırıq. Hər kəs kimi mən də o "itirilmiş cənnət"in – uşaqlıq illərimin xiffətini çəkirəm... Saf, təmiz, qayğısız uşaqlıq illərimin. – O uzaq illərin Rəsul Rza ilə bağlı xoş xatirələrini də tez-tez xatırlayıram. O xatirələrdə atam da həmişə yanımdadır.

Yenə də uzaq 60-cı illərə qayıdıram. Rəsul Rza yaxın qohumu və dostu Ənvər Məmmədxanlı ilə bizdədir. Həmin görüşdən bəzi epizodlar yadımdadır. Rəsul Rza İraq səfərindən danışır. Bir bayatını iki versiyada deyir. Sonralar biləcəm ki, Kərkük bayatıları ilə Azərbaycan bayatılarıdır. Bu bayatıların oxşar və fərqli cəhətlərindən danışır, onları izah edir. Ənvər Məmmədxanlı da diqqətlə qulaq asır. Sonra Kərbəladan danışır. İmam Hüseynin əzəmətli türbəsindən söz açır. Füzulinin məzarını ziyarət etmələrindən danışır. Sonra atamdan Kərbəladan gətirib atama bağışladığı Həzrət Əlinin şəklini soruşur. Məlum olur ki, Ənvər Məmmədxanlı Həzrət Əlinin şəklini bu vaxta qədər görməyib, Ənvər müəllim atama:

– O şəklə baxa bilərəm? – deyir. Birlikdə şəklin olduğu otağa gəlirlər. Atam şəklin önündəki qara ipək örtüyü qaldırır. Ənvər müəllümin şəkli görərkən necə heyrətləndiyi gözümün önündədir. Heyrət və sarsılmış (hər halda, mənə belə gəldi) halda şəklin önündə dayanmışdı. Heç biri dinib danışmırdı...

Həmin gün Kürün sahilinə getdilər. Atam məni də özü ilə apardı. Kürün sahili başdan-başa meşəlik idi. Ömrümdə ilk dəfə idi ki, meşəlik görürdüm. Sonra sahildə məxsusi olaraq bizi gözləyən kiçik bir çay gəmisində Kürün gəzintisinə çıxdıq. İlk dəfə idi gəmiyə (çay gəmisi olsa da) minirdim. Atamın dostu olan gəmi komandirinin nəzarəti altında, az da olsa, gəmini idarə elədim. Gəzintimiz

gecə, hava qaralana qədər davam elədi. Və həmin nağılvari gün ömürlük olaraq yaddaşıma köçdü.

... Burada bir haşiyəyə çıxmaq istəyirəm... O unudulmaz gündən bir müddət keçdi. Yenə də imkan olanda ya atamla, ya qohumlarımızla, ya balıq ovu həvəskarı olan bibim oğlu ilə, ya da sinif yoldaşlarımızla Kürün sahilinə gedirdim və hər yerdə gözüm həmin meşəliyi axtarırdı. Amma Kürün sahilində heç bir meşə yox idi. 4-cü, ya 5-ci sinifdə oxuyanda mənə məlum oldu ki, Neftçalada ümumiyyətlə meşə yoxdur. Bəs biz Rəsul müəllimlə hara getmişdik? Nəhayət, atamdan soruşdum. Atam:

– Biz həmin gün Mayak (Neftçalada kənd) tərəfə getmişdik, – dedi.

– Bəs Kürün sahili başdan-başa meşəlik idi axı, – uşaq inadı ilə dilləndim.

Atam:

– Sənin meşə zənn etdiyin ağaclar əslində yulğunluq olub, – dedi. – O vaxt boyun kiçik olduğundan hündur boylu yulğunları meşə zənn etmisən.

1970-ci ildə Rəsul Rzanın 60 illik yubileyinə atamı dəvət etdiyi günü də xatırlayıram. Məktub yazmışdı. Həmin məktubda yubileyın vaxtını qeyd edib, atamı da “əziz dostları arasında görməyindən məmnun olacağını” bildirirdi. Atam Rəsul müəllimin 60 illik yubileyınə bibim oğlu Zakiri də aparmışdı.

Rəsul Rza haqqında bir unudulmaz xatirəm də var. 1977-ci ilin iyununda evimizə zəng elədi. Atamı Bakıda keçiriləcək Sabir poeziya günlərinə dəvət edirdi (Rəsul müəllim ənənəvi Sabir poeziya günlərinin rəhbəri idi). – Sənin Sabir günlərində çıxışını da nəzərdə tutmuşuq, – dedi. Atam mənə: – Sən də hazırlaş, səni də aparacam, – dedi. 1977-ci ilin 4 iyununda, səhər, rayondan atam üçün ayrılmış xüsusi maşınla Bakıya gəldik. Sabir günləru saat 14-də Sabir bağında – Sabirin heykəlinin qarşısında olmalı idi. Bakıya saat 12-də çatdıq. Atamla Nizami müzeyinə, atamın muzeyin direktoru olan dostu Bəkir Nəbiyevin yanına gəldik. Atam Bəkir müəllimin otağından Rəsul müəllimə zəng elədi. Danışdılar. Rəsul müəllim: – Saat ikinin yarısında Sabir bağında ol. Tədbirdən qabaq bir qədər söhbət edək, – dedi. Düz saat 2-nin yarısında Abbas Zamanovla birlikdə Sabir bağına gəldi. Ləng yeriyirdi. Abbas Zamanovun qolundan tutmuşdu. Atamla görüşəndən sonra mənimlə də görüşdü. Mənə işarə ilə atama:

– Nə yaxşı eləyib gətirmisən, – dedi. Abbas Zamanovla bağdakı skamyaların birində əyləşdilər. Amma atam əyləşmədi, söhbət eləməyə isə imkan olmadı. Bir azdan şairlər, yazıçılar, adi adamlar yığışdılar. Rəsul müəllimin başına yığışdılar. Tədbir başladı. Rəsul müəllim qısa danışdı. İlk sözü Abbas Zamanova verdi... Rəsul müəllimin iclas aparmağı da maraqlı idi. Çıxışçılara sözü o verirdi. Özü də qəribə şəkildə. Məsələn, Tofiq Bayrama sözü belə verdi:

– Tofiq Bayram.

Yəni çıxışçıların tək adlarını çəkməklə kifayətlənirdi. Bəzi çıxış edənlərin isə heç soyadını, təxəllüsünü də demirdi.

– Fikrət (yəni Fikrət Qoca).

– Əzizə ( yəni Əzizə Cəfərzadə).

– Şair Əliaga.

Əliağa Kürçaylının gəlmədiyini biləndə:

– Əliağaya qayıb, – dedi.

Həmin gün atam da çıxış elədi.

...Nəhayət, tədbir bitdi. Rəsul Rza tanımadığım adamın köməyi ilə pillələri enərkən bir nəfər orta yaşlı şəxs ona yanaşdı. Həmin şəxsin yanında bir uşaq da var idi. Həmin adam Rəsul müəllimə salam verib, əlindəki fotoaparata işarə edərək:

– Rəsul müəllim, olarmı Sizin bu uşaqla şəklinizi çəkim? –dedi.

Rəsul Rza:

– Niyə olmur? – dedi. Sonra ətrafa boylanıb:

– Abbas... Abbas Zamanov, – dedi. Abbas müəllim bir qədər kənarda kiminləsə söhbət edirdi. Rəsul müəllimin səsini eşidib yaxın gəldi.

Rəsul Rza:

– Abbas, yaxın gəl, yanımda dayan, bu gözəl bala ilə şəkil çəkdirək, – dedi.

Rəsul müəllimin yaxın, ürək dostları az idi. Abbas müəllim də onun ən yaxın dostlarındandı və Rəsul müəllim dostlarına son dərəcə sədaqətli idi.

Mənim şəxsi kitabxanamda Rəsul Rzanın çox kitabları var. Mən onun şeirlərini, ədəbiyyatı dərk etdiyim vaxtdan oxuyuram. Yadımdadır, hərbi xidmətdə olarkən atam mənə evdən bağlama (posılka) göndərəndə, hər dəfə bağlamaya Rəsul müəllimim yeni kitabını da qoyardı. Onun şeirlərini çox sevdiyimi bilirdi. Rəsul müəllimin vəfatı xəbərini də hərbi xidmətdən (Uzaq Şərq) Vətənə qayıdarkən, Daşkənddə, təsadüfən qarşılaşdığım bəstəkar Süleyman Ələsgərovdan öyrəndim...

Süleyman müəllim dərin təəssüflə:

– Rəsulu da itirdik, – deyəndə nə qədər üzüldüyümü sözlə ifadə etməyə indi də çətinlik çəkirəm...

Burada bir haşiyəyə çıxım. Anarın məşhur “Beşmərtəbəli evin altıncı mərtəbəsi” “Azərbaycan” jurnalında çıxan ili getmişdim hərbi xidmətə. Yəni hərbi xidmətə gedənə qədər bu romanı artıq oxumuşdum. Hərbi xidmətdə 23 azərbaycanlı idik. Məlum oldu ki, əsgər yoldaşlarım da bu romanı oxuyublar. Bu roman o vaxtlar (elə indinin özündə də) gəncliyin ən çox sevdiyi romanlardan biri idi. Mən hərbi xidmətdən Anara məktublar yazırdım. O da heç bir məktubumu cavabsız qoymurdu. Əsgərlikdə olarkən mənə avtoqrafla “Adamın adamı” və “Macal” kitablarını göndərmişdi. Əlamətdar günlərdə mənə təbrik açıqcaları göndərirdi... Hərbi xidmət illərinin öz romantikası var; hərənin bir arzusu, bir niyyəti... Biz azərbaycanlılar da söz vermişdik ki, xidmətdən sonra Bakıya çatan kimi, əvvəl Anar müəllimə baş çəkəcəyik. Amma Daşkənddə Süleyman Ələsgərovdan Rəsul Rzanın vəfat etdiyini eşidəndə bu fikrimizdən çəkindik. Yas içərisində olan Anara nə deyəcəkdik ki? Hərbi xidmətdən 2-3 ay sonra (Artıq Nigar xanım da vəfat etmişdi) Anar müəllimə məktub yazdım. 23

azərbaycanlının arzusundan, bu arzudan çəkinməyimizin səbəbindən yazdım ona. Rəsul müəllimin poeziyasına olan vurgunluğumdan söz açdım məktubumda.

...Sonralar Anar müəllim “Sizsiz” povestində mənim həmin məktubumu da çap etmişdi.

Rəsul Rza ilə atamın dostluq münasibəti Rəsul müəllimin vəfatına qədər davam edib. Azərbaycan tarixində önəmli yeri olan bu ailə ilə atamın münasibəti Anarın simasında sonralar da davam etdi... Rəsul müəllimin vəfatından sonra Anar müəllim dəfələrlə Neftçalaya gəlib.

“Beynəlxalq Rəsul Rza mükafatı” təsis olunanda, həmin mükafata ilk layiq görülənlərdən biri atam oldu. Bu mükafat, adətən Bakıda, Yazıçılar Birliyində təqdim edilir. Amma Anar müəllimin istəyi ilə, bu qiymətli mükafatı atama Neftçalada təqdim etdilər. Bu münasıbətlə Anar, Fikrət Qoca, Fikrət Sadıq, Akif Rəfiyev Neftçalaya gəldilər. Neftçalada, atamın yerlilərinin iştirakı ilə unudulmaz, ədəbiyyat ovqatlı bir təqdimat mərasimi keçirildi. Sonra evimizə gəldi, ailə izvlərimizlə birlikdə çay sifrəsinin ətrafında ilk dəfə, – 40 il əvvəl atası ilə, Əli Kərimlə, Mikayıl Rzaquluzadə, Mirmehdi Seyidzadə, Qabil, Ənvər Əlibəyli, Nəbi Xəzri, Əliaga Kürçaylı ilə bizdə olduğu o unudulmaz günü xatırladı. Fotoaparatını bacım oğluna verdi, ailə üzvlərimizlə çoxlu şəkil çəkdirdi... Ümumiyyətlə, Anar müəllim şad günlərimizdə də, ağır zamanlarımızda da həmişə atamın yanında olub. Həmişə də yaxın dostları ilə gələrdi: Qabillə, Vaqif Səmədoğlu, Fikrət Qoca, Ramiz Rövşən, Ramiz Həsənoğlu, Akif Rəfiyev, Oqtay Əfəndiyevlə... Atamın Neftçalada keçirilmiş 75, 80 illik yubileylərində iştirak edib. Atamın 80 illik yubileyində atamın haqqında yazdığı məqaləsini “Ədəbiyyat qəzeti”ndə dərc etdirdi.

2006-cı ilin aprelində anam vəfat edəndə iki dəfə məclisinə gəldi.

... Atam vəfat etdiyi günün səhərisi qapımızda dayanan maşından Anar müəllimin düşdüyünü görəndə qəhərlənmişdim. Atamın vəfatı ilə həyatımın böyük bir mərhələsi sona yetmişdi. Elə bir mərhələ ki, orada Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rüstəm, Süleyman Rəhimov, Mehdi Hüseyn... atamla ünsiyyətdə olmuş, indi həyatda olmayan insanlar var idi. Həmin vaxt Heminqueyin bir sözü qeyri-ixtiyarı yadıma düşmüşdü: “Atanız vəfat edəndə Allaha dua edin ki, atanızın dostları, onu tanıyanlar çox yaşasınlar. Cünki onlar yaşadıqca sizin də atanız yaşayacaq”. Hüzür məclisinəə atamın dostları, atama hörmət bəsləyən insanlar gəlirdilər: Nəriman Həsənzadə, Vasim Məmmədəliyev, Qəzənfər Paşayev, Misir Mərdanov, Ramiz Rövşən, Fikrət Qoca, Musa Yaqub, Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Nizaməddin Şəmsizadə... Anar müəllimlə çadıra keçdik... Ramiz Həsənoğlu və Nazim İbrahimov da onunla birlikdə idilər. Kədərli idi... Atam haqqında danışırdı... Atamın arxivi ilə maraqlandı. O, atamın arxivi ilə tanış idi, nə qədər qiymətli arxiv olduğunu bilirdi. Elə təkcə Rəsul Rza, onun ailəsi haqqında atamın arxivində nə qədər nadir sənədlər var idi: Rəsul Rza ilə, Nigar xanımla, Rəsul Rzanın anası

Məryəm xanımla, dayısı Məmmədhüseynlə bağlı nadir sənədlər. Məryəm xanıma məxsus şeirin 1920-ci ildə ərəb qrafikası ilə, qara qələmlə yazılmış əl yazısı, yenə də Rəsul müəllimin əl yazısı ilə yazdığı və ikinci nüsxəsi olmayan geniş həcmli avtobioqrafiyası, Rəsul müəllimin bu vaxta qədər heç yerdə çap olunmayan və öz əlilə yazdığı bir dördlüyü, Rəsul Rzanın nadir fotoşəkli, onun atama bağışladığı avtoqələmi, Rəsul Rzanın dayısı Məmmədhüseynin Anar müəllimin özündə belə olmayan şeirləri (sonralar Azər həmin şeirləri "Ədəbiyyat qəzeti"ndə çap elədi). Atamın arxivində ədəbiyyat tariximizin ən nadir sənədləri də qorunur: Abdulla Şaiqin, Əziz Şərifin, Qulam Məmmədlinin, Əbdülqasım Hüseynzadənin... XIX, XX əsrin ədəbi hadisələri olacaq nadir, kimsəyə bəlli olmayan nadir əlyazmaları qorunur atamın arxivində. Bəxtiyar Vahabzadənin əl yazısı ilə yazdığı 150-yə qədər məktubu... Mirzə İbrahimovun, Süleyman Rüstəmin, Səməd Vurğunun, Əli Vəliyevin, Mir Cəlalın, Süleyman Rəhimovun, İsa Muğannanın, İlyas Əfəndiyevin, Məmməd Arazın, Xəlil Rzanın, Xudu Məmmədovun, Ziya Bünyadovun, Məmməd Cəfərin, Yaşar Qarayevin... elm, ədəbiyyat tariximizin müəyyən mərhələsinə işıq tutacaq əlyazmaları...

... Ben Conson Şekspir haqqında deyirdi ki, O, bir əsr yox, bütün zamanlar üçündür. Eynilə bu sözü Rəsul Rza haqqında da demək olar. Rəsul Rzanın poeziyası 70-80 il bundan əvvəl də müasir poeziya idi. Bu gün də müasirdir... Onun ölməz poeziyası gələcək nəsillərin də oxuyacağı, ehtiyac duyacağı poeziya olacaq. Böyük şair bu haqqı öz müdrik, həmişəyaşar əsərləri ilə qazanıb:

## MƏNDƏ İXTİYAR OLSA

***Mən istəyirəm:***
***Buludlar ağlasın,***
***Uşaqlar ağlamasın,***
***Analı, ya anasız.***
***Mən istəyirəm:***
***güllər açılsın,***
***güllələr açılmasın:***
***amanlı, ya amansız.***
***Mən istəyirəm:***
***qapılar qapansın***
***soyuq olanda hava.***
***Gözlər qapanmasın,***
***sözlər qapanmasın.***
***Mən istəyirəm:***
***yanğınlar sönsün,***
***ümidlər sönməsin.***
***Meyvələr dəysin öz fəslində.***
***Ürəklərə söz dəyməsin.***

***Bəhərdən budaqlar əyilsin,***
***İnsan başını əyməsin;***
***xəcalətdən, ya gücsüzlükdən.***
***Axsın bulaqlar göz yaşı kimi,***
***torpağın üzərində.***
***Göz yaşı bulaq kimi axmasın***
***dünyanın heç bir yerində,***
***hər şey insana baxsın.***
***İnsan ələ baxmasın.***
***Gecələr ulduzlar oyaq olsun.***
***İnsanlar yatıb dincəlsin:***
***qüvvət toplasın sabahın***
***xeyirli işlərinə.***
***Açsın gözlərini***
***gələcəyin ümidli səhərinə.***
***Mən istəyirəm:***
***sevinc, səadət bol olsun.***
***Ürəkdən-ürəyə,***
***ölkədən-ölkəyə***
***açıq yol olsun.***

Rəsul Rza bizim evdə sonuncu dəfə 1977-ci ilin 17 aprelində olub. Fikrət Qoca, Xəlil Rza Ulutürk və yaxın qohumu – televiziyanın səs rejissoru Fikrət Ağazadə ilə birlikdə gəlib. O günün təfsilatı haqqında yazmayacağam. Cünki həmin gün mən evdə olmamışam... Atamın arxivində atama məxsus bir neçə xatirə dəftəri var. O xatirə dəftərlərinə zaman-zaman evimizdə qonaq olmuş görkəmlı, indi artıq əfsanəyə çevrilmiş insanlar öz ürək sözlərini yazıblar. Bizim evdə sonuncu dəfə olarkən Rəsul Rza atamın ağ üzlü xatirə dəftərinə bu sözləri yazıb:

“Şeirə sədaqət böyük ürəkli insanın zəngin mənəviyyatından xəbər verir”.

Bütün zamanların böyük şairi Rəsul Rza da mənim yadımda elə, zəngin mənəviyyata malik böyük ürəkli insan kimi qalıb.

***Etibar ƏBİLOV***

***Neftçala***



## ♦Kitablar, rəylər




# «POEZİYAMIZ XX YÜZİLLİKDƏ»

Safurə Quliyeva müasir ədəbi prosesdə poeziya tədqiqatçısı kimi tanınır. Uzun illərdir Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda çalışır, elmlər namizədidir. Amma onun keçən il nəşr olunmuş «Poeziyamız XX yüzillikdə» məqalələr toplusu ilə tanış olandan sonra fikirləşirsən ki, az qala bir əsrin poeziya tarixini tədqiq edən bir alim niyə indiyə kimi doktorluq dissertasiyası müdafiə etməyib? Mərhum deməyə dilimiz gəlmədiyi görkəmli ədəbiyyatşünas Şirindil Alışanlı yazır ki: «Poeziya tədqiqatçısı üçün vacib olan yaradıcılıq keyfiyyətləri onun ilk yazılarından ustad ədəbiyyatşünaslarımızın diqqətində olmuşdur. Ümumi nəzəri hazırlıqla poetik mətni duymaq fəhmi, poetik düşüncə tipi ilə tarixi-ictimai gerçəkliyin kəsişən məqamlarını görmək istedadı ona Mikayıl Müşfiq haqqında dissertasiya yazmaq səlahiyyəti qazandırmışdır».

Hər bir tənqidçi və ədəbiyyatşünasın sevdiyi, bütün yaradıcılığı boyu tədqiq və təbliğ etdiyi bir şair olur, o, nədən yazırsa-yazsın, həmin şairin yaradıcılığı həmişə onun diqqət mərkəzindədir. Məsələn, Bəxtiyar Vahabzadə Səməd Vurğunun, Şamil Salmanov Mikayıl Rəfilinin, Arif Ablullazadə Rəsul Rzanın, Atif Zeynallı Süleyman Rüstəmin, Qurban Bayramov Qasım Qasımzadənin, Qəzənfər Paşayev Hüseyn Kürdoğlunun, Cavanşir Yusifli Əli Kərimin, İadə Musayeva Vaqif Səmədoğlunun, Vaqif Yusifli Musa Yaqubun, Məhərrəm Qasımlı Məstan Günərin yaradıcılığına məqalələr, monoqrafiyalar, dissertasiyalar həsr etmişlər. Burada Gülhüseyn Hüseynoğlunun Mikayıl Müşfiq poeziyasına, onun əsərlərinin nəşri və təbliğinə həsr etdiyi bütöv bir alim-tədqiqatçı ömrünü necə unuda bilərik? Mikayıl Müşfiq otuz ildən sonra yenidən ədəbiyyata qayıtdı, Gülhüseyn Hüseynoğlu da Sibir sürgünündən qayıtdı və iki həsrətli bir-birinə qovuşdu. Gülhüseyn müəllimin namizədlik dissertasiyası da Müşfiq yaradıcılığından oldu, sonralar o, Müşfiq haqqında tədqiqatlarını davam etdirdi. Onun Müşfiqə sevgisi o qədər hissiyyatlı idi ki, kimsə bu mövzuda bir məqalə yazırdısa, deyilənə görə, bəyənmirmiş. Amma Safurə xanımın Müşfiq sənətkarlığı ilə bağlı monoqrafiyasını diqqətlə oxuyur və bəyənir. Beləliklə, Safurə Quliyeva bir müşfiqşünas kimi tanınır. Yenə Şirindil Alışanlıya müraciət edirəm: «O,

şeiri təhlil edərkən onu milli estetik fikir daşıyıcısı kimi hədəf seçir. O, poeziyanı canlı bir varlıq kimi, konkret bir dövrün, real mühitin yetirməsi kimi təqdim edir. M.Müşfiq poeziyası Safurə xanımın təhlillərində yeni poetik sistemin tərkibi, göstəricisi kimi təqdim olunur. Müəllif və mühit kateqoriyalarının obyektiv izahı M.Müşfiq şeirinin alt qatlarını «görməyə» xidmət edir».

«Müşfiqin lirikası sənətkarlıq baxımından milli poeziyamızın həqiqətən, orijinal və qiymətli bir irsidir» – həm öz monoqrafiyasında, həm də Müşfiqə həsr etdiyi ayrı-ayrı məqalələrində həmin fikrin izahları ilə rastlaşırıq. Safurə xanım Müşfiqin şair portretini yaradır – bu portretdə Müşfiq şeirimizin poetikasına yeniliklər gətirən novator bir şair kimi təqdim olunur. Müşfiq yaradıcılığından söz açan müəlliflərin əksəriyyəti daha çox şairin şeirlərini ideya-məzmun baxımından təhlil etmişlər, amma Safurə xanım öz monoqrafiyasında şairin poeziyasını sanki bənd-bənd, şeir-şeir poetika prinsipləri ilə də izah edir. Göstərir ki, Müşfiq cəmi on illik yaradıcılığında şeirin bütün vəznlərində, forma və strukturunda yeni bir səhifə açmışdır. Safurə xanımın «Müşfiq: Mühiti və sənəti» məqaləsində oxuyuruq: «Cəsarətlə demək olar ki, Müşfiq artıq otuzuncu illərin əvvəllərində zamanın şeir vəzni problemini əməli cəhətdən həll edib, gözəl lirik nümunələri ilə öz qərarını vermişdi. Bir qədər sonra tar üçün deyəcəyi «mən səndə istənən havanı çala bilərəm» lirik nidalarını doğma heca vəznində əməli iş ilə sübuta yetirmişdi».

Safurə xanımın məqalələrində bizi daha çox maraqlandıran otuzuncu illərdə Müşfiqə – onun şeirlərinə, poemalarıa münasibət məsələsidir. Yaşıdları ilə müqayisədə heç bir şairin yaradıcılığı Müşfiqdə olduğu qədər diqqəti cəlb etməmişdir. Müşfiqin yaradıcılığına tənqidin müsbət mülahizələri səslənsə də (Əli Nazim, Məmməd Arif, Mehdi Hüseyn, Mikayıl Rəfili) elə bu müsbət fikirlərlə yanaşı, tənqidlərdən də yaxa qurtarmamışdır. Amma ən doğru münasibəti biz Əli Nazimin məqaləsində görürük: «Gənc şair Mikayıl Müşfiq böyük bədii enerji və qabiliyyəti ilə fərqlənir. Müşfiq türk klassik poeziyasını bütün gənc şairlərdən artıq öyrənməklə, inqilabi romantika poeziyası yaramağa çalışır. Onun ən yaxşı şeirləri bu yüksəklik, pafos və xülyaçılıqla canlanmışdır…Müşfiq sosializm quruluşunu səmimiyyətlə və doğruluqla izləyib, öz əsərlərində onu əks etdirməklə mazi ilə olan ideya əlaqələrini qəti surətdə və həmişəlik olaraq kəsmişdir». Bu sırada o illərdə Məmməd Arifin «Lirikadan eposa» və «Müşfiqin poemaları» məqalələrinin də adlarını çəkmək olar. Ancaq bu müsbət mülahizələrin əks olunduğu yazıların sayı Müşfiqi haqsız yerə tənqid edənlərin sayından çox azdır və Safurə xanım otuzuncu illərin antimüşfiqçilərini bircə-bircə bizə tanıdır. Kimdir onlar? Zəngili adlı birisi («Müşfiq: «Məni də alınız uçayım dağlara» – deyə dağlara doğru uçmaq istəyir. "Onun dağları və küləkləri dumanlıdır"), Ə.Süleymanzadə, Q.Cəfərzadə və A.Kazım ("Müşfiq zəhmətkeş pulu ilə dövlət darülfünununda oxuyub, zəhmətkeş gənclərin dimağını öz əksinqilabi yazıları ilə zəhərləməyə çalışır"), Əli Mirzə («Müşfiq müsavat quyruğudurmu, müsavatmıdır? Müsavat quyruqçuluğu və müsavatçılıq inqilaba düşmənçilikdir»), H.Ə. adlı birisi ("Müşfiq bir çox yazılarında xırda burjua nöqteyi-nəzərinə qapılır, məsələlərin həllinə meşşancasına əlaqə bəsləyir. Artıq Əhməd Cavadın ikiüzlülüyünü, Müşfiqin sapqınlıq və tərəddüdlərini son nəfəsinə qədər

aşkara çıxarmaq vaxtı çatmışdır”), S.Şamilov («Müşfiq nə üçün Səməndər kimi əfsanəvi bir quş növü ilə maraqlanır, ancaq bizim sovet quruluşu ilə maraqlanmır»). Safurə xanım Müşfiqə, onun yaradıcılığına olan bu qərəzli münasibətin səbəblərini həm o dövrün siyasi-ideoloji faktorları ilə izah edir, həm də onun böyük istedadının qarşısında gücsüz qalan istedadsızların düşmənçilik meyilləri ilə, ən başlıcası isə Hüseyn Cavidlə, Əhməd Cavadla dostluğu, onları ustad hesab etməsi ilə…

Safurə Quliyevanın bu kitabında biz, əsasən, tənqidin üç janrına müraciət edildiyini görürük: İcmal-oçerklər, portret oçerklər və problem məqalələr. Bu yazıların bir çoxu Ədəbiyyat tarixinin VII cildi üçün hazırlanıb. İcmal-oçerklərində Safurə xanım mümkün qədər statistik məlumat və informasiyalardan sərf-nəzər edir, əsas diqqətini haqqında söhbət açılan dövrün poeziyasında nəzərə çarpan aparıcı meyillərə yönəldir. Safurə xanım «1920-1930-cu illərdə poeziya» və «1940-1950-ci illərdə poeziya» icmal-oçerklərini məhz ayrı-ayrı şairlərin fərdi yaradıcılıq meyillərinin təsbiti ilə yanaşı, bu şairlərin bir nöqtədə birləşməsi, bədii düşüncə etibarilə bir axında diqqəti cəlb etməsini vurğulayır. Məsələn: «İyirminci illərin əvvəlində bədii yaradıcılığa yeni gənc qüvvələr gəlməkdə idi. Gənc şairlərdən S.Rüstəm, Ə.Nazim, Ə.Fövzi, M.Rəfili, M.Rahim və b.-nın şeirlərində hələlik ideya-mövzu dairəsi məhdud, sənətkarlıq keyfiyyəti xeyli aşağı idi. Cəmiyyətdəki dəyişiklikləri, yenilikləri tərənnümə çalışan bu gənc həvəskarlar yalnız bir neçə mövzu ətrafında nəzm quraşdıra bilirdilər: fəhlə-kəndli əməyi, inqilab, inqilab rəhbərləri, qadın azadlığı, din əleyhinə və s.» Daha sonra müəllif adı çəkilən bu gənc şairlərin hər birinin şeirlərindən ayrıca söhbət açır. Biz Əli Nazimi əsasən o dövrün ən fəal bir tənqidçisi kimi tanıyırıq, amma onun şeir yaradıcılığı da olub və müəllif onun «yeni şeiri» yaratmağa səsləyən şeirlərindən söz açır. Yeri gəlmişkən qeyd edək ki, keçən əsrin iyirminci-otuzuncu illərinin poeziyasından söz açan müəlliflər Ə.Fövzi, Ə.Nazim, S.Mənsur, A.Faruq, H.Natiq, H.K.Sanılı kimi şairlərin yaradıcılığına çox az müraciət etmişlər, Safurə xanım bu boşluğu aradan qaldırıb. Əlbəttə, iyirminci-otuzuncu illərin poeziyasında önəmli rol oynayan S.Vurğunun, M.Müşfiqin, S.Rüstəmin, R.Rzanın, M.Rahimin, O.Sarıvəllinin, M.Dilbazinin, N.Rəfibəylinin, B.Qasımzadənin, Ə.Cəmilin, Z.Xəlilin şeirləri bədii fikir tariximizə əbədi həkk olundu. S.Quliyeva «1940-1950-ci illərin poeziyası» icmal-oçerkində sonrakı iyirmi ilin poeziya mənzərəsini canlandırır və hər iki icmal-oçerki ümumilikdə qiymətləndirməli olsaq, ədəbiyyat tarixçiliyi ənənəsinin izlərini görə bilərik.

Kitabda, heç şübhəsiz, portret-oçerklər daha çox maraq doğurur. O mənada ki, S.Quliyevanın ayrı-ayrı sənətkarlara həsr etdiyi bu portret yazılar ondan əvvəl və sonra digər müəlliflər tərəfindən qələmə alınıb, deməli, Safurə Quliyevanın portretlərində hansı yeniliklərlə üzləşə bilərik sualı meydana çıxır. Onun Əliağa Vahid, Nigar Rəfibəyli və Qasım Qasımzadəyə həsr etdiyi portret-oçerkləri nəzərdən keçirsək, həmin suala belə cavab verərik: şairlərin ədəbiyyat tarixində yeri, mövqeyi, özünəməxsus poetik aləmi, dünəndə yaşayıb bu gün üçün müasirliyi obyektiv elmi prinsiplərlə işıqlandırılıb. Məsələn, həmişə Vahiddən yazanda təbii ki, qəzəl yada düşüb, amma onun qəzəllərində «ümumxalq danışıq dilində işlənən söz və ifadələrin şeirdə yeni məzmun kəsb etdiyi, yaxud klassik ənənədən tamamitlə fərqli

nikbin təbiətli bir Aşiq obrazın canlanması (ah-nalə etməyən, real duyğularla yaşayan Aşiq) gerçəkləşir. Nigar Rəfibəyli poeziyası isə dünyaya QADIN BAXIŞI və ANA ÜRƏYİ obrazları ilə təhlil olunur:

***Mən tanıdığım və tanımadığım***
***Adamların ağlamağına dözə bilmirəm,***
***Həsrət ağrısına,***
***Ayrılıq dağına dözə bilmirəm.***
***Adı-sanı qaralanmış***
***Nakamların qismətinə dözə bilmirəm.***
***Balaca balalar,***
***Yer üzünün bütün nemətlərini***
***Sizə paylaya bileydim.***
***Zamanın əliylə sizə, yer üzündəki***
***bütün insan balalarına***
***Əbədi səadət fərmanı yazdıra bileydim.***

Qasım Qasımzadəyə həsr olunmuş yazılarda da təzəlik var. Belə ki, müqtədir tənqidçi Yaşar Qarayevdən sonra Qasım Qasımzadəni heç bir müəllif təbiət şairi kimi təhlil etməyib. Halbuki, onun «peyzaj lirikasında böyük ustalıqla çəkilən mənzərələr», «doğma yurdun xırda böcəyindən, otundan, çiçəyindən tutmuş uca dağlarınadək» canlanan lövhələr görərsən. «Şuşa Qarabağın zümrüd tacıdır» yazmışdı Q.Qasımzadə:

***Ara, axtar hər guşəni,***
***Gəz çəməni, gəz meşəni.***
***Öpüb ayılt bənövşəni,***
***Təbiətin qız vaxtıdır.***

Müəllifin «Bədii yaradıcılıqda müəllif», «Səməd Vurğun şeirinin ahəngi», «Lirikada xarakter və konflikt» məqalələri sırf nəzəri planda yazılmışdır. Bu yazılarda o, yaradıcı şəxsin duyğu və düşüncələrinin sənətkarlıqla necə ifadə olunmasına diqqət yetirir. Onun «Əhməd Cavadın poeziyası», «Əhməd Cavad və türk poeziyası», «Cəfər Cabbarlının poeziyası», «Süleyman Rüstəm». «Atif Zeynallının poeziyası», «Mirvarid Dilbazi», «Nəğməyə dönmüş illər – İslam Səfərli», «Zahid Xəlil» yazıları Azərbaycan poeziyasının görkəmli şəxsiyyətlərinə həsr edilib və bu yazılarda təkcə elmi baxış, yaradıcılığın ardıcıl – mərhələlər üzrə izlənilməsi deyil, həm də bu sənətkarların müasir poeziyamıza təsiri məsələsi də unudulmur.

Safurə Quliyevanın «Poeziyada istiqlalımız XX yüzilliyin sonunda» məqaləsi formaca icmal xarakterli, amma məzmunca doxsanıncı illərin poeziyasında gedən prosesləri əhatə edən bir yazıdır. Hiss olunur ki, S.Quliyeva müasir poeziyanı da bütün aspektləri ilə duya və mənalandıra bilir. Beləliklə, həmişə imzasına hörmət etdiyimiz bir ədəbiyyatşünasın kitabını oxuyub sona çatdırırıq. Amma Safurə xanımın müasir poeziyamızla bağlı söhbəti hələ bitməyib.



***Vaqif YUSİFLİ***







**ASİF RÜSTƏMLİ**
**“CÜMHURİYYƏT MƏFKURƏSİ”**
**BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI, 2024**

Kitab müəllifin son 10 ildə beynəlxalq elmi sistemlərə daxil olan nüfuzlu jurnallarda, dövri mətbuat orqanlarında, məcmuələrdə nəşr edilmiş elmi və elmi-publisistik məqalələr toplusudur. Arxiv materialları, məxfi sənədlər əsasında yazılmış əsərlərin əksəriyyəti faktoloji yeniliyi, təhlil və dəyərləndirmə fərqliliyi ilə seçilir.

Kitabın elmi redaktoru və “Mənbəşünas hünəri” adlı ön sözünün müəllifi akademik İsa Həbibbəylidir.




**ELNARƏ QARAGÖZOVA**
**“YUSİF SƏMƏDOĞLUNUN**
**HƏYAT VƏ YARADICILIĞI”**
**BAKI, “XAN” NƏŞRİYYATI, 2024**

Monoqrafiya Azərbaycan ədəbiyyatının klassiki Yusif Səmədoğlunun həyat və yaradıcılığına həsr edilib. “Yusif Səmədoğlunun həyatı”, “Yusif Səmədoğlu yaradıcılığı və Azərbaycan nəsri”, “Yusif Səmədoğlunun hekayə yaradıcılığı”, “Yusif Səmədoğlunun romanlarında arxetipik məqamlar”, “Yusif Səmədoğlunun yaradıcılığı ədəbi tənqiddə” bölmələrindən ibarət monoqrafiya ədibin həyat və yaradıcılığına yeni bir baxışıdır.

Kitab “Sənətkarın elmi pasportu seriyası”nın 48-ci nəşridir.




**SALİDƏ ŞƏRİFOVA**
**“LEYLA ƏLİYEVANIN POETİK DÜNYASI”**
**BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI, 2024**

Monoqrafiyada Leyla Əliyevanın şeirlərinin rus dilindən Azərbaycan, türk, belarus və ukrayna dillərinə, həmçinin Şərq və Qərb dillərinə tərcümə edilərək təqdim olunmasının əsas səbəblərinə aydınlıq gətirilir. Şeirlərə dünya dillərində mahnılar bəstələnməsi tədqiq edilir. Leyla Əliyevanın poeziyasının qaynaqlarına nəzər salınır. Şairin poetik nümunələrinin mövzu müxtəlifliyinə və rəngarəngliyinə aydınlıq gətirilir.

Kitab “Sənətkarın elmi pasportu seriyası”nın 51-ci nəşridir.




**ZEMFİRA MƏHƏRRƏMLİ**
**“ÇOX KİÇİKDİR BU DÜNYA...”**
**BAKI, “VEKTOR” BEYNƏLXALQ**
**NƏŞRLƏR EVİ, 2024**

Kitabda müəllifin müxtəlif illərdə yazdığı hekayələri və povesti toplanıb. Hekayələr “Həyat hekayələri”, “Qarabağ hekayələri”, “Uşaq hekayələri” adlı bölmələrdə təqdim olunur. “Qırxqızın qırxbirincisi” sənədli povesti Qarabağ müharibəsində Səma və Arifin timsalında ailələrin faciəsini göstərir.

***REDAKSİYA HEYƏTİ:***
**Ağasəfa, Afaq Məsud, Azad Yaşar, Asim Yadigar, Elçin, Emin Piri, Elşad Barat, Əli Əmirli, Firuzə Məmmədli, Firuz Mustafa, Firudin Qurbansoy, Məmməd Oruc, Mustafa Çəmənli, Nərgiz Cabbarlı, Novruz Nəcəfoğlu, Paşa Qəlbinur, Rafael Hüseynov, Rəfail Tağızadə, Rəhilə Qeybullayeva, Rüstəm Kamal, Seyran Səxavət, Südabə Ağabalayeva, Vahid Əziz, Vaqif Yusifli, Vaqif Bəhmənli, Vilayət Quliyev, Vüsal Nuru**